SARVAN ŞAMİLOĞLU
SURXAY ƏLİBƏYLİ

# HÜSEYNBALA MİRƏLƏMOV YARADICILIĞINDA QARABAĞ AĞRILARI

"Şuşa" nəşriyyatı
BAKI-2004

S 06 (2004)

**Redaktorlar: Çingiz TOFİQOGLU,**
**Əli MAHMUD**

" Qarabağ" qəzetinin xüsusi buraxılışı

**SARVAN ŞAMİLoglu, Surxay Əlibəyli.** Hüseyinbala Mirələmov yaradıcılığında Qarabağ ağrıları. Bakı, "Şuşa" nəşriyyatı, 2004-208 səh.

**051(L-041)**

**S ______________________Sifarişlə**

**051-06(0145) 2004**

**"Şuşa" nəşriyyatı**

**Bakı - 2004**

**Güllələnmiş Heykəllərin fəryadı**

Hüseynbala MİRƏLƏMOV:

**"Qarabağ mövzusunda yazılan əsərlər bədii cəhətdən yüksək, bəşəri duyğular baxımından zəngin olmalıdır!"**

# İLHAM ƏLİYEV:
# “AZƏRBAYCAN BİR QARIŞ TORPAĞINI DA DÜŞMƏN TAPDAĞINDA QOYMAYACAĞIQ, QARABAĞ TEZLİKLƏ AZAD OLUNACAQDIR!”

## ÖN SÖZ

Mənə təqdim olunan toplunu vərəqlədikcə gözlərim önündə son dərəcə xeyirxah, nəcib bir insan siması canlandı. Üzünü görmədiyim, yalnız əsərləri vasitəsi ilə tanış olduğum Hüseynbala müəllim haqqında, onun çağdaş ədəbiyyatımıza gətirdiyi yeni obrazlar haqqında mülahizələrimi söyləmeyi özümə borc bildim.

Hər şeydən əvvəl istedadlı qələm sahibləri Sarvan Şamiloğlu və Surxay Əlibəylinin gördükləri bu nəcib işi təqdir edir və yüksək qiymətləndirirəm. Onların tərtib və mənə təqdim etdikləri bu əsəri Hüseynbala müəllimin yaradıcılığına, eləcə də onun şəxsiyyətinə olan dərin məhəbbətin təzahürü hesab edirəm.

Topluda müəllif haqqında müxtəlif zamanlarda söylənmiş fikir və mülahizələr, onun əsərlərinə verilən qiymət, yazarların gəldikləri qənaətlər öz əksini tapmışdır. Təbii ki, söz sərrafı, sevimli şairimiz Bəxtiyar Vahabzadə, tanınmış yazıçı-publisist İmamverdi İsmayılov, şair İlyas Tapdıq, şair Əli Mahmud, jurnalist Çingiz İsmayılov və adlarını çəkə bilmədiyim başqa yazarlarımızdan sonra Hüseynbala müəllim haqqında söz demək mənə olduqca çətindir. Ancaq bu çətinliyə baxmayaraq, son anda bu yazarlardan üzr istəyib, Hüseynbala müəllim haqqında öz mülahizələrimi söyləmək qərarına gəldim.

Yazıçı haqqında ilk müfəssəl məlumatı “Qarabağ” qəzetinin səhifələrində oxumuşam. “Ən yaxşı Qarabağlı” rubikası ilə verilən müsahibədə onun yaradıcılığının ana xəttini Qarabağ dərdi, Qarabag ağrıları təşkil etdiyini öyrəndim. Bundan sonra onun bir-birinin ardınca qələmə aldığı “Xəcalət” povestini, “Güllələnmiş heykəllərin fəryadı” essesini, “Vicdanın hökmü” pyesini diqqətlə oxudum və “Ən yaxşı Qarabağlı” deyiminin nə qədər yerində olduğunun mahiyyətinə daha dərindən vardım. Deməli, Qarabağ, Göyçə, Zəngəzur, Ağır dərdlərini ürəyində yaşadan, erməni tapdağında qalmış torpaqlarımızın azad olunması uğrunda xalqı sözün qüdrəti ilə səfərbəyliyə çağıran bir milyondan çox qaçqının, köçkünün dərdini, faciəsini özününkü hesab edən hər bir yazıçı, hər bir vətəndaş sözünü geniş mə”nasında əsl azərbaycanlı, əsl qarabağlı, əsl göyçəli, əsl zəngəzurludu. Bu ziyalı, bu yazıçı, bu xeyirxah insan Lerikdə doğulmuş, Lənkəranda boya-başa çatmış Hüseynbala Mirələmovdur.

Hüseynbala müəllim kimdir? Onun ədəbiyyatımıza gətirdiyi yenilik nədir?

Bu suallar məni zaman-zaman düşündürdü. Və yalnız cavabı da onun öz əsərlərində tapdım: Hüseynbala müəllim, sözün həqiqi mə"nasında, **BÖYÜK VƏTƏNDAŞDIR!** Hüseynbala müəllim, Pənahəli xanların, Vaqiflərin, Zakirlərin, Natəvan və Üzeyirlərin Qarabağda dolaşan ruhlarıdır! Hüseynbala müəllim çiyinlərində bir elin dərdini gəzdirən **ANTEYDİR!** Hüseynbala müəllim Məkkəsi, ziyarətgahı ŞUŞA olan bir **ZƏVVARDIR!** Onun ədəbiyyatı aləminə gətirdiyi yenilik isə özünəməxsus spesifik xüsusiyətləri ilə seçilən yeni-yeni obrazlardır.

Qarabağ mövzusu bu günün olduğu kimi, gələcəyin də mövzusudur. Zaman keçdikcə yaddaşlar kütləşəcək, hadisələr unudulacaq. Lakin bu gün yazdıqlarımız onda da öz aktuallığın itirmiyəcək. Ona görə də bu günün yazarları həm də gələcəyi düşünməli, Qarabağ hadisələrini bu günün reallığına söykənərək yazmalıdırlar. Bu baxımdan H.Mirələmovun "Xəcalət" povestini günün tələblərinə cavab verən və gələcəyə vəsiqəsi olan aktual bir əsər hesab etmək olar. Yazışı-publisist İmamverdi İsmayılov Hüseynbala müəllim haqqında yazdığı məqaləsində çox gözəl deyib: "Oxucusu olmayan yazıçı bədbəxtdir...Əslində, yazıçını yazıçı edən, əyilməz, yenilməz şəxsiyyətə çevirən iste"dadı, qələmi ilə yanaşı, həm də oxucu məhəbbətidir. Deyim ki, bu sarıdan Hüseyinbala müəllimin bəxti gətirib..."

Hüseynbala müəllimin boyuna biçilmiş bu deyimləri aforizim kimi də qəbul etmək olar. Doğurdan da, H.Mirələmov bu cəhətdən bəxtəvər sənətkardır. Onu oxucusuna sevdirən təkcə Qarabağ mövzusunda yazması deyil, həm də yüksək professionallığı, iste"dadı, intellektual səviyyəsi, nəcibliyi və insanpərvərliyidir.

Ədibin mövzu dairəsi geniş olsa da, "Qarabağ mövzusu" onun yaradıcılığında qırmızı xətt kimi keçir. Xüsusilə, bu mövzu son zamanlar yazdığı "Xəcalət" povestində daha qabarıq və dolğun şəkildə öz əksini tapmışdır.

"Xəcalət" povesti son dərəcə aktual bir mövzuya-Xocalı faciəsinə həsr olunmuşdur. Əsərin mövzusu real həyat hadisələrində götürülmüşdür. Müəllif bu faciənin şəxsən iştirakçısı olduğu üçün hadisələri geniş təfərrüatla, təbii şəkildə, real zəmində qələmə ala bilmişdir. Bu işdə ona zəngin həyat təcrübəsi və yaradıcılıq iste"dadı yardımçı olmuşdur. Təbiilik və səmimilik onun yaradıcılığının əsas şərtlərindən biridir. Bu keyfiyyətlər təxəyyüldən uzaqlaşmaq üçün ona geniş imkan verir. O, qəhrəmanın həyatın bərkinə-boşuna salmaqla tərbiyə etmək istəmir. Onun qəhrəmanı Vətən dünyanın ən dilbər guşəsi olan Azərbaycanda boya-başa çatıb, onun mühitində tərbiyə almış, bərkimiş, təbiətində çiçək kövrəkliyi ilə qaya sərtiliyini birləşdirən, tar səsindən gözləri dolan, güllə səsinə sinəsini açan milyonlarla azəri övladlarından biridir. O, bülbül səsinə sevdiyi

qədər, qartalın qıy vurmasını da sevir. Cüyürün məzlum baxışlarında kövrəldiyi kimi, pələngin nə"rəsindən də qürurlanır. Onun qəhrəmanı bərk ayaqda özünü itirməyin, fiziki gücü tükəndikdə mə"nəvi təpəri, iradəsinin gücü ilə məqsədinə sürünməklə də olsa, çatmağa çalışan bir insandır. O, ideal deyil və müəllif onu fetişləşdirməyə də cəhd göstərmir. O, qeyri-adi vəziyyətdə qeyri-adi hərəkətlər də etmir. Anasının fəlakətini mərdliklə qarşılayır, dar ayaqda özünü itirmir, meşədə yaralanıb, gücdən, taqətdən düşdüyü zman canavarla qarşılaşdıqda da ölümdən qorxmur. O, hətta canavara yem olmağı erməni yaraqlılarına əsir düşməkdən üstün tutur. O da Cek Londonun ("Həyat eşqi") qəhrımanı kimi həyat uğrunda mübarizə aparır. Lakin Cek Londonun "canavarı" taqətdən düşüb, ömrünün son anlarını yaşadığı halda, bu canavar özünü gümrah hiss edən, istəsə qarşısındakı qismətini bir anda parçalamağa qadir olan bir vəhşidir. Bu canavar öz şikarını parçalamır.Onu tə"qib etməkdən çox müşayiət edir, yol göstərir və nəhayət, insanların erməni faşistləri tərəfindən güllləbaran edildikləri yerə gətirib çıxarır, cəsədləri bir-bir iyləyib, onların salamat qalıb-qalmamalarını müyyəyənləşdirməyə çalışır. Bu insanların hamısını öldürüldüyünü görən canavar qayanın üstünə qalxıb, tükürpədici bir səslə ulamağa başlayır. Bu ulamaq ulayışı ilə rəmzi ulamaqdır. Dünyanın ən qəddar yırtıcısı olan canavar belə, sanki üzünü Allaha tutub, vəhşilərin ən vəhşisi olan erməni faşistlərinin törətdiklərindən dəhşətə gəldiyini bildirmək istəyir.

Müəllifin tipik şəraitdə bu səhnəni yaratması, bəzən vəhşi heyvanların insanlardan rəhmdil olmasını verməyə çalışması bizə Məcnunun da xarırladır. Ancaq Məcnun əhatəsində olan insanların onu başa düşmədiklərinə görə vəhşi heyvanlara pənah aparırsa, Vətən dünyanın ən mənfur məxluqatı olan ermənilərin əlinə keçməsin deyə, canavara yem olmaq istəyir və bəlkə də, ona sığınır. Ədibin bu tapıntısı da uğurludur.

Yüz müsibətlə düşmən əhatəsində çıxmış Vətənin sonrakı taleyi də acınacaqlıdır. Və bəlkə də, qaçqınlıq həyatı onun üçün daha da əzablıdır. Vətənin keçirdiyi hisslər bir milyon qaçqının hissləridir. Yurd-yuvasından didərgin düşmüş insanların həyat tərzi, onların gündəlik məişət qayğıları əsərdə tam reallığ ilə öz əksini tapmışdır. Bu məsələlər elə məharətlə, doğmalıqla, həssaslıqla işıqlandırılmışdır ki, oxucu istər-istəməz müəlliflə birgə bu ömrü yaşamağa, o hissləri keçirməyə məcbur olur. Və son anda Hüseynbala müəllimin belə bir həyat keçirməsinə, onun qaçqınlarla birlikdə bütün məşəqqətlərə dözməsinə, mə"nəvi əzab çəkməsinə zərrə qədər də şübhə etmir.

Müəllif özünəməxsus müşahidə qabliyyəti ilə qaçqınların zəlalətini, onların faciəli məişətini, başqalarının ikrah və təhqirlə baxdıqları mühit və yaşayış tərzini bütün detalları ilə elə canlandırır ki, oxucu istər-istəməz vahiməyə düşür, belə bir həyatın mövcudluğuna inana bilmir, ona tərəddüdlə yanaşır və belə hesab edir ki, bu "otaqlardan" əgər otaq demək mümkünsə - birində də elə onun özü yaşayır. O, elə bu otaqdan da cəmiyyətin bu zümrələrinə həqarətlə baxanlara cavab verir, zamanın gərdişi ilə yazıqlaşmış, fəqirləşmiş insanların müdafiəsinə qalxır, bunu təkcə qaçqınların deyil, ümumilikdə bütün xalqın faciəsi hesab edir. Üzünü birinci olaraq öz xalqına, daha sonra isə dünya ictimaiyyətinə tutaraq ürəyində qövr eləyən minlərlə suala cavab almaq istəyir. Torpağının altı və üstü təbii sərvətlə, maddi ne"mətlərlə dolu olan elə bir məmləkətin vətəndaşları zər-ziba içərisində yaşamalı ikən zəlil günə qalıb yardilənçi həyat sürmələrinin səbəbini bilmək istəyir. Ancaq bu suallara cavab tapa bilmir, gücü heç nəyə çatmasa da, qeyzində hıçqırır. Bu hıçqırıq acizlikdən yox, qəhərdəndir, düşmənə olan qəzəb, nifrət və kindəndir. Bu göz yaşları fonunda müt"ilik yox, mübarizlik, çağırış, nida, hayqırıq dayanır. O, vətən oğullarını mübarizəyə səsləyir.

Fərqanə müasir ədəbiyyatımızda qaçqınlıq həyatı ilə bağlı spesifik xüsusiyətlərə malik müsbət qadın obrazıdır. O, ümumi cəhətdən ənənəvi müsbət qadın obrazlarına bənzəsə də, bəzi fərdi xüsusiyyətlərinə görə, onlardan fərqlənir. Müəllif öz ənənəsinə sadiq qalaraq onu da həyatda olduğu kimi təsvir etmiş və nəticədə boyasız, bəzəksiz, dolğun, müsbət qadın obrazı yaratmışdır. O, ailəsini səmimi məhəbbətlə sevən, ərinin şəxsiyyətinə dərin hörmət bəsləyən, onunla fəxr edən, onunla öyünən əsl Azərbaycan qızıdır. Adi vaxtlarda gecələr qorxusundan evdən bayıra çıxa bilməyən bu qadın iki körpəsini xilas etmək üçün gecənin zülmət qaranlığında bütün vahimələrə üstün gələrək kol-kos içərisində irəliləyir. Analıq hissi onu cəsur bir insana, fədakar qadına çevirir. Ölüm onu qorxutmur. Minlərlə azerbaycanlı qadın kimi onu qorxudan ölümdən də betər saydığı ismətinin əldən getməsidir. İsmətini qorumaq üçün o, təhlükəli anlarda ən münasib silah hesab etdiyi qıyığı (yorğan iynəsini) əlində hazır saxlayır.

Bakı mühiti, qaçqınlıq həyatı da Fərqanənin təbiətini dəyişdirə bilmir. O, bütün zamanlarda öz təmkinini qoruyub saxlayır, uşaqlarına ana, həyat yoldaşına isə mənəvi arxa olur.

Yadımdadır, Qarabağ hadisələrinin başlancığında Xankəndi Pedaqoji İnstitutunu tələbə qızları özləri ilə hərarətölçən (termometr) gəzdirərdilər. Onlar

bunu əsir düşmək təhlükəsi yarandıqda sındırıb civəsini udmaqla özlərini həlak etmək üçün edirdilər. Mən bu gün həmin tələbələrimin qarşısında baş əyirəm.

Əsərdə diqqəti cəlb edən xüsusiyyətlərdən biri də tarixi faktların düzgün verilməsi və şərhidir. Bu baxımdan əsəri həm də tarixi əsər heab etmək olr. Tarixi şəxsiyyətlər- Yeltisin, Volski, Nursultan Nazarbayev, "Batya" təxəllüsü ilə məşhur olan Polyaniçko, Ayaz Mütəllibov və başqaları olduğu kimi təsvir olunmuşdur. Müəllifin mərkəzdən gəlmiş və göndərilmiş emissarlara olan münasibəti, onların əyalət, daha doğrusu, müstəmələk hesab etdikləri Azərbaycanda özlərini ağa kimi aparmaları böyük məharət və zəngin həyat təcrübəsi ilə müşahidə olunur. Böyük keçmişi olan rus diplomatiyasında bol-bol bəhrələnmiş bu emissarların hər biri, başda Yeltisni özü olmaqla həm də dünyaya meydan oxuyan kəşfiyyat məktəbində yetişən ali diplomatlar idi. Bu meydanda "canavar-quzu" tənasübü hökm sürürdü.

Xoşagələn cəhət budur ki, müəllif hadisələri mübaliğəsiz, təfsirsiz, təbii şəkildə təsvir etmişdir. Onun nəzərindən heç nə yayınmamışdır. Hətta Yeltsinin ehtiyatsızlıq edib, "Batya" ya göz vurması, ikibaşlı danışması da müəllifin nəzərindən qaçmamışdır.

Müəllif Ayaz Mütəllibova olan münasibətində də obyektivliyi gözləmişdir. Özünün və ümumilikdə, xalqın düşdüyü bu ağır vəziyyət Ayaz Mütəllibovu narahat etsə də, vəziyyətdən çıxış yolu tapa bilmir, ümidini "Allaha təvəkül" ə bağlayır, vətənində vətənsiz olan prezident hadisələri seyr etməklə kifayətlənir və onu zamanın axarına buraxır. Müəllif bu səhnəni təsvir etməklə oxucunun diqqətini xalqın ümidgahı olan "Ağ atlı oğlan" a yönəltməyə çalışır. Bu siyasət canavarlarının qarşısında dura biləcək böyük qüdrət sahibi Heydər Əliyev arzulayır. Onun isə hələlik şəxsi həyatı və siyasi mövqeyi təhlükə altındadır. O, Qorbaçov və onun ətrafında toplaşmış bir qrup siyasət dələduzlarının məharətlə hördükləri torun kələfin açmağa çalışır.

Əsərdə Xocalı faciəsinin ertəso günündən etibarən Ağdama gətirilən cəsədlərlə bağlı məqamlar da real şəkildə təsvir edilmişdir. Bu sətirlərin müəllifi də həmin hadisənin canlı şahididir. Gözüyaşlı insanlrın öz əzizlərinin, qohumlarını meyidlərinin taparkən sevindiklərini mən də gözlərimlə görmüşəm. İllər ötsə də, bu faciəli anlar hərdən gözlərim önünə gəldikcə özümə yer tapa bilmirəm. O zamanlar silaha sarılıb, düşmən üzərinə getmədiyimə görə **XƏCALƏT** çəkirəm.

Povestdə epizodik də olsa, bir-iki erməni obrazı verilmişdir. Bu obrazları yaratmaqla müəllif mayası hiylə, kələk, mərdimzarlıq və paxıllıqla yoğrulmuş erməni millətinin müqəddəs heç nəyi olmadığını aşılamağa çalışmıdır.

H.Mirələmovun ürək yanğısı ilə qələmə aldığı bu və ya digər əsərlərində qoyulan məsələlər aktual olduğu qədər də həyatidir, vacibdir. Bu gün gəncliyin vətənpərvərlik ruhunda tərbiyəsinə böyük ehtiyac duyulduğu təzadlarda dolu olan bir məqamda belə bir əsərin ictimaiyətə təqdim olunması mühüm ədəbi hadisə hessb etmək olar. Hüseynbala müəllimin əsərləri bu gün gəncliyinə müraciət, gələck nəsilə isə  xitabdır. Bu əsərləri ilə o, sanki üzünü hər bir vətən övladına tutub deyir: "İllər ötəcək, zəbt olunmuş torpaqlarımız geri alınacaq.Bəlkə də, beynəlxalq təzyiq və başqa amillər nəticəsində yaralar qaysaq bağlayıb bitişəcək. Ancaq onun yeri dərin çapıq kimi həmişə, bütün tarix boyu görünəcək. Bu, Azərbaycan xalqı üçün dərs olmalıdır və gələcək nəsil bilməlidir ki, evimizin içində Allahın bizə bəla göndəriyi erməni icması boyda bir mina, barıt çəlləyi basdırılın. Və bunlar istənilən zaman partlaya bilər". **AYIQ OLUN!!!**

**Raqub KƏRİMOV,**

**Filologiya elimləri namizədi, dosent**

## “UMACAĞIM ÖZÜMÜZDƏNDİR”

“Qarabağ” qəzetinin 2003-cü ildə ilk qonağı Azərbaycan Qaz Emalı Zavodunun direktoru Hüseynbala Mirələmovdur.

**TANIŞLIQ ÜÇÜN:** Hüseynbala Fazil oğlu Mirələmov ixtisasca neftçi-mühəndisidir. Texnika elimləri namizədi, “Qızıl Qələm” mükafatı laureatıdır. Neft ssənayesinin inkişafındakı xidmətlərinə görə “Qırmızı Əmək Bayrağı” ordeni ilə təltif olunmuşdur. Son dörd ildə dalbadal MDB məkanı üzrə “İlin direktoru” müsabiqəsinin qalibi olmuş, adı 100 sənaye və elm xadimləri sırasında “Şərəf kitabı” na yazılmışdır. 2001-ci ildə Parisdə “Fransanın sənayesinə köməklik assosiyası”nın keçirdiyi müsabiqənin qızıl medalını almış, Ukrayna Respublikası “Qızıl Fortuna”, Beynəlxalq Reytinq Akademyasının “Yüksək əmək göstəricilərinə və Zaqafqaziya ölkələrində qaz emalı sahəsinin inkişafındakı xidmətlərinə görə” nominasiyanın dördüncü dərəcəli “Şərəf, Şöhrət, Əmək” Georgiyevski qızıl medalına və diplomuna layiq görülmüşdür.

Bakı şəhəri Xətai rayonundab1993-cü ildə Yeni Azərbaycan Partiyasının yaradıcılarından biridir. Qaradağ rayonunda YAP Siyasi Şurasının üzvü qaz e”malı zavodu partiya təşkilatının sədridir.

Orta məktəb illərində, hələ 14 yaşında olarkən “Bir tikə çörək” adlı hekayəsi mətbuatda çap olunmuşdur. “Tənha durna” (1986), “İnşaat fizikası”(1990), “Qaz kondensatları” (2000), “Qayada çiçək” (2001), “Karbohidrogen qazlarının e”malı texnologiyası” (2001), “Amalın işığında” (2002), “Xəcalət” (2002) kitablarının müəllifidir. Azərbaycan Yazıçıları və Jurnalistlər Birliklərinin üzvüdür.

2002-ci ildə “Xəcalət” povesti Azərbaycan Yazıçıları Birliyi Ədəbiyyatı Təbliğ Bürosunun milli-mənəvi yaddaşı qayıdış təbliğ edən və Qarabağ mövzusunda yazılan ən yaxşı bədii əsərləri üçün tə”sis etdiyi “Milli Yaddaş” birinci mükafatının almışdır.

- **Hüseynbala müəllim, 2002-ci ili necə xatırlayacaqsınız? Hansı əlamətdar, hansı unudulmaz günlər oldu? Hansı istəklərinizə çatmadınız?**
- Ötən il təkcəmənim yox, bütünlüklə Azərbaycan xalqının yaddaşına əsrin tikintisi adlandırılan Bakı-Tiblisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlini qoyulduğu il kimi yadda qalacaq. İqtisdiyyatımızın bütün sahələrində dinamik yüksəliş, kənd təsərrüfatında qazanılan uğurlar hamımızı sevindirdi.

Möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının müdürikliklə, uzaqgörənliklə yeritdiyi daxili və xarici siyasət sayəsində Azərbaycan bir dövlət kimi dünya arenasında öz yerini tutdu. Ermənistanı işğalçı bir ölkə kimi Avropa Şurasında ifşa edə bildik. Terrorizm kimi bəlaya qarşı qüdrətli və nüfuzlu ölkələrlə, xüsusilə, ABŞ kimi dövlətə eyni mövqedə dayandıq. Bu fonda qondarma “Dağlıq Qarabağ Respublikası”nın əsl terrorçuluq və separatizim yuvası olduğunu dünyaya bəyan etdik. ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin siyasət aləmində günəş kimi parlaması, Avropa Şurasında və digər nüfuzlu beynəlxalq təşkilatların, tribunlarından etdiyi çixişlar Azərbaycanın haqq işini müdafiyəsinə qalxanların sayını artırdı. Onun gündəlik diqqət və qayğısı sayəsində idmançılarımız böyük uğurlar qazandılar. Elm, mədəniyyət, incəsənət sahələrində də yaddaqalan hadisələr baş verdi. Hansı istəklərə nail olmadığımı da soruşdunuz. Torpaqlarımızı erməni işğalçılarınızdan azad edə bilməməyimiz təəsüf doğurur. Qaçqın və köçkünlərimizi doğma yurdlarına həsrət qaldılar. İnsanların məşəqqətli çadır həyatını istəyimizcə tam yaxşılaşdıra bilmədik. Amma bütün bunlar heç də bədbinləşməyə əsas vermir. Çünki möhtərəm prezidentimiz gecə-gündüz bilmədən bu problemin sülh yolu ilə həllinə çalışır. Xalqımız inanır ki, ermənilər onlara verilmiş tarixi imkandan istifadə etməsələr, xarici havadarlarına arxayınlaşıb, ipə-sapa yatmasalar, Ali Baş Komandanımızın daha tutarlı cavab vermək imkanları istənilən qədər ola bilər. Belə olduğu halda isə biz hamımız doğulduğumuz torpağın-anamız Azərbaycanın ərazi bütövlüyü uğrunda sıravi əsgər kimi son döyüşə hazırıq. Lakin inanıram ki, möhtərəm prezidentimizin müdrikliyi, zəka və qətiyyəti sayəsində sonuncu vasitəyə ehtiyac qalmayacaq.

**-Azərbaycanda neft strategiyasının uğurla həyata keçirilməsində Qaz Emalı Zavodunun da samballı payı var.**

- Heç sübhəsiz. Başçılıq etdiyim müəsiyyəsi bütün göstəricilər üzrə ili (zavoddan kənarda, müəsiyyəsi gələn qaz xəttində baş vermiş partlayış hadisəsi istisina olmala) uğurla başa vurdu. Qəzanın nəticələri isə çox qısa vaxtda aradan qaldırıldı. Dövlət Neft Şirkətinin idarə və müəssisələri arasında adımız birincilər sırasındadır. İşçilərimizin güzaranı yaxşılaşmaqda davam edir. Orta aylıq əmək haqqı respublika göstəricisində xeyli yüksəkdir. Respublikamızın qaza olan tələbatını tam ödəmək üçün əlimizdəm gələni əsirgəmirik. Tikinti, abadlıq işlərin də göstəricilərimiz ürəkaçandır.

Azərbaycanda neft strategiyasının əsası 1994- cü il senytaybrın 20- də “Gülüstan” sarayında ölkə prezidenti cənab Heydər Əliyev tərəfindən qoyuldu. “Əsrin müqaviləsi” kimi tarixə düşən sazişini imzalanması Azərbaycanda neft strategiyasının həyata keçirilməsində ana xətti təşkil etdi. Burda prezidentimizin uzaqgörənliklə dediyi bir fikri diqqətinizə çatdırmaq istəyirəm. “1994 –cü ildən Azərbaycan dövlət özünü yeni neft strategiyasını həyata keçirir və bu stategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməklə ibarətdir”. Dahiyanə deyilmiş bu fikirlər bütün neft və qaz sənayesi işçiləri, xüsusilə, bizim kollektivimiz tərəfindən əsas fəaliyyət proqramına çevrilmişdi.

**- Qarabağ faciəsi, qaçqın və köçkünlərin problemləri yazıçı Hüseynbala Mirələmovun yaradıcılığında ana xəttdi təşkil etdi. “ Xəcalət” povestinizin Azərbaycan Yazıçıları Birliyi Ədabiyyatı Təbliğ Bürosunun milli – mənəvi yaddaşa qayıdışı təbliğ edən qarabağ mövzusunda yazılan ən yaxşı bədii əsərlər üçün təsis etdiyi “Milli Yaddaş” birinci mükafatını alıması, “Vicdanın hökmü” pyesinizin səhnə uğuru “Güllələnmiş heykəllərin fəryadı” essenizin film – tamaşa kimi ekran nailiyyəti Sizi arxayınlaşdırmayacaq ki? 2003- cü ildə bizi nə ilə sevindirəcəksiniz?**

**-** Qarabağ hadisələri – erməni separatçılarının ilk əvvəl iqtisadi tələbələr, sonra isə torpaq iddiaları irəli sürdükləri mitinqlər başlanan günlərdən bu problemin içindəyəm. Respublika Yanacaq Komitəsi sədrinin birinci müavini və sədr əvəzi kimi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin azərbaycanlılar yaşayan kənd, qəsəbə və şəhərlərini gəzmiş, ermənilər və sovet əsgərləri tərəfindən blokadad saxlanılmış insanlara kömək olmağa çalışmışam. Müxtəlif insanlarla görüşmüş, ailələrdə qonaq olmuş çox faciələləri gözümlə görmüşəm. Kəndlərimiz, qəsəbələrimiz yandırılanda, günahsız insanlar qətlə yetiriləndə gücüm göz yaşlarıma çatıb. Çünki o dövürlərdə respublikamıza başçılıq edənlər burunlarının ucundan irəlini görmür, qətiyyətsizlik, daha doğrusu, qeyrətsizlik göstərirdilər.bunun müqabilində ermənilər dahada qəddarlaşır, törətdikləri cinayətlərdən sərməst olur, torpaq iddialarının gerçəkləşdirəcəklərinə inanırdılar. Mən bütün bu dediklərimin şahidiyəm. Və bütün bunlar qəlbimdə qövr edən dərdlər heç vaxt məni rahat buraxmayıb, ürəyimin başında sağalmaz yaraya çevrilib.

Aradan 15 ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu yara sağalmaq bilmir, hər gün, hər saat, hər an qan verərək sızlayır. Tanıdığım o ağayana, mərd, qonaqpərvər insanları sınmış, çolpumuş görəndə, hansısa xəstəyə, əlilə, kimsəsizə kömək əli uzada bilməyəndə, şəhid ata-anasını ovundurmaq qudrətini çatmayanda sanki yenidən o günləri yaşayır, sarsılır, sarsıldıqca sarsılıram. Belədə günahkarları lənətləmək də köməyimə çatmır. Ümid qalır qələmə, sözə.

Ötən il Qarabağ müharibəsi ilə bağlı "Xəcalət" povestinin, "Güllələnmiş heykəllərin fəryadı" essesini, "Vicdanın hökmü" pyesini yazdı. Sualınızda qeyd etdiyiniz kimi, hər üç əsərin taleyi uğurlu oldu. Oxucular, tamaşaçılar dəyərli qiymət verdilər. "Gənclik" nəşriyyatının direktoru, çox böyük naşirvə ziyalı olan Əlican Əliyev özünün redaktorluğu ilə hər üç əsəri "Xəcalət" adlı kitabda toplayaraqAzərbaycan və rus dillərində nəşr etdi. "Güllələnmiş heykələrin fəryadı" film-tamaşanın hazırlanmasında, ekran nümayişində etdikləri köməyə görə Azərbaycan Kinematoqrafiya İttifaqının, Teleradio Şirkətinin rəhbərliyinə də minnətdaram. Dövlət Dram Teatırının və Lənkaran Dövlət Dram Teatırının cəfakeş kollektivləri "Vicdanın hökmü" pyesimə də yeni qayğı və diqqətlə həyat vəsiqəsi verdilər.

Azərbaycan Yazıçılar Birliyi Bədii Təbliğ Bürosunun milli"mənəvi yaddaşa qayıdış təbliğ edən və Qarabağ mövzusunda yazdığım "Xəcalət" povestinə verməsi bu mövzunun nə qədər vacib və aktual olduğuna sübutdur. Bütün bunlar arxayınçılıq vəsiqəsi deyil. Bütün bunlar qürrələnmək haqqı vermir. Bütün bunlar hansı boşluğu doldurmağa xidmıt etmir. Əsas məqsəd yaddaşları silkələmək, özümüzdə, daxilimizdə, vicdanımızda xəcalət hissini oyatmaq, əsrin əvvəlində, hələ bir xeyli də uzaqlardan başlanan erməni işğalçılığını, erməni vəhşiliyini, erməniliyin əsl simasını açmaq istəyindən, daha doğrusu, məcburiyyətindən irəli gəlir. "Güllələnmiş heykəllərin fəryadı" gələcək nəsilləri ayıq-sayıq olmağa çalışırsa, "Vicdanın hökmü" hər bir Azərbaycan oğlunu intiqama səsləyirsə, "Xəcalət" itirdiklərimizə, başımıza açılan müsibətlərə dözümümüzə, xəyanətlərə meydan verməyimizə son qoymaq çağırışdır.

Arxayınlaşmaq, arxayınçılıq mənə yaddır. O da qala Qarabağ məsələsinə, taleyüklü problemimizə. Xalqımızın başına gətirilənlər, Qarabağ, Göyçə, Zəngəzur, Dərələyəz, İrəvan itkisi, bir milyondan çox yurddaşımızın qaçqına, köçkünə, didərginə çevrilməsi arxayınlaşmagımızın acı, zəhər dadı verən bəhərlərdir. Biz ermənilərin saxta gülüşünə, timsahsayağı göz yaşlarına, əxlaqsızlıq"səxavət" nə inanmağımızın, arxayınlaşmağımızın "mükafatı" nı

almışıq. Yetərli deyilmi? Daha arxayınlaşmaq limitimizi xərcləyib tükətmişik. Heç başlamamaqdansa, gec başlamaq yaxşıdır. Bu, yazıçıya da, sadə zəhmət adamına da, sıravi əsgərə də, müəllimə, tələbəyə, şagirdə də, körpəsinə laylay çalan gənc anaya da aiddir. Elə buradaca dostum Əlican Əliyevin Azərbaycan televizyası ilə xalqımıza müraciətən dediyi sözləri də  xatırlatmaq istəyirəm: “Şuşa, Ağdam, Laçın, Qarabağ yoxdursa, bizim başımıza papaq qoymağa, ixtiyarımız yoxdur.” Elə bu səbəbdən arxayınlaşmağa da haqqımız, ixtiyarımız yoxdur. Oxucuları sevindirməyə gəldikdə isə bunu yaxın vaxtlarda tamamlayacağım əsərlər deyəcək.

**-2003-cü ildən umacağınız nədir?**

- İl böyük tarixin təqvimində bir yarpaqdır. Şübhə yoxdur ki, o, qızıl məcməyidə bizə nəsə gətirməyəck, hədiyyə etməyəcək. İl 365 günün sonuncusu ilə tamamlanır. Bəziləri gülünc bir ifadə işlədirlər: “Sağlıq olsun, torpaqlarımız qayıdanda, Şuşa, Ağdam, qayıdanda...” nə bilim daha nələr qayıdanda.Yeni il bizə nə Şuşa, nə  Kəlbəcər, nə də Xankəndinin qaytarasıdı. Bunu biz etməliyik.

2003-cü ildə özümüzdən umacağım çoxdur. Azərbaycanın inkişaf yolundakı addımına badalıq vurmamalıyıq. Daxilən, mə”nən durulaşmaq, saflaşmaq, Azərbaycan naminə üç rəngli bayrağımız altında birləşmək, bu xalqa, bu millətə oğul ola bilmək qeyrətini itirməmək, düşmənə sığınmaqla öz xalqına, onun mənafeyinə balta çalmamaq, vəzifə kürüsü naminə düşmən dəyirmanına su tökməmək – bunlar 2003-cü ildə yox, özümüzdən, xalqımızın övladlarından umacaqlarımdır. Ordumuzu daha da qüdrətli etmək, müstəqilliyimizi möhkəmləndirmək, torpaqlarımızı yağılardan təmizləmək,  qaçqın və köçkünlərimizi öz yurdlarına qayrarmaq 2003-cü ildə görəcəklərimiz işlərdir. Köhnə əhval-ruhiyyə, inamsızlıq, xaos yaratmaq cəhdləri 2003-cü ildə bizi əli boş qoya bilər. Ağlımızın, qəlbimizin, zəkamızın hökmünə qulaq asmalı, türk dünyasının ağsaqqalı Heydər Əliyev cənablarına səs verməklə işıqlı sabahımıza gedən yolumuzun rəvanlığını təmin etməliyik. Umacaqlarım bunlardır.

**-Xeyirxahlıq Sizin üçün vəzifə, məqsəd, yoxsa, həyat amalıdır?**

- Vəzifəm var. Azərbaycan Qaz Emalı Zavodunun direktoruyam. Söhbətimizin əvvəlində gördüyümüz işlərdən xəbərdar oldunuz. Bə”zi məqamlarda qarşıma qoyduğum məqsədlərə də aydınlıq gətirdim. Qısaca olaraq deyim ki, xeyirxahlıq mənim amalımdır və bu, mənə nəslimdən, kökümdən qalan sərvətdir, əmdiyim südlə iliyimə, qanıma işləyən insanlıq, əxlaq dərsidir. Xeyirxahlığ nə vaxt, kimə, hansı şəraitdə etdiyimi yadımda saxlaya bilmir, heç buna cəhd də göstərmirəm.

Əgər xeyirxahliğim varsa, bunun üçün doğulub boya-başa çatdığım torpağa, el-obama, valideyinlərimə və müəllimlərimə borcluyam.

**- Hüseynbala müəllim, "Qarabağ" qəzetinin çoxsaylı oxucularının şəxsiyyətinizə maraqlarını, Sizi daha yaxından tanımaq istəklərini nəzərə alaraq soruşmaq istərdik: İnsanlarda ən çox xoşunuza gələn və gəlməyən keyfiyyətlər hansılardır? Ən çox sevdiyiniz çiçək hansıdır? Hansı müğənnilər, yazıçılar, rəssamları və aktyorları xoşlayırsınız? Muğamata münasibətiniz? İdmanın hansı növü ilə məşğul olursunuz?**

- Sual yağışı məni çaşdırmasa, yaxşıdır. Ardıcıllığı pozmadan cavab verim. Çoxdan oxuduğum və müəllifin unutduğum bir şeir parçası var:

**Sən danış səmimi, kiri səmimi,**

**Səmimiyyət qəlbin məhək daşıdı.**

**Söhbət olacaqsa qeyri-səmimi,**

**Dinib-danışmaq daha yaxşıdı.**

İşdə, ailədə, dostlar arasında səmimmiyət, ədalət ölçüsü, dözümlülük, ali məqsəd uğurunda axıra qədər mübarizə apara bilmək qətiyyəti, oppenetlə məntiqə, ağlının gücünə güvənməklə mübahisə etmək bacarığı, uğurundan öyünməmk, başqalarının əzabına sevinməmək, kədərini gizləyib, sevincini bölmək, özündən kiçiklərə güzəşt, böyüklərə ehtiram göstərmək, xeyir-şər məclislərindən qalmamaq, lazım gələndə ölümün gözünə dik baxmaq cəsarəti, sözübütövlük və s.

Yalançı, yarımçıq, unutqan, yaltaq, söz gəzdirən, sırtıq, qeybətcil, yerlipərəst, acgöz, nəfsinin əsrinə çevrilən insanları görməyə gözüm yoxdur. Belələrinə islah edə bilmirəmsə, ondan həmişəlik üz döndərirəm.

"Qayada çiçək" kitablarımdan birinin adıdır. Çiçəklərin, güllərin, demək olar ki, hamısını sevirəm. Amma sərt qayalarda bitən çiçəklərin solmaması üçün hər şey edərdim.Üzgüçülüklə məşğul olmağı xoşlayıram. Heç bir idman növü üzrə dərəcəm yoxdur. Gəncliyimdə futbolu çox xoşlayırdım. Atçılıq idmanına maraqla baxıram. Axı idmanın hansı növü pisdir ki?

Azərbaycanda yaxşı müğənnilər çox olub və indidə var. Cabbar Qaryağdıoğlu, Seyid Şuşunski, Xan Şuşunski, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Şahmalı Kürdoğlu, Yaqub Məmmədov, Sara Qədimova, Arif Babayev, Canəli

Ələkbərov, Alim Qasımov, Məmmədbağır Bağırzadə daim dinlədiyim müğənnilərdəndir. Gənclərdən isə ən çox xoşladıqlarım Aygün Bayramova, Mənsum İbrahimovdur. Məhəbbət Kazımov "Laçınım" mahınısını isə döyüşə çağırış kimi dinləyirəm.

Çingiz Aytmatov, Lev Tolostoy, Aqata Kristi, Mark Tven, Bəxtiyar Vahabzadə, Anar, İsa Hüseynov, Əkrəm Əylisli, ən çox mütaliə etdiyim yazıçılardandır.

Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Tahir Salahov, Fərhad Xəlilov dünya rəssamlıq məktəbinin sayılıb-seçilən nümayəndələridir. Hər dəfə onların əsərlərinə baxanda yeni bir çalar, yeni bir nəfəs duyuram.

Aktyorlara gəlincə, yenə də dağa-daşa düşmək lazım gəlmir. Bizim Mirzağa Əliyev, Adil İsgəndərov, Ağasadıq Gəraybəyli, Mehdi Məmmədov, İsmayıl Osmanlı, Əliağa Ağayev, Şahmar Ələkbərov, Səməndər Rzayev, Həsənağa Turabov, Həsən Məmmədov, Səyavuş Aslan, Hacıbaba Bağırov, Yaşar Nuri, Əlabbas Qədirov kimi aktyorlar nəsilinin hansını sevməyəsən?

Azərbaycan muğamlarını dinləməkdən doymuram. Xalq şairi Bəxtiyar Vahabzadənin "Muğam" poeması muğamlarımızın fəlsəfi mahiyyətini daha dərindən duymağıma kömək edir. Xalqımızın bu tükənməz sərvətinə yad nəfəs, yad xallar gətirənləri lənətləyirəm. Hər bir muğam tarixin dərin qatlarından xəbər verən əvəzsiz əsəsrdir, mənəvi, mədəni xəzinəmizin dəyərli abidəsidir. Onları qorumaq, gələcək nəsillərə olduğu kimi çatdırmaq hamımızın borcudur.

- **Sizi jurnalistlərin dostu adlandırırlar. Bu təəssübkeşlik hardan gəlir.**
- Orta məktəb illərində " Azərbaycan pioneri" qəzeti ilə əməkdaşlıq edirdim.

Ali məktəbə daxil olduğum il yenidən "Azərbaycan pioneri" qəzeti redaksiyasına gəldim. Redaktor rəhmətlik Əmrah Əmrahov idi. Məni doğması, əziz kimi qarşıladı. Təklif etdi ki, dərsdən sonra hər gün redaksiyaya gəl. Bu gündən yarım ştatla səni işə götürürəm. Həmin gündən jurnalistlik həyatına qədəm qoydum. Şərəfli peşənin ağırlığını, məsuliyyətini də o illərdə dərk etdim. Hikmət Ziya, Svetlana Nəcəfova kimi şair və jurnalistlərlə işləməyim mənə çox şeyi öyrətdi. Bax, jurnalistlərlə dostluğum belə başlayıb. Onlara təəssübkeşlik etməyim şərərfli peşə sahiblərinə dərin hörmətimlə bağlıdır.

- **Asudə vaxtınızı necə keçirirsiniz? Ovçuluqla maraqlanırsınızmı?**
- Əslində, asudə vaxtım çox az olur, yaxuda demek olar ki, olmur. İmkan düşəndə bədii filimlərə baxır, musiqi dinləyirəm. Dənizkənarı parkı başdan-başa piyada gəzə bilsəm, iş qabliyyətim birə-beş artar.

Ovçular cəmiyyətinin üzvüyəm. Müxtəlif kalibirli ov tüfənglərim var. Dostlarımla bir neçə dəfə ova da getmişəm. Di gəl ki, barmağımı bir dəfə də olsun tətiyə sıxmamışa.

Yaxın günlərin söhbətidir. Dostlarıdan biri mənə zəng vurub dedi ki, sənə qeşeng bir cüyür vurub gətimişəm. Elə bil məni ildırım vurdu. Qeyri-ixtiyarı "barmaqların qurusun" ifadəsini işlətdim, apar, kimə istəuirsən ver,- dedim. Dostum təkrar-təkrar zəng vurdu. Ona yekun cavabım belə oldu: " Səni belə tanımırdım. Namərdlik etmisən, o gülləni yalnız cüyürə deyil, Allaha, təbiətə, mənə, ümumiyyətlə, gözəlliyə, insanlığa tuşlamısan. Qəddarlıq sənə güc gələndə o təbiət gözəlinin gözlərinə baxdınmı? O yalvarışları duymadınmı?"

Güllə səsi məni diksindirdi. Təbiətin nadir gözəllərindən biri azaldı. Mənsə dostlarımdan birini itirdim. İtki isə adamı həmişə göynədir.

**Söhbətləşdilər**
**Çingiz TOFİQOĞLU,**
**Əli MAHMUD**

## MİLLİ KEYFİYYƏTLƏRİMİZİN TƏRƏNNÜMÇÜSÜ

Bu gün Azərbaycan ədəbiyyatında təsdiqlənmiş Hüseynbala Mirələmovun bədii sənət dünyasına gəlişi 14 yaşında yazdığı " Bir tikə çörək" hekayəsi ilədir. Xalqımız üçün çörək həmişə hər şeydən uca tutulmuş, müqəddəs hesab edilmişdir. Məhz təsadüfi deyil ki, harda yerə düşmüş çörək görülürsə, mütləq götürülüb, öpülüb kənara qoyulur. Dilimizdə olan "çörək verən kişi", "Allah heç kimi çörəklə imtahana çəkməsin", "çörəyi ver çörəkçiyə" deyimləri də çörəyə olan istəkdən

yaranmışdır. İnsani keyfiyyətlər də çörəklə ölçülür. Əgər yaxşı adam deyilsə, " filankəsin çörəyi ilan zəhərindən pisdir" sözləri işlədilir. Yeniyetmə həvəskar yazıçı hekayəsində bir tikə çörəyin necə əziz tutulduğun göstərməklə yanaşı, gələcəkdə özünü ustad bir yazıçı olacağını sübut edir. "Tənha durna" hekayəsində tənha qalmış durnanın timsalında müəllif təklənmiş insanın taleyini qələmə almışdır. Adətən, durnalar şimaldan cənuba, cənubdan şimala dəstə halında uçurlar. Hər yerdə görmüşük ki,durnalar qatarlaşıb uçurlar. Bir qoşmada deyildiyi kimi:

**Qatarlaşıb, nə diyardan gəlirsiz,**

**Bir lələk salsanız bizə, durnalar!**

Tənha düşmüş durnanın taleyi mütləq faciə ilə nəticələnməlidi. Ümumiyyətlə, bütün canlılarda və cansızlarda tənhalıq faciədir. Böyük şairimiz Bəxtiyar Vahabzadənin bir misrası var:

**Kösövün ikisi çöldə də yanar,**

**Birisi ocaqda alışa bilməz.**

və yaxud:

**Meşələr sultanı, meşələr şahı**

**Aslanın özü də yalqız olmasın.**

El arasına işlədilən bir ifadə var: " məni tək görmüsünüz?" və s.

Təkcə Hüseynbala Mirələmovun yaradıcılığında yox, son illər Azərbaycan ədəbiyyatında həm tarixilik, həm də milli adət ən-ənnəələrimizin dolğun əks etdirilməsi baxımından "Xəcalət" povesti bədii ədəbiyyatda inqilabi hadisədir. Povest dərc edildiyi gündən dillər əzbəridir, əllərdən düşmür. Tədris ocaqlarında, idarə və müəssisələrdə, yaradıcı kollektivlərdə görüşlər keçirilir, geniş müzakirələr olunur. Cəsarətlə demək olar ki, sorğu keçirilirsə, "Xəcalət" son iki ildə ən çox oxunan povestdir. Bu, sevindirici haldır. Həm Qarabağ tarixinin öyrənilməsi baxımından, həm orda təsvir olunan hadisələri oxuyub, düşmənə nifrət bəsləmək, onların törətdiyi vəhşiliyi bilib, intiqam hissinin alovlanması baxımından çox qiymətlidir. XX əsrdə dörd dəfə faciəli erməni-müsəlman davası olmuşdur. 1905-ci ildə, 1918-ci ildə, 1920-ci ildə, 1988-ci ildə. Bu hadisələri müxtəlif illərdə tarixçilər araşdırıb, yazıçılar, şairlər bir çox bədii əsərlər yazıblar. Bunların içərisində yadda qalıb yaşayanları da olub, itib-batıb unudulanları da. Milli

faciəmizin elə ən dəhşətli səbəbi də unutqanlığımızdır, yaddaşımızın zəifliyidir. Başımıza gələn bəlaların başlıca səbəbini burda axtarmaq lazımdır. Cəfər Cabbarlı da "1905-ci ildə" pyesində erməni-müsəlman davasından yazmışdı. Qonuşu kəndlərdən olan İmamverdi və Allahverdi səngərdə bir-birini tanıyıb, barışıq yaratmaq istədikdə atəş səsləri eşidib, deyirlər: "Atan kazaklardır". 1905-ci ildə də bu qarşıdurmanı yaradıb, ortaya atan rus idi, 1988-ci ildə də. Barı sonrakı bəlalardan özümüzü hifs etmək üçün mütləq "Xəcalət" povestini oxuyub, ibrət dərsləri götürməliyik.

Unutmağı haqqımız yoxdur tarixin bir neçə məqamlarını. Bunu dönə-dönə oxuyub, qulağımızda sırğa etməliyik. 1905-ci ildə ruslar tərəfindən silahlanan erməni quldurları general Qoloşapovun rəhbərlik etdiyi rus qoşunları ilə birləşib, Şuşada azərbaycanlılar yaşayan məhəllələrə hücum edirlər. 850 nəfər kazakdan ibarət olan rus qoşunu yeddi minlik erməni dəstələrilə birləşərək şəhərin müsəlman hissəsinə hücuma keçirlər. Erməni və rus birləşmələrinə hərbi tə"limatı şəxsən general Qoloşapov özü verdi. Top atəşlərinin arası kəsilmirdi. İki gün ərzində müsəlman məhəllələrinə 120 top mərmisi atılmışdı. Erməni-rus birləşmələri müsəlmanları uzaqdan top atəşinə tutsalar da, məhəllələrə soxula bilmirdilər. Elə bu vaxt ətraf kəndlərdən gələn yüzlərlə silahlı azərbaycanlı döyüşçü özlərini köməyə çatdırdılar və "ya Əli!" – deyərək əks hücumla düşmən səngərlərini ələ keçirib, şəhərin erməni hissəsinə girdilər, onları qovub, yaşadıqları məhəllələrdən çıxardılar. Bu döyüşlərdə müsəlmanlardan 18 nəfər həlak oldu, 21 nəfər isə yaralandı. Erməni tərəfdən ölənlərin sayı 700 nəfərə çatdı, yarananlar 287 nəfər idi. Rus qoşunu 31 nəfər itki vermişdi. Həmin o döyüşə rəhbərlik edən Qoloşapov 1906-cı ildə Tiflis şəhərində 19 yaşlı Gülablı balası Hüsü ağzından atıb, o dünyaya göndərdi. Həmin o qəhraman Hüsünü də özümüzünkülər 30-cu illərdə erməni-rus öldürdüyünə görə güllələdilər.

1918-ci ildə erməni quldurları rusların köməyi ilə Şuşanı mühasirəyu almışdı. Bir tərəfdən də tayqulaq erməni Andronik xüsusi təlim görmüş qoşununu Şuşa şəhərinə yeridirdi. İş o yerə çatmışdı ki, ermənilər şəhərə girsə, qadınlar düşmən əlinə keçməsin deyə, özləri güllələsin. Həmin vaxt Məhəmməd ağa Müctəhidzadə kömək üçün osmanlı sultanı Əbdülhəmidin yanına getmişdi. Onun qarşısına iri bir sinidə qızıl qoyublar. Gözünün ucu ilə də baxmayıb. Deyib: "Sultan, Şuşada türk qadınları təhlükə altındadır. Bizə qüvvə ver, namusumuzu qoruyaq". Şahidlərin dediyinə görə, Həmidə xanım Cavanşir də 200 atlı ilə Ağdama gəlib. Başından yaylığı açıb yerə ataraq deyib: " Kim qeyrətsizdirsə, götürüb bağlasın başına. Bu gecə Qala (Şuşa) yolu açılmalıdır". Bu sözü eşidən yerli əhali də onlara qoşulub,

Şuşa yolunu açıblar. Yeri gəlmişkən, 1988-ci ildə Ağdamdan Əsgərana gedən insan axını qarşısın da Xuraman Abbasova yaylıq atanda rəmzi mənası bu idi ki, torpaq namusdur. Gedin, namusunuzu qoruyun, ya da götürüb başınıza bağlayın!

Sonra ona başqa don geyindirdilər.

1918-ci ildə Əsgəran qalasını seyidli İbrahimlə Bayram bəy 12 nəfər adamla saxlayıb. Çünki hamının ürəyində Vətən, torpaq, namus sevgisi hər şeydən üstün idi. Bəs niyə onların nəvə-nəticələri olan bizlər 1992-ci ildə Şuşanı saxlaya bilmədik? Necə oldu ki, ağdamlılardan it ağacdan qorxan kimi qorxan ermənilər cəsarət edib, onu işğal etdilər. Əhalisini yurd-yuvasından perik saldılar. Çünki yaxın keçmişimizin qəhramanlıq tarixindən bixəbərik. Qəhraman tariximiz yad əllərdə faraş bostan təki uralanıb. Xanların, bəylərin, din xadimlərinin mənfi obrazlarını yaradıblar. Guya, onlar qaniçən, torpaq  satan olublar.

Türk qanına yerikləyən ermənilər 1920-ci ildə Azərbaycan da yenicə qurulmuş milli hökuməti Qarabağda devirmək istəyirdilər. General-qubernator Xosrov  bəy Sultnov erməni agentləri  vasitəsilə mə”lumat alır ki, ermənilər bu məqsədlə Zəngəzurun  Dığ kəndində üç minlik erməni qoşunu cəmləyiblər.

Hərbi nairin göstərişi ilə 1920-ci ilin yanvar ayında milli ordunun komandirləri- general Məhəmməd Mirzə Qacar və general-leytinat Teymur Novruzov Şuşaya gəlib, vəziyyətlə yerində tanış olurlar. Onlar təhlükənin ciddi olduğunu təsdiq edirlər. Müdafiəni gücləndirmək məqsədi ilə əlavə silah və canlı qüvvə göndərirlər.

Hücumdan əvvəl Qarabağda ermənilərin üsyanı üçün geniş hazırlıq  işləridə görülmüşdür. Top və pleymyotlar silahlanmış qiyamçılar general Dro Konayan rəhbərlik edirdi. Mart ayının 20- də Şuşaya gizli yolla 200 nəfər erməni silahlı dəstəsi gətirilmişdir. Üsyan üçün vaxt mart ayının 22-i – Novruz bayramı gecəsi seçilmiçdi. Həmin gün eyni vaxtda  Şuşa ilə bərabər Xankəndində, Əsgəranda və Tərtərdə də üsyan başlamalı idi.

Bayram gecəsi saat 3-də silahlanmış qiyamçılar  qəflətən Şuşa qarnizonuna hücm edirlər. Milli ordunun əsgərləri əks hücuma keçərək qiyamçıları mövqelərindən çıxıb qaçmağa  məcbur etdi. Səhərə yaxın  Şuşa şəhəri Şuşakənd tərəfdən güclü top atəşinə tutuldu. Hiss olunurdu ki, şəhər ətrafına erməni silajlı dəstələri toplaşıb. Şuşa mühasirəyə alınmışdı. Xosrov vəyin harayı ilə ayağa qalxan partizan dəstəsi döyüşə atıldı. Onlar Ağdam-Şuşa yoluna bir sıra mühüm mövqeləri ələ keçirdilər. Qəzəblənmiş şuşalılar hücum edib, ermənilərə divan tutdular. Axşama yaxın şəhərinerməni hissəsində güclü yanğın baş verdi. İşi belə görən ermənilər yenə

hiyləyə el atdılar. Ağ bayraq qaldırıb, təslim olduqlarını bldirdilər. Bu münasibətlə yemək-içmək təşkil edib, milli ordunun 50 nəfər zabitini də"vət edirlər ( məclisdə qadınlarda olub). Başları yeyib-içməyə, kefə qarışan bizimkilərə erməni silahlıları qəfil hücm edirlər. Əlbəyaxa döyüşdə onların hamısı şəhid oldular. Qarinzonun rəisi, şahzadə Əmənullah Mirzə Qacar bu gözlənilməz zərbədən özünü itirməmiş, qarinzonu döyüşə hazır vəziyyətdə gətirmişdir. O, əks hücuma keçərək erməni yaraqlılarını ağır itkilərə mə"ruz qoymuş, şəhərdən qovub çıxarmışdır. Marağa, Marquşavan, Çaylı və Buruğ kəndləri erməni quldurlarından təmizlənmişdir. Fikir verirsinizmi, ermənilər tarixi vəzyətlərdən necə istifadə edirlər. Çar Rusiyası devirləndə də, SSRİ- nin dağılmaq təhlükəsi olanda da tarixin yetişdirdiyi şansdan çox məharətlə istifadə edirlər. Çünki onlar həmişə hazırdılar.

Hüseynbala Mirələmovun XX əsrdə dördüncü rməni-türk savaşından bəhs edən "Xəcalət" povesti, "Vicdanın hökmü" pyesi, "Güllələnmiş heykəllərin fəryadı" essesi bu mövzuya həsr edilmiş ən dəyərli əsərlərindəndir. Məqsəd əsrimizdə törədilmiş Xocalı kimi ən dəhşətli faciəni gələcək nəsillərə çatdırmaqdır. "Xəcalət" povestini oxuduqca müəllifin Qarabağın tarixi keçmişini necə dərindən bildiyinin şahidi olursan.

Xəcalət, xəcalət, xəcalət! Bu, bir nəfərin, bir tayfanın yox, bir millətin faciəsidir. BU xəcalətin üzüqralığını bir çayın, bir dənizin bir suyu ilə yumaq olmaz. Onu yalnız on iki il öncə rus-erməni hərbi birləşmələri kimsəsiz bir kəndi yerlə-yeksan edib, onun əhalisinin çox hissəsini vəhşicəsinə qırıb, bir hissəsini əsir götürdüyü günün intiqamını almaqla yumaq olar. Yoxsa, bu faciə bütün vicdanı olan hər kəsi qəbir evinə qədər yandıracaq.

"Xəcalət" povesti həm də milli mentalitetimizin bütün çalarlarını, müsbət keyfiyyətlərini, türkçülük psixologiyasını özündə əks etdirən ən dəyərli bir əsərdir. Povestdə dünyada yalnız türklərə məxsus olan əxlaq normaları olduqca həyati boyalarla işlənmişdir. Namusun, kişiliyin hər şeydən üstün olması ön plana çəkilir. Bədii əsərin müsbət keyfiyyətlərindən biri onun geniş oxucu kütləsi arasında güclü rezonans yaratmasıdır. H.Mirələmovun "Xəcalət" povesti artıq bir neçə vaxtdır ki, dillərdən düşmür. Kiminlə ünsiyyətdə olursansa, ondan danışır, onu müzakirə edir. Onun bu günümüz üçün nə qədər lazımlı bir bədiiəsər olmasından söhbət açır. Bu povest sonuncu Qarabağ savaşının qan yaddaşımızda yaşamasına xidmət edir. Bütün başımıza gətirilən müsibətlərin yaddan çixmaması üçün, bizi unutqanlıq bəlasından xilas etmək üçün müəllif hadisələri bədii boyalara verib, oxucuya göstərir ki, oxu, gör ermənilər sənin millətinin başına nə müsibət gətirib. Əsrin

əvvələrində ermənilər el aşığı Növrəs İmanın belinə qaynar samovar bağladığını unutduq! Hamilə qadınların qarnını xəncərlə yarıb, uşağı itlərə atdılar, unutduq! Qafanda körpə uşaqları borulara doldurub, hər iki başını bağladılar, unutduq! Cavan qızları itlərin arasına atıb, parça-parça etdirilməsindən ləzzət aldılar, unutduq! İndi də yaşadığımız günlərimizin faciələrini unudacağıq?! Bir gecədə tək bir kənddə (Xocalıda) erməni quldurları 613 nəfəri görünməmiş vəhşiliklə qətlə yetirdi, 1275 nəfəri əsir götürdü, 200 nəfər adam əlindən, ayağından, gözündən məhrum edildi. Gizləndiyi yeri ermənilər bilməsin deyə, Müşgünaz adlı bir gəlin 9 aylıq bir körpəsini boğub öldürdü. 17 yaşlı Leyla adlı qız ermənilərin əlinə keçmək ərəfəsində itində yemediyi, amma bizim o vaxtki rəhbərlərimizin yediyi namusunu götürüb, özünü qayadan atdı.

Bu əsər əbədi və əzəli düşmənlərimizin olan ermənilərin iç üzünü, əsl simasını açıb göstərən, həcmcə o qədər də böyük olmasa da, mənafe etibarilə onlara kitabın, yüzlərlə təbliğatçının görə bilmədiyi işləri görən, göstərə bilmədiyi tə”siri bağışlayan, neçə-neçə trilogiyaya bərabər olan bir povestdir desək, yanılmarıq. Biz bunz əminik və inanırıq ki, əsəri oxuyan hər kəs özünü əsərin qəhrəmanlarınn yerinə qoyacaq, onların keçirdiyi hissləri yaşayacaq. 1988- ci ildən bəri başımıza gətirilən müsibətlərə, bu müsibətləri törədən bir ovuc erməni dığasının əlində aciz qaldığımıza görə, xəcalət çəkəcək. 1987-ci ildə Fransada çıxan “Humanite” qəzetinə mənfur akademik Aqanbekyanın verdiyi müsahibədən sonra ermənilər Qarabağda, İrəvanda torpaq iddiasına qalxdıqları kimi, qeyrətli, vətənpərvər, işıqlı ziyal Hüseynbala Mirələmovun “Xəcalət” povestini oxuyan hər bir türk oğlu türk də nahaq tökülən qanların, diri-diri doğranılan körpələrin, tapdalanmış namusun qisasını almaq, nəhayət, işğal edilmiş torpaqları azad etmək üçün ayağa qalxacaq. Bu əsər türk dünyasının oyanışı hər bir işarə olacaqz. Hec vaxt razı olmayaq ki, torpaqlarımız yağı tapdağ altında olsun. Torpaq ana, namus deməkdir. Demək namusumuz tapdaq altındadı.

Qədim zamanlarda qonşu ölkənin şahı o biri ölkənin başçısına sifariş göndərir ki, papagindan xoşum gelir,onu göndər mənə.Cavanlar ayağa qalxmaq istəyir, padşah “oturun” deyir, papağı göndərir. Sonra qılıncını istəyir, göndərir. Atına gğzü düşür, onu da göndərir. Bunlardan sonra sifariş göndərir ki, arvadını istəyirəm. Bu dəfə də dəliqanlılar ayağa qalxmaq istəyən də yenə də şah deyir ki, oturun. Daha sonra sifariş gəlir ki, ölkələrimiz arasında bir torpaq sahəsi var, onuda mənə ver. Başıçı cavanlara deyir ki, atlarının savaş vaxtıdır. Döyüşçülər deyir şah sağ losun papağını istədi, verdin,qılıncını, atını, hətta arvadını istədi, göndərdin. İndi istifadəsiz daşlıq bir torpaq sahəsi üçün niyə savaşa qalxırsan? Sah cavabında

bildirir ki, papaq, qılınc, at, arvad mənim idi, göndərdim. Bu torpaq mənim deyil. Min illərdir babalardan bizə qalan əmanətdir. Əmanətə xəyanət olmaz. Ya əmanəti qorumalıyıq ya da ölməliyik.povestin də aşılamaq istədiyi məqsəd məram budur. “ Ya Qarabağ, ya ölüm” türklər üçün namus anlayışı ilə eynidir. Həmişə işlədilib ki, torpaq namusdur. Yəni, müqəddəsdir, toxunulmazdır. Müəllif türk üçün namusunu nə qədər şərəfli olduğunu “Xəcalət” povestində bir epizodda çox gözəl təsvir etmişdir. Əsərin qəhramanı Vətənin anası meşədə yaralanandan sonra o, həyat yoldaşı Fərqanəyə deyir ki, uşaqları da götür, get qabağa. Qaranlıq gecədə tənha qadın iki uşaqla hara getdiyini bilmədən irəliləyir. Taqətdən düşmüş anaya oğul sual verir: “ Ana mən olmasaydım, sən qorxardın, eləmi?” Bu, elə-belə deyilmiş söz deyil. Bu, uşağın içində olan qan yaddaşdır. Bu, qədim türk psixologiyasıdır. Ona görədə bu sual anaya təpər verir. Onun içindəki qorxu hissini götürür ki, axı yaşından aslı olmayaraq yanında kişi var. Lap qədimlərdən də evdə tək qalan qadının yanına oğlan uşağı qoyarmışlar ki, qadın qorxub-ürpənməsin. Birdə Fərqanənin hər ehtimala qarşı əlində yorğan iynəsini hazır tutması. Əgər ermənilərə rast gələrsə,heç bir şey fikirləşmədən iynəni ürəyinə sancmalıdır. Deməli, türk qadını üçün namusu hər şeydən üstündür. Hətta namus hissi onu o qədər üstəliyib ki, ondan sora iki körpə balasının taleyinin necə olacağını fikirləşmir. Əgər həmin an Fərqanədən soruşsaydılar ki, ya namus, ya da iki balan. O fikirləşmədən namusunu göstərərdi. Çünki bu, onun qanında olan namus hissindən irəli gəlirdi. “Dədə Qorqud” dastanında Qıpçaq Məlik Qazan xanın yurdunu yağmalayıb, qırx incə bel qızla Burla Xatunu əsir götürür. Nə qədər cəhd eləsələr də, Burla Xatunu qırx qızdan ayıra bilmirlər. Qıpcaq Məlik əmr edir ki, oğlunun ətindən qovurma bişirin, qoyun qırx qızın qabağına. Kim yedi, o deyil, kim yemədi, odur. Oğlu tural bunu eşidib deyir: “ Ətimdən qovurma bişirib gətirəcəklər. Kim bir yesə, sən iki ye. Səni tanımasınlar, atamın namusu ləkələnməsin”. Göründüyü kimi, türk üçün namus baladan da, candan da şirindir.

Povestdə ən gərgin anlardan biri də Fərqanənin gördüyü traktordaki kimliyi bəlli olmayan adamlardır. Onlar qadının tərəddüd etdiyini görüb, çağırırlar: “Bacı, ay bacı, niyə dayanmısan? Gəl də?..” Fərqanənin qulağına çatan bu səs deyildi, sanli Sahib-Əz-Zamanın səsi idi. O, sevindiyindən huşunu itirdi.

H.Mirələmov “Xəcalət” povestində bir ailənin timsalından iyirminci əsrdə türkün düşmənləri tərəfindən Azərbaycan xalqının başına gətirilən müsibətləri qələmə alıb. Əsərin qəhramanı Vətən Özbəkistanda doğulmuşdur. Otuzuncu illərdə babası Qızıllı İsgəndər heç nəyin üstündə Azərbaycanda sürgün edilir. Səbəbdə o idi ki, kəndin məsləhət yeri, sayılıb-seçilən kişilərindən olub. İsgəndər kişi

qürbətdə el, vətən dərdi çəkdiyi üçün ilk nəvəsinə Vətən adı qoymuşdur. Əllinci illərdə sürgün edilmişlərə, ölüm hökmünə məhkum olmuşlara bəraət veriləndən sonra Vətəngil də doğma yurda qayıdıb, yeni yeni həyat qurmağa başlayırlar.

Başı bəlalar çəkmiş insanlar yeni-yeni özlərinə gəlirdi ki, indi də erməniləri qızışdırıb, saldılar ortaya. Arxasında rusların dayandığını görən gəlmə ermənilər torpaq iddiasına düşdülər. Əvvəlcə azərbaycanlılar yaşayan kəndlərdən bütün silahları yığdılar. Bu, o vaxtlar idi ki, məhrum şairimiz Xəlil Rza Ulutürk başımıza gələcək müsibətləri əvvəlcədən gördüyü üçün kənd-kənd düşüb, " Silahlan" şe"rini oxuyaraq təbliğat aparırdı. Özümüzünkilər şairə qarşı çıxır, onun işinə mane olurdular. Şair "Dişinlə, dırnağınla silahlan!" – deyə hayqırırdı. "Bir anlıq silahsız dayanmağa haqqın yoxdu" – deyirdi. Öz rəhbərlərimizin maymaqlığından istifadə edib, azərbaycanlılar yaşayan kəndləri bir-bir boşaltdılar. Bir tərəfdəndə öz daxilimizdə birləşmək əvəzinə, hakimiyyət davası baş alıb gedirdi. Dinc əhali düşmən qarşısında əliyalın qalmışdı. Bütün silahları yığandan sora ermənilərə dedilər başlayın. Hərənin bir tərəfə çəkdiyini görən düşmən bundan məharətlə istifadə etdi. Burda yada Krılovun bir təmsili düşür. Dayanmış arabanı balıq suya, xərçəng irəli, ördək havaya çəkdiyi üçün araba yerindən tərpənmir. Bu təmsil bizim o günkü günlərimizin durumunu əks etdirir. "Xəcalət" povestində ən təsirli və yaddaqalan epizodlardan biri də odur ki, erməni-rus birləşmələrinin kəndə üç istiqamətdən hücumundan sonra ölən-ölür, sağ qalan əhali başı pozuq şəkildə Qarqar çayı boyunca Ağdam istiqamətinə üz tutur. Hər an ermənilərin puskusuna düşmək təhlükəsi labüddür. Düşmənin atdığı mərminin qəlpəsi Vətənin anasını ağır yaralayır. Onsuz da taqətdən düşmüş Vətən yaralı anası çiynində bir qədər yaralı apara bilir. Anasının can verdiyini görüb, onu yerə qoymağa məcbur olur. Həyat yoldaşına tapşırır ki, uşaqları da götürüb irəli getsin. Vətən iki od arasında qalıb: bir tərəfdə anasının hələ soyumamış nəşi, bir tərəfdə iki balasının və həyat yoldaşının taleyi. Povestdə müəllif bu gərgin anlarda, qəhramanların keçirtdiyi psixoloji vəzyiyyətdə də türkçülük, türk adət-ən" ənələrini ön plana çəkir. Təsəvvür edin, dəhşətli bir mənzərədir. Vətən dırnaqları ilə qəbir qazıb, anasının kəfənsiz qazdığı çalaya qoyub, əlləri ilə dəfn edir. Yaxşı ki, köməksiz anında atasının ruhu ona güc və qüvvət verir. Bu da türk təfəkküründən irəli gəlir. Qədim şumerlərdə də ən çətin, gərgin anlarda ruhlar insanın düşdüyü fəlakətdən xilas edərmiş. Atası Ötərxanın ona qeybdən deyir: "Nəyi gözləyirsən, ay oğul? Ananın ruhu mənim yanımdadır. Əlli tərpən, tapşır onu torpağa. Torpaq insandan e"tibarlıdır. İnsan əlacsız qalanda yerindən, yurdundan çıxır, didərgin düşür. Amma milyon ildir ki, dağ-daş öz yerində yurdundadır. Sən arxayın ol. Torpaqda

əmanətə xəyanət yoxdur”. Vətəndən sonra soruşanda ki, ananı tək necə dəfn etdin, deyir atamla birlikdə. Doğrudan da, bütün həyatı boyu Vətənə elə gələcək ki, anasını dəfn edəndə atası onun yanında olub.

Hüseynbala müəllimin “Xəcalət” povesti vaxtında yazılmış, zamanın tələbi ilə uzlaşan bir əsərdir. Burda bir ailənin timsalında Azərbaycan xalqının başına gətirilmiş müsibətlər dolğunluğu ilə öz əksini tapmışdır. Əsərdə el mərasimlərindən, metaforlardan, aforizimlərdən, bənzətmələrdən ustalıqla istifadə olunur. Müəllif bu əsərlə Azərbaycan ədəbiyyatında öz sözünü dedi, layiqli yerini tutdu.

Əsərdə böyük ustalıqla qələmə alınmış hadisələrdən biri də kimsəsəiz meşədə Vətənin canavarla göz-gözə qalmasıdır. Qədim əsatirə görə, türk qurd belindən gəlmiş, qurd südü əmmişdir. Canavar dişi canavardır. Odur ki, ana öz balasına toxunmur. Sanki qorxulu gecədə ona olacaq təhlükəni sovuşdurmaq üçün onunla bir yerdədir. Canavar Vətəni yalqız buraxıb getmir. Müəllif burda mifoloji təfəkkürümüzün qan yaddaşından istifadə edir.

H.Mirələmovun böyük ustalıqla qələmə aldığı “Xəcalət” povesti obyektiv faktlarla əsaslanan, müharibənin acı reallığını özündə əks etdirən dolğun, tarixin bir əsəridir.

Müəllif əsərin qəhramanlarını ölümün pəncəsindən qurtarandan sonra onların məcburi köçkün həyatlarını qələmə alır. Vətənin ailəsi Bakı şəhərində tikintisi yarımçıq qalmış xəstəxana binasında məskunlaşıb. Burda yaşamağın öz çətinlikləri var. Yerli əhali dərdinə şərik olmaq, maddi və mə”nəvi dayaq durmaq əvəzinə, onlara yuxardan aşağı baxır. Məskunlaşdıqları yerdə heç bir kommunal şərait yoxdur. Bəladan qurtarmış insanlar yeni bəlalarla üzləşirlət. Yenə hamı ümüdsizliklər içərisindədir. Çəkdiyi məşəqqətlərdən xəstələnən Vətənin qızı Didarı xilas etmək üçün həkimin yazdığı dərmanları almağa pulu yoxdur. Xəstələnmiş Didarı yoluxmaq üçün onun yanına gələn sinif yoldaşlarının onların necə ağır şəraitdə yaşadıqlarını gördükləri üçün Didar xəcalətdən yorğanı başına çəkib ağlayır. Həyatın ağrı-acısını görməyən bu uşaq içindən sınır, sarsılır. Onun içində heç vaxt silinməyən bir xəcalət yaranır. Bu da milli keyfiyyətlərimizdən irəli gəlir. Aclığımı, toxluğumu, evin sirrini heç kəs bilməsin. Bu, Didarın xəcalətidirmi? Yox, bu, bütöv bir millətin xəcalətidir. Villalarda kef çəkib, zirzəmilərdə yaşayanlara ikrah hissi ilə baxanların xəcalətidir. O mə”sum qəzən göz yaşları onların kübar həyatlarından qat-qat üstündür. Minlərə düşmənlər var ki, qaçqın, köçkün sözünü eşitməkdənsə öz doğma kəndində ölmək daha şərəfli imiş.

Povestdə publisistik bir xətt də mövcudur. Yazıçı tez-tez Şuşada, Xankəndində, azərbaycanlılar yaşayan kəndlərdə baş verən tarixi hadisələrə toxunur.

Əsərin dili, obrazların yerli dialektə uyğun danışıq tərzləri, müəllif təhkiyəsi səlisliyi və aydınlığı ilə seçilir.

Təsvirlər canlı, obrazlar dinamikdir. Bəzi məqamlarda bu təsvirlərdə sanki bir rəssam fırçasının izləridə hiss olunur.

Hüseynbala Mirələmov povestin adını, görəsən, niyə məhz "Xəcalət"adlandırıb? Türk əxlaqı üçün ən qəbahətli günahlardan biri də xəcalətdir. El deyimlərində deyildiyi kimi "xəcalətimdən yerə girdim", "xəcalətdən ölmək yaxşıdır". Əsəri oxuyandan sonra əgər damarlarında təmiz türk qanı axırsa, özündə daxilən bir xəcalət hissi keçirirsən, içində bir intiqam hissi baş qaldırır, içindəki xəcalət buzunu əridir.

Qanı su ilə yumazlar. "Qan qan" deyib ərən babalar. Nə qədər ki, nahaq tökülən qanların intiqamını almamışıq, xəcalətliyik! Nə qədər ki, qapımızda nökərçilik edib, çörəyimizin qırıq-qurğu ilə dolanan, " türk yeqela" deyəndə tir-tir əsən çarıqlıq, ulaqlı dığalar bu gün yurdumuzda meydan sulayır, Cıdır düzündə at oynadır, xəcalətliyik!

Nə qədər ki, mənəmlik azarına tutularaq doğma Vətən torpağını vəzifə kürsüsünə qurban verərək minlərlə adamın qırğınına səbəb olmağımızı dərk etmirik, bu gündə öz şəxsi mənafeyimizi üstün tutaraq bir yumruq kimi birləşmirik, xəcalətliyik!

Nə qədər ki, on bir ildi dünyaya gələn uşağın doğulduğu kəndin yerinə "filan rayonun, filan nömrələri çadır şəhərciyində doğulub" sözü yazılır, xəcalətliyik! 5-6 ildən sonra həmin uşaq olacaq yeniyetmə. Necə deyecek ki, mən qarabağlıyam? Deyəcəklər ki, şəxsiyyət vərəqəndə yazılıb: "Ərəb çadır şəhərciyi", "Türk çadır şəhərciyi", "Aypara çadır şəhərciyi" və s.

"Xəcalət" povesti Qarabağ mövzusunda yazılmış ən dəyərli əsərdir, ən maraqlı ədəbi nümunəsidir. Hər birimizi səfərbər olmağa səsləyən bəddi əsərdir.

Yox, bu, son deyil. Povesti oxuyandan sonra yəqin ki, qeybindən hamımızn qulağına Pənahəli xanın gur, qəzəbli səsi gəlir. O, hamımızın yaxasından tutub, tələb edir: "Mən sizə əmanət vermişdim Qarabağı! Əmanətə xəyanət olmaz! Qaytarın əmanəti!"

Sonra səslər çoxalır. Bu səs Xan qızını Natəvanın, Gövhər ağanın, Ağabəyim ağanın, Mir Möhsün Nəvvabın, Vaqifin, Üzeyir bəyin, Bülbülün səsinə qatılır. Döyüşlərdə şərəflə şəhid olmuş 20 min oğlun, qızın səsi qatılır. Bu səslər Hüseynbala Mirələmovun Qarabağ mövzusunda yazdığı "Güllələnmiş heykəllərin fəryadı" essesinin söz düzümündə daha da güclənir. Povestdən doğan xəcalət hissi essedə daha qabarıq şəkildə öz əksini tapır. Yurdumuzun hər qarışını özünə doğma bilən, Vətənimizin tarixini ilmə-ilmə öyrənən bu yazıların bir sözünə belə, biganə qalmaq mümkün deyil. Onun dərd, ələm, kədər, həsrət dolu sinəsindən qopan ağrıların izinə düşür, Şuşanı bir daha gəzir, bu füsunkar gözəlliklərdən doya bilmirsən.

Bu əsər heykəllərin fəryadını əks etdiri desək, yanılmarıq. Bu fəryad düşmən tapdağı altında inləyən Qarabağımızın, amansızlıqla dağıdıb məhv edilən tarixi abidələrimizin, əsirlik ömür yaşayan məzarlarımızın fərydıdır.

Bu esse ilə müəllif sübut edir ki, dərd, həsrət heç bir çərçivəyə sığmır. İnsan öz dərdini bölüşmək üçün nəinki canlılarla, hətta daşlarla da danışa bilər və Hüseynbala Mirələmov buna nail ola bilmişdir.

Essedə reallıqdan kənar olsa da, heykəllər, ruhlar dilə gələrək Azərbaycanın ədəbi əzəli düşmənləri olan ermənilərin məkirli niyyətlərindən, əməllərindən söz açırlar, onların "şirin"yalanlarına uyaraq bir-birinin üstünə qalxan xanlar, bəylər tənqid atəşinə tutulur, faciələrimizin səbəbləri açılıb, oxuculara çatdırılır.

Xan qızı Natəvanın ruhu Şuşanın, Qaarabağın bu günün görüb, alışıb-yanır, birləşməyi bacarmayan Vətən övladlarını lə"nətləyir: "Məmləkətin bu başı ilə o başı bir-birini didməyə fürsət gəzir..." Bu fürsət gözləyənlər idi ki, bizi Qarabağsız qoydu.

Bəli, müəllif bu günümüzlə səsləşən həmin ifadəni çox gözəl tapıb. Bu gün Azərbaycanda, Azərbaycan ətrafında birləşməyə güc tapmayanlar , ölkəni məhvə doğru aparanlar, bir məslək ətrafında birləşməyənlər, ömür boyu bu xalqın lə"nət yeri olacaq!!! Gələcək nəsillər onları xatırlayıb deyəcək: "Tfu sizin üzünüzə, torpaq qoruya bilməyənlər!"

Ümumiyyətlə, essedə verilən bütün obrazların ürək yanğısı ilə söylədikləri məhz bu günkü məğlubiyyətimizin, Qarabağımızı itirməyimizin təməlini qoyan genetik nöqsamlardır. Elə o vaxt da belə olub, bu gün də. Mir Möhsün Nəvvabın ruhu yana-yana deyir: "Mən XX srin əvvəllərində yazdığım "Erməni-müsəlman davası" kitabımla yaddaşları silkələdim, başımıza gələnləri gələcək nəsillərə

çatdırdım. Heyhat, irsi xəstəliyimiz –yaddaşsızlığımız düşmənə yenidən fürsət verdi”. Yazdığımız oxumamaq, oxuduğumuzdan nəticə çıxarmamaq milli faciəmizdir.

Hüseynbala Mirələmovun “Vicdanın hökmü” pyesinin də mövzusu biləvasitə Qarabağ mövzusu ilə əlaqədardır. Pyesin qəhrəmanı Rəhman əvvəlcə bir tikə çğrək pulu qazanıb, anadan yetim qalan oğlunu və yaşlı anasını saxlamaq üçün öz sevimli peşəsi müəllimlikdən uzaqlaşıb, Rusiyaya gedir. Ancaq Qarabağın başının üstünü qara buludlar alanda o dözməyib, geriyə- Azərbaycana qayıdır. Burda vətən torpağının hər qarışı uğurunda ölüm-dirim mübarizəsinə qalxan oğullarımıza qoşularaq hələ Rusiyada ikən iyrənc xislətlərinə bələd olduğu ermənilərdən qisas alır.

Pyes bu gün orduda xidmət etməkdən qaçıb gizlənən gənclərin vətənpervərlik tərbiyəsində çox böyük rol oynaya bilər.

H.Mirələmov bütün əsərlərində olduğu kimi “Vicdanın hökmü” pyesində də milli mentalitetə, psixologiyamızın mühüm çalarlarına, el deyimlərinə üstünlük vermişdir. Anasının xəyalı Rəhmanla danışanda deyirdi ki, neynək, təki haqqın üzü səndən dönməsin. Yəni, hər şeyə qadir olmaq olar, təki haqq səninlə olsun. İnsanın nəfsi ele şeydir ki, özbaşına qoysan, səni çamura çatdırar, yox, əgər cilovlayıb istiqamət versən, fəzilət yüksəkliklərini fəth edib, kamilliyə çatdırar.

Milli psixologiyadan asılı olaraq pyesdə erməni Aşot nə qədər yaltaq, ikiüzlü, rəzil, şərəfsizdirsə, türk Rəhman bir o qədər qürurlu, sözübütov, lazım gələndə ötkəm, sərt, yeri gələndə ürəyi yumuşaq, mülayimdir. Müəllif bir-birinə zidd bu iki surətlə, iki millətin əxlaq kodeksini yaratmışdır. Bir neçə əsr bundan qabaq alman filosofu Adam Mits yazmışdır: “Ermənisən, rəzilsən, ağların ən pis qulusan”.

Ümumiyyətlə, bütün əsərlərində olduğu kimi H.Mirələmovun “Vicdanın hökmü” pyesində də əsas aparıcı mövzu vətənpərvərlik mövzusudur. E”lan olunmamış müharibənin xalqımıza vurduğu maddi, mənəvi yaralarıdır.

H.Mirələmovun çoxlu sayda həyatın müxtəlif hadisələrindən bəhs edən, yığcam, dərin mənalı hekayələri var. Hansı hadisə müəllif tərəfindən hekayə mövzusuna çevrilirsə, yenə də ön planda milli adət-ən”ələrimizi müxtəlif çalarları öz əksini tapır.

“Qayada çiçək” hekayəsində qayada tənha bitmiş çiçək insan gözünün yaşıdır. Müəllif Bəhlul Danəndənin dili ilə ünsiyyətdə olan insanların ürəyinin bir-biri ilə düz gəlmədiyinə işarədir.

Hüseynbala müəllimin fantaziyası o qədər güclüdür ki, həyatda gördüyü hər şeyi bir şey, hər bir hadisə, cansız əşya da hekayə mövzusuna çevrilir. Müəllif hamı üçün adi görünənlərin görünməyən tərəflərini oxuculara göstərir. Gördüyü bütün hadisələrə seyriç münasibət bəsləmir. Hər bir hadisəyə yazıçı marağı ilə yanaşır, onu öz bədii süzgəcindən keçirir.

"Vicdan cəzası" hekayəsində də adi bir insanın çağdaş günümzdə birtəhər yaşaması, amma naşükürlük edib, tez-tez "Allahın bu gününə də şükür" deməməsi onun bədbinliyə tez sarılıb, əlini dünyadan üzməməsinə işarədir. Bu hekayə "Vicdanın hökmü" pyesinin hekayə variantıdır. Əsərin qəhramanı Rəhman kənddə dolanışığın pis olduğunu görüb, Rusiya bazarlarına üz tutur. Orda da bəxti gətirmir. Azğınlaşıb həddini aşan Fedyanı öldürüb, Vətənə- birbaşa cəbhəyə qayıdır. Torpaq uğurunda gedən döyüşlərdə şəhid olur.

"Yeni həyat" hekayəsində bəzi gənclərin, xüsusilə, qızların geyimlərini bilməməsi, həddən artıq açıq-saçıq geyimləri müəllifin tənqid hədəfinə çevrilir.

Ümumiyyətlə, Hüseynbala Mirələmovun çoxlu sayda müxtəlif mövzulara həsr etdiyi hekayələri var. Bu hekayələr zaman baxımından müxtəlif illərdə yazılmışdır. Hekayələrdə insanı ciddi-cəhdlə, lap fədəkarlıq qorumaq istəyi var. Cəmiyyətin günahı ucbatından insan bədbəxt olursa, müəllif bunu cəmiyyətə bağışlamır.

H.Mirələmov bütün hekayələrdə milli adət-ən"ənələrə üstünlük verir, elə bir hekayəsi yoxdur ki, hansısa el məsələsinə, deyiminə, bənzətməsinə müraciət edilməsin. Müəllif ə"lahəzrət sözün bütün çalarlarından məharətlə istifadə edir.

Müəllif üçün ən başlıcası insan faktorudur, onun taleyi, keçdiyi yol, gələcəyidir.Həmişə onu düşündürmüşdür ki, axı nəyə görə insan ona qismət olan ömrü sağlam yaşamamalıdır. Müharibədə bir ayağını itirən insanın yaşadığı iztirabları biz müəllifin özünün iztirabları kimi qəbul edirik ("İzlər" hekayəsi). Müəllif hekayəsində həyatın bütün ağri-acılarını baxmayaraq, onun gözəlliyini, yaşarlığını ən başlıcası inandırıcı verə bilir: "Ətraf aləm aşağıda qalmışdı. Burdan hər şey- lap mazutlu gölməçələr də, çirkab bataqlıqlar da, urbanizyasının ucqar dağ kəndlərindən qovub gətirdiyi adamların tikdiyi gecəqondu, eybəcər evlər də - hər şey gözəl görünürdü.

Dağın adı Zində idi. "Zində" sözünün mənası ağlayan deməkdir. Bu çiçəklər qayanın göz yaşından su içib göyərmişdi. ("Qayada çiçək" hekayəsindən).

Gözəl ifadədir. Hələ nə dünya, nə də Azərbaycan ədəbiyyatında qayanın göz yaşları ifadəsində rast gəlməmişik. Deməli, bu yerlər, məmləkət o qədər kövrəkdir

ki, bu yerin lap qayalarının da göz yaşları var. Lap bu yerlərdə danışdırsan, qayalarda dillənər.

Müəllifin yaradıcılığını izləyəndə, onun ayrı-ayrı vaxtlarda qələmə aldığı hekayələri təhlil edəndə cəmiyyətin taleyi üçün daim narahat olan, bineyi-qədimdən aram olmayan dünayadan nigaran qalan, eyni zamanda bu narahatçılığının da, nigarançılığının da məsuliyyətini dərk edən bir ziyalı mövqeyi görünür. O hiss edir ki, cəmiyyətdə baş verən faciələr, qanlı inqilablar, müharibələr üçün məsuliyyət bölünürsə, onun payına az düşəcək. Bədii sözün məsuliyyəti nədir? İnsana kömək etmək, onun xilasına rəvac vermək, onu daxilən kamilləşdirmək. Aristotel "katarsis" (mənəvi təmizlik) deyəndə nəyi nəzərdə tuturdusa, min illər keçməsinə baxmayaraq, həmin hökün bu və ya digər dərəcədə öz qüvvəsində qalır. Sözün missiyası elə odur. Bəzən deyirlər ki, bədii əsər oxunmur, ya da az oxunur. Əlbəttə, belə deyil. İnsanı öz içindən tərpədən, onun öz varlığını açıb göstərən bədii əsərlər həmişə oxunub, bu gündə oxunur. Füzulinin 500 il bundan qabaq qələmə aldığı misralaro vaxtkı insanları necə təsvir edirdisə, bu gündə eləcədir. Demək, dəyişən zamandır, elə insan həminki insandır. Bədii əsər oxumursa, heç yerini də bilməz.

H.Mirələmovun hekayələrindəki azadfikirlik, sərbəst bədii manevrlər, habelə cəmiyyətin ən müxtəlif zümrələrindən "xammal" götürmək bacarığı istər-istəməz ədəbiyyatımızın məşhur 60- cılar fenomenini yada salır.

Müəllif fikirindəki orjinallıq, diqqət çəkən əsas cəhət nədir? Ümumiyyətlə, Azərbaycan nəsri, xüsusilə, hekayə janrı sovet dövründə, əsasəndə son 40-50 ildə sürətlə inkişaf yolu keçib. Bu inkişafı kifayət qədər çap olunan nəsr yaradıcılığı nümunələrində, ədəbi-bədii publistikada da görmək olar. Eyni zamanda Sovet hakimiyyətinin süqutu, rejimin dağılması ilə adabiyyatın qarşısında qoyulan proqramlı, planlı və ideologiyalı tələblər də "arxivə" getdi.

Bir sözlə, qəzet və kitab bolluğu içərisində nə itiririk, nə qazanırıq? Dəyərli sözü tuta nilənlər üçün narahatlığa əsas yoxdur. Sovet hakimiyyəti illərində ideologiya daşıyıcıları narahat ola bilərdilər. Çünki söz ən qüdrətli sarayları belə, dağıda bilərdi. Azad və demokratik cəmiyyətdə isə azad söz cəmiyyətin mənəvi inkişafına təkan verir, onun yaralarına məlhəm olur. Bu gün üçün çox müasir səslənən "Qara xal" hekayəsinin sonluğuna diqqət edək: "Əməliyyat uğurlu keçdi. Xəstəxanadan çıxıb evə yollananda qulaqlarımda bir səs guruldadı:

- Bir ovuc sərvət, bir qarış torpaq üçün qanlı müharibələr törədənlərə lənət!

H.Mirələmov hekayələrində psixoloji tufan və təlatümlər yaradıb, ədəbi qəhramanın zamanın əxlaqi-mə”nəvi dəyərlərinin sınağından keçirir və oxucuya sevdirir (“Qasırğa tez keçdi”, “Qara göl” hekayələri). Çox səmimiyyətlə deyirəm, bu hekayələrin hamısı demək olar ki, məni titrədib. Hüseynbala Mirələmov xalqın psixalogiyasını çox gözəl bilən bir söz mühəndisidir. Neçə illər bundan əvvəl işlədilib və indi unudulan ifadələri, aforizimləri, bənzətmələri elə yerində işlədir ki, söz yerinə düşür.

Mən də bir oxucu kimi, müəllifin fikirləri ilə şərik olub, inanıram ki, qayalarda çiçək bitəcək. İnsan sözə hörmət və ehtiramı, qələm və onun sahibinə sədaqəti illərlə qoruyub-saxlayırsa, “qayada çiçək” mütləq bitəcək. Qayada bitən çiçək insanlığı biganəlikdən, nadanlıqdan xilas edəcək!

Nəhayət, Hüseynbala Mirələmovun bədii-publistik yaradıcılığının zirvəsi olan “Amalın işığında” publisistik düşüncələrə, portret cizgiləri, müsahibələr toplusu qarşımızdadır. Kitabı vərəqlədikcə dahi bir şəxsiyyətin, qüdrətli sərkərdənin ömrünün son otuz ilini xalq yolunda şam kimi əridən bir millət fədaisinin ömür yolu, apardığı uğurlu xarici və daxili siyasət gözlərimiz qarşısında canlanır. Müəllifin bu ədəbi qəhramanı Azərbaycanın, eləcədə türk dünyasının çox böyük oğlu- Vətən adlı, Azərbaycan adlı evlərimizin, mə”nəviyyatımızın böyük sütunu, sarsılmaz dirəyi Heydər Əliyevdir.

Amal sözünun izahlı lüğətlərdə mənası əməl sözünün cəmi kimi şəhər olunsa da, “qayə, məqsəd, ümid, dilək” ifadə etməsi göstərilir.

Müəllif Azərbaycanın tarixinin taleyində müstəsna yeri və rolu olan böyük bir şəxsiyyəti amal olaraq qəbul edir, bu məqsədin, arzu və diləyin işığında onunhəyat yoluna nəzər salır. Qarşısında çox uca və əlçatmaz bir dağ görünür. Yazıların çox böyük əksəriyyəti, ayrı-ayrı vaxtlarda respublika mətbuatında, müxtəlif qəzetlərdə dərc olunub. Müəllifin Azərbaycan Prezidentinin çağırışlarına haray vermək, onun ideyalarına dəstək vermək hissi hər sətirdə duyulur.

H.Mirələmov istər obrazın daxili aləmini təsvir edəndə, istərsə də öz mövqeyini bildirəndə quru, sxolostik təqdimat yolu seçmir. Faktlar mənalandırır, bədii müqayisələr aparır, öz fikirinin bədii təsdiqini tapır. Bu zaman oxucunun da yaddan çıxarmır. Oxucusunun əks arqumentlərində də cavab verməyə çalışır. Demək olar ki, ziddiyyətli, qaranlıq yer qalmır. Oxucu sözün səmimiyyətini qəbul edir. Ürəkdən gəldiyini duyur. Bu səmimiyyət bir də müəllifin dili ilə bağlıdır. Şirin, qəbuledici, ürəyə yatımlığı oxucunu yormur. Əksinə, oxucuya kömək edir, dəyişən səhnələrdən onun əlindən tutur, yarı yolda qalmasına imkan vermir. Toplunun ilk yazılarında olan “Ədalət hər işdə haqqı bilməkdir” publisistik düşüncələrində sanki toplu boyu danışacağı mətləbləri obrazlı şəkildə, ancaq çox

yığcam bildirir: “ Milyon ildən bəri bəşər nəsli ulu əcdadlarımızdan miras qalmış didişmə-çəkişmə qarşı mübarizə aparır, insan qanı axıdılmasına bais olan ideyaları və bu ideyaların daşıyıcıları olan ideoloqları lə”nətləyir, sülhü, əmin-amanlığ tərənnüm edir. Böyük filosof, şair Hüseyn Cavid də elə bunu əsas tutaraq yazırdı:

**“Kəssə hər kim tökülən qan izini,**
**Qurtaran dahi odur yer üzünü”.**

Bu mənada mən bircə körpənin də burnunun qanamasına razı ola bilmərəm.

Bəli, Azərbaycan tarixi hamilə idi. Bu vaxt tarixi xalqa - başı bəlalar çəkmiş Azərbaycan xalqına Heydər Əliyevi yenidən doğmaya bilməzdi.

O, çətinlikdə də olsa, Azərbaycana qayıdır. Ata-baba ocağına gedir. Fəlakət içində olan Naxçıvanı xilas edir. Azərbaycana uzanan əlləri görür. Bədxahlıq, hakimiyyət hərisliyi onun yolunu qapayır. Ancaq baş verən olaylar elə faciəli məqamlara çatır ki, xalqın çağırışına hay verməmək mümkün deyil. Səhv etmirəmsə, böyük təriqət ustalarından Hacı Bəkdaş Vəlidən gəlmə bir kəlam var:

“Ayağa qalxacaqsan, bizim üçün qalx”. Bəli, o millər üçün, xalq üçün Vətən üçün qalxdı. Və tarixi öz yoluna qaytardı. Bəli, boş bir harayla Azərbaycanı uçurumun başına gətirənlər yox idi. Qaçıb dağılmışdılar. Yaralanmış, parçalanmış, Qarabağı kəsilib götürülmüş Vətən qalmışdı. İnsanları çadırlarda, yataqxanalarda sığıncaq tapan, səfalətə düçar olan Vətən, çarəsiz qalan xalq hər şeyə lənət oxuyurdu. Müstəqilliyi, azadlığı gözündən salınan xalq!

Ədəbiyyatda nə vaxtsa Nizaminin, Fizulinin, Nəsiminin, Sabirin, Mirzə Cəlilin unudulmağına inanan tapılmaz. Çünki az-çox dərk etməyi bacaran hər kəs yaxşı bilir ki, o müdriklər insanın mənəviyyatını, onun qüdrətini, böyüklüyünü, sevgisini özünəxas dahiyanəliklə verə biliblər. İnsan yaşadıqca onun ali hissləri də yaşayır. Azərbaycan xalqı özünün yetirdiyi böyük oğlunu sevib, həmişə də sevəcək. Bu toplu da əslində, həmin sevginin təzahürüdür.

Antik yunan qəhramanlarından biri- Antey gücünü torpaqdan alırdı. Nə qədər ki, onun ayaqları yerdəydi, o yenilməzdir, məğlubedilməzdir. Heydər Əliyev fenomeninin də sirrini onun xalqa bağlılığında axtarmaq, burda görmək lazımdır.

Əlbəttə, Azərbaycan Prezidenti haqqında çox kitablar yazılıb, filimlər çəkilib, şübhəsiz, bütün bunlar hələ gələcəkdə yazılacaq əsərlərlə müqayisədə hələ çox azdır”.

Hüseynbala müəllimin böyük insan haqqında bu publisistik yazıları yazmağa tam haqqı var. Ümumiyyətlə, biz elə bir qənaətə gəlmişik ki, hər hansı əməl üçün şəxsin gərək mə”nəvi haqqə olsun. Bu mənada dediyimiz kimi H. Mirələmovun “Amalın işığında” yol getməyə həm də mə”nəvi haqqı var. Çünki o yolu işıqlandıranlardan biri də özüdür.

“Amalın işığında” publisist yazılar toplusu böyük zəhmətin, amalın, o yolun yolçusuna məhəbbətin və sevginin təzahürüdür. Halal zəhmətdənbəhrələnən əməl məhəbbət və sevidən qidalanırsa, əbədiyaşarlıq haqqı alır.

## “XƏCALƏT” – XƏCALƏTLİ GÜNÜMÜZÜN GÜZGÜSÜ

Hörmətli Hüseynbala Mirələmov! “Xəcalət” povestinizi yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boğdu, göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnətməkanı Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə, o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq (Mənim bu barədə “Utanıram” adlı şeirim var). Əsərinizlə məni bir daha utandırdığınıza görə, Sizə təşəküelərimi bildirir, axıra qədər oxuya bilmədiyimə görə Sizdən üzr istəyirəm, əfv edin, təsvir etdiyiniz o dəhşətli səhnələri yaşamaq qəlbi və vicdanı olan hər kəs üçün çox ağırdır.

Təsvir etdiyiniz hadisələri artıq tarix olmuş olsaydı, bəlkə də, onu axıra qədər oxuya bilərdim. Amma oxuduqlarım tarix deyil, günümüzün reallığıdır. Qışın sazağında, damı dəlik-deşik olmuş cırıq çadırlarda, əsasən, Didarlar yaşadığım bu günün görpələridir. Axı mən bunu bilir, lakin onlara kömək əlimi uzada bilmirəm. İstəyirəm, amma o imkanın sahibi deyiləm. Bu, bir həqiqətsə,mən özümü hansı haqla bu millətin xalq şairi hesab edə bilərəm? Bu ad mənə Didarlar doğulmamışdan əvvəl – qədirini bilmədiyimiz xoşbəxt günlərdə vermişdi. Çadır şəhərciklər qurulandan sonra mən nəinki bu torpağın xalq şairi, heç adi vətəndaşı olmağa da layiq deyiləm.

Demək, Siz məni bir daha utandırmaqla, ürəyinizdə göynəyib, yazıya köçürülən dərdinizi oxucuya çatdıra bilmək məharətinizlə məqsədinizə nail olmusunuz. Bu isə yazıçılıqda da əsas şərtdir.

Yox, qardaş, “ikinci dərəcəli” vətəndaşlara çevrilən bacı-qardaşlarımızın dəhşətli və dözüləmz həyatını mənə göstərdiyiniz bu mərsiyə kitabını sona qədər oxumağa mənim xəstə ürəyim tablamaz. Qardaş və bacı dediklərim bu gün o

dəhşətli həyatı yaşaya bilir, mən isə həyatı mənə göstərən kitabı axıra qədər oxuya bilmirəm. Daha doğrusu, isti aşıma su qatmaq istəmirəm.

Bəli, bu millətin övladları olan bizlər Qarabağ torpağının yetirib, bütün türk dünyasına bəxş etdiyi Üzeyir bəylərin, Niyazların, Bülbüllərin ruhu qarşısında günahkarıq. Sizin dediyiniz kimi,biz bizdən sonra gələn nəsillərin qarşısında gözükölgəli, başıaşağı, günahkarlarıq. Günahkarıq bir də ona görə ki, biz yalnız torpaq yox, torpaqla bərabər, namusumuzu, şərəfimizi vermişik, geri almaqda isə deyəsən, gələcək nəsillərə ümid edirik.

Allah o günü bizə göstərsin ki, mən kitabınızı keçmiş bir tarix kimi axıra qədər oxuya biləm və oxuduqcada ürəyimdə Allaha şükr edem ki, artıq Qarabağ geri alınıb, qaçqınlarımız öz yurd-yuvasına qayıdıb, bu müqəddəs ocaq ermənin nəinli ayağından, havasından belə, təmizlənib.

Siz də xəcalətdən qutaran bir yazıçı-vətəndaş kimi, vüqarımızdan, başıucalığımızdan, qüdrətimizdən yazırsınız.

Ancaq halva-halva deməklə, ağız şirin olmur. Bunun üçün bizə Üzeyir bəyin "Koroğlu" operasının uvertürasındakı əzmkarlıq, qəhramanlıq və fədəkarlıq lazımdır. Mən bu günə Koroğlunu yetirən xalqımıza və onu səhnəyə gətirən oğullarımızın varlığına inandığım qədər inanıram.

Bir də tamam başqa sahənin adamı olan Hüseynbala Mirələmov kimi bir oğul əgər Qarabağ dərdimizi ustad yazıçı səviyyəsində qəlımı ala bildisə, bu millətin qüdrətinə inanmaq mümkün deyil.

**Dərin hörmətlə:**
**Bəxtiyar VAHABZADƏ**

## "XƏCALƏT"- XƏCALƏTLİ GÜNÜMÜZÜN GÜZGÜSÜ" KİMİLƏRİ XOFLANDIRIR VƏ YAXUD XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ AÇIQ MƏKTUB

Çox hörmətli Bəxtiyar müəllim! İkinci dəfədir ki, Sizə məktubla müraciət edirəm.Yaxşı yadımdadır və inanıram ki, Siz də unutmamısınız. 1991-ci il oktyabrın 25-də "Qarabağ" qəzetinə, şəxsən mənə ünvanladığınız "İşıq gətirin" adlı məktubunuzda yazırdı: "Qəzetinizi ürək ağrı ilə oxuyuram. Qəhər məni boğur,

səhifə əlimi yandırır, gözlərim sərlövhələr içində xoş bir xəbər axtarır, tapa bilməyəndə canımı qoymağa yer tapmıram. Sizi qınamıram. Çünki qəzetiniz bu günkü həyatımızın aynasıdır. Həyatın eybəcərliyini ayna düzəldə bilməz ki?!

Siz odun-alovun içində hər gün üzləşdiyiniz min cür təhlükəyə məhəl qoymadan bu günlərin tarixini yaradırsınız.

Əziz həmkarlarım, Sizdən bir ricam var. Ricamı deməmişdən əvvəl çətinliyini bilirəm. Amma yenə sözümü deyirəm: Oxucularınıza iynə gözü qədər olsa da, işıq verməyə çalışın. Şuşa camaatının, ətraf kəndlərimizin nə çəkdiyini yaxşı nilirəm. Çəkdiklərinizin bir ucu bizim qəlbimizdir. Bununla belə, yenə ümiddən əl çəkməyin. Oxucularımızdan qığılcım kimi yanıb-sönən işığınızı əsirgəməyin.

Bəlkə, deyəcəksiniz ki, işıq heç yoxdur,əgər yoxdursa, onda təsəlli üçün uydurun, çünki işıq işıq gətirər".

O vaxt mənsə "Qarabağ" qəzetinin 28 noyabr 1991-ci il tarixli nömrəsində Sizə "Açıq məktub"la cavab yazmışdım. Həmin məktubdan bir neçə sətir olduğu kimi vərəqə köçürürəm:

"Torpağımız oda, alova bürünüb, qan gölündə, zülmətdə boğulur. Sovet ordusunun və erməni silahlı birləşmələrinin birgə apardıqları əməliyyatlar nəticəsində Qarabağ hər gün boşaldılır. Polyaniçkonun bu günlərdə saxta "təəsüf hissi" ilə dediyi ifadələri xatırlayıram: "Tuğ, Xocavənd, İmarət-Qərvənd, Salakətin... boşaldı. Deməli, bizə qalan Xocalı və Şuşadır". Saxta "təəssüf", böyük "təəssübkeşlikdir". Xocalı-Əsgəran-Noraguğ, Şuşa-Stepanakert-Şüşükənd-Muxtərə döyüşlərini hər gün rus əsgərləri başlayır. Sonuncu göy və ya qırmızı işıqlı fisəngləri də onlar atırlar.

İndi Dağlıq Qarabağ, Laçın, Kəlbəcər, Ağdam, Tərtər, Füzuli, Cəbrayıl, Qazax, Goranboy tanklarını, BTR-lərin, minomyotların, pulemyotların və raketlərin işığında hədəfə çevrilib. O ölüm saçan işıqlar tüstümüzü göylərə bülənd edir. Moskva erməni və imperiya "işığ" salır üstümüzə.

Bu gün Vətənə (məktubda Heydər Əliyev kimi oğul gərəkdi yazılsa da, o vaxt senzor "Heydər Əliyev kimi" sözlərini ixtisar etmişdi) oğul gərəkdi. O oğul ki düşmən üstünə od kimi parlaya bilən qılınc sıyıra! O oğul ki millətin qəddini dikəldərək ordusuna sərkərdəlik edə bilə! Azərbaycan adlı məmləkət (Heydər Əliyev kimi – red.) oğula möhtacdı, Bəxtiyar müəllim!"

Ulum, ustadım, bütün bunlar düz 11 il əvvəlin söhbətidi. O vaxtlar erməni qədər qatı və qəddar düşmənlər öz içimizdə də pərvəriş tapıb yetişdirmişdir. Onlar və"d edilmiş kürüslər naminə millət, qeyrət, torpaq hissini itirmişdilər. Yarasalar kimi işıqdan qorxurdular, qaranlığ, dumanlığı, bulanlığı istəyirdilər. Belədə Qarabağımızı düşmənlərə ərmağan etmək daha asan idi.

Heyhat, xalqımız bu gün də naqislərdən, milli xəyanətkarlardan, Qarabağa düşmək istəyən işığa barmaq tıxmaqdan həzz alan, hətta o torpağın adı gələndə alergiya xəstəliyinə tutulanlar çoxdur. İş o yerə çatıb ki, onlar Qarabağ mövzusunun ədəbiyyata yenidən gəlişindən ötrü darıxırlar. Darıxırlar ki, indiyə kimi qaranlıq qalan çox mətləblərin üstünə işıq düşər. Belə əsərlərdən biri yazıçı Hüseynbala Mirələmovun son vaxtlar mətbuatda çixnaşma yaradan "Xəcalət" povestidir.

Sizin Hüseynbala Mirələmova ünvanladığınız və "525-ci qəzet"in 31 oktyabr 2002-ci il tarixli nömrəsində dərc etdirdiyiniz "Xəcalət" – xəcalətli günümüzün güzgüsü" adlı məktubunuzu diqqətlə oxudum: Hörmətli Hüseynbala Mirələmov,"Xəcalət" povestinizi yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boğdu, göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnətməkan Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq. (Mənim bu barədə "Utanıram" adlı şeirim var). Əsərinizdən məni bir daha utandırdığınıza görə Sizə təşəkkürlərimi bildirir,axıra qədər oxuya bilmədiyimə görə Sizdən üzr istəyirəm, əfv edin, təsvir etdiyiniz o dəhşətli səhnələri yaşamaq qəlbi və vicdanı olan hər kəs üçün çox ağırdır...

Demək, Siz məni bir daha utandırmaqla, ürəyinizdə göynəyib yazıya köçürülən dərdinizi oxucuya çatdıra bilmək məharətinizlə məqsədinizə nail olmusunuz. Bu isə yazıçılıqda əsas çərtdir".

Bəli, bunlar Sizin, xalq şairi, millət vəkili, əlinə qələm aldığı gündən xalqının dili, torpağı, mənəvi-əxlaqi dəyərləri keşiyində Fərhad kimi külüng çalan Bəxtiyar Vahabzadənin fikirləridir.

Bəs adını jurnalist qoyub, yağışdan sonra göbələk kimi çıxan, ictimai-siyasi mühitdə yalnız dolaşıqlıq yaradan və yaxud hansısa partiya orqanı olmaqdan rahatlıq və məmunluq duyan, nəşrində,yayımında heç bir problemlə üzləşməyən, hətta mənsub olduğu partiyanın daxilində quruplaşma ideoloqu kimi tanınan qəzetlər, redaktorlar və jurnalistciklər nə fikirdədirlər?

"SPASE" telekanalı evvəlki verlişində Yazıçılar İttifaqı Bədii Ədəbiyyatı Təbliğ Bürosunun "Milli- mənəvi qayıdışı təbliğ edən və Qarabağ mövzusunda yazılan ən yaxşı bədii əsərlər üçün təsis etdiyi "Yaddaş" birinci mükafatını almış Hüseynbala Mirələmovun "Xəcalət" povesti barədə gen-bol söhbət açdığı halda, son verilişlərinin birində bu uğura kölgə salaraq müəllifin zavod direktoru olmasına təəssüfləndiyini bildirir.

“Reytinq” qəzetinin Bahar adlı yazarı isə baş mükafatın Qaz Emalı Zavodunun direktoru Hüseynbala Mirələmova verilməsində Azərbaycan Yazıçıları Birliyini günahlandırır, əsəri oxumadığı halda, məntiqsiz, dolaşıq fikirlər söyləməkdən belə, çəkinmir.

Kəbutər adlı birisi isə “Yeni Azərbaycan” qəzetində hirsini, hikkəsini “Qarabağ” qəzetinin üstünə tökməklə yüngüllük tapır. Hətta utanıb-çəkinmədən öz xisləti, əqidəsi müqabilində “Qarabağ”ı gərəksiz bir qəzet adlandırır. Yeni Azərbaycan Partiyasının orqanı olan “Yeni Azərbaycan” qəzetinin “Qarabağ”a belə münasibəti yalnız təəssüf doğurur.

Bu qəbildən olan yazılardan biri isə “A.O.” imzası arxasında gizlənən müəllifin qələmi ilə “Ədalət” qəzetinə yol tapmışdır. “A.O.” yazır: “Əsas mükafat (nədən ibarət olması mətbuatdan gizli saxlanılır) “Xəcalət” adlı povestə görə Qaz Emalı Zavodunun direktoru (!!!-İ.D.) Hüseynbala Mirələmova verilib. Sən demə, Hüseynbala Mirələmov eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvü imiş. Mükafata komissiyası onu bu cür qələmə verir. Lakin Yazıçılar Birliyinin “Soraq kitabçısı”nda belə bir yazıçının adına rast gəlmədik.”.

Yeri gəlmişkən, “A.O.” bilməlidir ki, həmin əsərə verilən mükafat üçün göynəməyə dəymaz. Mükafatın nə özü, nə də adı”A.O.” –nun imzası kimi heç kimdən gizli saxlanılmayıb. At füquru müəllifə murad simvolu kimi təqdim olunub. Hüseynbala Mirələmovun yazıçılığına gəldikdə isə, indiyə kimi onun “Tənha durna” (1986), “Qayada çiçək”(2001), “Amalın işığında”(2002), “Xəcalət”(2002), kimi əsərləri çap olunub. Arxiv tökməyə ehtiyac ehtiac qalmaması naminə isə elə bu məktubda Yazıçılar Birliyi tərəfindən ona verilən vəsiqənin nömrəsini xatırladıram: N727

Bəxtiyar müəllim, “Xəcalət” povestinə ön sözü tənqidçi dostum Vaqif Yusifli ilə birgi yazmışıq. Sizə bu məktubu yazmaqda isə məqsədim heç də Hüseynbala Mirələmovu müdafiə etmək deyil. Ancaq ədalət naminə deyim ki, “Xəcalət”i oxuyandan sonra o məşəqqətli, müdhiş günləri yenidən yaşadım. Yandırılan, yerlə-yeksan edilən Göyçənin, Zəngəzurun, Şuşanın, Meşəlinin, Xocalının, Ağdamın, Laçının, Ağdərənin, Zəngilanın, Füzulinin, Kəlbəcərin, Cəbrayılın faciələrə düçar olunmuş bir milyondan çox günahsız insanları ilə nəfəs-nəfəsə, baş-başa qaldım. İmperiya cəlladları Qorbaçovların, Yeltsinlərin, Voliskilərin, Polyaniçkoların, ümumiyyətlə, Qarabağda törədilən soyqırımlarına şərait yaradan, rəvac verən xəyanətkarların iyrənc simaları ilə təkrar qarşılaşmalı oldum.

Uşağına, qocasına və xəstəsinə aman verilməyən o kəndi Xocalım, Meşəlim bildim. Vətənin qətlə yetirilmiş anası Yaxşı həm də mənim anamdır. Meyidlərin arasındakı “80 yaşlı qoca hər yerdən əli üzüləndən sonra son ümidini zoğal

ağacından düzəltdiyi çəliyinə bağlamış, onu doğması, əziz kimi sinəsinə sıxmış" Allahverdi kişi tanınmış şair Ələmdar Quluzadənin atasıdır.

Əsərdə təsvir olunan hər dağ, hər cığır, hər oymaq doğulub boya-başa çatdığım yerlərdir. Bağırqan dağının sinəsindəki güllər hələ 1905-ci ildə babalarımızın erməni daşnakları tərəfindən axıdılmış qanından rəng alıb. Ölkənin ilanmələyən düzlərindəki çadır viranəliyində, Bakıdakı və rayonlardakı rütubətli yataqxanalarda, uşaq bağçalarında sığıncaq tapmış Vətənlər qardaşımdır, Fərqanələr anam, bacımdı, Didarlar övladlarımdır. Dostlar, doğmalar arasında qaçqın, köçkün adı ilə damğalanan mənəm! Mənim dərdlərim, faciələrim barədə yazılan əsərdən isə yalnız mənim düşmənlərim xoflana bilər və bu, həqiqətdə də belədir.

Bəxtiyar müəllim! Mən Hüseynbala müəllimlə 1988-ci ilin o müdhiş fevral günlərindən – ermənilərin Qarabağ iddiası başlanan gündən tanışam. O dövürdən başlayaraq Dövlət Yanacaq Komitəsinin sədr müavini, sədr əvəzi işlədiyi illərdə Qarabağ kənd-kənd, qəsəbə-qəsəbə, gəzib. Erməni və rus vəhşiləri tərəfindən söndürülən çıraqlara, ocaqlara işıq paylayıb. Dəfələrlə ölümlə üz-üzə, göz-gözə, dayansa da, insanlara köməyini əsirgərməyib, Qarabağ elinin xeyir-şər məclislərinin iştirakçısı olub. Hamını- el ağsaqqallarını, el ağbirçəklərini, yaxşı tanıyıb, torpaq uğurunda qanından, canından keçmiş şəhidlərimizlə çiyin-çiyinə olub. Bütün bunlara görə son mükafatını qaragürubçular işdən çIxarmaqla veriblər.

"Xəcalət" povesti də o doğmalığın, dərin yazıçı müşahidələrinin, ürəkdə yaşanan dərdlərin bədii ifadəsi kimi meydana çixib.

Bəli, Hüseynbala müəllim zavod direktorudur. Bu, onun tutduğu vəzifədir. "Xəcalət" povesti isə vətəndaşlıq, yazıçılıq borcunun təzahürü, xalqına, Vətəninə, bayrağına, gerbinə, dövlətinə sədaqətlə xidmət edən Azərbaycan oğlunun ürəyinin qanı ilə yazılmlş dəyərli əsərdir.

"Xəcalət" doğma yurdu, Qarabağı qoruya bilməmək **XƏCALƏTDİR.**

Bu, Azərbaycanın ağır günündə xalqın sınaqdan çıxmış uzaqgörən liderini vaxtında köməyə çağırmamaq **XƏCALƏTDİR**.

Bu, övladının daxili iztirablarına cavab verə bilməməyin, dost köməyinə vaxtında çata bilməməyin **XƏCALƏTDİR.**

Nəhayət, bu, həm də övladlarının törətdikləri cinayətlərə görə, gələcəkdə bəşəriyyət qarşısında cavab tapa bilməyəcək erməni xalqının **XƏCALƏTİDİR.**

Bu dəyərləri əsərə verdiyiniz dəyərli qiymətə görə Sizə minnətdaram, Bəxtiyar müəllim!

**Dərin hörmətlə, Əli Mahmud**

## “XƏCALƏT”İN MÜZAKİRƏSİNDƏN QEYDLƏR

Artıq bir neçə vaxdır ki, yeni işıq üzü görmüş bir kitabın adı dillərdən düşmür. Kiminlə ünsiyyətdə olursansa, ondan danışır, onun bu günümüz üçün nə qədər lazımlı bir bədii əsər olmasından söhbət açır. Bu kitab Qarabağ muharibəsinin bugünkü məqamında ən dəyərli bir vasitə kimi xalqın, millətin qan yaddaşını oyanmasında böyük rol oynamaqla bizi unutqanlıq mərəzindən xilas olmağa məcbur edən, əbədi və və əzəli düşmənimiz olan ermənilərin iç üzünü, əsl simasını açan, həcmcə o qədər böyük olmasa da, məna etibarı ilə onlarla kitabın görə bilmədiyi işləri görən. Edə bilmədiyi təsiri edən, trilogiyalara bərabər bir kitabdır desək, yanılmarıq. Biz buna əminik və inanırıq ki, kitabı oxuyan hər kəs özünü əsərin qəhrəmanlarının yerinə qoyaraq 1988-ci ildən bəri başımıza gətirilən müsibətlərə, düşdüyümüz vəziyyətə, bir ovuc erməni dığasının əlində aciz qaldığımıza görə **XƏCALƏT** çəkir. Bu hissi oyadan kitab yalnız dahi söz ustasının qələmindən çıxa bilər. Bəlkə də, çox şişirdirik, hissə qapılırıq, aludəçiliyə varırıq, bilmirik. Ancaq ötən həftə Bakıdakı M.Ə. Sabir adına Pedaqoji Kollecdə keçirilən müzakirələrdən sonra tam əmin olduq ki, bu, təkcə bizim yox, bütün oxucuların fikridir. Çoxlarının yalnız bacarıqlı rəhbər, işgüzar mühəndis, alim kimi tanıdığı, əslində, bunların hamısından çox və hamısından yüksəkdə dayanan yazıçı Hüseynbala Mirələmovun “Xəcalət”kitabıdır haqqında danışdığımız ecazkar sayılan əsər.

Təkcə onu demək kifayətdir ki, kollecdə keçirilən müzakirəyə dəvət olunanlardan qat-qat çox oxucu toplaşmışdı bura. Zalda və foyedə ayaq basmağa yer yox idi. Bir neçə saat davam edən tədbir ərzində nə oturanlar, nə də ayaq üstə duranlar yorulmaq nə olduğunu hiss etmirdilər. Danışmaq, kitab haqqında isti sözlər

demək, başlıcası isə belə gözəl əsərə görə müəllifi təbrik edib, əlini sıxmaq istəyənlərin sayı bilinmirdi.

Tədbirdə millət vəkilləri Elman Məmmədov, Bahar Muradova, Hadı Rəcəbli, Kərəm Əliyev, Xanhüseyn Kazımlı,Eldar İbrahimov, Qadın problemləri üzrə Dövlət komitəsinin sədri, professor Zəhra Quliyeva, sədr müavini, müəllifin müəllimi Dilruba Camalov, Yasamal rayon İcra Hakimiyyətinin başçısı Azər Əliyev,YAP-ın Yasamal rayon şöbəsinin sədri, Polşanın və Fransanın ölkəmizdəki səfirliklərinin və Dövlət Təhlukəsizlik Komirəsinin, Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyinin,Respublika yazıçılar Birliyinin nümayəndələri, kitabın naşiri Əlican Əliyev, elm və mədəniyyət xadimləri, gənclər iştirak edirdilər.

Tədbiri pedaqoji kollecin direktoru Nurlanə Əliyeva açaraq hamını salamladı, yazıçı-alim Hüseynbala Mirələmovun yaradıcılığındanətraflı danışdıqdan sonra oxucu müzakirəsinə çıxarılmış kitaba daxil edilən “Xəcalət2 povestinin bu günümüz kəsb etdiyi mahiyyəti, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyyə olunmasında oynayacağı böyük rolu, yaxın tarixiizin qanlı səhifəsi olan Xocalı faciəsinin ustalıqla və geniş əks etdirilməsini yüksək qiymətləndirdi.

Daha sonra “Güllələnmiş heykələrin fəryadı” essesində istifadə olunmuş yeni ədəbi metoddan – daşların və ruhların danışdırılmasında bu günə qədər Mir Möhsün Nəvvabdan başqa, heç bir qələm saibinin istifadə etmədiyini vurğulayan Nurlanə xanım çox gözəl qeyd etdi ki, esse müəllif tərəfindən elə gözəl qələmə alımışdır, elə tarixi faktlara istinadən edilmişdir ki, bunu yalnız Qarabağın tarixinə yaxından bələd olan söz ustası edə bilər. Deməli, Hüseynbala müəllim təkcə bir yazıçı kimi yox, həmdə tarixçi kimi böyük bir iş görmüş, tariximizi bizə xatırlatmışdır. Möhtərəm prezidentimiz Heydər Əliyevdən sitat gətirən Natiq dedi:

- Tarixi unutqanlıq millətin ruhunu öldürür. Hüseynbala Mirələmovun ”Xəcalət” kitabı bu baxımdan bizim yaddaşlarımızın pasını açaraq onu yenidən oyatdı, ruhumuza ölməzlik verdi.

Nurlanə xanım görüşü açandan sonra muğam üçlüyünün ifasında “Qarabağ şikəstəsi”səsləndi. Bu, hamını xəyalən Qarabağlı günlərə apardı. Göz önünə Cıdır düzü, Dovtələb,Kirs,Turşusu,Topxana meşəsi, Damcılı bulağı, İsa bulağı, tariximizin şəhərə çevrilmiş yaddaşı olan Şuşa, alınmaz qalamız Laçın Qarabağın qeyrəti, vüqarı sayılan Ağdam, təbiətin min bir naz ilə yaratdığı Kəlbəcər, igidlər yurdu Qubadlı, gözəlliklər məskəni Cəbrayıl, Zəngilan, Fizuli gəldi. Sanki at belinə qalxıb, bu yerlərin seyrinə çıxmışdı hamı. Yanaqlardan üzü aşağı damlalar yuvarlanırdı...

Sonra çıxışlar başlandı. Kollecin ədəbiyyat müəllimi, əslən işğal altındainləyən Kəlbəcərdən olan Təhminə Əsgərova həm “Xəcalət” povestinin həm “Güllələnmiş heykəllərin fəryadı” essesinin, həm də “Vicdanın hökmü” pyesinin əbədi əsaslarını yüksək qiymətləndirərək, ümumiyyətlə, kitabın çox səlis dildə yazıldığını, Qarabağ ləhcəsindən ustalıqla istifadə olunduğunu qeyd etdi. O bildirdi ki, müəllif hər bir əsərin janrını mövzuya uyğun olaraq ustalıqla seçmiş, atalar sözlərindən, aforizmlərdən yerli-yerində istifadə olunmuşdur. Müəllif hadisələri elə ətraflı təsvir edir ki, sanki bu ağırgünləri, faciələri yaşayan qəhrəman özüdür. Sanki müəllif povestin qəhrəmanı Murad kimi Qarabağ addım – addım gəzmiş, o yerlərin gözəlliyinə valeh olmuş, erməni daşnaklarının törətdiyi vəhşilikləri gözü ilə görmüş və nəhayət, öz elindən-obasından didərgin düşmüş bu insanların taleyini azacıq da olsa, yüngülləşdirmək üçün əlindən gələni etmişdir. Muradın prototipi məhz müəllifin özü olmasına oxucuda heç bir şübhə qalmır.

Elə burdaca qeyd etmək istərdik ki, görüşdə iştirak edənlərin çoxları bilməsə də, biz - “Qarabağ” qəzetinin kollektivi çox gözəl bilir ki, Murad məhz Hüseynbala Mirələmovdur. Çünki onun

hadisələrin ilk günlərindən Qarabağda,Yuxarı Qarabağın azərbaycanlılar yaşayan məntəqələrində gördüyü işlərə yaxından tanışıq. O, gecəsi-gündüzü olmadan bu yerləri addım-addım gəzər, mövcud problemlərin aradan qaldırması üçün var gücü ilə çalışardı. O vaxt Respublika Yanacaq Komitəsinin sədr müavini kimi aylarla Qarabağın kəndlərini, dağlarını, meşələrini dolaşan, əhalinin yanacağa olan ehtiyacının ödənilməsi üçün ən radikal addımlar atan, bu yerlərin tarixi ilə maraqlanan, ağsaqqallarla tez-tez görüşüb, söhbət edən Hüseynbala Mirələmov, bəlkə də, ağlına dagətirmirdi ki, nə vaxtsa şahidi olduğu hadisələrdən bədii əsər yazacaq və buna görə mükafata layiq görüləcək. Ancaq bunu tarix özü həll etdi.

Təhminə xanım qeyd etdi ki, bu kitabı oxuduqca göz yaşı axıtmış Kəlbəcərdə qoyub gəldkləri, bir vaxtlar tarıx-diyarşunaslıq muzeyi kimi qiymətləndirilən evləri gözləri önündə dayanmışdır. O, kitabı həm ədəbi-bədii baxımından, həm tarixi baxımdan yüksək qiymətləndirərək dedi:

“Xəcalət” kitabı oxucuda olmuşlara görə xəcalət hissi oyadan kitabdır. “Xəcalət” ermənilərin iç üzünü açaraq onlarınmərkli niyyətlərini dünyaya çatdıran kitabdır. “xəcalət” bu gün Qarabağ həqiqətləri mövzusunda yazılmış ənyaxşı əsərdir, Qarabağ müharıbısinin ağır səhnələrini yaşadan tarixi abidədir.

Sonra çıxış edənlər- kollecin müəllimləri Nərgiz Fətiyeva, Sevda Mazanova Yasamal rayon İcra hakimiyyətinin başçısı Arif Əliyev, filologiya elmləri doktoru, professor nizaməddin Şəmsizadə Hüseynbala Mirələmovun yaradıcılığında xüsusi yer tutan “Xəcalət” kitabının vaxtında yazılmış kitab olduğunu vurğuladılar. Kitabda el məsəllərindənmetaforlardan, bənzətmələrdən ustalıqla istifadə olunduğunu qeyd edərək göstərdilər ki, müəllif bununla Azərbaycan ədəbiyyatında öz sözünü dedi, layiqlı yerini tutdu.

Kollecin musiqi müəllimi Zemfira xanım “Xəcalət”i oxuyandan sonra bəstələdiyi mahnını görüş iştirakçılarına təqdim etdi. Həzn notlarla işlənmiş bu mahnı hamının üstünə “su ələdi”.

Xocalı faciəsi zamanı 23 yaşlı anası Səmayəni itirən, körğəliyində gözləri erməni cəlladları tərəfindən oyularaq kor edilən Nurlanənin söylədiyi ”Mən şəhid balasıyam” şeri hamını kövrəltdi.

Xocalı faciəsindən bəhs edən “Xəcalət” povestini yenicə oxumuş bu adamlar həmin günlərin ağırlığını öz çiynində daşıyan bu körpə qızcığazın timsalında ermənilərin qəddarlığının canlı şahidi oldular və bir daha hiss etdilər ki, Hüseynbala Mirələmovun qələmə aldığı “Xəcalət” povesti obyektiv faktlara əsaslanan, müharibənin acı acı reallıqlarını əks etdirən dolğun tarixi əsərdir.

Nurlanəni kollecin qızları əvəz etdi. Onlar “Güllələnmiş heykəllərin fəryadı” essesi əsasında hazırladıqlarıədəbi kompozisiyanı iştirakçılara elə təqdim etdilər ki, sanki azğın, türk qanından doymayan yırtıcı ermənilərin gülləbaran etdiyi Şuşamızın inkişafında böyük xidmətləri olan el qızı, şair Xurşudbanu Natəvanın, musiqisi ilə dünyanılərzəyə salmış dahi Üzeyir bəyin, səsiylə könülləri fəth edən böyük Bülbülün daş hekayələri ayaq açıb,zala gəlmişdi. Elə bil ki, Pənahəli xanım, Gövhər ağanın, Ağabəyim ağanın, Mir Möhsun Nəvvabın,Vaqifın ruhları zalda dolaşır, əmanət qoyub getdikləri Şuşanı, yağı tapdağı altında göyüm-göyüm göynəyən külli Qarabağı azad edə bilmədiyimiz üçün bizi ittiham edirdilər.  Sanki dahi Üzeyrin “Sənsiz”i Böyük Bülbülün ifasında qulaqlarda səslənir, bizi Qarabağsızlıqla barışmamağa çağırırdı. Bu, ustad qələminin təntənəsi, Hüseynbala Mirələmov yaradıcılığının qələbəsi idi.

Bir anlığa zala sakitlik çökdü. Eşidilən yalnız gözlərini müəllifə zilləmiş oxucuların vicdanlarının səsi idi: “Ya Qarabağ, ya ölüm!” Bu, “Xəcalət”in qəhrəmanı Vətənin dilindən, müəllifin qələmindən çıxan, ancaq bu gün hamımızı intiqama, torpaqlarımızın azadlığına

haylayan səs idi. Hüseynbala Mirələmov qələminin böyüklüyü bundadır.

Bu intiqam, hayqırıq notlarını Xocalının sabit icra hakimiyyətinin başçısı, millət vəkili Elman Məmmədov çıxışı əvəz etdi. O bildirdi ki, Hüseynbala müəllimi hadisələr başlayan ilk günlərdən tanıyır. Onda respublika yanacaq komitəsində məsul işdə - komitə sədrinin müavini işləyən Hüseynbala Mirələmov Yuxarı Qarabağ azərbaycanlılar yaşayan məntəqələrinin abadlaşdırılmasında, təminatında fəal iştirak edən, Qarabağı qarış-qarış gəzib dolaşaraq əhalinin problemləri ilə maraqlanan, onların aradan qaldırılmasına çalışan rəhbərlərdən olmuşdur. Və bu gün “Xəcalət”in məhz bu yazıçının qələmindən çıxması heç də təsadüf deyil. Qarabağ bizim olanda onun gülüstana çevrilməsində birincilər sırasında irəliləyən Hüseynbala Mirələmov idisə, Qarabağın işğalından sonra onun unudulmaması üçün bacardığını edən,Qarabağ faciəsini tarixin səhifələrinə həkk edənlərin önündədə məhz odur. Bu kitab bütün qarabağlıların, bütün azərbaycanlıların stolüstü kitabı olmalıdır və olubda. O, daha sonra dedi:

“Mən hesab edirəm ki, “Xəcalətin”in qəhrəmanı vətən elə mənəm. Mən də onun kimi Xocalının işğalı zamanı anamı itirmiş, iyirmi gündən sonra onu tanınmaz hala salmışcəsədini tapıb torpağa tapşırmışam. O, qarlı çovğunlu gecədə ölümdən baş götürüb qaçanların içərisində mənim mənimdə əzizlərim, yaxınlarım olub, onları çoxu düşmən tərəfindən qətlə yetirilib. Elə mən özümdə o gecənin acısını yaşamışam. Şelli dağında “Qarabağ” qəzetinin əməkdaşları Çingizi, Əlini, Sarvanı Surxayı (onlar burda oturublar) görəndə hönkürtü ilə ağladım. Onlarda mənə qoşuldu. Bu, bizim sonumuz idimi?...

Vətənin xəcaləti, mənim, bizim, hamımızın xəcalətidir. Hüseynbala müəllim bizlərə çox gözəl həyat dərsi verdi. Onun böyüklüyü, qələminin gücü ondadır ki, hər bir oxucu özünü vətənin

("Xəcalət"), Rəhmanın ("Vicdanın hökmü") yerində görür, düşməndən qisas almaq istəyi onun şirin yuxusuna zəhər qatır., onu rahat buraxmır, hayqırıb uca dağların qoynuna döyüşə-döyüşə qalxmağa səsləyir. Bu, ən böyük qiymətdir.

Millət vəkili Bahar Muradova çıxışında əsasən Qarabağ problemlərinin yaranma səbəblərinə toxunaraq ondan çıxış yolunun millətimizin vahid rəhbərlik ətrafında birləşməsində gördüyünü bildirdi. O, ermənilərin Xocalıda,ümumən, bütün ərazilərdə törətdikləri vəhşiliklərdən, qadınları, qocaların, uşaqların amansızcasına qətlə yetirilməsindən, tariximizə, mədəniyyətimizə, mənəviyatımıza ağırzərbələr vurmasından danışaraq qeyd etdi ki, xalqımız düşmənini tanımalı, özünü düşmənlə mübarizəyə hazırlamalıdır. Bu baxımdan, Hüseynbala Mirələmovun "Xəcalət" kitabı ora daxil edilən "Xəcalət" povesti, "Güllələnmiş heykəllərin fəryadı" essesi və "Vicdanın hökmü"pyesi böyük əhmiyyət kəsb edir:

Deyirlər, müharibədən müharibə qurtarandan sonra yazmaq lazımdır. Bu, çox səhv fikirdir. Hüseynbala müəllim öz "Xəcalət"i ilə sübut etdi ki, bu, tənbəl yazarların bəhanələridir. Bu baxımdan elə yazıçılarımızın payına da xəcalət düşür. Müharibədən elə indi yazmaq lazımdır. Müharibənin həqiqətləri bu gün üzə çıxarılmalıdır ki, obyektivlik pozulmasın. Hüseynbala Mirələmovun "Xəcalət" kitabı Qarabağ mövzusu ətrafındakı bütün buzları əritdi. Əsər ən yüksək mükafatlara layiqdir.

Bu kitabı göz yaşları axıtmadan oxumaq mümkün deyil, bu, adamın içini göynədən kitabdır. Elə bayaqdan – "Qarabağ şikəstəsi"nə qulaq asandan göz yaşlarım qurumur. Nurlanə balanın dünya işığına həsrət qalması bizim xəcalətimizdir. O körpə qızcığaz öz şeri ilə hamımızı intiqama səsləyir. Və mən inanıram ki, sülh danışıqları nəticə verməsə, biz müharibə yolu ilə torpaqlarımızı azad edəcəyik. Arzu edirəm ki, onda Hüseynbala müəllim bu gün başımızı aşagı edən, bizi xəcalətli

edən torpaqsızlıq dərdindən yazdığı ”Xəcalət”in əksi olan qələbəmizdən, qurub yaradacağımız şəhərlərdən yeni-yeni əsərlər yazsın. Qeyd edək ki, “Xəcalət kitabı “Gənclik” nəşriyyatı tərəfindən çap edilmişdir. Nəşriyyatın direktoru Əlican Əliyev çıxış edərək oxuculara çatdırdı ki, kitab 2000 nüsxə ilə nəşr edilərək pulsuz paylanmışdır. Bu günlərdə kitab rus dilinə tərcümə olunub və çapı başa çatmaq üzrədir. O, daha sonra bildirdi ki, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə “Xəcalət” kitabının ingilis, fransız, ispan, ərəb və başqa dillərdə nəzərdə tutulub.

Millət vəkili Kərəm Əliyevin çıxışını həyəcansız dinləmək mümkün olmadı. Çıxış boyu hamını kövrəldən millət vəkili bildirdi ki, Vətənin, Rəhmanın dərdləri onada tanışdır və bu baxımdan kitabı göz yaşları ilə oxuyub:

- Mən anamı və qardaşımı bir gündə itirmişəm. İndi on ildir ki, onların məzarlarını ziyarət edə bilmirəm. Bu, çox ağır dərddir...

Kərəm müəllim özüdə kövrəldi, zaldakıları da kövrəltdi. Çıxışını bir təhər başa vuran millət vəkili qeyd etdi ki, “Xəcalət” Qarabağ müharibəsinin ensiklopediyasıdır. O, müəllif Hüseynbala Mirələmova təşəkkürünü bildirdi.

Çıxış etmək istəyənlər çox olsa da, vaxt azlığından çıxışlar dayandırıldı. Səhnəyə 15-16 yaşlarında bir qız çıxdı. O bildirdi ki, “Xəcalət” kitabını oxuyandan sonra bir şeir yazıb və bu şeiri görüş iştirakçılarına çatdırmaq istəyir.

Bu məktəbli qız yazdığı bu gözəl şeri elə ustalıqla ifa etdi ki, tamaşaçı alqışları zalı titrətdi. Şeri dinlədikcə yenidən başı dumanlı dağların uca zirvəsindən doğma Qarabağın seyrinə daldı hamı xəyalında bir tərəfdə yaşıl meşələr, gül-çiçəyə qərq olmuş düzənlər, o biri tərəfdə başı qarlı, Qarabağı üç tərəfdən “mühasirəyə” almışsıra dağlar göz oxşayır. Hardasa uzaqlarda Xan əmi “Şuşanın dağları”nı oxuyur. Bulaq başında əlində səhəng su dolduran qızlar bir-birindən gözəldir. Xan qızı

Natəvanın sinəsini odlayan Vətən həsrəti Ağdamın imarətindən üzü Şuşaya sarı boylanır.

**...Şuşanın dağları başı dumanlı...**

Qeyri -ixtiyari olaraq bir-birinə dəyərək gurultuya çevrilən tamaşaçı alqışları hamını xəyaldan ayırır. İndi hiss edirik ki, biz Bakıdayıq, özü də dörd divar arasında...

Beləcə "Xəcalət"in müzakirəsində düşdüyümüz ağır vəziyyətin, qapımızda nökərçilik edib, çörəyimizin qırıntısı ilə dolanan, "Turka gəma"deyəndə tir-tir əsən çarıqlı, ulaqlı dığaların bu gün Cıdır düzündə meydan sulamasının, mənəm-mənəmlik azarına tutularaq doğma vətən torpağını vəzifə kreslosuna qurban verərək minlərlə adamın qırğınına səbəb olmamızın,bu gün də öz şəxsi mənafeyimizi üstün tutaraq bir yumruq kimi birləşə bilmədiyimizin **XƏCALƏTİNİ** çəkə-çəkə tədbirin sonuna çatdıq sonda Hüseynbala Mirələmov oxucuların çoxsaylı suallarına cavab, aftoqraflar verdi.

## ZİYALI DOSTUM, XEYİRXAH İNSAN HÜSEYNBALA MİRƏLƏMOVA MƏKTUB

Hörmətli Hüseynbala Müəllim!
Bu yazını qələmə almazdan əvvəl çox düşündüm, daşındım. Günlərlə içimdə, ürəyimdə gəzdirdim. Bəlkə də, bu, təbiətimdən gəlir ki, yaxşını, ləyaqəti, insanlığı görəndə susmağı bacarmıram. Ləyaqəti, yaxşını görəndə sevincimin həddi-hüdudu da olmur. Axı qələm əhli ömür boyu yaxşılığın, xeyirxahlığın, mə"nəvi təmizliyin, ləyaqətin tərəfində olub, onu təbliğ edib, oxucusuna bu doğru yolu göstərib.

Bu günümüzdə bizlərlə çiyin-çiyinə yaşayan, işləyən, fəaliyyət göstərən, qaranlıqlara işıq saçan, ləyaqət timsalı olan kişilər var. Belələrini açıq ürəklə, məhəbbətlə, sevgi ilə göstərmək hər birimizin insan borcu olmalıdır.

Əziz qələm dostum! Beləliklə, Siz bu gün mənim ürəyimin hökmü ilə qələmə aldığım bu yazımın qəhrəmanına çevrildiniz. Ləyaqətli kişilərə ehtiyacımız olduğu

bir məqamda nəyə görə susmalıyıq? Nəhəng Avropa yazıçısı Onore de Balzak demiş, “əsl istedadda hər şey sadədir, açıqdır, safdır və hər cür şübhədən uzaqdır”...

İndi ki, söhbət ləyaqətdən və xəcalətdən düşdü, elə xəcalət hissini keçirməyin özü də ləyaqətin ucuzluğundan xəbər verdiyindən və hələ də Vətən qarşısında xəcalətli olduğumuzdan “Xəcalət” povestindən söhbət açıram.

Son illərin ədəbi məhsulları arasında belə maraqlı, dəyərli, adamın ürəyindən xəbər verən bədii əsərlər azlıq təşkil edir. Mövzusundan, problematikasından, aktuallığından asılı olmayaraq. Bilmirəm, bəlkə, heç əlimə yaxşı əsər keçmədiyindəndir bu hiss? Axı müasir çap məhsullarının heç də hamısı oxucu kütləsinə gedib çatmır, yayılmır və oxunmayan, dar bir mühitdə, 500, uzağı 1000 tirajla buraxılan kitabın yayımı, bədii tə”siri, estetik ünvanı nə olacaq?

Ədəbiyyatımızda Qarabağ mövzusunun- Qarabağsızlıq dərdinin, qaçqın-köçkün ağrı-amüsibətinin, cəbhədə keçən döyüşçü həyatının, həmçinin erməni işğalçılığının, separatiziminin, daşnak faşiziminin iç üzünü açmağın, bədii formada əks olunmadığından, bədii dərkinin zəifliyindən tənqidçilərimiz çox yazırlar...

Bu mövzuda bədii dəyər səviyyəsinə yüksəlmiş, dövrün ədəbi faktına çevrilmiş xeyli maraqlı əsərlərin mövcud olduğunu önə çəkərdim. Özüdə çox maraqlı və dəyərli belə əsərlərdən biri də “Xəcalət” povestidir, “Güllələnmiş heykəllərin fəryadı” əbədi essesdir, “Vicdanın hökmü” iki hissəli dramdır...

Hörmətli həmkarım! Hər üç əsəri həyəcanla, ağrı-acılarımızı, dərd-sərlərimizi bir daha yenidən yaşaya-yaşaya, ürəyimi göynədə-göynədə oxudum. Bizim xalqın, millətin faciəsinin dərinliyi, kökləri, ağrılarının bu dərəcədə göynərtili olması məni bir daha, təkrarən düşündürdü. Bir xalq bir əsərin içərisində nə qədər mənəvi, fiziki repressiyalara məruz qalar, Vətənin gülzar torpaqlarını itirər, ilahi?! Basarkeçəri, Göyçəni, Zəngəzuru, Dərələyəzi, Vedibasarı, Ağbabanı, son olaraq da külli Qarabağ-Azərbaycanımızın döyünən ürəyi olan gülzar Qarabağı...

Niyə biz ayrılmırıq, niyə biz oynamırıq, bəlkə, biz M.Ə.Sabir demişkən, ölüm yuxusuna getmişik?

Bu dərdləri siz, Hüseynbala Müəllim, böyük hərflə yazılacaq vətəndaş-ziyalı yanğısı və ağrısı ilə yazıb-yaratmısız. Və kitabınıza yazılan ön sözdəki bu fikirlə tamamilə razıyam:”Müəllif... ermənilərin Azərbaycana qarşı torpaq iddiası ilə mitinqlərə başladığı gündən indiyədək şahidi olduğu, özünün də yaşadığı (seçmə bizimdir-İ.İ.) məşəqqətli günləri qan rənginə çalan bədii boyalarla, oxucunun inandıra biləcək ədəbi piriyomlara təsvir edir...”

Bəli, dəqiq və yerində olan müşahidədir və müəllif yazıçı siqlətindən xəbər verir. Həmçinin süjet boyu yazılmış ustalıqla yuxarıda xatırladığım tarixi

məqamlara bədii ricət yolu ilə qayıdışlar da bütün milli fəlakətimiz və qəvi düşmənimiz haqqında tam gerçək, bədii təsəvür yaradır...

Maraqlı cəhətlərdən biri də budur ki, bu hadisələrin heç biri uydurma, yazıçı təxəyülünün məjsulu deyil, gerçəkliyin, həyatın və tarixin faktıdır, özüdür, dəhşətli, faciə dolu olaylardır ki, yazıçı qəleminin gücü və bədii axarında dərin emosional hisslər oyadaraq ortaya çıxır, yenidən canlandırılır.

Bu hadisələr elə bil rəssam firçasında olduğu kimi, bədii ekrandkı qədər görümlü və duyumludur, hərəkətdə və dinamikadadır...

Povestdə bir ailənin şəcərəsinin timsalında bütöv bir millətin, Azərbaycanın, xalqımızın, millətimizin faciəsi, milli dərdi, ağrısı öz bədii həllini və dediyimiz kimi canlı təsvirini tapıb...

Sizin əsərinizdə 37-ci ildə repressiyaya uğrayıb, Orta Asiyaya sürgün edilən bir nəsil sonradan 50-ci illərdə bəraət qazanıb geriyə - Vətən dönür, doğma Qarabağa qayıdır, Xocalıda-öz köhnə məkanlarında qarşılaşırlar.

Sizin qəhramanın adının Vətən olması da təsadüfi deyil. Vətən adımıza, ürəyimizə, qeyrətimizə, ünvanımıza, vicdanımıza, qanımıza-canımıza çevrilməlidir. Və kosmopolit təfəkkürdən, milli qlobalizimdən uzaqlaşmalı, təfəkkürün qloballığını qəbil etməliyik!

"Güllələnmiş heykəllərin fəryadı" ədəbi esseni də eyni maraq, içimi göynədən eyni ağrı ilə oxudum və içimdən qurd olub uluyan əsl bir fəryad qopdu... Azğın, qana susasış erməni vandarizimi bir daha gözlərim önündə canlandı.

Xan qızı Xurşudbanu Natəvanı, Üzeyir bəyi,Bülbülü olmayan xalqdan (əgər xalqdırsa ?!), millətdən (millət deməyə də dilim gəlmir), canavar xisləti ermənidən nə gözləyəsən?.. Paxıllığın, nadanlığın, xəbisliyin, düşmənçiliyin heç bir yerdə görünməyən vandalizimi... heç bir yerdə heykəlləri bax, beləcə güllələməyiblər. Dünya mədəniyyətinin şedeverlərinin heykəllərinə qəsd etmək dünyada müşahidə edilən vandalizimin ən eybəcəridir. Siz böyük sənət korifeylərinin güllələnmiş heykəllərinə emosiya dalğaları qanadında , duyğu dənizində fəlsəfi esse janırında ağı demisiniz, əziz dost. "**ŞUŞA...** Sən kafirlər, yağılar əlindən əsir, cihad gözləyən ocağımızssan, pirimizsən. İran körfəzindən, Ərəbistan çöllərindən keçib dolana-dolana məkkəyə gednənlər yolunu sənə çevirməlidirlər. Sən möhürümüz, qibləmiz, səhər oyananda dualarımızın əks-sədasısan... Ziyarətgahın, ahım mənim, şuşam mənim"...

Siz bu əsərinizdə çox maraqlı bir ədəbi üsulla şuşalı klassiklərimizin heykəllərini və onların bir çoxunun müqəddəs ruhlarını danışdırmısınız. Bu söhbətləri, danışıqları əks etdirən səhifələri oxuduqca insanı, əslində, xəcalət təri basır.

Görün, Pənahəli xanın xəyalı, ruhu bizlərdən nəyi tələb edir: “Mən düşməndə günah görmürəm. Düşmən dünəndə var idi, sabahda olacaq. Cinayət törədənlər düşmənin varlığını unudanlardır unutqanlıqdan gələn bəlanı unutmağa haqqımız yox idi. Mən sizə əmanət vermişdim Pənahabadı. Əmanətə xəyanət olmaz! Qaytarın əmanətimi!!!”

Bu, ulu babamızın ruhunun qiyamıdır, ruhların bizə qarşı qiyamı... Bəli, bu əmanəti, bu müqəddəsdən müqəddəs Emanəti düşmənin əlindən alib qaytarmayınca bizim millətin ruhu heç vaxt rahatlıq tapmayacaq. Birdəfəlik bunu dərk etməliyik!..

Əziz qələm dostum! Əsərləriniz məni elə tərpətdi ki, yaradıcılıq yolunuzu, ömür yolunuzu bir daha nəzərdən keçirməli oldum. Şəxsiyyətinizi boya boy gözlərim önündə canlandırmağa çalışdım. Əlli altı illik bir ömrün dolaylarından boylanan bir insanın ləyaqət zirvəsinə yol alan taleyi məni dərindən düşündürdü...

İlk qələm təcrübəniz olan “ Bir tikə çörək” hekayəsini xatırladım. Və düşündüm ki, sizi qələmə, ədəbiyyata, insanlığa, zamana, torpağa bağlayan elə bir tikə çörəyə olan məhəbbətinizdir. Bir tikə çörəyin qədrini bilməyən heç nəyin qədrini bilməz. Sizin yaradıcılığınızda bir tikə çörəyə olan məhəbbətinizin insana məhəbbətin mənbəyinə çevrilib.

Yaradıcılığınızın bir yönümü diqqətimi daha çox çəkdi: həyatımızın, müasir gerçəkliyimizin təzadları, ziddiyətləri, texnoratik dünyamızda mənəvi aşıntılar, eroziyalar qəlbinizin dərinliyində təmizlənir, durulur, hissin-emosiyanın müsbət aurasını, ab-havasını, xeyrin, nikbinliyin ovqatını yaradır. Başqa sözlə, mə”nəviyyatımızda olduğu kimi, yaradıcılığınızda da insanlığa xas olan yaxşılığın, kişiliyin bütün çalarlarını cəmləşdirə bilibsiniz...

Fransız yazıçısı, filosof və tarixçisi Volter gözəl deyib: “ Yaxşı yazan müəlliflərin əsərlərini oxuyarkən yaxşı danışmağa adət edirsən”...

“Simuzər” kitabınızı əvvəlcə vərəqlədim. Doğma dilimizdən başqa, beş dildə- türk, rus, ingilis, alman, fransız dillərində təqdim olunan və bir kitabda toplanan və bir hekayədən ibarət bu kitab, sözün həqiqi mə”nasında, bir az məndə həm təəccüb, həm də heyrət doğurdu. “Simuzər” də bizim hekayəçiliyin klassik ölçülərinə sığmayan, yeniliyi ilə modernist ədəbiyyatın bütün parametlərinə uyğun gələn orjinal bir nəsrlə qarşılaşdım.

İnsanın çəkdiyi pisixoloji gərginlik, iztirab, işgəncə səviyyəsinə qalxan mənəvi-psixoloji əzab, onsanın çirkaba bulaşmış mə”nəvi aləminin arınma, durulma prosesi- bunların bir sade insan taleyində fantasharmonik üsulla mənzərəsi canlandırılıb. Oxucu da, müəlliflə birgə, qəhramanla bahəm bu ağrıları duyur,

Qoca keşikçi-qoca balığın iztirablarını ildırımötürən kimi öz içindən keçirir, mənalı bir doğmalıqla, mərhəmliklə yaşayır...

Oxucusu olmayan yazıçı bədbəxtir, yetimdir, boynu bükükdür. Əslində, yazıçını yazıçı edən, əyilməz, yenilməz şəxsiyyətə çevirən iste"dadı, qələm ilə yanaşı, həm də oxucu məhəbbətidir. Deyim ki, bu sarıdan Hüseynbala müəllimin bəxti gətirib. O, elə yazır ki, oxucu auditoriyası qazana bilir, oxucusunu sevir, onun istəklərini, yaşantılarını duyur, oxucusu da bu sevgiyə məhəbbətlə cavab verir.

Hekayənin başlanğıcında və sonunda proloq və epiloq təsiri bağışlayan bir cümlə yaddaşımıza hopur: "Kim bilir, bəlkə də, balıqların göz yaşıdır dənizlərin, suyunu şor edən, duzlu edən?.."

Əslində, balığın göz yaşı olmur, balıqlar ağlamır. Amma bu hekayədə yazıçının obraz səviyyəsinə yüksəltdiyi balıqlar insaniləşir, danışır, ittiham edir, duyğulanırlar, dövrün əzabından göz yaşları ilə dövrani-dənizi duzlu, şor dənizinəçevirirlər. Bu obrazın simvolu ilə yazıçı deyib ki, zamanın, dövrün əzabından şirin suyumuz bulacağımız, çaylarımız şorgölə, duzlu gölə çevirib, özü də göz yaşlarından yaranan duzlu gölə göz yaşının dənizinə... Obrazın böyüklüyü, monementallığı, qiperbolik ölçüsü elə bu mə"nad gizlənib.

Hüseynbala müəllimin şəxsiyyətinin və qələminin diqqətimi cəlb edən ən ümidə, başlıca, cəhətlərindən biri də, sözünün böyük və həqiqi mə"nasında **HƏQİQƏT** duymağında, görüb aşkarlamağında və sevməyindədir. Bu, sizin Azərbaycanın tarixi taleyində müstəsna yeri və rolu olan, dövlətçiliyimizin memarı, əbədi prezidentimizin Heydər Əliyevin amal olaraq keçdiyi həyat yolunu tərənnüm edən publisistik, monumental (488 səhifədir) əsəriniz – "Həqiqət" adlandırdığınız kitabınızdır.

Hüseynbala müəllim, indisə Sizə bir həmkarım, qələmdaşım kimi yox, qurub-yaratmaq eşqilə yaşayan bir iş adamı kimi müraciət edirəm. Azərbaycanın çox-çox qələm sahibləri azərbaycançılığın, milliliyin, vətəndaşlığın, dövlətçiliyin məhəbbətini ürəklərində gəzdirir və yüksək ustalıq, sənətkarlıqla əsərlərində əks etdirirlər. Amma bununla bahəm, həm də bir zəhmət adamı olsan, özü də beynəlxalq miqyasda tanınmış, məhşurlaşmış, professional təsərrüfat adamı- alim, neçə-neçə nəzəri monoqrafiyanın müəllifi olan müəssisə rəhbəri olasan və dediyim keyfiyyətləri nənələrimizin urvalı xamırı kimi yoğurub ürəyinin təndirində bişirəsən. Bax, bu, hər insana xas olan iş deyil.

Mənə elə gəlir ki, mərdanəliyin, səxavətin yolu cibdən deyil, ürəkdən keçir. Əzəl gərək ürəyin səxavəti ola, sonra cibin...

Mən bir millət vəkili kimi elimizin arasında, xeyir-şərindən çox oluram. Söhbətləşirəm, dərdləşirəm, qayğılanıram...Zəngilan camaatına, Qarabağ ellərinin

arana və respublikamızın digər regionlarına səpələnmiş ağsaqqallı-qarasaqqallı əksərinə sual edəndə adınızı çəkirlər, xeyirxah əməlinizdən danışırlar, ünvanınıza xoş sözlər söyləyirlər.

Bazar iqtisadiyyatı yox, bazar əhval-ruhiyyəsi, qazanc və gəlir dalınca yaşanılan bu qovahqov dünyasına, biganəlik, laqeyidlik, insanlığı gəmirir, yeyir, çeynəyir-nə etməli...

İndi mən sözümü Sizə, sizin kimi insanlara ünvanlayıram. Sevinirəm ki, nə yaxşı indiki bu çətin, ağrıllı bir məqamda Sizin kimi xeyirxah insanlar var və olacaq!..

Sizin mesenantlığınızın üstünlüyü birdə ondadır ki, Siz təkcə qaçqınların, köçkünlərin, kimsəsizlərin, imkansızların yox, qələmin,qistedadın, ilham sahiblərinin, mədəniyyətin, korluğ çəkən yazarlarımızın (təəssüf ki, bunlar çoxdur) qolundan tutursunuz, pənahına yetişirsiniz. Özüdə reklamsız, göstərməsiz-filansız...

Mənə elə gəlir ki, istedadın qədrini bilmək  istedad sahibinin işidir. Əsl kişinin işidir!..

Əslində, Siz bu hərəkətinizlə, fəaliyyətinizlə, mesenat sözünün ilkin mənasını özünə qaytarmısınız. Messenant bizim eradan əvvəl yaşayan bir yunan sahibkarının adı olub. O qədər də varlı olmayan bu şəxs dövrünün mədəniyyətinə, yaradıcılığına, şairlərinə, rəssamlarına qəyyumluq edib və bu himayəçilik ilə adını min illər boyu ədəbiyyat lövhəsinə yazıb. Onun dövründə ondan qat-qat varlı adamların adları isə tarixin tozu altında itib batıb. Və indi min illər boyu incə sənətə, mədəniyyətə, ədəbiyyata, imkansızlara kömək edən görkəmli şəxslərə messinant deyirlər...

Əziz dost! Bildiyimə, eşitdiyimə görə ha gizlətsəniz də, “ sağ əlinin verdiyindən sol əl xəbər tutmamalıdır”  amalını əsas götürsəniz də bir ovuc düyü verib, tele güzgülərdən boy-gərdən çəkənlərdən olmasanız da... “ cidanı” çuvalda gizləmək olmur. Siz bu günümüzün ləyaqətli messenantlarından birisiniz...

Sizin kitabınızın bir yerində daş kitabədən gətirdiyiniz bir misal diqqətimi çəkdi : “Dünyaya bəxş etdiklərimizlə əbədiləşdik...” Bu, məncə, içində, ürəyində ləyaqət hissi gəzdirən bütün insanların devizidir.

Çox şükürlər ki, Siz bu ucalığı qazanmısınız. Sizin kimi adamlar isdər təkcə iş adamı- rəisi-əzəm olsun, istər təkcə alim kimi fəaliyyət göstərsin, istər yazıçı-piblisist kimi fərq etməz, o, hər sahəni ayrılıqda ucaldacaq və öz şərəfli yerini tutacaq.

Lakin ən yaxşısı budur ki, Siz özünüzdən bu istiqamətlərin hamısını cəmləyə bilmisiniz. Bunu ancaq yüksək istedad sahibləri edə bilər və Sizin ləyaqətinizin bir

cəhəti də burda açılır. İpək xasiyyətinizlə, saf amalınıza, işıqlı mənəviyyatınızla, Siz saf, təmiz, parlaq mənəvi mühit yaradan, müsbət aurası olan insanlardansınız...

Mən bunu Sizin davranışınızdan da dəfələrlə müşahidə etmişəm, heç də həmişə hamar keçməyən həyat və yaradıcılıq yolunuzun özü bunu sübut edir, fəaliyyətiniz, xarakteriniz, ləyaqətli şəxsiyyətiniz bunu əyani göstərir.

Hörmətli Hüseynbala müəllim! Sizə və oxucularımıza ünvanladığım bu ürək sözlərimi, eləcə öz yazdığımızla bitirmək istəyirəm: "Böyük insan dayandığı zirvədən səhər günəşinə boylanan insanların nurlu, işıqlı, sevgi dolu çöhrələrini görür. Böyük insan uzaq yolların damarını kəsib, ədəbiyyətə gedən karvanın aydın sabahlarını görür. Bu zirvədən uzaq gələcəyə qədər zaman yolları açıq-aydındır..."

Və biz indi həyatımızın yeni mərhələsindəyik, yeni və inamlı bir yol getdiyimiz məqamdaca bu xoş arzumu da sizinlə bölüşürəm: yolunuz da ömrünüz kimi nurlu olsun, əziz qardaşım!

Hörmətlə:
**İmamverdi İSMAYILOV,**
**Millət vəkili, yazıçı-publisist**

# Qələbəyə çağırış

XX əsrin səksəninci illərinin sonlarından xalqımız ağır bir problemə-qondarma Qarabağ problemi ilə üzləşib. Baş verən hadisələr həyatın bütün sahələrinə təsir göstərib. Iqtisadiyyat da, mənəviyyat da, ədəbiyyata da. Nəticədə yüzlərlə kəndimiz işğal edilib, minlərlə soydaşlarımız doğma yurd-yuvalarındandidərgin düşüb. On ildir ki, kimi çadırlarda, vaqonlarda,kimidə yataöxanalarda, inşası yarımçıq qalmış binalarda məskunlaşıb. Buda istər- istəməz bədii ədəbiyyatda öz əksini tapıb. Bir çox şerlər, hekayələr, povest və dram əsərləri bu ağrılı mövzuya həsr edilib. Bunların içərisində yazıçı-mühəndis Hüseynbala Mirələmov "Xəcalət" povestin, "Vicdanın hökmü" pyesi,"Güllələnmiş heykəllərin fəryadı" essesi öz bədiiliyinə,mövzu dərinliyinə görə seçilir və xüsusi əhəmiyyət kəsb edir. Təsadüf deyil ki, H.Mirələmovun "Xəcalət" povesti ötən ilin Qarabağ mövzusuna həsr olunmuş ən yaxşı əsər kimi Yazıçılar Birliyinin Bədii Ədəbiyyatı Təbliği Bürosu

tərəfindən birinci mükafata layiq görüldu. Bu önəmli və aktual əsər neçə vaxtdir ki, əllərdən düşmür, dillər əzbəridir. Idarə və müəssələrdə, xüsusən, tədris ocaqlarında geniş oxucu kütləsi tərəfindən müzakirə olunur.

Yaxşı yadımızdadır, yetmişinci illərin axırlarında L.İ.Brejnevin “Kiçik torpaq”, “Xam torpaq”, “Yüksəliş” əsərləri zorla hər yerdə təbliğ edilirdi. Lakin o əsərlər heç kəsə lazım olmadığı üçün bu gün unudulub. Onlar fərqli olaraq Hüseynbala Mirələmovun “Xəcalət” kitabı xalqın öz dərdlərinə, çağdaşgünlərimizin qayğılarına, hər birimizin içindən gələn dərdlərinə həsr olunduğu üçüçn hamının düşünərək oxuduğu, oxuduqca da hidayətləndiyi, intiqam hissini alovlandıran bir kitabdır. Hamı da bu kitab haqqında söz deməyə, nəsə yazmağa daxili bir ehtiyac duyur.

Xəcalət, xəcalət, xəcalət! Bu bir nəfərin yox, bir tayfanın yox, bir elin yox, bir millətin xəcalətidir. Bu xəcalətin üz qaralığınıbir çayın, bir gölün, bir dəryanın suyu ilə də yumaq olmaz. Onu yalnız on bir il öncə rus-erməni hərbi birləşmələrinin qüvvəsi ilə yerlə - yeksan kimsəsiz bir kəndin, çox hissəsi vəhşicəsinə qırılan, bir hissəsi əsr götürülən əhalisinin həmin dəhşətli 26 fevral gününün intiqamını almaqla yumaq olar. Yoxsa, bu faciə vicdandan məhrum olmayan hər kəsiqəbir evinə qədər yandıracaq.

O, faciəni yaşamış insanların talelərini, başlarına müsibətlər gətirilmiş insanların o müdhiş gecədə nələr çəkdiyini özündə dolğun əks etdirən H.Mirələmovun “Xəcalət”povesti, əsərdə əksetdirilən adisələr hər bir azərbaycanlının öz müsibətidir, dərdidir. Elə əsərin bədii dəyəridə bundadır. “Xəcalət” kitabı sonuncu Qarabağ savaşının bugünkü iştirakçılarının, şahidlərinin yaddaşlarınıbir daha silkələyib oyadır. Şəhidlərin yaddaşlrdan silinib gedməsinə imkan vermir. Sən bu xalqın, bu torpağın övladısan, onun çörəyini yeyib, suyunu içirsənsə, onun dərdlərini yaşamalı, intiqamını almağa hazır olmalısan!

Axı necə unudasan?! Tək bircə gecədə 613 nəfər şəhid olmuşdur ki, onunda 80 nəfəri ixtiyar qoca, 68 nəfəri körpə uşaqdır. 1275 nəfər əsir

götürülmüş, 200 nəfər adam əlindən, ayağından gözündən məhrum edilmişdir. Gizləndiyi yeri ermənilər bilməsin deyə, Müşgünaz adlı bir gəlin ağlamaq istəyən 9 aylıq körpəsini boğub öldürmüşdür. 17 yaşlı Leyla adlı bir qız ermənilərin əlinə əsir düşməmək üçün itin də yemədiyi, amma bizim o vaxtki başbilənlərimizin yediyi namusunu qorumaq üçün özünü qayadan atıb öldürmüşdür.

Ona görə də əbədi və əzəli düşmənlərimiz olan ermənilərin iç üzünü, əsl simasını açan, həcmcə o qədər də böyük olmasa da, məna etbarı ilə onlarla kitabın, yüzlərlə təbliğatçınıngörə bilmədiyi işləri görən, göstərə bilmədiyi təsiri göstərən “Xəcalət” neçə-neçə trilogiyaya bərabər bir kitabdır desək, yanılmarıq. Biz buna əminik və inanırıqki, kitabı oxuyan hər kəs özünü əsərin qəhrəmanlarının yerinə qoyur, onların keçirdiyi hissləri yaşayır, 1988-ci ildən bəri başımıza zorla gətirilən müsibətlərə, düşdüyümüz ağır vəziyyətə, bir ovuc erməni dığasının əlində aciz qaldığımıza görə xəcalət çəkir. 1987-ci ildə Fransada çıxan “Humanite” qəzetinə mənfur akademik Aqanbekyanın verdiyi müsahibədən az sonra ermənilər Qarabağda torpaq iddiasına düşdükləri kimi, qeyrətli, vətənpərvər Hüseynbala Mirələmovun “Xəcalət” kitabını oxuyan hər bir türk də nhaq tökülən qanların, diri-diri doğranan körpələrin intiqamını almaq, nəhayət, işğal edilmiş torpaqlarını azad etmək üçün ayağa qalxacaq, qalib gələcək.

“Xəcalət” povestindən ikicə məqamı xatırladaq ki, əsərin dəyərini oxucu özü dərk etsin, qiymətini versin. Əsərin qəhrəmanı Vətənin anası vurulandan sonra o,həyat yoldaşı Fərqanəyə deyir ki, uşaqları götür, get qabağa. Qaranlıq gecədə tənha qadın iki uşaqla hara getdiyini bilmədən irəliləyir. Taqətdən düşən anaya oğul sual verir: - “Ana, mən yanında olmasam, sən qorxarsan, eləmi?” Bu sual anaya təpər verir – demək, yanında kişi var. Bu qədim türk psixologiyasıdır.  Bir də Fərqanənin hər ehtimala qarşı əlində yorğan iynəsini hazır tutması. Əgər ermənilərə rast gələrsə, heç bir şeyi fikirləşmədən iynəni ürəyinə sancsın. Deməli, türk qadını üçün namus hər şüydən üstündür. Hətta ana iki körpə balasının

ondan sonra taleyinin necə olacağının fərqinə belə, varmır. Bir yerdə isə düşmənin atdığı mərminin qəlpəsi Vətənin anasını ağır yaralayır. Onsuz da taqətdən düşmüş Vətən anasını bir qədər irəli aparır, can verdiyini görüb, yerə qoyur. Vətəniki od arasında qalıb- bir tərəfdə anasının hələ soyumamış cəsədi, bir tərəfdə iki balası və həyat yoldaşının taleyi. Anansını kəfənsiz, mollasız əlləri ilə qazdığı çalaya qoyub, üstünü torpaqlayir. Atasının ruhu vətənə qüvvət verir, o, anaya deyir: “Torpaq insandan etibarlıdır. Insan əlacsız qalanda yerindən , yurdundan çıxır, didərgin düşür. Amma milyon ildir dağ-daş öz yerində-yurdundadır. Sən arxayın ol, torpaqda əmanətə xəyanət yoxdur”

Qarabağ hadisələri barədə bir neçə məqalə, xatirə, şer yazılsada, hələ ki, o faciəli günləri tam dolğunluğu əks etdirən yeganə tarixi əsər H. Mirələmovun “Xəcalət” povestidir. Povestdə publisist bir xətt də mövcuddur. Yazıçı tez-tez ricətə çıxır, Şuşada, Xankəndində, azərbaycanlılar yaşayan kəndlərdə baş verən hadisələrə toxunur. Əsərin dili, obrazların danışıq tərzi müəllif təhkiyəsi öz səlisliyi və aydınlığı ilə seçilir.

“Xəcalət” povesti Qarabağ mövzusunda yazılmış ən dəyərli əsərdi, son illərin ən maraqlı ədəbi nümunəsidir. Hər birimizi səfərbər olmağa səsləyən bədii əsər nümunəsidir.

Kitabı oxuyandan sonra, yəqin ki, qeybdən hamımızın qulağına Pənahəli xanın gur, qəzəbli səsi gəlir. O, hamımızın yaxasından tutub tələb edir: “Mən sizə əmanət vermişdim Şuşanı. əmanətə xəyanət olmaz. Qaytarın mənim əmanətimi!” Sonra səslər çoxalır. Bu səsə Xan qızı Natəvanın Gövhər ağanın, Agabəyim ağanın, Mir Möhsün Nəvvabın, Vaqifin, Üzeyir bəyin, Bülbülün səsi qarışır. Və bu səslər kitabdakı növbəti əsərin- “Güllələnmiş heykəllərin fəryadı” essesini söz düzümündə daha da güclənir. Povestdən doğan xəcalət hissi intiqam hissi essedə daha qabarıq şəkildə öz əksini tapır.

Kitabda üçüncü əsər – “Vicdanın hökmü” pyesi də bilavasitə Qarabağ mövzusu ilə əlaqəlidir. Pyesin qəhrəmanı Rəhman əvvəlcə bir tikə çörək

pulu qazanmaq üçün öz sevimli peşəsi olan müəllimlikdən uzaqlaşıb, Rusiyaya gedir. Ancaq Qarabağın başının üstünü qara buludlar alanda dözməyib, geriyə- Azərbaycana qayıdır. Burda vətən torpağının hər qarışı uğrunda ölüm-dirim mübarizəsində qalxan oğullarla çiyin-çiyinə hələ Rusiyada ikən iyrənc xislətlərinə bələd olduğu ermənilərdən qisas alır.

H.Mirələmovun “Xəcalət” kitabı sadəcə doğma yurdunu sevənləri əl-ələ verib, işğal olunmuş torpaqları azad etməyə səsləyən bir ktab deyil, yanan bir ürəyin hayqırtısıdır, hər bir Vətən oğluna alovlu bir çağırışdır, intiqama, qələbəyə çağırışdır!

## TARİXİ FACİƏLƏRİMİZİN ELEGİYASI VƏ YA NƏSRİN POEZİYASI

Min illərdir erməni türkün qanına susayıb: harda türk varsa, özünəməxsus qılıqla, ustalıqla könlünü ovsunlayır, zahirən hörmət və məhəbbətini qazanır, mətbəxinin başına keçir, sonra namərdcəsinə arxadan kürəyinə bıçaq saplayır. Nə dost kimi dostluq edir, nə düşmən kimi deşmənçilik. Neçə əsr əvvəl Səhl Sumbat Babəki xilafətə satdı. Bizim zəmanəmizəcan erməni xisləti minlərlə teror törətdi, müxtəlif əcnəbi ölkələrdə, hətta səlahiyyətli eıçi kimi fəaliyyət göstərən, milliyətcə türk onlarla məkrli surətdə tor qurdu. Həyasızlıq dinc insanları şərlədi, güllələdi, öldürdü və ağlaya-ağlaya bütün dünyaya günahsızlığını bəyan elədi. Böyük Vətən savaşında erməni fitnəsi Azərbaycanın cəsr oğlu, genral-mayor Həzi Aslanovu aradan götürdü və tank qoşunları komandanının ikinci Sovet İttifaqı Qəhramanı “ Qızıl ulduz” unun səsndləri belə, xəlvətcə saxtalaşdırıldı...

Əlbətdə, silsilə faciələrimiz hamımıza bəlidir bunlar haqqında çoxlu tarixi, elmi trepublisistik, bədii əsərlər yazılıb, yazılacaq da. Qarabağda məskunlaşmasının tarixi cəmi 165-170 il olsa da, erməni yurdumuzun bu cənnət məkan guşəsinin özününkü sayır və havadarlarının köməyi sayəsində xalqımızı ölüm-dirim müharibəsinə sürükləyir, torpağımızın iyirmi fazizini işğal eleyib. Qarabağ faciəsinin köklərini mükəmməl öyrənən bir vətəndaş-qələm əhli kimi bu faciəni ürəyində yaşadan, bəsləyən, millətin qəhramanlığını vəsf edən, boşluğuna acıyan səbsblərini araşdırmağa çalışan yazıçı-dramaturq Hüseynbala Mirələmovun “ Güllələnmiş heykəllərin fəryadı” essesi (əsər eyni adlı telefilim də çəkilib) qədim Azərbaycan torpağının ayrılmaz parçası haqqında elegiyadı.

Mən “Vışka” qəzetində (təbii ki, Azərbaycan türkcəsində” bu uğurlu nəsr nimunəsini şer kimi oxudum və obrazlı ifadələt, xalq deyimləri, bənzətmələr, zərb-məsəllər, atalar sözləri yadımda qaldı, müəllifin müşahidə qabliyyətinə, dəsti-xəttinə, yazı dilinin şirəliliyinə heyran oldum. Və istə-istəməz könlümdə bir duyğu baş qaldırdı: nə əcəb Hüseynbala Mirələmov əsərini nəzmlə deyil, nəsrlə qələmə alır. Az sonra bu fikirdən vazkeçtim. Məgər “ Güllələnmiş heykəllərin fəryadı” bütövlükdə nəsrə yazılmış lirik poema deyilmi? Bu, həm də yeniləşən janırın çox şahəli ədəbiyyatımızda təzahürüdür. “Xumar-xumar baxmaq”, “sim kimi tarıma çəkmək”, “ ruhları ovundurmaq”, “möhürümüz, qibləmiz Şuşa, ziyarətgahım, ahım mənim”, “ sinənə yağı tikan əkir, tikan əkən gül dərməz”, “Şuşa ünvanlı dirilik bulağı”, “anasının əmcəyini kəsənlər”, “ Tanrı ətası, Tanrı vergisi”, “yuxunun rəngi”, “bağrımın başında, “şüştər”di çalınan, “Humayun” du hıcqıran”, “zaman başəməzən altında pərqu yastıqları qoyub”, “ruhlar can qəfəslərinə doğri uçuşur”, “ qurd kimi ağız-ağıza yatmaq”, “ bir-birinin gözünü tökmək, qanına yerikləmək”, “adı ilə öyünən havası ilə böyüyən”, “bəxtimiə gün doğmadı”, “intiqama çağırış”, “ xanlığı içindən kəsəyən kimi doğramaq bayquş yuvasına döndərmək”... “Güllələnmiş heykəllərin fəryadı”nın bir neşə səhifəsindən gətirdiyim bu ifadələr şeir

misralarını xatırlatmırmı? “ Biz ruhumuzla qanımızla Azərbaycanıq, Qarabağıq. Biz Şah İsmayıl Xətainin zühur eləmiş vücuduyuq, qolları kəsilmiş Babək fəryadıyıq, Bayat əsilli Füzuli misrasıyıq, “Cəngi” harayıyıq, içinə çəkilmiş Koroğlu nərəsiyik, “Heyratı” üsyanıyıq”...Bəs bu parça necə, bizim yağmalanmış yurdumuzun fəryadına əks – səda verən qəhramanlıq nəğməsinin ürək dağlayan nəqarəti deyilmi?

“Güllələnmiş heykəllərin fəryadının” qəhrəmanlıarı diri ruhlardır- həmişə ətrafımızda cövlan edən, nigarançılığımızı, xiffətimizi çəkən, həsrət simvoluna dönən canlı ruhlar. Qarabağ faciələri onlara da agah olub, Şuşanın işğalında, Xocalı soyqırımından Ağdamın, Xankəndinin, Kəlbəcərin, Cəbrayılın, Laçının, süqurundan ruhlar da xəbər tutur. Hüseynbala Mirəlkəmov cəsarətlə təxayülünün qüdrətinə meydan verir, hər daşı, hər qaysı canlı insan təsiri bağışlayan təbii abidələri qarın, yağışın, küləyin yonduğu, hamarlayıb düzəltdiyi heykəlləri danışdırır.Şair Vaqif – eşik ağası Vaqif, Heykəl Natəvan- xan qızı birgə varid olur. Onların qeyri-adi, üzüntülü dialoqunu Ağabəyim ağanın ruhu davam etdirir, qəfildən Gövhər ağa məscidindən səs eşidilir, Mirmöhsün nəvvabın çağıtışına hamı diqqət kəsirir. İbrahim xanın nəsihətamiz kəlamları qaysaq bağlamış yaralara su səpir: “Heykəlləşmiş övladlarım, sizi gözünüzə, sinənizə tuşlanan güllələr ürəyimi parçalayıb”.

Lakin erməni vəhşiləri tərəfindən güllələnmiş heykəl-ruhlar da var, onları memarlarımız, heykəltəraşlarımız yaradıb: Üzeyr, Bülbül, Xurçudbanu Natəvan... Müəllif əgər Üzeyir bəyin söylədiklərini əsərlərindən götürürsə, Natəvanın obrazını yaratmaq üçün qəzəllərindən nümunələr çəkir, Şuşanın Bülbülünü Şeyx Nizaminin “Sənsiz” i ilə dilə gətirir:

**Hər gecəm oldu kədər, qüssə fəlakət sənsiz...**

**Hər nəfəs çəktim, hədər getdi o saət sənsiz!**

Bu priyomlarda Hüseynbala Mirələmov eyni zamanda üç fikri oxucuya təlqin edir və istəyinə nail olur: əvvala, erməni türkün tarixi düşmənidir,

bu düşmənçilik ən iyrənc vasitələrlə həyata keçirilir. Yəni, erməni türkün dilsiz daş abidələrini gülləbaran eləməklə bizə münasibətini çəkinmədən dünyaya göstərir. İkincisi, əgər Allah eləməmiş, Molla Pənah Vaqif, digər sənət korifeylərimiz Üzeyir Hacıbəyov, Bülbül, Xurşudbanu Natəvan və başqaları ermənin əlinə sağ keçsəydilər, yenə güllələnəcəkdilər. Və onların dalınca hansı zurnanı çalacaqdılar, Tanrı bilir. Üçüncüsü, son iki yüz elli illik tariximizin yetirdiyi dahilər səhvlərimizi, günahlarımızı etiraf eləməklə bizi gələcəkdə ayıq-sayıq olımağa çağırır, düşmənlə həmişə ehtiyatla davranmağa səsləyir.

Yazıçı nəsr dilinə qəribə şeriyyət qatır. Lakin bütün obrazlı parçaların arxasında faktlar, sənədlər dayanır. Erməni təkcə türkün torpağından yox, mənəvi işğaldan əl çəkmir. Görün, heykəl Natəvanın ruhu nə deyir: "Onlar hətta qədim Şərq əfsanəsi əsasında neçə-neçə şair tərəfindən qələmə alınan " Fərhad və Şirin" əsərinə də böhtan atır, dağçapan (kuhkən) igidin sevgilisi Şirinin erməni gözəli, erməni şahsadəsi olduğunu sübuta yetirməyə çalışırlar. Musqimizdə, tədbiqi sənətimizdə, xalçalarımızda xalılarımızda çeşnilər, xallar, naxışlar, daş abidələrimizdəki orijinal ornamentlər özünəməxsusluğumuzun təsdiqidir. Onlar həyasızcasına bunları da mənimsəmək istəyirlər". Şərhə ehtiyac yoxdur, yalnız xalq şairi Məmməd Arazın murdar erməni xarakterini ustalıqla ifşa edən misraları yada düşür:

**O qədər girdin ki, roldan rola sən,**

**Rollar da qurtardı, özün göründün...**

Doğrudur, ruhların dialoqunda Pənahəli xan da iştirak edir. Qədim qalanın özülünü qoyan, onun məşhur şəhərə çevirən xan gözlərinə inanmır. Pənahabadı övladlarında əmanət qoymuşdu, əmanəti qoruya bilməyiblər, nigaran ruhu göylərdə dövrə vurur. "Mən düşməndə günah görmürəm" deyir, "qaytarın əmanətimi". Gözləri tədbirli vəziri Molla Pənahı axtarır. Yalnız eşik ağasının qısa izahatından sonra xanın ruhunu sakitləşdirmək olur.

Əlbəttdə, yazıçı Şuşanın bu gününə üç yüz illik tarixi fonda işıq salır. Yəni, qalanın başı belə qalmaqalları çox görür, amma Şuşanın tam məğlub gününü heç bir şahənşah görməyib. Savaşda müvəqqəti uduzmaqda olar, geri çəkilməkdə. Əsas odur ki, mənəvi cəhətdən mənfur düşmənə məğlub olmayasan.

İnsan əbədiyyətə qovuşandan sonra zaman-məsafə fərqləri aradan götürülür. Hüseynbala Mirələmov essedə bu məqama xüsusi diqqət yetirir və qəhramanları zamansızlığın fövqündə dayanır. Məsələn, Vaqif qəfildən Bülbülü sorğu-suala tutur, yaxud Üzeyir bəy bir əsr arxaya boylanaraq Xan qızı Natəvanı danışdırır.

"Güllələnmiş heykəllərin fəryadı" nda maraqlı məqamlar çoxdur. Şüphəsiz, əsər istedadla gərgin zəhmətin təmasından ərsəyə gəlib. Gərgin zəhmət deyəndə mən esse üzərində yazıçının yaradıcılıq işinin nəzərdə tutmuram, bu, müəllifin müqəddəs borcudur. Hüseynbala Mirələmovun Azərbaycan tarixinin işığında Qarabağ tarixini dönə-dönə oxuması, öyrənməsi, fakt və hadisələrə təkrarən qayıdır, mikraskopla baxması, onları yazıçı təxəyüllündən keçirib, qələmə sarılması təqdirəlayiq cəhətdir. Çünki Ağabəyim ağanın ruhunu dindirmək üçün gərək yalnız yaşadığı dövürün fövqünə qalxa biləsən, münasib söz tapasan. Müəllif bu çətin işin öhdəsindən şərəflə gəlib.

Hüseynbala Mirələmov əsərin sonluğunda yaxşı tapıb. Daş heykəllər ruhları ilə birgə göylərə çəkilir, "daş insanlar əl-ələ verir, göy üzünü daş bulud tutur. Göy üzünü bulud kimi tutmuş daşlar məqam gözləyir yağmağa". Xalq arasında belə bir ifadə işlənir: "Başına daş yağsın" və ya "göydən daş yağır". Əlbəttə, bu sonluğun rəmzi mənadan, məcazdan başqa, bir hikməti var. Göydə bülənd olmuş o daşlar düşmənin başına düşməyə məqam gözləyir.

Biz hamımız o günün həsrətini çəkirik, Hüseynbala müəllim!

**Ağacəfər Həsənli,**

**şair**

# XOCALI FACİƏSİ “XƏCALƏT” ƏSƏRİNDƏ

On bir il öncə xalqımızın başına gətirilən müsibət misli görünməmiş qəddarlıq, tariximizə Xocalı soyqırımı kimi düşmüş faciə bu günlər respublikanın hər yerində alınır. Anma mərasimlərindən biri də Bakının rayondakı 54 nömrəli orta məktəbdə keçirildi. Bu tədbir digərlərindən onunla seçilirdi ki, burda faciənin miqyası, ermənilərin törətdikləri vəhşilikləri lənətləməklə yanaşı, Xocalı faciəsindən bəhs edən, ümumən, Qarabağ probleminə həsr olunmuş “Xəcalət” kitabının geniş oxucu müzakirəsi də özünə yer tapmışdı.

Tədbirdə Nəsimi rayonu TŞ-nin müdri Müslüm Qəzənfərov, rayin İH başçısının müavini Zahid Xlilov, Bakı şəhər Baş Təhsil İdarəsinin inspektoru Əmiraslan Həsənov, jurnalistlər iştirak edirdilər.

Tədbiri açan məktəbin dil-ədəbiyyat müəllimi Qismət Hüseynova qeyd etdi ki, Xocalı soyqırımı ümumixalq faciəsi kimi hər il qeyd olunur. O, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni-rus silahlı birləşmələrinin törətdiyi qanlı cinayətdən, uşaqların, qocaların, qadınların başına gətirilən müsibətdən danışaraq bütün bunların yaddaşlarda əbədi yaşamasının vacibliyini vurğuladı, bu sahədə ədəbiyyatımızın böyük rol oynaya biləcəyini söylədi. Bu baxımdan yazıçı Hüseynbala Mirələmovun ötən il çapdan çixmiş “Xəcalət” povestini yüksək qiymətləndirdi.

Çixiş edənlər- rayon TŞ-nın müdiri Müslüm Qəzənfərov, məktəbin direktoru, əməkdar müəllim Rimma Hənifəyeva, müəllimlər, şagirdlər bu gün – məhz Xocalı faciəsinin anım günündə “Xəcalət” povestinin müzakirəsinin keşirilməsinin yerinə düşdüyünü qeyd etdilər. Belə fikir dəfələrlə vurğulandı ki, böyük ədəbiyyatda Qarabağ probleminin, xüsusən, Xocalı faciəsinin işıqlandırılması günün tələbidir. Onlar yazıçı Hüseynbala Mirələmovun “Xəcalət” kitabının ürək ağrıları ilə

oxuduqlarını, oxuduqca faciə günlərini əsərin qəhramanları ilə birgə yaşadıqlarını  xüsusi qeyd etdilər.

Sonra söz məktəbin şagirdlərinə verildi. Onlar “Xəcalət” povestindən hissələr oxudular, Xocalı faciəsinə həsr olunmuş səhnələr nümayiş etdilər.

Tədbir iştirakçıları  “Qarabağ şikəsti”nin sədaları altında xəyalən Qarabağı seyrə çıxdılar, əsrarəngiz gözəlliyə məxsus o yerlərin düşmən tapdağında olması hamını məyus etdi. Kitaba daxil edilmiş “Xəcalət” povesti, “Vicdanın hökmü” pyesi və “Güllələnmiş heykəllərin fəryadı” essesindən parçalar səsləndi.

Sonda söz “Xəcalət” kitabının müəllifi Hüseynbala Mirələmova verildi. O öz çıxışında məktəbin kollektivinə təşəkkürünü bildirməklə yanaşı, belə bir hüzünlü gündə məhz  “Xəcalət”-in müzakirəyə çıxarıldığından razılığını bildirdi. H.Mirələmov qeyd etdi ki, Xocalı faciəsini bütün Azərbaycan xalqı öz faciəsi kimi təsəvvür etməli, o qanlı tarixi yaddaşında yaşatmalıdır. Bu gün işğal altında inləyən Qarabağ düşmən tapdağından xilas etmək üçün hamı qarabağlı olmalıdır.

## HEYKƏLLƏRİN FƏRYADI

8 may 1992-ci il. Məşum bir tarixi günü. Şuşanın işğal günü.

Artıq on bir ildir ki, “Qafqazın konservatoriyası” sayılan gözəl Şuşamız yağı düşmən tapdağı altındadır. Cıdır düzü, İsa bulağı, Topxana meşəsi, Daşaltı, Turşusu, Bazarbaşı, Şırlan, Meydan bulağı... işğal altında inim-inim inləyir. Güllələnmiş heykəllərin acı fəryadı ərşi-fələkə yüksəlib. Şuşa “Qarabağ şikəstəsi”nə,  “Vətən bağı al-əlvandı, yox

içində xarı bülbül" zümzüməsinə, Xanın "Şuşada axşamlar yanar ulduzlar" (ancaq 11 ildir ki, bu işıqlar daha yanmır, ulduzlar parlamır, Şuşa dərin zülmətə qərq olub) zənguləsinə həsrət qalıb. On ildir ki, göyə ucalan azan səsinə, "Allahu əkbər" sədasına həsrət qalan Gövhər ağa məscidin minarəsində yuva qurmuş quşların civiltisi eşidilməkdədir.

Şuşa xalqımızın ən ağırlı yeridir. Şuşa Qarabağ kimi yaralı yerimizin ən ağrılısıdır. Mübarizələrlə dolu bir tarix yaşayan, Azərbaycanın mədəniyyət ocağı, musiqi beşiyi, şeir-sənət məbədi olan bu müqəddəs məkan 11 ildir ki, gözümüzü yolda, ürəyimizi səksəkədə, ümidlərimizi Tanrı dərgahında qoyub. Murdar yağı tapdağında olan işğal olunmuş torpaqlarımızı yad etmək, vətənimizin hər bir övladı üçün həddindən artıq çətindir. Özəllikdə də o torpaqlarda doğulub-böyüyən, o yerlərdə gəzib-dolaşan, oraların havasını udan insanlar üçün daha çətin, daha ağrılıdı. Axı onların o yerlərlə bağlı nə qədər unudulmaz xatirələri, əziz-xələflərini qəbirləri qalıb. Əslində, onlar bu on bir ildə heş nəyi unutmayıblar. Şuşanın dərdi, acısı, göynərtisi onlara olub.

Şuşa həm də təkcə insanların qadir əllərilə meydana gətirilmiş maddi-mədəni abidələrlə bəzənməmişdi, ora həmçinin, Tanrının yaratdığı, təbiətin bəxş etdiyi abidələrlədə zəngin idi. Məhz bu məkanın itirilməsi, onun işğal ltında qalması oralı onların qəlbindən heç vaxt çıxmaz. Şuşanı itirməyin yanğısı unudulmazdır.

Şuşa sözünün gerçək anlamında böyük mədəniyyət ocağı idi. Bu diyardan neçə-neçə dahi sənətkarlarımız pöhrələnib. Onlar öz nadir sənət incilərilə xalqımızı dünyada tanıtdırmış, başımızı uca etmişlər. Doğma Azərbaycanımızın ayrılmaz hissəsi olan Qarabağ mövzusunda sanbalı əsərlər müəllif kimi tanınan yazıçı Hüseynbala Mirələmovun ürək yanğısı ilə qələmə aldığı: Güllələnmiş heykəllərin fəryadı" essesində sənət korifeylərimizin heykəllərini odlu silahlarla nişangaha çevirib yaralayan erməni nadanlarının yaramaz əməllərindən, murdar xislətlərindən söhbət açılır.

Əsər tarixi faktlar əsasında qələmə alınıb. Burda İbrahimxəlil xanın, Ağabəyim ağanın, Üzeyir bəyin, Bülbülün heykəlləri dilə gəlir, onlar oxucu ilə "dərdləşir", öz etiraflarını söyləyir, narahatlıqlarını bildirir, fəryad qoparırılar. Onlar xalqı amansız düşmənə qarşı birləşməyə çağırırlarş. Əgər xalq birləşməsə, sözünü bir yerə qoymasa, bu yaraların sızıltısı uzun çəkəcək.

Esseni oxuduqca tarix boyu məkrli ermənilərin törətdikləri çirkin, bəd əməllər, nankorluqlar, vəhşiliklər, yaramazlıqlar gözlərimiz önündə canlanır,"Səhl-sumbatların, vartanların iblissayağı hiylələri sayəsində kürəyimizə yağ xəncəri"nin saplanmasından dərs almadığımız nəzərə çarpdırılır.

Əsərin bir yerində müəllif  Natəvanın heykəlinin dili ilə faktları sadalayaraq yazır ki, ermənilər işğala çoxdan başlayıblar. Onlar, hətta klassik şərq şairləri tərəfindən qələmə alınmış  "Fərhad və Şirin" əfsanəsindəki Şirinin " erməni gözəli, erməni şahsadəsi olduğunu", musiqimizdə, tətbiqi sənətimizdə, xalçaçılığımızda,  abidələrimizdəki orjinal özünəməxsusluğumuzu da həyasızcasına mənimsəməkdən ötrü dəridən-qabıqdan çıxırlar. Dastanlarımızı, xalq rəvayətlərimizi, nağıllarımızı və  başqa maddi-mədəniyyət abidələrimizi öz adlarına çıxan bu yaramazlar, hətta XX yüzillikdə  bütün dünyanın gözü qabağında Üzeyir bəyin əsərlərini həyasızcasına öz adlarına çıxıb, amerikada çap eləyir və yayırdılar. Məgər bunları unutmaqmı olar? Elə unutqanlığımız da başımıza belalar açırmı?

Bədnam ermənilər sabahını, gələcəyini düçünən bir xalq deyil. Onlar həmişə onun-bunun fitvasına uymuşlar. Türkiyənin içərisində türklərin özlərindən yaxşı yaşadıqları (on-on beş il bundan öncəyə qədər bunun Azərbaycanda  da şahidi olmuşuq) halda, rusların, ingilislərin, fransızların təhlükələri onlara qarşı çıxmış "torpaq iddiası" ilə "Böyük Ermənistan" xülyasına qapılmışdır. Avropalılar vaxtilə Osmanlı imperatorluğunun Avropa qitəsində müəyyən yerləri idarəsi altında saxlanılmasını heç cür sindirə bilmirdilər. Bundan ötrü müxtəlif

avantüralara əl atırdılar ki, Osmanlı dövlətini zəiflətsinlər və onun öz torpaqlarını ələ keçirsinlər. Onların bu planı, ümumiyyətlə, Türkiyəni xəritədən tamamilə silmək məqsədi daşıyırdı.

Bu proseslər XIX yüzilliyinin ortalarında başlayaraq güclənməkdə idi. Avropanın imperialist dövlətlərinin Türkiyənin parçalamaq cəhdləri, özəlliklə də dünya jandarmı rolunda çıxış edən çar Rusiyasından istifadə etmələri, onu Türkiyə üzərinə qısqırtmaları, bu baxımdan diqqətçəkici bir hal idi. Çr Rusiyası isə bu işə çox həvəslə və iştahla qoşulmuşdu. Onun əsərlərlə arzusunda olduğu İstanbulu, Bosfor və Dardanel boğazlarını ələ keçirməkdən yana fürsət axtarması və dəfələrlə türklərlə savaşlara girməsi yazıçı H.Mirələmovun ifadəsincə desək, “bu acgöz, oxbaşlı əjdəha”nın iştahasından xəbər verirdi.

Ermənilər məhz Qərbin və Rusiyanın böyük məqsədlərinin əl tulaları və “peşkaları” idilər. Türkiyəni daxildən də sarsıtmaq üçün onlardan məharətlə istifadə edirlər. Süni surətdə ortaya atılan “erməni məsələsi”, əslində, ermənilərin deyil, gözlərini türklərin torpaqlarına dikmiş böyük dövlətlərin məsələsi olaraq siyasi bir mahiyyət daşıyırdı. “Böyük Ermənistan”- “Dənizdən dənizə Ermənistan” xülyası ilə yaşayan haylar da həvəslə ağalarının buyruqlarını yerinə yetirməkdən ötrü dəridən-qabıqdan çıxırdılar. 1890-cı ildən fəaliyyətə başlayan erməni terrorizmi nəticəsində ta 1922-ci ilə kimi, müxtəlif tarixi zamanlarda yüz minlərlə günahsız türk amansızcasına qanına qəltan edilmişdir (bəzi sənədlərə görə, bu hadisələrdə altı yüz min erməni, üç milyon türk qətlə yetirilib).

XX yüzilliyinin sonlarında erməni terroriziminin ikinci dalğası başlamış və yenə də çoxlu məsum insan vəhşicəsinə bu qanlı terrorizimin qurbanı olmuşdur. Erməni terrorizimi davam etməkdədir...

Eyni durum Azərbaycanda da zaman-zaman davam edib. Qarabağ hakimi İbrahimxəlil xanın səhv və etirafları nə qədər ibrətamizdir. O özünü haqlı olaraq  günahkar sayır və günahlarının çox olduğunu etiraf edir: “Torpağıma köçürülən, qovulan ermənilərin acından, soyuqdan qırılıb tələf olmasına yol vermədim. Əkin-biçin üçün torpaq verdim.

Axırda mənə qənim kəsildilər. Xanlığı içindən kəsəyən kimi doğradılar, qanımıza susadılar. Girəvə düşən kimi öz silahımızı özümüzə çevirdilər. Üzdə sadiq nökərimə, arxada namərd düşmənimə döndülər. Gözlərimin qabağına hörümçək kimi tor qurdular. Şəhvətim, nəfsim aldatdı məni. Qızlarını sarayıma dəvət edib, qohumluq əlaqələri yaratdım. Bəd ayaqda qorudum onları. Vergilərdən azad elədim. Sonda bütün yaxşılıqlarımı nankorcasına, xaincəsinə unutdular. Ermənilik taunu işini gördü. Dövlətimi dağıtdılar. Gah farsın, gah da rusun şirin vədlərinə aldandılar..."

Doğurdan da, nə qədər ibrətamiz bir etirafdır! Məgər "günahım yanınızda çoxdur, mənim övladlarım" deyən İbrahimxəlil xanın ruhu qarşısında sonrakı nəsil ibrət götürdümü? Həmin səhvləri xalqımızın bir sıra nankor nümayəndələri də bu və ya başqa biçimdə təkrar etdilər. Məkirli erməni daşnakları isə xalqımızın geniş ürəkli olmasından, həlim xasiyyətindən, " duz çörək kəsilibsə, xəyanət eləməzlər" gələnəklərindən yararlanmışlar. İbrahimxəlil xanın qızı Gövhər ağanın ruhu da atasına ermənilərin və rusların xəyanətkar münasibətini təsdiqləyir: "Atam İbrahimxəlil xanın xanimanı qapısında çörək verdiyi erməni əsilli Məil Cümşüdün fitvası ilə dağıdıldı. Onun bizə düşmənçiliyi sayəsində, Rusiya hökümətinə quyruq bulaması nəticəsində mayor Lisaneviç Xan bağı yaxınlığlında ailəmizdən və yaxınlarımızdan on yeddi nəfəri güllələdi, qəddarcasına qanına qəltan elədi" deməklə tarixi faktları ortaya qoyur. Çar Rusiyasında gördüyü etibarsızlığı, ermənilərin xəyanətini ömrünün sonuna qədər unutmayacağını söyləməkdən başqa, çarəsi qalmır. Tikdirdiyi məscidlərin tağlarını, minarələrini barbacasına dağıdan erməni dığlarının yağlı dillərinə aldanan, hiylələrindən baş açmayan özündən sonraki nəsili qınayır.

Ermənilərin din katolikosundan tutmuş müxtəlif partiya və terror təşkilatlarına qədər hamısı körpə uşaqlara da,gənclərə də daim türklərin onlara düşmən olduqlarını öyrədir, bu fikiri onlara aşılayır, öz icadları olan "erməni genosidi" uydurmasından faydalanmağa başlıca məqsəd

sayırlar. Bu məqsədlərinə nail olmaqdan ötrü hər şeyə, hər alçaqlığa məmuniyyətlə gedir, hətta öz millətdaşlarını, öz xalqının nümayəndələrini ğldürməkdəndə vazgeçmir, onları qətlə yetirməyi belə, gərəkli bilirlər. Türkiyədə yaşayan Artin Penik adlı bir erməni öz soydaşlarının imperalistlərin bu məqsədli oyununda iştirakçı olduqlarına etiraz əlamətləri olaraq özünü yandıraraq intihar etmişdir. Bundan başqa da çoxlu misallar gətirmək, çoxlu səsndlər göstərmək mümkündür. Məşhur yazıçı Pyer Zoti (1850-1923) 1920-ci ildə Fransa jurnallarının birində çap eletdirdiyi bir məqaləsində bu məsələdə türklərin heç bir günahı olmadığını yazır və erməniləri heç nəyə məhəl qoymadan öz fitnəkarlıqlarınbı amansızlıqla davam etdirirlər.

H.Mirələmovun bu əsərində tarixi olaylarla, özəlliklə də Qarabağın, Şuşanın tarixi ilə üz-üzə gəlirik. Şuşanın mədəniyyət və incəsənət, orda yetişən ünlü tarixi şəxsiyyətlər haqqında bilgi almaqla bərabər, müəllifin təəssüf və istehzası, ələm və kədər, qəzəb və nifrət, ürək çırpıntıları və narahatlığı da əsərdə öz bariz əksini tapmışdır. Gözəl Şuşanın nadir incilərindən- “içində ruhu təzələyən İsa bulağının zəm-zəm suyundan”, Topxana meşələrindən, Cıdır düzündən başqa, heç yerdə bitməyən xarı bülbülündən və s. söz açan müəllif sanki əsərin mürəkkəblə deyil, ürəyinin qanı ilə qələmə almışdır.

Yazıçı bu gözəl, nadir incilərə barbarcasına münasibət göstərənlərin, ünlü sənətçilərimizin heykəllərini atəşə tutanların aqibətini yaxşı anlayır. Ruhdan düşmür. Gələcəkdən ümidini üzmür, hər şeyin öz yerini tutacağına dərindən inanır və inanır ki, erməni daşnakları bu daş heykəlləri güllələyə, qırıq-qırıq edib, sındıra bilərlər, ancaq Şuşanın təmiz havasının, saf, büllur sularını, müqəddəs torpağını dəyişə və daşıya bilməzlər. Həmin nəsnlərə gec-tez yenə öz sahibinin – Azərbaycan türklərinin olacaq və o, buna heç şübhə eləmir. Çünki zaamn gələcək ki, haqq, ədalət öz yerini tutacaq, ermənilər tarix qarşısında cavab verməli olacaqlar.

“Güllələnmiş heykəllərin fəryadı” - əsərini oxuduqca hiss edirsen ki, onun müəllifi H.Mirələmov mövzunu işlənməzdən öncə Qarabağ tarixini, keçən yüzilliklərdə olub-keçənləri dərindən, sanballı bir əsər ortaya qoymuşdur.

Ağabəyim ağanın və Gövhər ağanın ruhlarının dilə gətirdiyi bayatılar, Bülbülün şövqlə oxuduğu Nizami Gəncəvinin “Sənsiz” qəzəlinin beyitləri, Natəvanın “Ölürəm” rədifi qəzəli vəs s. şerlərdən verilən beyitlər, parçalar əsərin məzmununa və ideyasına uyğun biçimdə səsləndirilmişdir, essenin daha məzmunlu, təsirli, maraqlı və oxunaqlı olmasına yardım etmişdir. Şeirlər əsərin ruhuna uyğun seçilmiş, onun təsiredici gücünü daha da artırmışdır.

Əsər son dərəcə aktual, məzmunlu və təsiredicidir. Dili şairanə, poetik və axıcıdır. Yazıçı əsərini gözəl sözlər, ifadələrə hörmüşdür.

Əsərin adı da rəmzi anlam kəsb eləyir. Fəryad qoparmaq canlılara xas olan bir özəllikdir. Məgər cansızların fəryadı olmazmı? Yazıçı yaramaz düşmənin yaramaz əməllərinə ( əgər buna əməl demək mümkünsə) qarşı oxucuda kin, nifrət, qəzəb oyatmaq məqsədilə belə etmişdir, hər halda öz yurddaşlarını silkələyib, qəflət yuxusundan oyatmaq istəmişdir. Həmin sualın cavabını da elə müəllifin öz yazısından çıxarmaq mümkündür. Canlı kimi danışan bu heykəllər (elə ruhlar da) bir zamanlar “Şuşa müqəddəsliyindən, Şuşa ünvanlı dirlik bulağından su içdikləri” üçün dirdirlər, öz doğmalarının biganəliyindən ötrü fəryad qoparırlar. Gün gələcək ki, onların fəryadları yerdə qalmayacaq. Bu yurdun əsl ləyaqətli övladları düşmənin “ başını gürzə başı kimi” əzəcəklər. Güllələnmiş heykəllər də öz layiqli yerində yenidən ucalacaqlar.

**Aydın Abi Aydın,**

**Filologiya elimləri doktoru,**

**professor, türkoloq**

# QARABAĞI TARİXLƏŞDİRƏN YAZIÇI

Bu günlərdə Azərbaycan Teatr Xadimləri İttifaqında 2002-ci il teatr mövsümü üçün "Qızıl Dərviş" mükafatının təqdimat mərasimi keçirildi.

Qeyd edək ki, milli teatrımızın 130-illiyi ərəfəsində keçirilən bu tədbirə xeyli sənət adamları, ədəbiyyatşünaslar, rejisorlar, jurnalistlər toplaşmışdır. Mərhum aktyor xalq artisti Həsənağa Turabovun təşəbbüsü ilə təsis olunmuş "Qızıl Dərviş" mükafatına ötən illər ərzində xeyli sənətçi layiq görülmüşdür. Həmişəki kimi bu il də mükafat müxtəlif nominasiyalar üzrə verilirdi. Mükafat alan 15-nəfər arasında tanınmış aktyorlar və rejissorlarla yanaşı, ilin ən yaxşı səhnə əsərinin müəllifi, yazıçı Hüseynbala Mirələmov da vardı. O, bu mükafata Azərbaycan Dövlət Gənclər Teatrında tamaşaya qoyulmuş, Qarabağ mövzusunda yazılmış "Vicdanın hökmü" pyesində mövzu problematikasının aktuallığına görə layiq görülüb.

Fürsətdən istifadə edib, Hüseynbala müəllimə bir neçə sualla müraciət etdik:

**Hüseynbala müəllim, mükafat almağınız münasibətilə Sizi təbrik edirik! Bilirik ki, bədii yaradıcılığınız bir çox mükafatlarla qiymətləndirilib. Siz "Zərdabi", "Tağıyev", "Milli Yaddaş" mükafatlarının laureatı, " Qızıl qələm" sahibisiniz...**

Çox sağ olun ki, bugünkü sevincimə şərik olub, məni təbrik edirsiniz. Və sözünüzü kəsdiyimə görə məni bağışlayın. Sadəcə aldığım mükafatların sadalanmağını xoşlamıram. Heç bir yazar, o cümlədən, mən hansısa mükafatı almaq xətrinə yazmıram. Xalqın dərdlərini qələmin gücü ilə birləşdirib, tarixə çevirmək, yaddaşlara həkk etmək ən böyük mükafatımızdır. Ancaq onu da deyim ki, indi çox sevinirəm, çünki bu gün mənə təqdim olunan mükafat 15 ildir millətimizə əzab verən Qarabağ yarasına, Qarabağ dərdinə həsr olunmuş əsərim üçündür.

**Yanılmırıqsa, bu, Sizin Qarabağ mövzusunda yazdığınız yeganə əsər deyil. Bu gün böyük oxucu auditoriyası hələ də ötən il çapdan çıxan "Xəcalət" kitabının təsiri ilə yaşayır. Kitaba daxil edilən "Xəcalət" povesti 2002-ci ilin Qarabağ mövzusunda yazılmış ən yaxı bədii əsəri kimi Azərbaycan Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliğ Bürosu tərəfindən "Milli yaddaş" mükafatına layiq görüldü. "Güllələnmiş heykəlləin fəryadı" essesi milli televiziyada ekran təcəssümü tapdı. Ümumiyyətlə, Qarabağ mövzusu baxımından Sizi ilin ən məhsuldar yazıçısı hesab etmək olar.**

**Hüseynbala müəllim, gözünü dünyaya Xəzərin qoynunda bir dəstə gül buketi olan Lənkəranda açan bir adamı Qarabağa bağlayan nədir?**

Bu gün Azərbaycan Qarabağ adlı bir dərdi dəhşətli bir ağrı kimi içində gəzdirir. Bu dərd hər bir azərbaycanlını içindən göynədir. Ona görə də hər bir azərbaycanlı özünü bu gün köklü Qarabağlı saymalıdır. Bu baxımdan mən də özümü qarabağlı sayıram. Ona görə də Qarabağ mövzusu mənə doğmadır. Bundan başqa, tale elə gətirib ki, ömrümün 4-5 ili Qarabağla bağlı olub. 1988-ci ildən 1992-ci ilə qədər Qarabağda baş verən hadisələrin şahidi və iştirakçısı olmuşam. Xocalı gözlərim qarşısında kiçik kənddən böyük bir şəhərə çevrilmişdi. Meşəlidə, Kosalarda qonaq qalmış, Turşsu bulağının gözündən su içmişəm. O yerlərin gözəlliyi məni heyran edib.

Bu gün düşmən tapdağında inləyən, bizi qisasa səsləyən əsrarəngiz gözəlliyə malik, təbii sərvətlərlə zəngin, böyük tarixi keçmişi olan bu diyardan yazmamaq günahdır. Üstəgəl erməni daşnaklarının orda törətdikləri vəhşiliklər, qız-gəlinlərimizin, qocaların, körpələrin qəddarlıqla qətlə yetirilməsi, əsir götürülənlərə işgəncələr verilməsi. Bütün bunlar bəhs edir ki, Qarabağ mövzusunda onlarla yox, yüzlərlə kitab yazasan. Orda baş verən hadisələr, o qəhrəman insanların yaşadığı hər gün böyük bir bədii əsərin mövzusu ola bilər. Qarabağ tariximizin qanlı səhifəsi, xalqımızın qan yaddaşıdır. Azərbaycanın əbədi və əzəli

düşməni olan ermənilərin iç üzü açılmalı, orda tökülən qanlar, törədilən vəhşiliklər dünya ictimaiyyətinə, gələcək nəsillərə çatdırılmalıdır. Bu gün yazılan hər bir misra şer də, hər sətir cümlə də, hər kiçik məqalədə, hər bir bədii əsər də Qarabağdan danışmalı, Qarabağı yaşatmalı, Qarabağ dərdindən bəhs etməli, Qarabağ yarasına məlhəm olmalıdır. Bu baxımdan məndə bacardığımı etməyə çalışıram.

**- Aldığınınz hər bir mükafatı bir “avans” kimi qəbul edirsiniz. Bu, o deməkdir ki, hələ yazacağınız çox mövzular var...**

- Bilirsiniz ki, bu gün keçid dövrünü yaşayırıq. Uzun illər böyük imperiyanın əsarətində olmuş Azərbaycan indi müsəqil dövlətdir. Söz yox ki, çətinliklər, problemlər də az deyil. Inidi müsəqil, demokratik, hüquqi, güclü dövlət qurmaq üçün hər sahədə olduğu kimi insanların şüurunda da yeniləşmə olmalıdır. Bu işi isə əli qələm tutan ziyalılar sözün, əsasən də bədii sözün imkanlarından istifadə edərək həyata keçirməlidir. O baxımdan siz jurnalistlərdən və bizdən çox şey aslıdır. Ona görə də həyatımızın heç bir sahəsi diqqətdən yayınmamalı, ictimai-siyasi problemlərə biganə yanaşılmalı, bu günku tariximiz elə qələmə alınmalıdır ki, obyektivlik itməsin, haqsızlığa yol verilməsin. Yəni, məni düşündürən problematik mövzular çoxdur.Onlardan bəhs edən irili-xırdalı əsərlər yazmağı planlaşdırmışam.

Bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir. Ölkəmiz inkişaf etməkdə, dünya dövlətləri arasında öz sözünü deməkdir. Respublikamız bütün beynəlxalq təşkilatlarda layiqincə təmsil olunması, son illərin göstəriciləri bunu bir daha sübut edir.

Ancaq ürəyimizin başına vurulan Qarabağ yarasından hələ də qan sızır. Torpaqlarımız düşmən tapdağında inləyir, ulularımızın əsir düşmüş məzarları yolumuzu gözləyir. Tarixi abidələrimiz dağıdılır,yüz minlərlə soydaşımız çadırlarda, yeraltı qazmalarda, yarımçıq tikililərdə əzab çəkməyə məhkum edilib. Bu dərdləri unutmaq olmaz. Özünü Azərbaycan xalqının övladı hesab edən ziyalı bütün bunlara biganə qala bilməz.

Görürsünüz, nədən danışsaq da, yenə sözün qüdrəti bizim yönümüzü Qarabağa döndərir. Bizi buna vadar edən vətəndaşlıq borcu, azərbaycanlıq hissi, övladlıq istəyidir. Qarabağ günümüzün əsasa mövzusudur.

Bu gün ölkə rəhbərliyi Qarabağımızı azad etmək üçün qəti addımlar atır. Ermənilərin dünyada işğalçı kimi tanınmasına nail olunub, beynəlxalq aləmin diqqəti Qarabağ probleminə yönəlib. Inanırıq ki, gözəlliklər diyarı, təbiətin bizə hədiyyəsi olan qarabağ tezliklə azad olunacaq.

- Ən böyük arzunuz nədir?

- Insanın azuları nəhayətsiz olur. Bir yüksəkliyi qət edib, o birinə ucalmağa çalışırsan. Mənim yeganə arzum qarabağı azad görmək, o dağları qarşı-qarşı yenidən gəzib-dolaşmaq, orda aparılan quruculuq işlərinin iştirakçısı kimi böyük bir əsər yazmaqdır. Inanıram ki, o günə çox qalmayıb. Tezliklə ulu diyar Qarabağ düşməndən azad olacaq, Cıdır düzündən Xan əminin, Cabbarın səsi yüksəlib, Topxana meşəsində əks-səda verərək külli Qarabağı el şənliyinə dəvət edəcək, İsa bulağında Mürsəl kişinin segahı səslənəcək. Vaxıilə Andronikin qulağını kəsmiş Soltan bəyin beşaçılanının gurultusu Laçın dağlarını lərzəyə salacaq. Dədə Şəmşir sazını sinəsinə basıb, Murovdağın zirvəsindən qoşmalar, gəraylılar deyəcək , el qızları halay tutub, bayram rəqsi, qələbə rəqsi oynayacaqlar. Damcı bulaqdan su içib, Səxavətin “ Zəminxarə” sinə qulaq asacaq, Cəbrayılda xan çinarın kölgəsində dincəlib, Həkəri çayının sahillərində, Çayzəmidəustad yazıçı Süleyman Rəhimovun kitablarını vərəqləyib, rahatlıq tapacağıq. Bax, onda mən də ən böyük arzuma çatıb, “qisas qiyamətə qalmadı” deyəcək, azad Qarabağdan böyük əsərlər yazacağam.

# ƏLLƏRİNİ ÜRƏKLƏ SIXIRAM

Hüseynbala Mirələmovla ilk tanışlığım 80-ci illərin əvvəllərində "Azərbaycan pioneri" qəzeti redaksiyasında olmuşdur. Hikmət Ziya ilə birlikdə qəzetin redaktoru Əmrah Əmrahovla söhbət edirdilər.Hikmət Hüseynbala Mirələmovu mənimləı tanış etdi: - Bu, sair dostum İlyuşadır- İlyas Tapdıq. Televiziyada işləyir- baş redaktor.

Xoşsifətli cavan oğlan olan Hüseynbala ayağa qalxıb, mənə əl verdi. Hikmət əlavə etdi: - Canlara dəyən oğlandır, bizimlə əməkdaşlıq edir, sizin verilişlər üçün də süjetlər yaza bilər...

H.Mirələmov az zamanda özünü çalışqan və işgüzar bir qələm sahibi və etibarlı, intizamlı bir işçi kimi göstərdi. Artıq qəzet və jurnallarda imzasını tanıtmışdı. Təvazökarlığı, sadəliyi və dost – yoldaş üçün fədakarlığı ilə Hikmətin və Əmrahın bütün dostlarının rəğbətini qazandı, yadda qalan məqalələrlə qələmini təsdiq.

Mövzularının rəngarəngliyinə, yığcamlığına və məntiqi nəticəsinə, ümumən, həyatı hazırlığına görə bizdən yaşca xeyli kiçik olsa da, onu tay-tuş gözündə görürdük. Çox zaman dostların ad günlərinə, dəniz sahilinə onunla birgə gedərdik. Maraqlı söhbətləri, hərəkətləri, az danışması onu hamımızın doğmasına  çevirmişdi. 80-ci illərin sonunda yaranan ictimai şərait-milli müstəqillik uğrunda mübarizələr, bəzilərimizi yaradıcılıqdan ayirib.meydanlara səslədi, müxtəlif müstəvili təzə münasibətlər yarandı. Publisistikaya, poetik çağırışa meyl gücləndi, hər yaradıcı insan bu hadisələri işıqlandırmaq üçün taleyimizdə baş verə biləcək yenilikləri isti-isti qələmə aldı. Artıq "Azərbaycan pioneri" qəzetinin redaktoru komsomolun yetirməsi Əlirza Balayev idi. Uşaqlar üçün olmasına baxmayaraq, bu qəzetdə çap edilən bəzi yazılar senzura tərəfindən sıxışdırıldı. H.Mirələmov bu dövrdə daha çox həyatı hadisələrə müdaxilə edən yazılala çıxış edir, vətəndaşlıq mövqeyni göstərirdi.

Çox çəkmədi ki, araya ağır Qarabağ problemi düşdü. O zaman yaradıcı, yüksək vətənpərvərlik duyöusu ilə yaşayan, bütün varlığı ilə özünü bədii yaradıcılığa həsr edən insanlardan biri də Hüseynbala Mirələmov oldu. Bir-birinin ardınca “Xəcalət” povesti “Güllələnmiş heykəllərin fəryadı” ədəbi essesi “Vicdanın hökmü” dramı meydana gəldi. “Xəcalət” povesti 2002-ci ildə Azərbaycan Yazıçılar Birliyinin “Yaddaş” ədəbi mükafatına layiq görülərək müsabiqədə birinci yer tutdu.

“Kredo” qəzetinin səhifələrində hissə- hissə çap edildikcə mən H.Mirələmovun “Xəcalət” povestini maraqla oxuyurdum. Sonradan həmin əsəri və kitaba daxil edilmiş başqa yazıları da oxudum, “ Gənclik” nəşriyyatı tərəfindən 2002-ci ildə nəfis bir kitab halında çap edilmişdir.

Nəşriyyat xeyirxah bir iş görüb, sanballı bir ön söz də yazdırdı. Mən əsərləri oxuyub, bitirdikdən sonra H.Mirələmovun “Xəcalət” və “Güllələnmiş heykəllərin fəryadı” haqqında öz təəssuratımı oxucularla bölüşmək qərarına gəldim. Lakin əvvəlcə tənqidçi Vaqif Yusifli və şair-publisist Əli Mahmudun “Xəcalət” kitabına yazdıqları şərikli ön sözü oxudum. Səkkiz səhifədən ibarət bu ön sözü yazanlara ürəyimdə böyük bir qibtə və minnətdarlıq hissi yarandı. Düşündüm: “Bu əsər haqqında, görəsən, daha necə yazmaq mümkün olar ki, deyilənləri təkrar etməyəsən. Yaxud heç olmasa bu obyektiv və mükəmməl ön sözün səviyyəsində ortaya başqa bir rəy qoyasan. Yüksək ədəbi tənqid nümunəsi olan bu ön sözdən sonra, bəlkə də, heç bir başqa rəyə ehtiyyac duyulmur.

Belə bir halda, H.Mirələmovun “Xəcalət” kitabı haqqında yazılan fikirləri təkrar etmədən əsəri mənə sevdirən bızi cəhətləri oxucularla bölüşmək istədim.

Çox təəssüf ki, təəssuratımı yazsam da redaksiyaya çatdıra bilmədim. Doğma kəndimə, anamın yanına gedib, bir müddət kənddə qaldım. Lakin “Xəcalət” kitabının təəssuratı məni yenidən narahat etdi. Onu gec

də olsa, oxucularla bölüşməyi qərara aldım. Çünki H.Mirələmovun bu kitabı üçün zaman aktuallığı həmişə var.  Buna görə “Xəcalət”in oxucuları ilə fikirlərimi bölüşmək istədim.

Kitabın xoşuma gələn birinci cəhəti bidir ki, onu oxumağa başlayan oxucu əlindən yerə qoymur. Maraqlı, poetik, epizotlara  biganə qala bilmir, onları təkrarən nəzərdən keçirməli olur. Bir diqqət edin, dostu Murad başına olmazın müsibətlər gələn Vətəni (əsərin qəhrəmanını-red.) necə görür? Kitabın 19- cu səhifəsinə müraciət edirəm: “Vətənin köhnə nişanələrini zaman tamamilə saxlamışdır. Dümağ saç-saqqal onub vaxtından əvvəl ahıllaşdırmış, dərd adlı məngənədə kifayyət qədər sıxışdırmışdı. Bu dar məngənədə əriyib-əriyib çöpə dönmüş, ayıqlamışdı”.

Vətənin bu portreti əsər boyu yaddan çıxmır.

Müharibənin dəhşətlərini təsvir edən bu parçaya diqqət edək: “Düşmən güman olunan istiqaməti toplardan atəşə tutmuşdu. Mərmilər onlardan 300-400 metr aralıda- sağda, solda  yağış kimi tökülür, partlayırdı. Uşaqlar belə partlayışlara alışsalar da, həyacandan tir-tir əsirdilər”.

Döyüş bir qədər ara verəndən sonra vəziyyət dəyişir, bu mənzərə sanki rəssam tablosu kimi göz önünə gəli:

“Hava bir qədər sınmışdı. Bayaqkı  sazaq yox idi. Mərmilərin istisi deyəsən, havanı bir balaca mülayimləşdirmişdi. Ayın işığı artmaqda idi. Ayın işığı elə düşürdü ki, ağacların kölgələrini suya sarı uzadırdı. Bu kölgələr əli avtomatlı əsgər cərgələrinə oxşayırdı”.

Müəllif bir çox poetik düşüncə tərzi ilə Vətənin keçirdiyi o hissləri real qələmə alır ki, bizim ürəyimiz də Vətənlə eyni dərdin, eyni taleyin daşıyıcısına çevrilir.

Əsər boyu onu tənha qoymağa ürək eləmirik. Keçdiyi ağrılı-acılı həyat yolun, taleyini çağdaş mühitimizdə gördüyümüz insanların taleyi ilə müqayisə edirik, fikirini də təsəvvürümüzdə möhkəmləndiririk.

Həcmcə çoxda böyük olmayan "Xəcalət" povesti Qarabağ problemi, onun keçmişdə, yaxın zamanlarda, indiki döyüşlü-savaşlı vaxtlarında günü-güzəranı, çəkdiyi zülümlər, didərginlərin başına gələn müsibətlər – hamısı göz önündən keçir. Bütün bunlar bizi bir daha silkələyir, oyadır, qeyrətə qeyzə dolmağa səsləyir.

Vətənin ürəyində həkk olunmuş bu sözlər bizə nələr demir? "O vaxt babam qürbətdə can üstə olarkən demişdi: İnsan da torpaqda bitmiş yeriyən ağacdır. Harda doğulubsa, harda bitibsə, həmişə o yerə sarı dartınır. Çünki qürbət məmləkət gəzmək, görmək üçündür, ölmək üçün yox..."

Ön sözün müəllifləri Vaqif Yusifli və Əli Mahmudun yazdıqları kimi: "...Yazıçı bir Vətən övladının 1988-ci ildən bəri yaşanılan əzabkeş ömrünü addım-addım izləyir, onun təsvirləri real və inandırıcıdır. Sanki müəllif bu hadisələri özü yaşamış və içindən keçirmişdir"

Müəllifin Qarabağ mğvzusuna dərindən bağlılığının bir bəhrəsi də "Güllələnmiş heykəllərin fəryadı" dır. Bu əsər də təsadüfi yazılmamışdır. Mövzuya yiyələndikcə onun ürəyinin döyüntülərini dərinləşmiş, daha təsirli sözlərlə ifadə olunmuşdur. " Bağrımın başında "Şüştər"dir çalınan, ürəyimdə "Humayun"dur hicqıran...", "Şuşa daşlarını danışan görürəm. Eşitdiklərim elə bu daşların pıçıltısıdr".

Bu sətirləri necə həyəcansız oxumaq olar? Axı Hüseynbala Mirələmov bütün bunları hiss edərək, duyaraq yazmışdır. Bir çoc qələm sahiblərinin dedikləri kimi ürəyinin qanı ilə yazmışdır.

İstedadlı şair dostum Əli Rza Xələfli Hüseynbala Mirələmovun həyat və yaradıcılığı haqqında "Sözə doğru"adlı publisistik düşüncələrdən ibarət dəyərli bir kitab yazmışdır. Fikrimi onun həmin kitabda verilmiş misraları ilə tamamlayıram.

**Söz var idi bizdən əvvəl**

**bircə ilmə.**

**Bizdən sonra söz qalacaq**

**Kəlmə-kəlmə.**

**Bu dünyada əvvəl-axir**

**Yazılandan iz qalacaq.**

**İz qalacaq, söz qalacaq!**

Necə gözəl deyilmişdi. Hüseynbala Mirələmovun Vətən övladlarını qeyrətə çağıran "Xəcalət"i Qarabağ taleyində əbədi qalacaq bir kitabdır. Onun müəllifinin əllərini ürəkdən sıxıram!

**İlyas TAPDIQ,**

**şair**

## RUHLAR BİZİ QINAYIRDI

Artıq xeyli vaxtdır ki, Qarabağ mövzusu mətbuat səhifələrindən, teleekrandan düşmür. Bu mövzunun gündəmə gətirən yazıçı-alim Hüseynbala Mirələmovun bir neçə ay öncə çapdan çixmiş və Qarabağ mövzusuna həsr olunmuş "Xəcalət" kitabı oldu. Kitabda toplanmış məzmun və bədiilik baxımından bir-birindən gözəl olan üç əsər- "Xəcalət" povesti, "Güllələnmiş heykəllərin fəryadı" essesi və

“Vicdanın hökmü” pyesi ölkə ictimayyətinin yaxasından tutub silkələdi, lərzəyə gətirdi. Və bu ittihamdan ayılan millət baxıb gördü ki, Qarabağ yoxdur! Qarabağ əlimizdən gedib! Qarabağ bizim deyil artıq! Qarabağ öz qara bəxtini yaşayır!...

“Vicdanın hökmü” pyesi Dövlət Gənclər Teatırında və Lənkəran dövlət Dram Teatırında uğurla səhnələşdirilib, tamaşaçıların müzakirəsinə çevriləndən sonra, demək olar ki, bütün mətbu orqanlarda Qarabağ mövzusu aktuallaşdı. Və haqlı olaraq bütün yazarlar bu mövzuya öz yaradıcılıqlarında az toxunduqlarına görə oxucuların qınaq atəşinə tutuldular.

Sonra isə Azərbaycan televizyası “Güllələnmiş heykəllərin fəryadı” essesi əsasında “Güllələnmiş heykəllər” adlı film-tamaşa çəkdi və bu günlərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının zalında film-tamaşa ictimai baxış keçirildi.

**Haşiyə**

Deyək ki, bu yazını bir az öncə film-tamaşa televiziyanın 1- ci proqramında nümayiş etdiriləndən sonra yazmışdı. Ancaq ertəsi gün ictimai-baxış keçiriləcəyi haqqında məlumat aldıqda bir az gözlədik. İstədik ki, düzgün fikir söyləmək üçün geniş tamaçaçı rəyini öyrənək. Və gördük ki, yanılmamışıq.

**İctimai baxış**

Soyuq bir gündə keçirilsə də, zala toplaşanların sayı və tərkib keyfiyyəti onu göstərirdi ki, oxucu və tamaşaçı kütləsinin bu əsərə marağı böyükdür.

Millət vəkilləri Hadı Rəcəbli, Məlahət Məmmədova, Kərəm Əliyev, Səyyad Aran, Xanhüseyn Kazımlı, Aynur Sofiyeva, Bahar Muradova, Gültəkin Hacıyeva, Vüqar Əhmədli, böyük müğənnimiz Bülbülün yadigarı Adilə xanım, "Gənclik" nəşriyyatının baş direktoru Əlican Əliyev, Zəhar Quliyeva, tənqidçilər Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Sosialist Əməyi Qəhrəmanı Ömər Ağayev, alimlər, aktyorlar, jurnalistlər, kinoşünaslar, rejisorlar və kimlər, kimlər...

Xalq artisti, Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev baxışı girişi sözüyə açdıqdan sonra film-tamaşa nümayiş etdirildi. Zala tam sakitlik çökmüşdü. Eşidilən yalnız əsərin qəhramanlarının- ruhların səsi, bir də istedadlə rejisor Nadir Dirdağlının çox uğurla seçdiyi tez-tez çıxan ildırım şıqqıltıları idi...

Əvvəlcədən onu deyək ki, film-tamaşa çox uğurlu alınıb. Aktyor seçimində, səhnələrin dekorasiyasında yanılmayan yaradıcı heyətin tez-tez tarixi faktları əks etdirən videomaterialardan istifadə etməsi tamaşaçının gah Şuşanın tarixi keçmişinə -xanlıq dövrünə aparır, gah da Şuşa uğurunda gedən döyüş günlərinə qaytarırdı. Bu səhnələrin bir-birinin əvəz etməsi böyük effekt yaradır.

Tarixi şəxsiyyətlətin rolunu ifa edən istedadlı aktyorların gözəl ifaları hamını heyran etmişdi.

Ruhların peyda olduğu yerin məhz Yuxarı Gövhərağa məscidinin seçilməsi də rejisor tapıntısı idi.

Budur, müəllifin sözlərindən sonra çaxan ildırımla Xan qızı Natəvanın ruhu peyda olur:

"Zəkanız, istedadınız, ağlınız dünyaya meydan oxuyur. İşığınız zamanları, əsrləri doğrayıb keçir. Ərlər, ərənlər təkbətək vuruşa bilir... Di gəl ki, bir-biri ilə dil tapa bilmir. Məmləkətin bu başı ilə o başı bir-birini didməyə fürsət gəzir".

Bu, Xan qızının bu günümüzə ismarışı idi. Bir-birini əvəz edən ruhlar dünya binnət olandan vətən övladlarının birləşə bilməmək dərdindən danışır, əlində imkan ola-ola torpaqların müdafiəsini düzgün təşkil etməyənləri lənətləyir.

Ruhlar gah ağ kəfən, gah da o vaxtki geyimlərində peyda olurlar. Və hər epizoddan bir gah Şuşa uğurunda gedən döyüş, gah da işğaldan sonra namusu tapdanmış, yandırılıb- dağıdılmış şəhərin xarabazarlıqları səhnələri çox böyük ustalıqla nümayiş etdirilir.

Aktyorlar Əlabbas Qədirov, Sabir Məmmədov, Firəngiz Mütəllimova, Bəsti Cəfərova, Məleykə Əsədova, Nurəddin Mehdixanlı, Sevil Xəlilova, Cəfər İbrahimov, Əli Murad və başqaları rolları elə gözəl ifa edirdilər ki, tamaşaçı sanki canlı Natəvanla, İbrahimxəlil xanla, Vaqiflə, Üzeyirlə, Ağabəyim ağa ilə həmsöhbət olur. Ümumiyyətlə, tamaşaya baxdıqca Şuşalı günlərə qayıdır, buraxılan səhvləri bir-bir təhlil edərək düşünməyə vadar olursan.

Həm rəssam işi, həm musiqi tərtibatı, həm geyimlərin hazırlanması, həm də səhnənin ustalıqla qurulması onu göstərir ki, yaradıcı qurup tamaşanın uğurlu alınması üçün əlindən gələni edib.

Hərdən azan səsinin eşidilməsi, müğənnilər Mənsum İbarhimovun, Aygün Bayramovanın, Cabir Abdullayevin, və Nəzakət Teymurovanın yanıqlı ifaları tamaşanı daha da ürəyəyatımlı edir. Onların ifa etdikləri muğamların xalqımızın dərd məhvərindən süzülüb gəldiyi bir daha sübut olunur.

Tamaşa bizə bir daha xatırladır ki, Qarabağ yarası hələ sağalmayıb, o, bu gündə qan verir, bizi incidir.

Sonda ruhlar Qarabağın başına gətirilən müsibətlərdə özləri ilə bərabər, bizləridə qınayır. Vətənin dar günündə birləşməyi bacarmayan, Qarabağ şəxsi mənafelərinə qurban verən mənsəbpərəstləri tənqid atəşinə tuturlar.

## Bu da son!...

Film-tamaşanın nümayişi qurtarsa da, zalda sükut davam edir. Heç kəs dinib-danışmır. Deyəsən, oturanlar Vətənin həsrət dolu baxışlarından ayrılıb, rahatlıq tapa bilmirlər. Çünki Qarabağın bu ağrılı günlərinin günahkarı elə bizlərik, sən, mən, o, hamımız...O  narahat ruhların qınağı bizi ayırmağa, yumruq kimi birləşib,  tayı-bərabəri olmayan o yerləri xilas etməyə səsləyir. Deyəsən, azacıq olsa da, günahlarımızı anlayırıq. Bunu baxışdan sonra keçirilən müzakirədəki çixişlardan da aydın hiss etmək olar.

Çıxış edənlər- Əlican Əliyev  ("Gənclik"nəşriyyatının direktoru), Vaqif Yusifli, millət vəkilləri Səyyad Aran, Gültəkin Hacıyeva, Hadı Rəcəbli, Yazıçılar Birliyinin nümayəndəsi Nizaməddin Şəmsizadə, xalq artisti Əlabbas Qədirov, Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Quliyeva, aktyor Nurəddin Mehdixanlı, ictimai xadim Dilruba Camalova və başqaları əsərin mahiyyətindən danışaraq qeyd etdilər ki, Hüseynbala Mirələmovun qələminin bəhrəsi olan bu tamaşa gənclərin vətənprvərlik ruhunda tərbiyə olunmasında, xalqımızın bir rəhbər ətrafında birləşərək ümumi düşmənə qarşı mübarizəyə qalxmasına böyük təkan  verə biləcək bir əsərdir.

Sonda isə müəllif Hüseynbala Mirələmov  film-tamaşanın çəkilişində əziyyət çəkənlərin hamısına və baxış üçün  toplaşanlara minnətdarlığını bildirdi. O, qeyd etdi ki, essenin davamını yazmaq fikirindədir. Bu, tariximizin bugünkü səhifələrini əks etdirəcək və dünənimizlə bu günümüzü müqayisə edərək tarixi səhvlərimizi düzəltməyə kömək edəcək.

## GÖZ DAĞI

H.Mirələmovun "Xəcalət" povesti (bu kitab haqqında kitabda ayrıca bir məqalə verilmişdir), "Güllələnmiş heykəllərin fəryadı) essesi, "Vicdanın cəzası" hekayəsi, bu hekayə əsasında hazırlanan "Vicdanın hökmü" pyesi son illərin ədəbiyyatında müharibənin əksi kimi diqqəti xüsusilə cəlb edir. Bu əsərləri birləşdirən bəzi ümumi cəhətlər haqqında söz açmaq olar.

1. Həmin əsərlərdə real müşahidələr, müharibənin canlı, əyani təsviri üstün yer tutur. Hiss olunur ki, müəllif döyüş gedən bölgələri yaxşı tanıyır, müharibəni uzaqdan yox, lap yaxından seyr edir. Müharibə ərfəsində, yaxud müharibənin gedişində rast gəldiyi insanlarla ünsiyyətdə olub, bu müharibənin mahiyyətini, yaranma səbəblərini düzgün dərk edir. Bu səbəbdən də onun təsvirləri real və inandırıcıdır.

2. Real müşahidələrlə yanaşı, H.Mirələmov azərbaycanlılarla ermənilər arasında baş verən tarixi münaqişələrin də kökünə yaxşı ekskurs edir, bizi Qarabağın keçmişinə qaytarmaqla tarixi yaddaşı silkələyir, əslində, bu münaqişənin neçə əsrlik bir tarixi olduğunu xatırladır.

3. H.Mirələmovun əsərlərində Qarabağ müharibəsinin doğurduğu ağrı-acıları, köçkünlük, qaçqınlıq, əxlaqda, mənəviyatda yaranan depresiyalar da diqqətdən yayınmır. Bu məqamları təsvir edərkən də o, real faktlara əsaslanır, bəzən sərt həqiqətlərə üz tutur, onları oxucudan gizlətmir. Bu gün Azərbaycan ədəbiyyatında məhz çadırlarda yaşayan soydaşlarımızın gün-güzəranı, həyat tərzi, keçirdiyi maddi yoxsulluq və mənəvi sarsıntılar ədəbiyyatda lazımi dərəcədə işıqlandırılmır.

4. Müharibədən yazılan əsərlərin əksəriyyəti vətənpərvərlik ruhunda qələmə alınır və bu, çox vacib bir faktdır. Müharibə həqiqətlərini, hətta ən kədərli, qəmli notlarla belə, çatdırdıqda müəllif həmin ruh üstündə köklənməlidir. H.Mirələmovun adını çəkdiyimiz əsərləri də minor

motivlər üstündə qurulub. Kədərli, qəmli səhnələr bir-birini əvəz edir, lakin bu kədər və qəmin içində bir işıq boylanır, həmin işıq qabliyyətimizə inamdır.

Gəlin, "Güllələnmiş heykəllərin fəryadı" essesinə diqqət yetirək, Müəllif bu kədərli essedə Şuşanın, cənnət Qarabağın tarixinə nəzər salır, bizə məlum olan şəxsiyyətlərin ruhlarını səsləyir. Onların heykəlləri ilə danışır. Bu üsul bədii ədəbiyyatda təzə deyil, dünya ədəbiyyatında işlənmiş üsuldur. Heykəllərin, ruhların, teyflərin canlı şəkildə dialoqda iştirakı, yaxud xəyali görünüşü müəyyən bədii məqsədə xidmət edir.

Məlumdur ki, Şuşa işğal olunarkən ermənilər xəcalət çəkmədən Xan qızı Xurşudbanu Natəvanın, ölməz Üzeyir bəy Hacıbəyovun, böyük sənətkar Bülbülün heykəllərini onların doğma şəhərlərində güllələdilər. Bu, tarixdə görünməmiş bir vəhşilik və rəzalət idi. Müəllif əsərə yazdığı kiçik ön sözündə qeyd edir ki, bu səsnət abidələrimiz əridilib, məhv edilərkən Azərbaycan rəhbərliyinin ayıq-sayıqlığı sayəsində ermənilərin nadanlığına, vəhşiliyinə son qoyuldu və yaralanmış heykəllər Şuşanın müdafiəsini təşkil edə bilməyənlərə, torpaq qeyrəti çəkməyənlərə göz dağı kimi Bakımıza gətirildi.

Məhz bu hadisə "Güllələnmiş heykəllərin fəryadı" essesinin yaranmasına səbəb və stimul olur.

Beləliklə, yazıçı rəmzi-simvolik ifadə üsulu ilə tarixi reallıqları dilə gətirir. Ancaq rəmzlik yalnız zahiri vasitədə qalır.Sadəcə heykəllər və ruhlar danışır. Real tarixi şəxsiyyətlərdən dialoqları, Şuşanın və Qarabağın tarixi barədə təsəvvürlərə bir aydınlıq gətiri. Tarixliklə müasirlik, dünənlə bu gün qovuşur.

Tarix bu günü ittihama çəkir. Heykəllər- sələflər canlı müasirlərdən-xəlfələrdən Şuşa və Qarabağ üçün cavab istəyirlər. Ancaq məlum olur ki, Qarabağ və Şuşa itkisinin kökləri elə dünəndən, keçmişdən gəlir. Heykəl nəvvab deyir: " Ulu babamız Pənahəli xanın tikdiyi möhtəşəm Şuşa şəhəri, İbrahimxəlil xanın düşmənlərdən qoruyub saxlaya bildiyi

Şuşa bu gün yağı tapdağındadır. Mən XX əsrin əvvəllərində yazdığım "Erməni-müsəlman davası" kitabımla yaddaşlarısilkələdim, başımıza gələnləri gələcək nəsillərə çatdırdım. Heyhat, irsi xəstəliyimiz-yaddaşsızlığımız düşmənə yenidən fürsət verdi.

Biz onları, keçmişləri unutsaq, tariximizi də yarada bilmərik".

Əsər bütünlüklə Yaddaş və Yaddaşsızlığın üzərində qurulmuşdur. Tarixi və ədəbi şəxsiyyətlər: İbrahimxəlil xan, Ağa bəyim ağa, Kövhər ağa, Natəvan, Vaqif, Nəvvab, Üzeyir bəy, Bülbül tarixi mövqe baxımından müxtəlif zamanların övladlarıdır. Lakin onları birləşdirən ümumi cizgilər çoxdur. Belə ki, böyüklük, ucalıq, xeyirxahlıq, bəşəri keyfiyyətlər hamısına xasdır. Ancaq ən çətin məqamlarda babalarımız birləşə bilmir, düşmənə fürsət verir. Heykəl Natəvan deyir: "Zəkanız, istedadınız, ağlınız dünyaya meydan oxuyur, işığınız zamanları, əsərləri doğrayıb keçir. Ərlər, ərənlər təkbətək vuruş meydanına atılır, ağzından qılıncla doğransa da, gözünü qırpmır, sözünü enmir. Di gəl ki, bir-birilə dil tapa bilmirlər. Məmləkətin bu başı ilə o biri başı bir-birini didməyə fürsət gəzir. Az qala bu didişmə şəhərbəşəhər, kəndbəkən, küçəbəküçə, nəsilbənəsil çözələnib getsin. Mənim babamın da vaxtında beləydi".

Əsərin aşıladığı ideya da bu mənada müasir səslənir. Vaxtilə, xanlıqlar dövründə birlik olmayıb və rus imperiyası bundan çox məharətlə istifadə edərək Azərbaycanı işğal etdi. İndi tarix yenə təkrar olunur.Azərbaycanda 40-dan artıq siyasi partiya var. Lakin birlik yoxdur. Xain qonuşular isə məhz şimal qonuşularımızın yardımı ilə torpaqlarımızın iyirmi faizini işğal etmişlər.

Essenin sonu bu mənada ibarətlidir.

"Bəli, göydən daş yağacaq. Bu daşlar yağının başına töküləcək. Amma təkcə yağıların başına yağmaz. Qarabağın adı ilə alver edib, qumara qurşananların, Şuşanı yağı ayağına verənlərin, nankorların, mənsub ehtirası ilə alışıb-yananlar, hərislikdən gözünü qan örtmüş naxələflərin –hamısının başına yağar bu daşlar..."

**Vaqif YUSİFLİ,**

**ədəbiyyatşünas**

# “XƏCALƏT”
# BURDA HƏR BİRİMİZİN “PAYI”VAR

Bu günlərdə Yazıçılar Birliyinin üzvü, istedadlı, yazıçı Hüseynbala Mirələmovun “Xəcalət” kitabı “Gənclik” nəşriyyatı tərəfindən çap edilmişdir. Bu, müəllifin işıq üzü görən sayca yeddinci kitabdır.

İxtisasca neftçi-mühəndis olan Hüseynbala Fazil oğlu Mirələmov indiyədək “Tənha durna” (1986), “İnşaat fizikası” (1990), “Qaz kondensatları” (2000), “Qayada çiçək” (2001), “Karbohidrogen qazlarının e”malı texnologiyası” (2001), “Amalın işığında” (2002), elmi-bədii kitabların müəllifidir. Gənc yaşlarından bədii yaradıcılıqla məşğul olan Hüseynbala Müəllimin 14 yaşında “Bir tikə çörək” hekayəsi mətbuat səhifələrində çap edilmişdi. Yenicə işıq üzü görən bu kitaba müəllifin xalqımızın bir nömrəli problemi – Qarabağ dərdini əks etdirən üç əsəri- “Xəcalət” povesti, “Güllələnmiş heykəllərin fəryadı” ədəbi essesi, “Vicdanın hökmü” iki hissəli deamı daxil edilmişdir.

“Xəcalət” povesti müəllifin özünün şəxsən müşahidə etdiyi, biləvasitə iştirakçısı olduğu hadisələrin bədii şəhəridir. Povesti oxuduqca XX əsrin son 12 ili ərzində Azərbaycanda baş verən ziddiyətli hadisələrin, rus imperiyasının yerlərə göndərdiyi erməniпərəst canişinlərin şərəfsiz, terrorçuluğu əsas silah və vasitə seçmələri oxucunu təəssüfləndirir və qəzəbləndirir.

Povestin baş qəhrəmanı Vətən başı bəlalar çəkmiş, əzablara düçar edilmiş Azərbaycan xalqının ümumiləşdirilmiş obrazıdır. Əsrlər boyu qəlbi ümmanlardan geniş, bir parça çörəyin də hamı ilə bölən xalqımız namərdliklərin qurbanı olmuşdur. Sovet hökuməti xəyanət nəticəsində milli hökuməti devrilib, Azərbaycanda yaradılandan sonra bununla barışmayan qeyrətli  kişilər dağlara çəkilib, şura hökuməti ilə təkbaşına mübarizəyə qalxdı. Gəncədə, Qarabağda, Şamaxıda üsyanlar baş verdisə də, ümumixalq hərəkatına çevrilmədi. 1920 –ci ildən başlayaraq bütöv Azərbaycanda ermənilərin fəal iştirakı ilə repressiyalar  başladı. Say-seçmə oğullar həbs edilib, sorğu-sualsız güllələnir, ailəlikcə Sibirə, Orta Asiyaya sürgün edilirdi. Onların içərisində Qarabağda sözü keçən Vətənin babası qızıllı İsgəndərkişidə var idi. Stalinin ölümündən sonra Vətəngilin ailəsi doğma Qarabağa qayıdıb, dədə-baba yurdlarını abad edirlər.

XIX sərin ortalarında İran və Türkiyədən qovulan erməniləri Çar Rusiyası gələcəkdə istədiyi vaxt fitnə-fəsad yuvası  yaratmaq üçün Qarabağda yerləşdirilid. Onları XIX əsrin əvvələrində üç dəfə silahlandırıb, azərbaycanlıların üstünə qışqırtdı. Bunları tarixdən oxusaq da, 1988-ci ildən başlanan hadisələrin şahidi olduq. Münaqişə başlanan gündən ermənilərin əhatəsində olan Vətəngilin kəndi  Xocalıya və ətraf kəndlərə tez-tez quldurlar basqın edirdi, köməksiz əhalini incidirdilər.

“Xəcalət” povestində Hüseynbala müəllim 60-cı illərdən ermənilərin hiyləgər əməllərini qələmə alır, onların hər bir  türk övladına necə quyu qazdığını təsvir edir. 1967-ci ildə bir erməni dığasını özləri öldürüb, Ərşad müəllimin həyətinə tullayır, onu şərləyib tuturlar. Dustaq maşınına beniz töküb, maşında olan üç nəfəri yandırırlar. Povestin qiymətli cəhdlərindən biri odur ki, adi bir hadisə müəllifin nəzərindən qaçmır. Xankəndində xəstəxanada bir neçə həkimin döyülməsi də, orda tanınmış cərrah Nazim həkimin qətlə yetirilməsi də, rus imperiyasının canişini Volskinin Şuşa, Laçın, Kəlbəcər dairəsindən deputat seçilməsinə Ayaz Mütəllibovun canfəşanlığı da, Yeltsin və Nazarbayev

Xankəndində olarkən türk jurnalisti Yılmaz Poladın heç bir etik normalara sığmayaraq ermənilər tərəfindən döyülməsi də əsl yazıçı məharəti ilə qələmə alınmışdır.

Povestdə mərd türk xarakterini açan hadisələrdən biri də ovçu Polunun ikinci erməni quldurunu öldürüb, çörək kəsdiyi Vartanı tutub kəndə gətirməsi, sonra onun kəsdiyi çörəyə bağışlaması əsl türk kişiliyinin, mərdliyinin canlı təsviridir. Bu yerdə oxucunun yadına 1918-cil ildə Laçın dağlarında Soltan bəyin tayqulaq Andronik diri tutarkən öldürülməsi, alçaltmaq məqsədilə ayaqlarının arasından süründürüb, sağ buraxması yada düşür.

Möhkəm iradəli, həyatın ziddiyətli sınaqlarından məharətlə çıxması əsərin baş qəhrəmanı Vətən Ermənistanın Azərbaycana qarşı başladığı işğalçı müharibə nəticəsində məcburiyyət qarşısında doğma yurd-yuvasını tərk edib, bir milyon qaçqına, məcburi köçkünə çevrilmiş zavallı insanların ümumiləşdirilmiş obrazıdır. O, fitnə-fəsadlı yalan dünyanın işlərindən baş çıxaran adamdır. Qandan gələn ağayanlığı, qüruru, böyük örəyi var. Ailəcanlıdır, valideynlərinə, övladlarına, həyat yoldaşına, dostlarına qarşı həssasdır, diqqətlidir. Babası namərdcəsinə sürgün olunduğu üçün qürbətdə doğulsa da, kökü, canı ilə doğma Qarabağa, Xocalıya, Qaraqışlaq kəndində bağlıdır. Polad kimi əyilməz, dönməz bir insanı qaçqın həyat acizləşdirir, xəstələnmiş ciyərparça Didara dərman almaq üçün pul tapmır. İkimərtəbəli, aynabəndli evini yağı düşmənlər yandırmış, yerlə-yeksan etmişlər. Tikintisi yarımçıq qalmış xəstəxananın üfunət iyi verən bir küncündə sığıncaq tapmışdır. Doğma yurdlarındakı firavan yaşayışlarından xəbərsiz qonşular onlara yuxarıdan aşağı baxır, xeyir-şərlərində dəvət etmir, küçədə salam verməyi də özlərinə sığışdırmırlar: “Biri mənə qaçqın, köçkün deyəndə, oğul istəyirəm bu dərdə tablaya, dözə”.

Əsərin təsirli yerlərindən biri də namərd ermənilərin arxadan gülləni, mərimini yağış kimi yağdırdığı bir vaxtda Vətənin anası Yaxşı ananın qəlpə yarası alması, canverməsi səhnəsidir. Ən böyük dərd, faciə odur

ki, doğma anan gözlərin qarşısında can verə, əlac etməyə qüdrətin çatmaya. Özünü itirmiş Vətənin qulaqlarına atası Qəmxarın qeybdən gələn nəsihətləri kömək edir: “Nəyi gözləyirsən, ay oğul, ananın ruhu mənim yanımdadır. Əlli tərpən, tapşır onu torpağa. Torpaq insandan etibarlıdır. İnsan əlacsız qalanda yerindən-yurdundan çıxıb, didərgin düşür. Amma milyon ildir dağ-daş öz yerində, yurdundadır. Sən arxayın ol, torpaqda əmanətə xəyanət yoxdur. Qayıdanda ananın qəbrini mənim yanımda görəcəksən”.

“Xəcalət” əsərini həyəcansız oxumaq mümkün deyil. Hadisələr o qədər canlı təsvir edilmişdir ki, sanki kitabı oxumursan, özünü birbaşa hadisələrin içində hiss edirsən.

Vətənin topdağıtmaz evindən götürdüyü bir sənədlərdi, bir də Seyid Nigarinin şeirlər kitabı. Bu kitab babasının əziz yadigarıdır:

**...Nə əcəb dövlət imiş seyri-şikari Qarabağ,**

**Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ...**

**İndi bildim nə imiş vəsli-həzari Qarabağ,**

**Yeridir, kim çəkərəm ahi və zari Qarabağ.**

**Dağlayıbdır məni bir laləüzari Qarabağ,**

**Yandırıbdır məni bir nari-Nigari Qarabağ.**

Povestdə bir-birindən təsirli səhnələr çoxdur. İki körpə uşağı ilə meşədə gedəcəyi səmti ayrıd edə bilməyən Vətənin həyat yoldaşı Fərqanə bir qoşqulu traktor görür. Düşmən əlinə keçməkdən ölümü üstün tutan gənc gəlin əlində yorğan iynəsini hazır tutur ki, əgər traktordakılar erməni olsa, iynəni ürəyinə sancsın. Bu zaman Fərqanəni doğma dildə çağırırlar.

“Bacı, ay bacı, niyə durdun gəl də...” Fərqanə üçün elə bil bu səs 12-ci imam Sahibi-Zamanın səsi idi. Sevincdən, həyəcandan gəlinin ürəyi gedir...

Əəsri oxuduqca hiss edirsən ki, doğma yurda, Qarabağa doğru gedə bilməmək xəcalətdir!

Bu, doğma ananın Vətən uğurunda şəhid olmuş oğlunun qəbrini qucaqlaya bilməmək xəcaltdir!

Bu, Vətən torpağına qanı tökülmüş minlərlə şəhidin intiqamını ala bilməmək, üstəlik, onların hələ də düşmən tapdağında olmasına dözməyin xəcalətidir!

Kitaba “Güllələnmiş heykəllərin fəryadı” ədəbi essesi də daxil edilmişdir. Ermənilər Şuşanı işğal edəndən sonra orda olan sənət korifeylərinin heykəllərini güllələyiblər. Bu, erməni vəhşiliklərinin daha bir canlı nüminəsidir. Hüseynbala Mirələmovun vətəndaşlıq qeyrəti, yanğısı ilə böyük zəhmət hesabına yazdığı “Güllələnmiş heykəllərin fəryadı” əsərind uğurlu bir ədəbi priyomdan istifadə edilmişdir. Güllələnib, ruhları incidilmiş, doğma xalqın yolunda ömrünü şam kimi yandırmiş sənət dahilərinin ruhunu bir-birilə danışdırır. Natəvanın, Vaqifin, İbrahimxəlil xanın, Üzeyir bəyin, Nəvvabın, Bülbülün və başqalarənən ruhları dil açıb danışır, bizləri məzəmmət etməklə yanaşı, nicat yollarınıda göstərirlər.

Yazını oxuduqca ermənilərin türkün qəddar düşməni olduğunu və onların Şuşanı işğal edəndən sonra Natəvanın, Üzeyir bəyin, Bülbülün orda olan  heykəllərini namərdcəsinə güllələdiyinin şahidi olursan. Hüseynbala müəllim söz sənətinin bütün imkanlarından istifadə edib, əsl həqiqəti oxuculara çatdırır.

Əsərdə maraqlı yerlərdən biri Üzeyir bəylə Bülbülün söhbətidir. Söhbət o qədər canlı qələmə alınıb ki, elə bil iki dahi sənətkar qarşı-qarşıya oturub dərdləçir. Sənət korifeyi Bülbül  dahi bəstəkarın  “Sənsiz” romasını bugünkü faciəmiz üçün oxuyur:

**Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,**

**Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz!**

Hüseynbala müəllim bu dialoqla demək istəyir ki, 10 ildir Şuşasız yaşamağın gecəsi, gündüzü dərddir-ələmdir. 10 ildir gözləməkdən xarı bülbülün boynu bükülü, Ərimgəldidə ər yolu gözləyən gözəllərin ruhu yollara boylanılı qalıb. İsa bulağı, Cıdır düzü, Topxana meşəsi yol gözləyir. 10 ildir Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Xocalı, Cəbrayıl, Zəngilan düşmən tapdağı altındadır. Yüzlərlə qız-gəlinimiz hələ də yağı əlindədir. İzimiz qalan o yollar, cığırlar, orda qalan əzizlərimizin ruhu bizi çağırır.

"Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesində ən maraqlı yerlərdən biri də Qarabağ xanı İbrahimxəlil xanın qızları Ağabəyim ağanın ruhu ilə Gövhər ağanın ruhunun söhbətidir. Burda hiss olunur ki, müəllif Qarabağ tarixini gözəl bilir.Ağabəyim ağanın Tehrana gedib düşdüyünü, orda Qarabağ dərdi ilə necə alışıb-yandığını Hüseynbala müəllim tarixi həqiqətlərə heç bir xələl gətirmədən təsvir edir...

"Güllələnmiş heykəllərin fəryadı"nı həyəcansız oxumaq mümkün deyil. Hüseynbala müəllim Mir Mövhsün Nəvvab kimi ürəyinin hökmü ilə yağı düşmən tərəfindən namərdcəsinə güllələnmiş heykəllərin ruhunu danışdırır, tarixi keçmişimizi yada salır, bizlərə yüzlərlə şəhidimizin intiqamını almağın yollarını göstərir...

Hüseynbala müəllim esseni belə bir sonluqla bitirir: "Gğydən daş yağacaq. Bu daşlar yağının başına töküləcək".

Amma təkcə yağıların başına yağmaz, Qarabağın adı ilə alver edib, qumara qurşananların, Şuşanı yağı ayağına verənlərin, nankorların, mənsəb ehtirası ilə alkışıb-yananların, hərslikdən gözünü qan örtmüş naxələflərin hamısının başına yağar bu daşlar...

“Göy üzünü bulud kimi tutmuş daşlar məqam gözləyir yağmağa.

Allah, sən saxla!

İlahi, məgər göy üzü daş saxlayır?..

## TARİXİ MİLLİ ƏXLAQA ÇEVİRƏN FİLM

Erməni qəddarlığı

Zaman-zaman erməni qəddarlığına məruz qalan xalqımızın unatqanlığı, baş verən dəhşətli hadisələrə biganəliyi başımıza çox bəlalar gətirib. Uzun illər boyu deportasiyalar, represiyalara, soyqırımlara düçar edilən soydaşlarımız öz torpaqlarında belə, sərbəst yaşamaq hüququnu itirib. Ötən əsrin sonunda 1988-ci ildə baş verən hadisələr nəticəsində 200 mindən artıq soydaşımız Qərbi Azərbaycan torpaqlarından qovulmuş, dünyanın 100-dən artıq ölkəsi və beynəlxalq təşkilatı tərəfindən tanınanərazi bütövlüyümüzə qəsd edilmiş, torpaqlarımızın 20%-i işğal olunmuş, 1 milyondan çox həmvətənimiz məcburi köçkünə çevrilərək çadır şəhərciklərində, zirzəmilərdə, tələbə yataqxanalında, heç bir şəraiti olmayan digər ərazilərdə məskunlaşmışdır. Dinc sakinlərə əsir və girovlara olmazın işgəncələr verən ermənilərin qəddarlığıyer-göyü belə, lərzəyə gətirir. Soydaşlarımızın gözünü çıxardan, başına mıx vuran, əlini ayağını kəsən, meyidləri təhqir edən ermənilər tarixi abidələrimizi dağıtmaqla bərabər, şəxsiyyətlərin heykəllərini, büstlərini də güləmişlər. Xurşüdbanu Natəvanın, Üzeyir Hacıbəyovun və Bülbülün güllələnmiş heykəlləri ürəyimizdə qaysaq bağlayan dərdə çevrilir, ermənilərin xislətinə bir daha aydınlıq gətirir.bu faciəni törədən amillərdən biri də unutqanlığımızla bağlıdır. Belə vəhşiliyi əks etdirən əsərlərin yazılması, filmlərin çəkilməsi bizi bizdən uzaqlaşdırmaqla bərabər daha böyük faciələrə sürükləyir. Bu mənada Hüseynbala Mirələmov “Xəcalət” və “Güllələnmiş heykəllərin fəryadı” əsərləri ilə

ədəbiyyata yeni nəfəs gətirərək tariximizlə bu günümüzü və gələcəyimiz arasında mənəvi körpü yaratdı. Respublika Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev filmin ibrətamiz mahiyyətinə toxunaraq bildirdi ki, bu, bizi daha dərindən düşünməyə və düşündükcə düşmənə sarsıdıcı zərbə endirməyə ruhlandıracaq.

## Ruhların şikayəti

Filimdə diqqət çəkən ilk nüans ruhların şikayəti oldu. Xalqımız əbədi olaraq şöhrət gətirən, onun tarixi inkişafında, mədəni irsini zənginləşməsində müstəsan xidmətləri olan korifeylərin heykəllərinin güllələnməsi, ilk öncə, bizim günahımızdır. Əsrlər boyu Qarabağı qoruyan, Şuşanı alınmaz qalaya çevirən ulularımızdan fərqli olaraq biz onu qoruya bilmədik. Bir dəstə vətən xaininin güdazına gedən torpaqlar gücsüzlyümüzü, əcdadlarımızın nəsihətlərinə əməl etməməyimiz göstərir. Filimdə heykəllərə tuşlanan güllələr elə bil ürəyimizi dəlib keçir. Bu faciədən ruhlar haray çəkir. Yağı düşmənin məkrli niyyətinə aydınlıq gətirir. İbrahim xanın dilində səslənən bu fikirlərə diqqət yetirək: “Torpağıma köçürülən, qovulan ermənilərin acından, soyuqdan qırılıb tələf olmasına yol vermədim. Əkin-biçin üçün torpaq verdim. Axırda mənə qənim kəsildilər. Qanımıza susadılar. Girəvə düşən kimi öz silahımızı özümüzə çevirdilər. Üzdə sadiq nökərimə, arxada namərd düşmənimə döndülər”.

Filmdə Ağabəyim ağanın, Gövhər ağanın, İbrahimxəlil ağanın, Pənahəli xanın, Üzeyir bəyin, Bülbülün, Natəvanın ruhları qovuşur, Qarabağ tarixi, ermənilərin xisləti barədə bilgilər verilir və düşmənə tutarlı cavab vermək üçün bizlərə vətənpərvərlik hissi aşılanır.

## Yaddaş itkisi ağır olur

Sonuncu Qarabağ savaşında 10 il keçməsinə baxmayaraq, həmin anlarda baş verən dəhşətləri bəzən xatirələrdə soraqlayırıq. Ağır bəlaya çevrilən yaddaş itkisi bu günümüzü dünənimizdən uzaqlaşdırır. Tarixini bilməyən millətin isə inkişafı mümkün olmayan bir işidir. Bu mənada "Güllələnmiş heykəllərin fəryadı" əsəri və onun əsasında çəkilmiş eyni adlı film-tamaşa böyük əhəmiyyət kəsb etməklə yaddaş itkisinin qarşısını alır. Eyni zamanda filmdə səslənən hər fikir bizi torpaq həsrətinə dahada yaxınlaşdırır. İmkan vermir ki, bir anda olsun itirilən torpaqlarımızı unudaq. Yaddaşımızı təzələyir, sabahımızı dünənimiz üstündə qurmağa çağırır. Filmin digər bir qayəsi " biz kimik və hansı nəsillərin törəmələriyik" ideyası üzərində qurulub. Yəni, dünənimiz məlumdur, bu günümüz isə bizdən aslıdır.

## Müasir dramaturgiyamızda inqilab

Filmin ecazkar gücü, mövzu dairəsi və müəllifin ona yanaşma tərzi imkan verir ki, onu müasir dramaturgiyamızda inqilaba səbəb olan hər bir əsər kimi dəyərləndirək. Peşəkar dramaturgiyamızın sustuğu vaxtda "Güllələnmiş heykəllərin fəryadı"nın yazılmasını Nurəddin Mehdixanlı ilk öncə müəllifin yüksək vətəndaşlıq mövqeyindən çıxışı kimi dəyərləndirdi. Müharibənin od-alovundan 10 il ötdüyü halda, dayanması, naşir və dramaturqların sözün qüdrətindən yeterincə ifadə etməməsi ciddi narahatçılıq doğurmalıdır. Çünki işğal edilmiş torpaqlarımızın azad olunmasında sözün təsir gücü müasir tipli silahlardan belə heç də geri qalmır.

Tənqidçi Vaqif Yusifli bildirdi ki, hər hansı torpağın işğalı qorxulu deyil, onun azad etmək mümkündür, mənəviyyatın işğalını isə geri

qaytarmaq mümkün olmur. Professor Nizaməddin Şəmsizadə güllələnmiş heykəllərdən axan qanı ən böyük yaddaş kimi dəyərləndirdi, hər iki tənqidçi filmin mövzu dairəsinə və Hüseynbala Mirələmovun yardıcılıq arenasının müasir ədəbiyyatımızda böyük roluna toxundular.

## Yüksək vətəndaşlıq hissindən doğan film

İnsan heç vaxt üzərinə düşən vəzifələrin öhtəsindən gəlməklə dar çərçivədə qapanıb qalmamalıdır. Bu barədə danışan Milli Məclisin depudatı Gültəkin Hacıyeva bildirir ki, Hüseynbala Mirələmov Respublika prezidenti, möhtərəm Heydər Əliyevin hərəkətlərinə irad tutduğu məmurlardan fərqlənir. Belə ki, Dövlət Neft Şirkətinin nəzdində olan strateji əhəmiyyətli böyük bir zavodun rəhbəri olmaqla və bu vəzifəni layiqincə yerinə yetirməklə işini bitmiş hesab etmir. Yüksək vətəndaşlıq hissi bədii yaradıcılığı onu xalqımızın ümumi dərdi olan Qarabağ probleminə müraciət etməyə vadar edib. Bu mənada film əsl vətəndaşlıq mövqeyindən doğurur. Xalq artisti Əlabbas Qədirov isə bunun müəllifin ən böyük vətəndaşlıq borcu hesab etdi.

Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Quliyeva, sədrin birinci müavini Dilruba Camalova, Milli Məclisin deputatı Hadı Rəcəbli, və Səyyad Aran film barədə fikir və mülahizələrin bölüşərək qeyd etdilər ki, ibrətamiz mövzunu əhatə edən filimə baxan hər bir azərbaycanlı özü-özünü ittiham edəcək. Ağır Cinayətlərə Dair İşlər Üzrə Məhkəmənin hakimi Ənvər Seyidov əsərin ikinci hissəsini yazılmasına və orda torpaq satan vətən xainlərinin də əməllərin əksini tapmasına ehtiyac duyulduğunu bildirdi.

## Ermənilərin təcavüzkarlığı
## Filmlərin gözü ilə yayılacaq

Xalqımızın düçar olduğu informasiya blokdasını artıq filimlərimizin gözü ilə yardıq.

Filmdə Aygün Hümbətovanın, mərhum Səxavət Məmmədovun və başqa müğənnilərin ifasında səslənən xalq mahınıları  onun musiqi kompoziyasını xeyli zənginləşdirir. Rejisor Nadir Dirdağlının gərgin əməyi öz bəhrəsini verib. Aktyorlardan Əlabbas Qədirovun, İlham Əsgərovun, Nurddin Mehdixanlının, Məleykə Əsədovanın, Bəsti Cəfərovanın, Sevil Xəlilovanın, Firəngiz Mütəllibovanın və digərlərinin yüksək ifaçılıq qabliyyəti filmin təsir dairəsini xeyli zənginləşdirir.

"Gənclik" nəşriyyatının direktoru Əlican Əliyevin bildirdiyinə görə, əsər artıq rus dilinə tərcümə olunub, ingilis və ərəb dillərində də çap ediləcək. Əəsrin və filimin fars dilində də tərcüməsi nəzərdə tutulub. O qeyd edir ki, əsəri Çingiz Aytmatov oxuyub və yüksək dəyərləndirib. Çünki əsər beynəlxalq aləmdə terrorçuluq siyasəti yeridən  ermənilərin hərəkətindən bəhs edir.

**Mikayıl NƏRİMANOĞLU**

## RUHUMUZU OYADAN ƏSƏR

Yaman dərddir!

Ruhların dilə gəlməsinə dözmək, heykəllərin danışması ilə barışmaq dözülməzdir. Bu, olan iş deyil. Amma Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" essesində bu, baş verdi.

Bunu çoxdan gözləməliydik. Bilməliydik ki, əsrlikdə qoyub gəldiyimiz ruhlar, düşmən gülləsinə sipər olacaq, biz əvəzdən Şuşanı qorumaq üçün canlanan heykəllər nə vaxtsa dilə gəlib, bizi ittiham edəcək.Bilməliydik!

Durub gözlədik!

Və gözləyə-gözləyə bu günə gəldik. Bu gün, bəlkə də, tarixinin çox gözəl bilməsinə, hər daşına, qayasına çox yaxşı bələd olmasına baxmayaraq , Şuşaya bizdən az borclu olan Hüseynbala müəllimin yazısıyla üzləşdik. Bu qınaq bizi doğmalarımızın ruhu ilə üz-üzə qoydu. Danışan təkcə İbrahimxəlil xanın, Gövhər ağanın, Ağabəyim ağanın, Nəvvabın ruhları deyil, bütün doğmalarımızın ruhudur. Sənin, mənim, ey şuşalı, ey ağdamlı, ey qarabağlı, əsrlikdə qoyub gəldiyimiz, bizim əvəzimizə sinəsini düşmən gülləsinə tuş eləyən ruhlarımızın səsidir! Bu ağır ittihamlara cavab verə biləcəksənmi?

Hüseynbala müəllimin yazısı bizi bu sual ətrafında düşünməyə vadar edir. Məqsəd heykəllərin güllələnməsini bildirməklə ermənilərin vandalizimin dünyaya çatdırmaq, öncə biz qarabağlıların qanını coşdurmaq, cavabdehlik, məsuliyyət hissini artırmaqdan ibarətdir.

Nəvvabın, dahi Üzeyir yenilməz İbrahimxəlil xanın, uzaqgörən Vaqifin, zəkası ilə İranı çaşdıran Ağabəyim ağanın, mehrini tikdirdiyi binalara salmış Gövhər ağanın, səsi ilə dünyanı fəth etmiş Bülbülün ruhları kimi əsirlikdədi. Bu fəryad təkcə yurdumuzun deyil, həm də ulularımızın fəryadıdır.

Qarabağın dərdini öz dərdi bilən Hüseynbala Mirələmovun "üsyanı"na qoşulmaq, onun harayına hay vermək hər bir qarabağlının borcudur.

"Güllələnmiş heykəllərin fəryadı"nı biz qarabağlılara çatdıran böyük qələm sahibi, dahi söz ustası Hüseynbala Mirələmovun qarşısında baş əyir, onun Qarabağ dərdini kağıza köçürən əllərindən öpür, Vətən

dərdi ilə alışıb-yanan sinəsinə məlhəm olmaq üçün əriyib, suya dönmək arzusuyla odlanırıq.

**Qoy qəlbin hər zaman**

**el ilə vursun,**

**Ulu peyğəmbərin dayağın olsun.**

**Tarix yaşadıqca, ələmin dursun,**

**Cəddinə, nəslinə**

**minnətdaram mən.**

Tanrı Sizin kimi Vətən qeyrətli, yurd həsrətli, el-oba dərdli, torpaq nisgilli oğullar Azərbaycana çox görməsin!

## YAZIÇI DÜNYASI

Hüseynbala Mirələmovun "Xəcalət" kitabında dərc edilmiş eyni adlı povesti, "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi və "Vicdanın hökmü" dramı barədə təəsüratlarım.

Müəllifin qələmindən çıxmış bu əsərlər mövzu və janr baxımından daha diqqətəlayiqdir.

Son on beş ildə düşmən tapdağına məruz qalmış torpaqlarımızın ağrı və acısını, doğma yuvasından didərgin düşmüş soydaşlarımızın məşəqqətini, ümumilikdə, Qarabağ faciəsini bədii əsər kimi ədəbiyyat gətirən yazıçı Hüseynbala Mirələmovun maraq dünyası genişdir. O, bir yazıçı kimi həyatın müxtəlif sahələrinə nüfuz edə bilir. Xalqımızın tarixi keçmişini, bugünkü sosial problemlərin bədii lövhə və obrazlara konkret şəkildə təcəssüm etdirmək üçün daxili yaradıcılıq imkanlarını səfərbərliyə almağı bacarır.

Oxuduğum əsərləri məndə elə bir təəssürat yaradıb ki, H.Mirələmovun öz yaradıcıııq dünyası var.

1988-ci ildən üzü bəri xarici qəsbkarlar tərəfindən Azərbaycanımızın başına gətirilən oyunları, əsrlər boyu duz-çörəyimizi yarı böldüyümüz, torpaqlarımızdan səxavətlə pay verdiyimiz, özümüzə yaxın qonuşu sayaraq "vahid" ailənin üzvləri hesab etdiyimiz ermənilərin xəyanəti nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş bir milyon soydaşımızın ağrılı, acılı, iztirablı anlarını təsvir edən bədii əsərlərin yaranmasına məh bu gün böyük ehtiyac var.

Bu baxımdan H.Mirələmovun "Xəcalət"kitabın günün tələblərinə cavab verən əsərlər toplusudur. Müəllifin bu kitabını son illərdə acınacaqlı boşluq yaranmış ədəbiyyatımıza bir töhfə kimi qiymətləndirmək olar.

"Xəcalət" povestində xalqımızın Qarabağ problemi ilə əlaqədar üzləşdiyi faciələrdən inandırıcı şəkildə bəhs edilmiş, Xəcalı soyqırımı bədii lövhələrlə əks etdirilmişdir. Və bu səhnədə qocların, qadınların, körpələrin vəhşicəsinə gülləbaran edilməsi, meyidlərin başlarının soyulması, qulaqlarının kəsilməsi, gözlərinin çıxarılması, erməni faşistlərin dilə gətirilməasi mümkün olmayan, heç bir sağlam düşüncəyə sığmayan alçaqlıqları real şəkildə təsvir edilmişdir.

Əsər bir ailənin timsalında illərdən bəri qurub-yaratdıqları isti ocaqlarından, ana yurdlarından zorla qovularaq didərgin düşmüş soydaşlarımızın üzləşdikləri çətinlikdən bəhs edir.Və oxucunu düşündürən bu əsəri həyacansız oxumaq mümükün deyil!..

!...Getməyəcəyəm!- Didar, deyəsən, sayıqlayırdı,- anama da demişəm! Ata, mən birdə o məktəbə getməyəcəm!"

Doqquzuncu sinifdə ə"la qiymətlərlə oxuyan, müəllimləri və yoldaşları tərəfindən sevilən həssas qəlbli Didar kasıb geyimdən xəcalət çəkdiyini valideyinlərinə əzzb verməsin deyə, bu günə qədər dilinə gətirməmişdir. Lakin bu gün qızdırma içində qovrulan qızcığaz

sayıqladığı üçün özü də bilmədən ürəyində ağır bir daş kimi gəzdirdiyi dərdini dilə gətirmiş, ata-anasının qəm yükünü bir az da artırmışdır.

Qaçqınlığın, didərginliyin, ilk növbədə, təmiz uşaq dünyasına vurduğu zərbəni ön plana çəkməklə müəllif düzgün yol tutmuşdur. Bu gün mənzil şəraitində, yaşayış tərzindən, geymindən xəcalət çəkən bu uşaqlar sabah onları bu vəziyyətə salan düşmənlərimizdən intiqam alacaq, Vətən torpağının hər qarışını müqəddəs varlıq kimi qoruyacaq əsl mübariz vətəndaş kimi yetişəcəklər.

..."Vətən tanış həkim gətirdi. Həkim uşağı müayinə edib, xəstəxanada müalicə olunmalıdır, - dedi.

- Elə xəstəxanadayıq dayna, həkim. – Fərqanə yarı kinayə, yarıciddi dilində. Deyəsən, həkim sözün fərqinə varmadı. Evdə müalicə üçün resept yazıb getdi".

Təsirli səhnədir. Yaçadıqları mənzili xəstəxana adlandıran Fərqanənin kinayəsi ilə müəllif bu ailənin timsalında bütün qaçqın ailələrin yaşayış tərzini ağırlığını sadə və səmimi dillə oxucuya çatdıra bilmişdir.

..." İşığı hərə bacardığı kimi çəkmişdi. Hvada bir-birinə calaq olan naqillər əcaib-qəraib forma almış, dünyanın dolaşıq kələfinə oxşayırdı. Bu kələfin ucundan heç şeytanda baş çıxatmazdı..."

Bir-birnə calaq olan qarışıq naqillərin şeytanında baş çıxarmadığı dünya kələfinə oxşadılması fəlsəfi baxımdan yazıçı təxəyyülünün məsuludur. Ümumiyyətlə, bədii ədəbiyyatda belə fəlsəfi bənzətmələr əsərin gücünü artırır, oxucunu düşməyə vadar edir.

Yeri gəlmişkən, qeyd etməliyəm ki, müəllif ədəbi material seçməkdə çətinlik çəkmir. Xüsusilə, yaratdığı obrazlara verdiyi adlara dolğun və mənalı olmaqla əsərin sanbalını artırır.

..."Vətən Özbəkistanda doğulmuşdur.Bunu səbəbidə oydu ki, otuzuncu illərdə babası bütün ailə üzvləri, qohumları ilə birlikdə Orta

Asiyaya sürülmüşdü. Elə Fərqanədə qürbətdə dünyaya göz açmışdı.Fərqanə nəslin ağsaqqalı, “sürgünün əsas günahkarı” Qızıl isgəndərin bacısı nəvəsidi”... – yazan müəllif təkcə ötən əsərlərdə deyil, otuzuncu illərdə sosiyalist ideologiyası qurbanına çevrilmiş xalqımızın başına gətirilən müsibətləri tarixi faktlarla şərh edərək yaddaşımızı özümüzə qaytarır, qan və can bahasına əldə etdiyimiz müstəqilliyimizi nəyin bahasına olursa-olsun qoruyub saxlamağa çağırır.

Əsərdə ağrılı-acılı səhnələrdən biri də Vətənin ay işığında, çay qırağında tənha, dünyasını dəyişmiş anasının meydini kəfənsiz dəfn eləməsidir.

Məcburiyyət qarşısında Fərqanə ilə uşaqlarını yola salandan çox sonra anası gözlərini əbədi yummuş, bu vahiməli çöldə oğlu Vətəni tək, kimsəsiz qoymuşdu. Vətənin belə ağır, dözülməz anında ona arxa-dayaq duran, qoluna güc, ürəyinə təpər verən atasının ruhu olmuşdur.

Nə edəcəyini bilməyən Vətən qəflətən atasının səsini eşidir.

“...Şəhid yuyulmasa da, kəfənə bükülməsə də, yeri Allahın dərgahı, cənnətdi, ay oğul...”

Bəşəriyyət tərəfindən qəbul edilmiş ruhların varlığına inam gətirmiş müəllif bu yolla Vətəni ağır, çıxılmaz vəziyyətdən qurtarıb, qarşıda üzləşəcək çətinliklərlə mübarizəyə aparır.

Hiyləsinin baş tutmasından məmnun qalan erməni gecə düşən kimi qonuşu kəndə üz tutur.

Gecə xəlvəti oğurladığı dananı kəsib soyur və səhərə qədər dərdidən sap kimi nazik köşə çəkir. Və “də yerinə gələndə dəstələdiyi köşənin ucundan tutub, ölçməyə başlayır. Özünü sındırmayın, sözünün ağası olan Mehrəli bəy hektarla torpağını itirir. Rus jandarmanının hadisədə biləvasitə iştirakı isə sirkəni daha da tündləşdirir. Hiyləni anlayan bəyin üzünü erməniyəçevirib “sənin köşəni belə-belə eləyim” deməkdən başqa, çarəsi qalmır”...

Həmin hadisədən sonra yaranmış "erməni köşəsi" zərb məsəli bu gündə el arasında deyilməkdədir. Bu deyimdən bəhrələnən yazıçı incə bir yumorla sözünün ağası olan Mehrəli bəy obrazı ilə ilk baxışda avam və yazıq görünən erməni surətini üz-üzə qoyur. Və yenə erməni hiyləsi "qələbə"çalır. Bu hadisədə rus jandarmanını erməni kəndlisinə arxa durması faktı müəllif tərəfindən təbii şəkildə yerində verilmşdir.

Əsərdə daşnak lideri bütün erməniləri azərbaycanlılara qarşı qaldırır, beyinlərini düşmənçilik ideyası ilə zəhərləmək üçün hər cür alçaqlığa əl atır.

"...İsti, bürkülü yay günü. Slavik daşnak liderinin əmrini dinləyib, bir xeyli yerindən tərpənmədi. Ətli üzünün əzələlərini gərilməsi cavanın tərədüd etdiyini,  qəlbində çağlayan hisslərin- məhəbbət və qorxu hissinin yol ayrıcında qaldığını sübut edirdi.

-Ay dığa, - deyə mayor Papazyan stuldan qalxıb, ona yaxınlaşdı:

-Ya onlar, ya da biz. Ya yüz illər boyu qanımızı içən, bizi qapısında eşşək kimi işlədən türk, ya da doğma anan, biz!

Çiyni avtomatlı Slavik, nəhayət, başını qaldırıb, Papazaynın daşa dönmüş üzünə baxdı.

-Hə! – deyə mayor bağırdı. – Ya onlar, ya da biz. Seç! Ya ananı öldürməlisən, ya da atanı. Get!

Rəngi qaralıb külə dönmüş Slavik otaqdan çıxdı...

İdili kişi həyətdə odun doğrayırdı. Qəflətən qapını təpiklə taybatay açıldığını və sifətini tamam dəyişmiş oğul Savalanın əli avtomatlı içəri girdyini görüb, hər şeyi başa düşdü. Rəng verib, rəng alsa da, nə qımıldandı, nə də kimsəni köməyə çağırdı. Eh, imdad diləsəydi, kim gələrdi ki? Onun qəlbindən yalnız bir fikir keçdi: "Cəza günü çatdı?..."

Oğlunun vəhşiləşmiş üzünə baxıb, hər cür nəsihətin və yalvarışın faydasız olduğunu anladı. Yalnız:

-Oğul! Sənin güllən mənim cəzamdır, - dedi.

O andaca avtomat şaqqıldadı...”

Doğurdan da, faciəvi və təsirli epizoddur. Daşnak lideri erməni xalqına görk eləmək üçün anası erməni olan Slaviki – Savalanı İdili kişiyə - atasına əl qaldırıb, qanına qəltan eləməyə məcbur edir. Yazıçı qələmə aldığı bu səhnədə bir tərəfdən daşnak liderinin mənfur siyasətini açıqlayırsa, digər tərəfdən gəncliyində erməni qızı ilə ailə qurmuş İdili kişinin son aqibətini oxuculara çatdırdı.

***

“Güllələnmiş heykəllərin fəryadı” adlı ədəbi esseni oxuduqda belə bir qənaətə gəlirsən ki, söz-söz, sətir-sətir, cümlə-cümlə yazılan bu əsər H.Mirələmovun gərgin əməyi sayəsində yaranmışdır.

“...Ölə-ölə yazıram. On ildən bəri təkrar-təkrar qəlbimdə kədərlə oxuduğum nəğməni yaza-yaza ölürəm.

Cavabını bilmədiyim, pırtlaşıq suallar dolaşır döyünən içimdə.

Necə deyim, içim özümü yandırır, çölüm özgəni!

Bilmirəm, indi sənin əlin mənim alnımdadı, ya mənim əlim sənin ətəyində?

Bəlkə, bu bir nəğmədir, kimsənin duymadığı, heç zaman hiss edə bilməyəcəyi bir nəğmə.

Yol kənarında Şuşanı göstərəcək işarəyə qədər bu nəğməni oxumaq keçir könlümdən...”

Bu sətirlər, Şuşanın müəmmalı təslimini özünə dərd edən müəllifin için-için göynədiyindən, pıtlaşıq suallar qarşısında naçar qaldığından, kimsənin duymadığı və heç zaman duya bilməyəcəyi yanıqlı bir

nəğməni qəlbində, ürəyində oxuya-oxuya yaşatdığından, vətən sevgisindən yaranmış, bu nəğməni bütün soydaşlarına çatdırmaq istəyəndə, dünya azərbaycanlılarının, xalqımızın yumruq kimi birləşməklə yağı düşməni geri oturdaraq Şuşamızı, Qarabağımızı və əsrlər boyu parça-parça verilmiş bütün doğma torpaqlarımızı azad etmək çağırıçından yaranmışdır. Və yuxardakı sətirləri yazan müəllifin daxili dünyası, iç aləmini, əzab və iztirablarını dərk etmək, başa düşmək üçün esseni səbr və təmkinlə oxumaq lazımdır.

Yazıçı əsrlər boyu daxili çəkişmələr nəticəsində parçalanmış, xanlıqlara bölünmüş Azərbaycanlımızın başına gətirilən müsibətləri və bundan əziyyət çəkən xalqımızın zülm və məşəqqətini ruhların dili ilə o başı bir-birini didməyə fürsət gəzir. Az qala bu didişmə şəhərbəşəhər, kəndbəkənd, küçəbəküçə, nəsilbənəsil çözələnib getsin.

Mənim babam da vaxtında belə idi. Şair, sənin də təcrübən çatmadı bu didişməni kəsməyə, elə sən də bu sarsaq, özünədn razıların qurbanına çevrildin.

Özüm çox xəyanətə şahidəm. İndi isə dilsiz heykələm, güllələrdən bədəni dəlik-deşik olmuş heykəl. Mənim bu daş canım da yağı girinə o didşmənin sayəsində keçib...”

Yuxarıdakı epizod da heykəl Natəvanın heykəl Vaqifə dediyi bu ibrətamiz sözlər, tarixi faktlardan yarandığı üçün korşalmış yaddaşların oyanışına bir tənadır.

Sağ ikən xanlıqlara parçalanmış Azərbaycandakı daxili çəkişmələrin şahidi olan və bundan əziyyətlər çəkən Natəvanın, bu gün isə vəzifə, kürsü ehtirasından yaranmış daxili intriqalar nəticəsində xaincəsinə döyüşsüz, vuruşsuz, hiyləgər düşmənə təslim edilən Şuşada yağı güləsinə tuş gəlmiş, dəlik-deşik edilmiş heykəlinin fəryadı birliyə, bütövlüyə bir tövsiyədir.

Yazışı H.Mirələmov tarixi köklərdən bəhrələnərək heykəllərin və ruhların dili ilə əsrlər boyu daxili çəkişmələrin, tayfa, məhəllə

didişmələrinin, itriqaların xalqımıza, bütöblükdə Azərbaycana vurduğu zərbələri bədii lövhə obrazlarla oxucuyaçatdırmaqla tərbiyəvi əhəmiyyəti olan bir əsər yarad bilmişdir.

El arasında indi də sevilə-sevilə söylənilən bir bayatının yaranma tarixini müəllif yenə tarixi faktalara əsaslanmaqla aşağıdakı formada oxucuya çatdırır.

"...Ağabaəyim ağanın ruhu- bağa qədəm qoyanda ürəyimin göynərtisini bir ağız bayatilə səngitdim:

**Mən aşiqəm,Qarabağ,**

**Şəki, Şirvan, Qarabağ.**

**Tehran cənnətə dönsə,**

**Yaddan çıxmaz Qarabağ.**

Şaha xəbər apardılar ki, sənin hörmətli, izzətli xanımın, xatirini çox əziz tutduğun Qarabağ gözəli "Tehran cənnətə dönsə, yaddan çıxmaz "Qarabağ", - deyir. Şah qəzəbləndi və məni hüzuruna çağırdı. Mən sözlərimi kişi qızı kimi təkarar edərdim, amma yenə qardaşımın taleyi,vətənin ağrı-acısı  bu məqamda gözümün önündə dayandı. Elə bil ki, Allah-Təaladan nida gəldi ki, sən şahın fikirni döndər:

**Əziziyəm, Qarabağ**

**Şəki, Şirvan, Qarabağ.**

**Tehran cənnətə döndü,**

**Yaddan çıxdı Qarabağ.**

Mən bayatını bucür bədahətən qısa düzəlişlə söyləyəndə şah gülümsədi. Əlbəttə, məni bağışladı və bildim ki, təkcə məni yox, onun qan-qan deyən qılıncının ağzından neçə-neçə əziz-xələfim xilas oldu...”

Müəllif ürək ağrıdan bu epizodda da dövürdəki çəkişmələrin acı aqibətini şərh edərək dövlətin və dövlətçiliyin inkişafını, müstəqilliyimizin qorunmasını, respublikamızın qüdrətlənməsini xalqımızın birliyində görür və bu zərurəti oxucuya aşılayır. Məhz bu, dəyər və məna baxımından əsərin gücünü artırır.

Öz əməlləri ilə dünya şöhrəti qazanmış əbədi tarixə düşmüş Üzeyirin, Natəvanın, Bülbülün qansız, cansız daş heykəllərini güllələmiş erməni faşistləri bilməlidirlər ki, onların ruhlarını güllələmək məhv etmək olmaz. Vaxt gələcək, xalqımız qarşısında, bəşəriyyət qarşısında güllələnmiş heykəllərin ruhları qarşısında cavab verməyə məcbur olan yağı düşmən əməllərindən peşmançılıq çəkəcək, ən azı diz çökməklə ruhlardan üzr istəyəcəklər.

Məhz bu ideya ilə yazılmış esse sabaha nikbin baxan yazıçı H.Mirələmov təxəyüllünün məhsuludur.

“Xəcalət” kitabını sonunda dərc edilmiş “Vicdanın hökmü” darmı ideya baxımından diqqəti daha çox cəlb edir. Əsərdə 1990-cı illərdən üzü bəri Azərbaycan gəncliyinin qayğı və problemlərini, üzləşdikləri Qarabağ faciəsinin onlara vurduğu zərbələri, mənəvi sarsıntılarını bədii lövhə və obrazlar vasitəsi ilə tərınnüm edən müəllif günün tələblərinə cavab verən bir səhnə əsəri yarad bilmişdir.

Bu iki hissəli dram da məhəbbət dolu ana nəsihəti, sevgi müqəddəsliyi, Vətən yanğısı ön plana çəkilməklə uçuruma yuvarlanan Firudin obrazı ilə, torpaqlarımızın azadlığı uğurunda canını qurban verən rəhm surətini üz-üzə qoyan yazıçı ailə-məişət çərçivəsini dağıdaraq bütövlükdə Azərbaycanımızın bu günkü dərdini tərənnüm etmişdir.

Yazıçı pyesdə Rusiya bazarlarının birində Firudinin- reket Fedyanın yanında fırlanmaqla pul qazanan Rəhim tərəfindən Firudinin

öldürülməsi səhnəsində aradan çıxan daha sənra Qarabağ torpaqlarında Rəhimin gülləsinə tuş gələn Aşət sürətində yaltaq, hiyləgər, fitnəfəsadlı erməni riyakarlığını açıb göstərə bilmişdir.

"...Rəhim (əsəbi gəinir, var-gəl edir): - heç bilmirəm bıçaq hardan keçdi əlimə. Əslində, mən o erməni it oğlunu vurmaq istəyirdim, Fedya keçdi qabağa. O, dığaya havadarlıq etmək istəyirdi"...

Bu faciəvi səhnədə aranı qarışdıran, sonra bir göz qırpımında ustalıqla bıçaqı Rəhimə ötürən və asanlıqla aradan sivişən Aşotun hiyləgərliyi tamaşaçıda nifrət hissi oyadır. Əsər tamaşaçıda düşmənə qarşı mifrət hissi ilə yanaşı, intiqam hissinin oyanmasına da xidmət edir. Və buna nail olunur

"...**Ana**:- oğlum, yağı düşmən başımıza müsibətlər gətirdi. Vətən dardadır. Düşmənin gəlişi də, gedişi də təlǝdir. Qayıdın, gəlin evinizə, ürəyinizin səsinə qulaq asın, vicdanın hökmünü eşidin. Vətən dardadır, oğul..."

Ananın Rusiya bazarlarının birində alver etməklə çörək pulu qazanan oğluna ünvanladığı bu çağırışını yazıçı Vətənin müdafiyəsi naminə ümumi çağırış kimi səciyyələndirmişdir.

"Vicdanın hökmü" dıramı bədii lövhə və obrazların rəngarəngliyi ilə tamaşaçı tərəfindən asanlıqla qavranılır və yadda qalır.

Yazıçə H.Mirələmovun Azərbyacanın müstəqilli və ərazi bütövlüyü uğurunda şəhid olanların əziz xatirəsinə ithaf etdiyi "Vicdanın hökmü" dramını ideyasına görə ilin ən yaxşı səhnə əsəri kimi qiymətləndirmək olar.

Kitabda dərc edilmiş bu əsərlər ümumlikdə Qarabağ faciəsini, qaçqınlarımızın düçar olduqları həyat tərzini, müasir gəncliyimizin üzləşdiyi çətinlikləri, Azərbaycanımızın dünənki və bugünkü problemlərini geniş oxucu auditoriyasına- bütün bəşəriyyətə çatdıra biləcək bədii ədəbiyyat toplusudur.

**Nizami MİRZƏYEV,**

**yazıçı-publisist**

## "GÜLLƏLƏNMİŞ HEYKƏLLƏRİN FƏRYADI "
## BİZƏ NƏ DEYİR?

Kim nə deyirsə-desin, böyük ədəbiyyat bütün dövrlərdə yarandığı dövrün ictimai-siyasi hadisələrinin, mənsub olduğu xalqın ağrı-acılarının tərcümanı olub və şəxsən mən ictimai-siyasi hadisələrin fövqündə böyük ədəbiyyat tanımıram, ən azı milli ədəbiyyat, xalq ədəbiyyatı tanımıram.

XX yüzilin son ili Azərbaycan türklərinin sinəsinə Qarabağ boyda dağ çəkdi, əfsus ki, ədəbiyyat bu ağrını,bu faciəni vaxtında ümumiləşdirə, bədii fakta çevirə bilmədi. Doğrudur, bu gün geriyə baxanda Qarabağ faciəsinin ayrı-ayrı səhifələrini, ümumilli faciənin səbəblərin, mənzərəsini əks etdirən əsərlər yox deyil. Bu əsərləin uğulu nümunələrindən ancaq minnətdarlıqla söz açmaq olar.

Tarixən qılınc və qələmin missiyası bir-birindən ayrılmaz olub və qələmin yazdığını çox vaxt heç qılınc da poza bilməyib. Bir vətəndaş kimi həmişə bu qənaətdə olmuşam ki, bir millətin düşməninə qalib gəlməsi üçün onun milli ruhunun, vətən sevgisinin düşməndən güclü olması yetərlidir. Yetər ki, torpağını düşmən sevdiyindən artıq sevəsən, yetər ki, uğrunda ölməyə bir amal olsun. Yetər ki:

**Bayraqları bayraq yapan üstündəki qandır,**
**Torpaq əgər uğrunda ölən varsa, vətəndir!-**

inamina tapınasan.

Bu vətənpərvərlik ruhunun, milli idealın aşılanmasında ədəbiyyatın rolu həddindən artıq böyükdür. Bir göydə Allah bilir ki, bu gün

ədəbiyyatımızın belə, ruhumuzu oyadan, bizə vətən, yurd, Qarabağ, Şuşa sevgisi aşılayan əsərlərə nə qədər böyük ehtiyac var! Sözün öz müqəddəs missiyasını yerinə yetirməsinə nu gün, bəlkə,bütün zamanlardakından artıq ehtiyacımız var.Qarabağa Şuşaya birinci ruhumuz pərvazlanacaq, sonra özümüz!"Xəcalət", "Güllələnmiş heykəllərin fəryadı", "Vicdanın hökmü" əsərləri ilə yazıçı-ddramaturq, publisist, ən əsası isə vətəndaş ədəbi ictimayyətə yaxşı tanış olan Hüseynbala Qarabağ faciəsinin bədii salnaməsi, inikası kimi bu əsərlər bugünkü ədəbiyyatımızın ən böyük, ən ciddi uğurlarından, ən səciyyəvi, təqdirəlayiq örnəklərindən sayılmalıdır. Bu gün ədəbiyyatımızın, ruhumuzun ən böyük ehtiyyacı belə milli qeyrətdən, ağrı-acıdan yoğrulan əsərlərdir. Heç şübhəsiz, bu əsərlərin hər biri haqqında böyük tədqiqatlar, araşdırmalar aparılmalıdır. Biz bu kiçik yazıda həmin əsərlərdən ancaq biri "Güllələnmiş heykəllərin fəryadı" haqqında söz açacağıq.

Bu əsərə qədər iki türk boyunun- İsmayıl Qaspiralının və Əli bəy Hüseynzadənin ruhların mükaliməsindən, qarşılaşdırılmasından istifadə yolu ilə yazdığı "Mükalimeyi- səlatin" və "Siyasəti-fürusət" ("Teymurnamə" hissəsi) əsərlərini oxumuşdum. Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" üçüncü belə əsərdir. Hər üç əsəri birləşdirən və ayıran bir çox cəhətləri sadalamaq olar və bu, daha geniş bir söhbətin mövzusudur. Bu üç əsəri birləşdirən ən əsas cəhət oxuyub qurtardıqdan sonra acı bir təəssüf hissini insanın ruhuna hakim olmasıdır. Bu, öz tarixi səhvlərimizdən, böyüklərimizin yanılmalarından doğan böyük təəssüf hissidir. Və bu əsərləri fərqləndirən ən böyük cəhət, heç şübhəsiz,onların ayrı-ayrı zaman kəsiyində tarixi faciələrimizin yanğısını əks etdirməsidir.

"Güllələnmiş heykəllərin fəryadı" Qarabağ faciəsinin bədii ədəbiyyatda inikasıdır. Və bu əsər bizə özümüzə yenidən baxmağı, özümüzü və düşmənimizi tanımağa öyrədir. "Güllələnmiş heykəllərin fəryadı" türklüyə, onun tarixinə, bu gününə və gələcəyinə sonsuz

sevgidən yaranmış əsərdir. “Güllələnmiş heykəllərin fəryadı” düçmənə, onun iyrənc əməllərinə, məkrli niyyətlərinə sonsuz nifrətdən yaranmış əsərdir.

“Güllələnmiş heykəllərin fəryadı” bizə xatırladır ki, biz türklər tarixə hakim, fateh millət kimi keçmiş, onlara imperatorluq qurmuş, dünyanı öz qüvvəsi qarşısında diz çökdürmüş bir millətik. Kim olduğumuzu tanımamış, düşmənə layiqli cavab verə bilməmiş sadəcə tariximizi vərəqləməyimiz yetərlidir. “Güllələnmiş heykəllərin fəryadı” bizə deyir ki, bu dünyada bizim olmuş on ildir zorla əlimizdən alınmış Qarabağ adlı dünyanın cənnəti var... Bu dünyanın Qarabağ adlı, Qarabağ ünvanlı ağrısı, acısı əzabı var – bizimdir, unutmuşuq... Seyd Nigarinin gərəksiz sayılıb, yerə atılan kitabı kimi... O kitabı ki, orda belə misralar var idi:

**Nə əcəb dövlət imiş seyri-şikari Qarabağ,**
**Nə gözəl dövlət imiş söhbəti-yari Qarabağ.**
**Kövsəri təb imiş çayi-çinari Qarabağ,**
**Aləmi-cənnət imiş dəri-divari Qarabağ.**

Bu dünyada Şuşa var- on ildir əlimiz çatmır, ünümüz yetmir, diz çöküb, o qiblə, Kəbə, Məkkə torpağını öpə bilmirik...

**Adlı gələnlərin adsız getdiyi Şuşa,**
**Atlı gələnlərin atsiz getdiyi Şuşa.**

Bu dünyada bir Şuşa var- tarix kitabımızın qana bulanmış səhifəsi! Onun sinəsinə yağı tikan əkir...

“Güllələnmiş heykəllərin fəryadı” deyir ki, bu dünya gözəli yurdumuzu, cənnət guşəsi torpaqlarımızı geri qaytarmayınca içdiyimiz su, yediyimiz çörək bizə haram olacaq.

“Ölə-ölə yazıram. On ildən bəri təkrar-təkrar qəlbimdə kədərlə oxuduğum nəğməni yaza-yaza ölerəm... bəlkədə,bu,bir yanğılı nəğmədir, Kimsənin duymadığı, heç zaman hiss edə bilmədiyi, heç zaman hiss edə bilməyəcəyi bir nəğmə.

Şuşanı mən diri görürəm. Şuşa daşlarını danışan görurəm. Eşitdiklərim də elə bu daşların pıçıltılarıdır”.

Bunu Hüseynbala Mirələmov yazır və bu sətirləri yazmasa da, elə əsərin sətirləri, səhifələri, mətləbləri bu ağrını anlatmaq gücündədir. ”Güləlәnmiş heykəllərin fəryadı” ağrıdır, hönkürtüdür. Mənim eşitdiyim, oxuduğum ən yanıqlı Şuşa – Qarabağ mərsiyəsidir- göz yaşları ilə oxunmuş! O göz yaşları “Güllələnmiş heykəllərin fəryadı”nda millətinin Qarabağ sevgisi, yurd həsrəti, itirilmiş torpaqların yanğısı ilə dolu böyük ürəyindən ba alır və ümummilli səciyyə qazanır...

“Güllələnmiş heykəllərin fəryadı” çağrışdı, damarlarımızda axan qanı, qeyrət damarımızı oyatmağa ünvanlana haraydır. Şuşa, Qarabağ həsrəti ilə yanıb külə dönən qeyrətli vətəndaş – ziyalının, yazıçı və dramaturqun, millət təəssübkeşinin çağırısıdır.

“Güllələnmiş heykəllərin fəryadı” fəryaddır – qoynunda övladları, hətta övladlarının daş heykəlləri güllələnən , torpağının beşdə biri düşmən tapdağına, əhalisinin səkkizdə biri qaçqına köçkünə çevrilmiş millətimizin halını bütün dünyaya duydurmaq, eşitdirmək gücündə olan bir fəryaddır. Təkcə “Xəcalət”adlı kitabın üz qabığı erməni vəhşiliyini sivil dünyaya duydurmaq üçün ən təsirli və danılmaz bir faktdır. Başından, neçə yerindən güllələnmiş daş heykəl Üzeyir bəy, Xurşudbanu Natəvan, Bülbül... Görəsən onlar ermənilərə nə etmişdilər, İlahi ?

“Güllələnmiş heykəllərin fəryadı” deyir ki, erməni xislətindən qorxun, erməni xislətini tanıyın, erməni xislətini unutmayın! Onların bizim millətin başına gətirdiyi fəlakətləri, yaxşılıqlarımız müqabilində etdikləri

nankorluqları qanımıza yeriklədiklərini, keçmişimizə belə, güllə atdıqlarını unutmayın, unutmayın, unutmayın!

"Güllələnmiş heykəllərin fəryadı" bizə deyir ki, Şuşa bizim üçün təkcə cənnət guşəsi, yurd torpağı- İsa bulağı Turşsu, Dovtələb, Kirs, Cıdır düzü deyil. Şuşa bizim üçün həm də Pənahəli xan Mirmöhsün Nəvvab, Gövhər ağa, Ağabəyim ağa, İbrahim Xəlil xan, Xan qızı Natəvan, Molla pənah Vaqif, Üzeyir bəy, Bülbül, Əhməd bəy Ağayev Yusif Vəzir Çəmənzəminli... deməkdir. Onların ruhlarıda didərgindir bu gün. O ruhlar "Şuşasızlıq dərdi çəkirəm,Şuşasızlıq!" deyib, fəryad qoparır- bir milyondan artıq didərgin Azərbaycan türkü ilə bərabər! əsirlikdə, vəhşi ermənilərin tapdağında qalan təkcə Cıdır düzü, İsa bulağı deyil, həm də Hüseynbala Mirələmovun qələmi ilə dilə gələn, hayını, fəryadını bizə duyduran böyüklərimizin didərgin ruhlarıdır, onlarla bərabər, o əsir torpaqlarda qoyub gəldiyimiz, qəbri yad tapdağında qalan doğmalarımızın, əzizlərimizin ruhlarıdır. Bizə əziz olan nə varsa, ordadır. Qarabağsız, Şuşasız biz bir heçik...

"Güllləlınmiç heykəllərin fəryadı" itirilmiş, zədələnmiş, yaddaşımızı bizə qaytarır, yaddaşımızın yaraları dərindir, vəhşi ermənilərin daş heykəllərimizə, böyüklərimizə, keçmişimizə atdıqları gullərlər belə, yaddaşımızı oyada bilmədi, deyəsən, yaddaşımız oyanmasa, Şuşa Qarabağ...

Bu gün təkcə Qarabağ torpağı yox, o torpaqların dünyaya verdiyi, o torpaqlardan uyuyan seçmə böyüklərimiz ulularımız, əsir ruhlarımızında "Azadlıq!" deyib hayqırır. Hüseynbala Mirələmov isə onların fəryadlarını bizə, gələcək nəsillərə çatdırır... o ruhlar "Sənsiz"lə , "Sevgili canan"la Şuşa,Qarabağ dərdinə təcuman olur...

O böyük ruhların narahatlığı Şuşa,Qarabağ bizim olana qədər davam edəcək...

Hüseynbala Mirələmovun Qarabağ mövzusunda yazdığı əsərlər Azərbaycan Yazıçılar Birliyinin, Teatr Xadimləri Ittifaqının, "Milli birlik" təşkilatının ən yüksək mükafatlarına layiq görülüb. Ancaq ən böyük mükafatı insanın vicdanından aldığı mükafatdır, bu mənada yazıçı

Hüseynbala Mirələmovu ən böyük, ən ali mükafata layiq saymaq olar. Belə oğulların çox olsun, Vətən!

**Aybəniz KƏNGƏRLİ,**
**filologiya elmləri namizədi**

## VƏTƏNƏ, TORPAĞA SEVGİSİ TÜKƏNMƏYƏN İNSAN

Vətən torpağı işğala məruz qalanda qeyrətli oğulları kimsənin çağırışını gözləmədən ayağa qalxır, döyüşə, mübarizəyə atılır. Hüseynbala Mirələmov Azərbaycanın məhz belə oğullarındandır. O "sən qalx, mən də qalxım" əxlaqını yaxına buraxmır, nəyi və necə etməyi ürəyinin hökmü ilə özü müyəyən edir.

Tarixdən məlumdur ki, zaman-zaman dörd bir tərəfən bərəkətli, təbii sərvətlərə zəngin torpağımıza göz dikmişlər. Bu torpaq hərislərinin ən məkirlisi yazıq tülkü cildinə girib, içimizə soxulan, dost bilib, çörəyimizi böldüyümüz ermənilər olmuşdur. Bizsə başımıza gələnlərdən ibrət dərsi götürməmişik, xəyanəti unudub, düşmənə dönə-dönə kömək əli uzatmış, ağır günündə ona sığınacaq vermişik. Bu da nəticəsi: on iildən artıqdır ki, daha iyirmi faiz torpağımız yağı tapdağı altındadır oğul və qızlarımız əsirlikdədir. Alçaldılmış və təhqir olunmuşuq. Heç bir xaqın belə bir rüsvayçılıqla yaşamağa haqqı yoxdur, o cümlədən də bizim. Yaxın dostum, əsl AZƏRBAYCANLI Hüseynbala Mirələmov bu həqiqəti çox gözəl dərk edən istedadlı yazıçılarımızdandır. Lakin aydındır ki, sadəcə dərk etmək azdır, qələmi ələ alıb işləmək, söz demək lazımdır.

Mirələmov da məhz bu yolu – qələmiylə, sözüylə xalqın milli yaddaşını oyatmaq yolunu tutub.

Mən bilirəm ki, Qarabağ alışıb-yananda, millət silah götürüb xəyanətə qarşı etiraz səsini qaldıranda Hüseynbala Mirələmov dəfələrlə Qarabağa getmiş, milli müqavimət hərəkatına əlindən gələn köməkliyi göstərmişdir. Lakin burda açıqlamaq istəmədiyim səbəblərdən hərəkət pozulduqdan və ən nəhayət, dağıldıqdan sonra, o, çoxları kimi, kənara çəkilib sakit dura bilmədi; bildiklərini, gördüklərini qələmə alıb, xalqa çatdırmaq qərarına gəldi. Neçə illik fasilədən sonra yenidən fəal yaradıcılıq yoluna qayıdan Mirələmovun yazdıqları bu dəfə çox sərt və acı həqiqətlər idi. Əsərlərinin eləcə adları- “Vicdanın hökmü”, “Xəcalət” “Güllələnmiş heykəllərin fəryadı” – onun vətəndaş-yazıçı mövqeyini9 bir mənalı və olduqca dəqiq ifadə edir. Sanki o, “baş vermiş faciələrə görə, istisnasız, “hamımız günahkarıq, hamımız xəcalət çəkməliyik”- deyir.

Bunu etiraf etmək son dərəcə ağırdır. Xalq şairi Bəxtiyar Vahabzadənin Mirələmova ünvanladığı açıq məktubu yadıma düşür: şair oxuduğu gerçəklərin acılığından qəhərlənir, keçirdiyi xəcalət hissi əsəri axıra kimi oxumasına imkan vermir, buna görə yazıçıdan üzr istəyir. Bu elə-belə adi oxucu deyil, bu – Bəxtiyar Vahabzadədir. Onun etirafı isə, zənnimcə, Mirələmovun əsərinə verilən ən yüksək qiymətdir.

Düzü, adlarını çəkdiyim əsərlərdən sonra Hüseynbala müəllimin nə yazacağı məni çox maraqlandırdı. Deyirdim, görəsən yenədəmi əvvəli tənqidi ruhu davam etdirəcək, yenədəmi eyiblərimizi faş edəcək?! Və lap bu yaxınlarda o, son əsərini, yenicə tamamladığı, hələ heç bir yerdə çap olunmamış romanını oxumaq üçün mənə verdi. Oxucular yaxın gələcəkdə, şübhəsiz ki, özləri əsərin qiymətin verəcəklər. Mənsə hələlik onu deyə bilərəm ki, bu əsərlərdə onlar yeni bir Mirələmova rastlaşacaqlar, torpağlarımız uğurunda vuruşmağa qadir, bizə edilmiş xəyanətlərin qisasını almağa qüdrəti çatan həmvətənlərimizin

igidliklərini, kişi sifətlərini məhəbbətlə, inamla qələmə alan Mirələmovla görüşəcəklər.

Əsər hələ işıq üzü görməmiş onun haqqında danışmağa bəlkə də mənim hüquqi ixtiyarım yoxdur, amma dostumun yaradıcılıq uğuruna sevinməyə, yəqin ki, mənəvi haqqım var. Və inanıram ki, bu hələ Mirələmovun Qarabağ mövzusunda yazdığı son əsəri deyil. Lap yaxın zamanlarda o, torpaqlarımıza dönən əsgərlərimizin zəfər yürüşünə də gözəl bir roman həsr edəcəkdir. Amin!

**İntiqam QASIMZADƏ**

**Azərbaycan Respublikasının**

**Əməkdar İncəsənət xadimi**

## XƏCALƏT- ƏN AĞIR DƏRDİMİZ

Hörmətli Hüseynbala müəllim! Sizin "Xəcalət" kitabınızı oxuyandan sonra möhtərəm prezidentimiz, cənab Heydər Əliyevin bu sözlərini xatırladım: "Şuşasız, Ağdamsız, Qarabağsız Azərbaycan yoxdur!" Və bu qənaətə gəldim ki, Qarabağ dərdini çəkməyən, onu ürəyində yaşatmayan, bədii boyalarla oxucuya çatdıra bilməyən hər hansı yazarın da özünə yazıçı deməyə haqqı yoxdur. Bu mənada siz yazıçılıq, vətəndaşlıq, vətənpərvərlik borcunuzu şərəflə yerinə yetirmisiniz. Çox sağ olun, "Xəcalət" əsərinizdə qubarlı duyğularımızı tarıma çəkdiyiniz üçün. Səhvlərimizi anlatdığınız, xatırladığınız üçün. Mən bunu Sizin

yaradıcılığınızı daim izləyən və hər qələm məhsulunuza hörməti olan oxucu kimi vurğulayıram. Doğma yurd yerlərinə boylana-boylana qalan minlərlə həmdərdlilərimiz kimi mənə də təskinlik verən budur ki, haqq nazilib, amma üzülməyib. Ən əsası isə daha sən dağlısan, mən bağlıuam demirik. Möhtərəm prezidentimizin çağırışına qoşulub, birləşməyə, həmrəyliyə daha çox meyil göstəririk . Bu, millətimizin, xalqımızın müstəqillik əldə etməsindən sonra ən böyük qələbəsidir.

Hörmətli Hüseynbala müəllim! Bütün dünya ictimayyiətinə artıq bəlli olduğu kimi, Siz də təsvir və tərənnüm edirsiniz ki, Qarabağ əzəli və əbədi Azərbaycan torpağıdır. Hər yazılanı gələcəkdə tarixləşməsini nəzərə alaraq bədii təsvir mənzərələrinizə, yaratdığınız ədəbi obrazların kamilliyinə, hərtərəfli olmasına görə Sizə minnətdarlıq etməyimi özümə borc bilirəm. Gəlin burasınıda unutmayaq ki, zaman-zaman xain, xoflu,hiyləgər, namərd, simasız ermənilər barədə çox-çox kəlamlar olub. Məsələn, Əmir Teymur belə deyib: “Erməniləri bir millət kimi Yer üzündən silmədiyim üçün gələcək nəsillər məni lənətləyəcək”. Və yaxud “Qabusnamə”də deyilir: “Ermənilər bədfel, kündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş söyən, ürəyi xıltlı, ağasına düşmənçilik edəndirlər. Ümumiyyətlə, onlar başdan-ayağa müsbətdən çox mənfiyə yaxındılar”. Bu da özümün qənaətimdir, ermənilər o qədər hiyləgərdilər ki, onlar nəinki sadə yoldaşlarımızı, hətta bəzi keçmişi vəzifə düşkünlərimizi də ovsunlamışlar. Respublikamızın paytaxtında ən mərkəzi, axarlı- baxarlı ünvanlardan onlar yaşayırdılar. Ölkəmizin əyalətlərində, xüsusən, dağlıq-yüksəklik ərazilərimizdə onlar məskunlaşmışdılar. Ərköyünlük, hərislik, biclik o dərəcəyə çatmışdı ki, onlar bizlərə yuxarıdan aşağı baxırdılar. Timsah kimi yalandan göz yaşı axıdırdılar, bizlərə tələ qururdular. Onların göz ağartdıqları, diş qıcadıqları bir ünvanımız var idi: Onun adı Qarabağ idi. Siz yazdığınız və təsvir etdiyiniz Qarabağ!

Hüseynbala müəllim, Sizin Qarabağ hadisələrinə münasibətiniz, təsvirləriniz, müəllif fikirləriniz dərin müşahidənin nəticəsidir.”Xəcalət” povesti tarixin, millətimizin, torpağımızın qarşısında xəcalətli olanların üzünə vurulmuş sillədir. Bu əsər o qanlı-adalı hadisələrə tam, büsbütün ayna tuta bilir. Bunu- bu incəliyi təbii ki, özgələri duya bilməz. Amma bu gün bu zala toplaşanların  hamısı bu dərdin  daşıyıcısıdr. Çünki o müdhiş, dəhşətli hadisələr bizlərin gözləri önündə baş verdi. Əlimizə silah götürüb,  düşmən qarşısına çıxmışıq, həlak olan, yaralanan hər bir soydaşımızın  ağrısını öz canımızda duymuşuq.

Hüseynbala müəllim, sözü gedən dövrün hadisələri ilk baxımdan adidən adi, sadədən sadədir. Sizi inandırım, tarixdə çox müharibələr olub, amma Qarabağ savaşına bənzəri olmayıb və yəqin ki, heç olmayacaq da! Ağacı qurd içində yeyəndə,çeynəyəndə, çürüdəndə dəhşət olur!.. Ancaq bu gün etiraf edirəm ki,  son on-on beş il ərzində millətimizi çarəsiz dərdə düçar edən mövzuya müraciət edən bir-iki nəfər varsa, onlardan biri və birincisi Sizsiniz. Sizin yaratdığınız obrazları- Qarabağ uğurunda  müqəddəs torpaqlarımızın naminə şəhid olanlar, ömürləri boyu yaralı, şikəst qalanların ümumiləşdirilmiş obrazlarını Vətən, Didar, Fərqanə... təmsil edir, yaşadırlar. Təbii ki, yaratdığınız hər bir obrazbizim üçün əzizdir. Siz Qarabağı oba-oba, kənd-kənd, gəzmiş, Şuşada, Cəmillidə, Kosalarda, Meşəlidə, Kərkicahanda olmusunuz. Sizin ədəbi qəhramanlarınızı indi bir xəyal, xatirə kimi yad edirəm. Məsələn, Vətən deyir: “Mən azərbaycanlıyam!” Bu ifadə özü qədər könlümü açdı və yaddaşımda yaşayacaq. Povestin qəhramanlarının adları təbii ki, şərtdir. Lakin onların hər biri Azərbaycan oxucusu üçün doğma və müqəddəs sabahımız üçün cığır yox, yol açan yazımızdır.

Hörmətli yazıçımız, Sizdə bədii təfəkkür, əgər belə demək mümkünsə, çoxlarının qibtə ünvanıdır. Çünki konkret yox, ümumiləşdiyiniz obraz elə xalqımızın güvəndiyi, arxalandığı QƏHRƏMANDIR. Qətiyyətlə deyirəm ki, bu qəhraman öz canını hər

gün, hər an xalqının uğurunda qurban verməyə hazır olan cənab Heydər Əliyevdir. Təsvirləriniz, onun ünvanına dediyiniz tutarlı sözlər, ifadələr büsbütün yerinə düşür. Bir nümunə: "Murad, əzizim, özündə bilirsən ki, ölkədə mənim kimilərin sayı bir milyondan çoxdur. Onların hamısına ev verməyin, sevindirməyin isə yeganə yolu Qarabağa **QAYIDIŞDIR!"**

Qayıdış sözünü yazınızda oxuyanda tam əmin oldum ki, Siz möhtərəm prezidentimizin hakimiyyətə yenidən qayıtmasını da vurğulamısınız. Və düz etmisiniz. Əgər cənab Heydər Əliyev simurq quşu timsalında yenidən hakimiyyətə gəlməsəydi, kim bilir, Azərbaycanımızın sonrakı taleyi necə olacaq. O qayıtdı və biz də Vətənə qayıdış inamı yaratdı.

Yazıçı onda bəxtəvərdir ki, onun yazdığı ünvana yetişsin, necə deyərlər, obyektə toxunsun.

Yaradıcılığının əhatə genişliyinə, maraq dairəsinə inandığım Hüseynbala müəllim, Siz də təmiz, pak niyyətə qovuşmusunuz. Buna görə Sizi təbrik edirəm. Daha doğrusu, xalqımızın işıqlı sabahlarını təkcə bədii yaradıcılığında təsvir edən yaradıcı kimi yox, həm də qayğıkeş bir insan kimi çoxlarını Sizdən nümunə götürməyə çağırıram.

**Alış ALIŞOV**

**Xocalı rayonu,**

**Meşəli kənd orta məktəbinin direktoru**

## VƏTƏNİN VƏTƏN HARAYI

**Hüseynbala Mirələmov "Xəcalət" povestində dərdinə qısılıb, dərdiylə "dərdləşir".**

İstedadlı yazıçı Hüseynbala Mirələmovun haqqında çox eşitmişəm. Kitabları barədə radio-telvizyadan, mətbuatdan xəbər tutmuşam. Heyif ki, heç birini oxumaq mənə qismət olmayıb: nə " Tənha durna"nı, nə "Qayada çiçək"i, nə "Amalın işığında"nı, nə " Həqiqət"i, nə "Daha bir ümid sabahı"nı, nə " Zəfər yolu"nu... Təkcə "Xəcalət"indən başqa Povest, ədəbi esse və dram əsərlərindən ibarət olan bu kitab da təsadüfən əlimə düşdü. Və... oxudum bu Tanrı bəndəsinin Vətənin dözülməz ağrıları, böyük, müqəddəs kədəri haqqında yazdıqlarını. Yox, sadəcə "yazdıqları"nı deməklə kifayətlənə bilmirəm. Didələrindən qan-yaş tökə-tökə, ürəyi üzülə-üzülə, barmaqları əsə-əsə kağız-qələm "danışdıqları" sanki mənə əzab verdi, göz yaşlarımı bir anlığa saxlaya bilmədim (sonra elə bildim ki, bütün əsərlərini oxumuşam) və beynimdə dolaşan fikirləri bölüşmək qərarına gəldim.

1937-ci ilin repressiyası nəticəsində doğma Vətəndən – Qarabağdan sürgün edilərək Özbəkistanda yaşayan və günlərin birində Vətənə qovuşan Vətən adlı azəri balasının dərd-sərini bir nəfəsə oxuyandan sonra əsərin müəllif Hüseynbala Mirələmovun portreti gözlərim önündə canlandı.

Mənim tanıdığım Hüseynbala müəllim tamam başqa insandır. Onu qəzet və jurnalların təşkil etdikləri tədbirlərdə, ayrı-ayrı ədəbi-bədii məclislərdə, yaradıcılıq gecələrində görmüşəm. Məntiqi çıxışlar, dəyərli təklifləri ilə hopub yaddaşıma...Zahirən çox mülayim, sadə və təmkinlidir. Yaxından tanıdıqca yəqinləşdirirsən ki, bu, elə onun mənəvi aləmindən irəli gəlir. Çöhrəsindən həmişə xoş təbəssüm var, sanki əbədilik hopub simasına.

Sən demə, zorla cəlb edildiyimiz Qarabağ müharibəsinin salnaməsini "Xəcalət"də həkk etdirmiş Hüseynbala Mirələmov kimi Vətən dərdini, torpaq yükünü çəkən yazarımız var imiş. Uzun müddət süfrəmizin başında əyləşdirdiyimiz ermənilərin iştahına tuş gəlmiş cənnətməkan Qarabağımızın faciəsi, əzabları onu hamıdan çox yandırıb-yaxırmış. Müharibə çox ağır sözdür. Vay o günə ki, insanlara ölüm-itim, qan-qada, fəlakət və müsibətlər gətirən müharibə vasitəsilə bir xalq digərinə divan tuta, bütöv nəslə soyqırım- "genosid" edə. Mənfur ermənilər iyirminci yüzilliyin əvvəllərində də, ortalarında da, əsrin sonuna yaxında da bu alçaq tədbirə əl atıblar. Mənə elə gəlir ki, nə qədər Qarabağ düyünü açılmayıb, nə qədər bizi dədə-baba ocaqlarımıza aparan yollar üzümüzə bağlıdır, nə qədər ki, Şuşa, Laçın, Ağdam... nisgilimiz bizimlədir, bu mövzuda yazmaq hər bir qələm sahibini ümid vəzifəsidir.

Yazıçı Hüseynbala Mirələmov yazı masası arxasına çəkən də elə bu hisslərdir. O, yaxşı bilir ki, bu günümüzün nəbzi məhz belə kitablarda döyünür. Müəllif qəhrəmanı Vətənin simasında didərgin həyatı yaşayır, vətənsizliyin hər üzünü görür, onun ürəyində qalan arzularından, sevincindən, kədərindən yazır: "Bir azdan səhər açılacaqdı, indi Vətən tək deyildi. Sanki atası yanındaydı. Bəlkə, atanın ruhu uçmuşdu oğlunun yanına. İndi bu naçarlıq məqamında ana dərdinin sel kimi onu ağzına alıb-apardığı anlarda övladının ata ruhuna sığınmağı təbii idi. Bu köməksizlik anında neçə il əvvəl dünyasını dəyişmiş ata Vətənin köməyinə gəlmişdi..."

Müəllif bu əsərdə uzun müddət vətənsizliyin dadını dadmış qəhramanının – Vətənin özünəməxsus xarakter cizgilərini, doğma yurdu Qaraqışlaq kəndinə dönüşünü, vətən,torpaq həsrətini ustalıqla qələmə ala bilib. Belə ki, tapılan bədii əlamətlərə oxucu Vətənin timsalında hər bir didərginin obrazını, özünəməxsus sifətini və ailəsinin keçirdiyi iztirabları görür, onu öz doğma qardaşı və yaxud övladı hesab edir. Onun acı taleyinə göz yaşları tökür. Bu nöqtədə bütün Azərbaycan xalqı bir nəfərə çevrilir. Hamı bir-birinə təsəlli, təskinlik verir.

"...Amma Ötərxan oğlunun harayının özü son nəfəsində olanda çatmışdı. Bu son nəfəsin özü də işıq idi. Vətənin gözündə zülmətə dönmüş dünyanın qaranlıqlarını kəsib doğrayacaq bu işıq qara buludları parçalayan şimşək kimi çaxıb gedirdi...

...Müğənni məşhur xalq mahnısını yanıqlı-yanıqlı oxuyurdu:

**Qızılgül əsdi,**

**Səbrimi kəsdi.**

**Sil gözün yaşın...**

Oxuyanın səsindəki nisgil, Vətən həsrəti aydın duyulurdu. Ötərxan, bəlkə, başqa şeylər deyəcəkdi. Bəlkə, bu nisgili səs də elə onun dediklərinə diqqət eləyirdi, bu ağrı-acının hardan gəldiyini musiqninin eczakar diliylə zilə çəkirdi. İnsan yurdun dağına-daşına tamrazı qalanda dəli olmaq dərəcəsinə çatır. Axı Vətən torpağ elə bir maqnit qüvvəsinə malikdir ki, həmişə adamı özünə çəkir. Kim olsan, harda olsan, hansı mənsəbə çatsan, yenə yurd-yuva nisgili könlünü tarmar qoyar."

H.Mirələmov "Xəcalət"i ilə ədəbiyyat tariximizdə öz layiqli yerini və əbədliyini qazanıb. M.S. Ordubadının təbrincə desək, həyat yalnız öz qələmlərini və fırçalarını böyük tarixi döyüş günlərində süngülərlə yanaşı qoya bilən səntkarları yaşatmışdır. O, kölgənin – atanın dili ilə oğula – Vətənə müraciət edir: "Oğul, Vətən, vətənsizliyi Allah düşmənə də qismət etməsin. İnsan ayağı doğulduğu torpaqdan üzüləndə bilər kökündən qopmaq nə deməkdir? Körpə ağacı bir yerdən çıxarıb, başqa yerdə basdırırsan, əvvəlki inkişafından dayanır. Nə qədər qulluq edirsən, kübrəsini çatdırrısan, yenə faydası olmur. İnsan da torpaqda bitmiş yeriyən ağacdı. Harda doğulubsa, harda bitibsə, həmişə o yerə sarı dartınır. Çünki qürbət məmləkət gəzmək, görmək üçündür, ölmək üçün yox..." Vətən Qarabağa, Qaraqışlaq kəndində özünün səcdəgahı, qibləgahı kimi baxır. Qarabağa qayıdışı üstün tutan Vətən üçotaqlı evin

orderini ona təqdim edərkən dostu  Murada bildirir: “Bütün elədiklərinə görə  çox sağ ol! Ancaq bil ki, mənim o xəstəxana binsanından çıxmağım üçün  iki yol var: Biri Qaraqışlağa,  Qarabağa gedir,  digərinin səmti  qəbristanlığadır. Murad, əzizim, özün də bilirsən ki,  mənim kimilərinin sayı bir milyondan çoxdur. Onların hamısına ev verməyin, sevindirməyin isə yeganə çıxış yolu Qarabağa qayıdışdır.” Müəllif oxucunun Vətəni sevmək və qorumaq  borcunun müqəddəsliyinə inandırmağa çalışır. Azərbaycanı  gözləyən və gözləyəcək  bəlaların caynağından qoparmağa  çağırış,  bu dərdlərə biganə olmayan Vətən adlı bir Vətən övladının qulaqlarımızdan çəkilməyən  harayı povestin əsas süjet  xəttini təşkil edir. Bax, budur onun ən böyük uğuru!

H.Mirələmov povestdə Mikoyan kimi qatı millətçilərin illərlə düşünüb-daşındıqları  iyrənc planı ifşa edir, ümumixalq liderimiz Heydər Əliyev olmasaydı, bu bəlalar hələ  60-cı illərdə  başımıza gələrdi. Moskuvada yüksək vəzifə tutan ermənilərin, onların təsiri altına düşən rusların xalqımıza qarşı etdiyi sərt şovinist  siyasətin qarşısında  o iki  ki, mətanətlə dayanırdı. Hərbi  məktəblər açdı, cavanlarımızın Moskvada, Leninqradda, Kiyevdə Xarkovda  və başqa şəhərlərdə təhsil almasına şərait  yaratdı. Mərkəzdə öz sözü, prinsipial  mövqeyi olması erməniləri tısbağa kimi  qınlarına çəkilməyə məcbur etdi. O, Moskvadan gedən kimi əl-qolları açıldı.”

Ağdamda meyidləri vertolyotdan düşürərkən gördüyü ahnaləni ağ kağıza  köçürəndə də, Xocalı faciəsinin  qəribə parodoksunu verəndə də, Xocalıfaciəsinin qəribə paradoksunu  verəndə də, hönkürməyin qismətini taledən bəxşiş istəyəndə də, 14 yaşlı  İsfəndiyarı ermənilərin zülümündən qurtarmağa çalışan qoca Setrakla Manukyanın monoloqunu  qələmə  alanda da müəllif son dərəcə təbii və səmimidir: “Vertolyot cəsədləri yerə endirən kimi  yer-göy qopdu, vay-şivən sədaları  ürəkləri dağım-dağım  elədi, haray-həşir ətrafı titrətdi...Bunlar el dərdinə  sızlamayanlar, heyifslənib təəssüflənməyənlər,  biganələr

deyildi, sadəcə dərdi içinə çəkənlər, baş vermiş hadisələrin ağırlığından özlərini itirmiş, donmuş, keyimiş şəxslərdi...”

Xocalı faciəsindən on iki il keçsə də, hələ yaramız istidir, hər birimizin bağrında sızıldayır. Biz bu yaranın, bu faciənin dəhşətini ömrümüzdən keçən on iki ildə bilmiş və bundan sonra da biləciyik. Yaraya isti-isti baxmaq və onun təfərrüatını kağıza köçürmək həm məsuliyyət tələb edir, həm də cəsatət! Bu faciəni bu gün yazmaqda çətindir, bu yazıları sakit ürəklə oxumaq da. Bütün bunları nəzərə alan Hüseynbala müəllim bu faciəni qələmə alıb “Xəcalət” adlandırdı. “Xəcalət” tarix üçün, gələcək üçündür.

“...Qarabağ boyda dərdin yükünü yüzlərlə vertolyot daşıya bilməzdi, bu yük yalnız ürəklərə sığardı. Allahın yaratdığı insan ürəklərinə. Məhz elə həmin gün, həmin saat ZAMANın nəbzi dayanmışdı, yalnız sinələrdən asılmış ürəklərin nənzi sürətini artırmışdı.”

Dərdinə qısılaraq dərdiylə “dərdləşməyi” bacaran H.Mirələmov sadəcə danışmır, ömürlüyündə yurd-yuva salan ağır yaddaşını silkələyir, oxucusunu olub-keçənlərdən nəticə çıxarmağa səsləyir: “...Ərazi bütövliyimiz uğurunda itkilər vermişik. Hələ uzun müddət həmin itkilərin göynərtisi köksümüzü dağlayacaq. İndi Azərbaycan xalqı öz torpaqlarını qaytarmaq üçün mübarizəsini davam etdirməli, hiyləgər düşməni yerində oturtmalı, ağıllı siyasət yetirməli, faciələrdən nəticə çıxarmalıdır”.

Mən istəyirəm bu kitabı oxuyan gələcək nəsillər hər şeyi olduğu kimi bilsin! Mən istərdim bu kitab dünya dillərinə çevrilsin, qoy bütün dünya başımıza gətirilən müsibətlərdən, verdiyimiz günahsız qurbanlardan və ən mühüm də haqlı ikən haqsız sayılmağımızdan və təklnməyimizdən xəbərdar olsun!

Qarabağ faciəsini əks etdirən “Xəcalət”həm də gələcək nəsillər üçün ibrət dərsidir. Qoy onlar bizim kimi sadəlövh olmasın, xeyirlə şəri, qara ilə ağı, dostla düşməni ayıra bilsinlər. Hadisələrin axrını əvvəlcədən

görə bilməsələr, bizim kimi onların da başına müsibətlər açılar, tarix səhnəsindən silinə bilərik.

**Daşdəmir ƏJDƏROĞLU,**

**jurnalist**

## “PLATİN ERA” MÜKAFATI AZƏRBAYCANDA

Hər il olduğu kimi, bu il də dünyanın və Avropa qitəsinin nüfulu “Erorena Market Research Center” və “Business Initiative Directions” təşkilatı ən müxtəlif biznes sahələrində ilin ən layiqlərini müəyyənləşdirməkdədir. Təqribən dünyanın 120 ölkəsinin qatıldığı bu qiyabi yarışmada 10 mindən artıq kompaniya yaxşıların yaxşılarına təqdim edilən qızıl və platin kateqoriyalarından mükafatlara iddialıdır.

2003-cü il ərzində keçiriləcək altı nominasiyada qaliblərə mükafatlar təqdim ediləcək ki, bu təqdimetmə mərasimləri də beş möhtəçəm şəhərdə - Nuyu-York, Ceneverə, Paris, Brüssel və Londonda keçiriləcək.

Kitab sahəsində ölkəmizi yazıçı Hüseynbala Mirələmov təmsil etmişdir. Mötəbər beynəlxalq jüri qarşısına o, Xocalı soyqırımından bəhs edən “Daha bir ümid sabahı” kitabı ilə çıxmışdır.

Budur, beynəlxalq təşkilatlardan bizim hər birimizdə qürur doğuran bir məlumat alınmışdır. Yazıçı Hüseynbala Mirələmov çox nüfuzlu “Platin era” mükafatını qazanmışdır.

Qürur doğuran daha bir cəhət odur ki, beynəlxalq mükafatların təqdimetmə mərasimində 50 ən müxtəlif biznes sahələri öncülləri qızıl

və platin mükafatlara layiq görüləcək. Bunlardan 45-i qızıl və 5-i, o cümlədən də Azərbaycan təmsilçisi yüksək sayılan platin mükafat alacaq.

Yazıçı Hüseynbala Mirələmov təqdimetmə mərasiminə rəsmi dəvət almışdır.

"Qarabağ" qəzetinin kollektivi bu münasibətlə yazıçı Hüseynbala Mirələmovu təbrik edir, ona yaradıcılıq uğurları arzulayır!

## "VİCDANIN HÖKMÜ" HƏYATI ƏKS ETDİRİR

Çoxdan idi ki, Azərbaycan səhnəsi isti tamaşaçı nəfəsini, hərarətli alqışlarını yadırğamışdı. Oktyabr ayının 26-da Gənclər Teatırında Hüseynbala Mirələmovun "Vicdanın hökmü" iki hissəli pyesinə Hüseynağa Atakişiyevin quruluşuna ictimai baxış oldu.

Pyes zorla qatılmağa məcbur edildiyimiz müharibədən, ermənilərin riyakarlığından və onun acı nəticələrindən bəhs edir.Əsərin qəhrəmanı kənd müəllimi Rəhman (aktyor İsmayıl Atakişiyeva) Moskva bazarlarının birində alver edib, anadan yetim qalan iki uşağını və ağbirçək anasını saxlayır. Lakin bazar Rəhmanın yeri deyil. Bunu müəllif və quruluşçu rejisor hər kəlməsində,addımında hiss etdirir.

Pyesdə çox qəribə bir məqam var. Anası Rəhmanın məktubunda xatırladır ki, deyirlər oralarda ermənilər çoxdur. Onlar fitnə-fəsad yuvası olduğu üçün onlardan kənar gəz. Elə bil ana ürəyinə dammışdı. Rəhman özü istəməsə də, bazarda sülənən Aşot adlı bir erməni onun həytına soxulur. Arxasında Firudin, sonradan Qara Fedyaya çevrilmiş

azərbaycanlı duran Aşot bazarda min bir əziyyətlə çörəkpulu qazanan, balasını zorla dolandıranlardan haqq yığır.

Aşot rolunun ifaçısı Lətif Məmmədov yaratdığı obrazda ermənilərin yaltaq, ikiüzlü, hər cür alçaqlığı və şərəfsizliyi qəbul edən, lazım gələndə namusundanda keçən tipik erməni obrazı yaratmışdır. Onu da qeyd edək ki, L. Məmmədov bəzi yerlərdə ermənilərə nifrət yaratmaq əvəzinə, yersiz gülüş doğurur. Yəqin ki, növbəti tamaşalarda bu cür qüsurlar aradan götürüləcək.

Rəhman istər-istəməz Aşotun qurduğu torda Firudinin (aktyor İntiqam Soltan) kampaniyasına düşür və özü də istəmədən yerlisinin qatilinə çevrilir. Aktyor rolunun öhdəsindən bacarıqla gəlsə də, hərdən emosional hərəkət və artıq çığırtıları yersiz görünür. Firudinin ad günündə Aşətun yaratdığı qarışıqlıq nəticəsində özü tez-tez təkrarladığı şəhərin üç “kişisi”ndən biri Firudini qətlə yetirir. Müəllif bununla onu göstərmək istəyir ki, öz doğma el-obasından ayrılıb, başqa diyarlarda səadət axtaranlar ya özü istəmədən insan qətlinə çevrilir, ya da üz çevirib getdiyi doğma torpağa cənazəsi gəlir. Yaşadığımız günlərin ən böyük faciələrindən biri də budur.

Firudini öldürəndən sonra Rəhman Vətənə dönür, əsgər paltarı geyinib, əlinə silah alır. Döyüşlərin birin də yaralanan Rəhmanın həyatında dəyişiklik yaradır. Firudinin həyat yoldaşı- Rəhmanın ilk məhəbbəti Güllünün qospitala gəlişi hadisələrin dəyişməsinə səbəb olur. Onu da qeyd edək ki, respublikanın əməkdar artisti Qəmər Məmmədova öz rolunu ustalıqla ifa edir. O, məcburən düşdüyü kübar qadın obrazını məharətlə oynayır. Bu qadın ilk görüşlərində olduğu kimi, bütün təsadüfi görüşləeində Rəhmana fəlakət gətirir. Həyat təsadüflərlə doludur. Onlar da məcburiyyət qarşısında üç dəfə təsadüfən tanış oluRLAR.

Hər iki aktyor bu səhnəni məharətlə oynayır. Xüsusilə, Qəmər xanım. Onun səhnə davranışına, obrazın xarakterini tam açmasına qüsur tutmaq mümükn deyil.

Firudin bacının dili ilə desək, “Fedya olanda ölmüşdü” Valideyinlərinin verdiyi adı dəyişdiyi kimi xarakteri də dəyişənlərdən birinə çevrili.

Ümumiyyətlə, tamaşa uğurla alındı. Müəllif deyir ki, bu torpaqda doğulmusansa, onu da qorumağa borclusan. Harda olsan da, son mənzilin doğma Vətəndir.

Tamaşada səslənən mahınıların musiqisi Cvanşir Quliyevin, sözləri isə Vaqif Səmədoğlunundur.

Tamaşadakı rəssam işi də uğurludur. B.Böyükkişiyev hadisələri əks etdirən səhnə eskizləri və tabloları ilə birinci hissədə Kremli, restoranı, bazarı, ikinci hissədə bu gün işğal altında olan Gövhər ağa məscidini, şəhid qəbirlərini, səngəri, bütöv Şimali Azərbaycanın xəritəsini bizə təqdim edir.

Ümumiyyətlə, “Vicdanın hökmü” pyesi Hüseynbala Mirələmovun ilk səhnə əsəri olsa da, çox uğurlu alınmışdır. Burada rejisor H.Atakişiyevin quruluşu da müəllif fikirini tamaşaçıya aydın şəkildə çatdıra bilib.

## YAŞADIĞIMIZ GÜNLƏRİN AYNASI

Lap çoxdan idi ki, Azərbaycan səhnəsi, onun aktyorları isti tamaşaçı nəfsinə, hərarətli alqışlara həsrət idilər. Oktyabr ayının 26-da yazıçı-dramaturq, texnika elmləri namizədi Hüseynbala Mirələmovun

“Vicdanın hökmü” adlı iki hissəli pyesinə Hüseynağa Atakişiyevin quruluşunda ictimai baxış oldu. İstər həmin gün, istərsə də ondan sonra nümayiş etdirlən iki tamaşada, daha doğrusu, tamaşa zalında iynə atsan, yerə düşməzdi. Gül-çiçək buketlərinin sayı-hesabı yox idi.

30-cu, 50-ci, 60-cı illərdə olduğu kimi 400 nəfərlik zalın dolmasına baxmayaraq,onlarla adam ayaq üstə, böyük maraq və heyranlıqla tamaşanı izləyirdi. Uğurlu ansambıl təşkil edən dramaturq deyimi, rejisor quruluşu və aktyor oyunu tez-tez sürəkli alqışlarla müşayitə edilirdi. Bir sözlə, bütün tamaşaçılar özlərini pyesdə cərəyan edən hadisələrin ağuşunda hiss edirdilər.

Pyesdə məcburən sövq edildiyimiz müharibədən, çörəkpulu dalınca Rusiyaya və digər ölkələrə axışan canavarlarımızın yaşadığı talelərdən, erməni işğalının, onların məkrli niyyətinin acı nəticələrindən bəhs edir.

Pyesdə Hüseynbala Mirələmov hadisələrin gedişini bir süjet xətii üzrə dramaturq peşəkarlığına məxsus ustalıqla qura bilmişdir. Ssenari boyu cərəyan edən hadisələr real həyatı özündə təzahür etdirir.

Pyes iki uşağını, ağbircək anasını Azərbaycanda qoyub, onları dolandırmaq üçün qazanc dalınca Moskva bazarlarına üz tutmuş ali təhsilli müəllim Rəhmanın həyatında bəhs edir. Anasının Rəhmanın ona yazdığı məktubu oxuması ilə başlayan tamaşada qadının intizarı, oğul həsrəti önə çəkilir. Ana tez-tez eşidir ki, ermənilər Rusiyada da fitnə-fəsad yuvası yaradır və bunun nəticəsində düşmənə sipər olası oğullarımızın əvəzinə, ordan onların tabutlarda cəsədləri qayıdır.

Ana rolunun ifaçısı Xalidə Əliməmmədova həzin, kövrək səsi ilə əsl Azərbaycan qadınlarına məxsus qayğıkeş ana obrazı yaradır. Əsər boyu iki dəfə adı eşidilib, bir dəfə özü görünsə də, Azərbaycanımızı, onun dərdlərini yaşayan bir obraz kimi tamaşaçının yadında qalır.

Birinci hissənin sonunda ana öz doğma oğlu Rəhmanın və bütün Azərbaycan oğullarına müraciətlə deyir: “ Oğul, yağı düşmən başımıza

müsibətlər gətirdi. Vətən dardadır. Qayıdın, gəlin evinizə, ürəyinizin səsinə qulaq asın, vicdanın hökmünü eşidin!”

Hüseynbala müəllimin bütün əsər boyu demək istədiyi budur: “Hər bir kəs vicdanın səsini eşidməlidir. Vətən dardadır. Deməli, ana-bacılarımızın namusu təhlükə altındadır. Buna vicdanı olan oğulların kənardan baxıb susmağa haqqı yoxdur”. Bu yerdə “ Dədə Qorqud” dastanında Turalın anası Burla Xatuna dediyi dediyi sözlər yada düşür: “Ətimdən başqaları bir yesə, sən iki yer, ana. Təki atam Qazan xanın namusu tapdalanmasın, səni tanımasınlar”. Bax, oğul belə olar! Özünün tikə-tikə doğranıb, qovurma bişirilməsinə razıdır, namusunun tapdalanmasına yox. Axı namusu itə atıblar, it də yeməyib.

Yenə də”Xəcalət” povestində Fərqanənin iki uşağı ilə meşədə olarkən ermənilərə rast gələndə əlindəki iynə ilə, ilk növbədə, namusun qorumaq üçün özünü öldürmək haqda düşünməsi yada düşür.

Əsərin qəhrəmanı, kənd müəllimi Rəhman (aktyor İsmayıl Atakişiyev) qış vaxtı Moskvada min bir zülm ilə çörəkpulu qazanıb, halal zəhmətlə balalarını və anasını dolandırmağı düşünür. Lakin bazar Rəhmanın yeri deyil. Bunu müəllif və quruluşçu rejisor hər kəlmədə, hər addımda hiss etdirir. Aldatmağa, fırıldaq gəlməyi, kiminsə haqqını yeməyi bacarmırsansa, deməli, bazar adamı deyilsən.

Pyesdə çox maraqlı bir məqam var. Anası Rəhmana məktubda xatırladanda ki, ermənilərdən uzaq ol, həmin an qəflətən Aşot çağırılmamış qonaq kimi peyda olur. Müəllif gözəl duyumla demək istəyir ki, ermənilər bizim harda oluruqsa-olaq, əbədi, əzəli düşmənlərimizdir. Moskva bazarlarında da Aşot (aktyor Lətif Məmmədov) və kökündən qopmuş, ata-anasının qoyduğu Firudin adını bəyənməyib, Fedyaya çevrilmiş həmyerlimiz (aktyor İntiqam Soltan ) bazarda min bir zəhmətlə pul qazanan azərbaycanılın qazancı əlindən alıb, erməni dığasına yedirdirlər. Bazarda yığdığı haqdan şişib, dəyirman xoruzuna oxşayan Aşotun qurduğu hiylə nəticəsində Fedyanı ad günündə Rəhman bıçaqla qətlə yetirir. Onuda qeyd edək ki, hər iki

aktyor – həm İntiqam Soltan, həm də Lətif Məmmədov öz rollarının öhdəsindən bacarıqla gəlmişlər. İntiqam yalançı qəhraman obrazını, Lətif isə ermənilərin nə qədər simasız, yaltaq, ikiüzlü olmasını məharətlə tamaşaçıya göstərmişdir (Yəqin ki, xırda nöqsanlar tamaşadan-tamaşaya aradan qaldırılacaq).

Firudinin ölümündən sonra Rəhman vətənə dönərək əsgər paltarları geyib, əlinə silah alır. Döyüşlərdən birində yaralanan Rəhmanı təsadüfən Firudinin atası Aslan həkimm müalicə edir, oğul isə vətəndən uzaqlarda həmyerlinin qazancını əlindən alıb, erməni dığasına yedirdir.

Həkim cibindən oğlunun şəkilini çıxarıb göstərəndə Rəhman onu tanıyır və təbii ki, sarsıntı keçirir. Təsadüfən, tibb bacısı işləyən Firudinin bacısı Rəhmana vurulur. Yenə də təsadüf Rəhmanın həyatında dəyişiklik yaradır. Firudinin həyat yoldaşı, Rəhmanın ilk məhəbbəti Güllünün qospitala gəlişi və onların ikinci dəfə qarşılaşması hadisələrin gedişini dəyişir və daha da mürəkkəbləşdirir. Onuda qeyd edək ki, kübar qadın obrazını respublikanın əməkdar artisti Qəmər Məmmədova ustalıqla ifa edir. Onun bütün hərəkət və jestlərində, baxışında, yerişində peşəkarlıq hiss olunur.

Bu qadın Rəhmanla ilk görüşündə olduğu kimi təsadüfi görüşdə də pnun həyatında dəyişiklik yaradır. İnsanın bəxtinə yazılan qismətdən qurtulmaq mümükn deyil. Bununla barışan Rəhman Güllüyə deyir: “Səni görən kimi düşündüm ki, həyatda birinci və axrıncı sevdiyim yeganə qadınla hər görüşüm mənə yalnız fəlakət gətirir”.

Bu səhnəni məharətlə oynuyan hər iki aktyorun səhnə davranışında, obrazların xarakterinin tam açılmasında qüsur tapmaq mümkün deyil.

Firudinin bacısı Aygünün diliylə desək, “Firudin Fedya olanda ölmüşdü”. Valideyinlərinin verdiyi adı bəyənməyib, dəyişdiyi kimi xarakterini də dəyişən bir insan, əlbəttə, bu cür təəssürat bağışlayır.

Əsərin kulminasiya nöqtəsi də elə burdan başlayır. Rəhman tam sağalmasa da, yenidən cəbhəyə yollanır. Çünki onun üçün artıq başqa

yol yox idi. Bilmədən qatilinə çevrildiyi Firudinin atası, bacısı ilə üz-üzə gəlmək istəmirdi.

Ümumiyyətlə, tamaşanın çox uğurlu alındığını deyə bilmirik. Əsər boyu müəllifin vətənpərvərlik ruhu, doğma torpağa, yurda olan sevgisi, istəyi qabarıq əks olunurdu. Hər sözdə, hər kəlmədə müəllif deyirdi ki, canın bahasına qorumağa borclusan! Harda olsan da, son mənzilin Vətəndir.

Tamaşa boyu səslənən mahınıların musiqisi Cavanşir Quliyevin, sözləri isə Vaqif Səmədoğlunundur. Qeyd edək ki, musiqi DilarəDərənin və Nəsib Eldarın ifasında canlı səslənirdi.

Tamaşadakı rəsam işi də uğurludur. N.Böyükkişiyevin hadisələri əks etdirən səhnə eskizləri, tabloları səhnə quruluşu ilə vəhdət təşkil edirdi. Tamaşanın birinci hissəsində Kreml, restoran və bazar, ikinci hissəsində isə bu gün işğal altında olan Gövhər ağa məscidi, şəhid qəbirləri, səngər və bütöv Şimali Azərbaycanın xəritəsi tamaşaçılara təqdim edilirdi.

"Vicdanın hökmü" pyesində Hüseynbala Mirələmov Azərbaycan dilinin çalarlarından, el deyimlərindən, aforizimlərdən çox məharətlə ustalıqla istifadə etmişdir. "Fikirmin qanadını açım", "Erməni dığası dəyirman xoruzuna oxşayır", "Atam deyərdi, bala, bu dili yaxşı öyrənin, vaxt gələcək sizə lazım olacaq". "İndi gördüm, kişi yekəbaş adamdı", "Palaza bürün, elnən sürün, deyiblər, oğul, amma deməyiblər vicdanın çörəyinə yavanlıq elə"və s. yerində deyilmiş ifadələrdir.

Noyabırın 3-də N.B. Vəzirov adına Lənkəran Dövlət Dram Teatırında Hüseynbala Mirələmovun "Vicdanın hökmü"pyesi tamaşaya qoyulub. Necə deyərlər, həmin gün Qarabağ Lənkərana səfət etmişdi. İnanırıq ki, yaxın günlərdə o o taylı- bu taylı bütöv AZərbaycan Hüseynbala müəllimin pyesi, povest və əsərlərinin təsiri nəticəsində Qarabağla nəfəs alacaq. Əsərdə müəllifin qələbəsi də bax, budur. Ona görə də "Vicdanın hökmü" pyesi hər şəhərdə, hər rayonda, hər kənddə göstərilmədiri. Unutmaq olmaz ki, İkinci dünya müharibəsində keçmiş

Sovetlər İttifaqının alman faşistləri üzərində qələbə qazanmasında əsgərlərlə bərabər, qələm sahiblərində az rol oynamamışlar. Müharibə gedən ölkədə yalnız bir şüar olmalıdır: mamışlar. “Hər şey cəbhə üçün, hər şey qələbə üçün!”

Sonda onu da qeyd edək ki, Lənkəran teatırında əməkdar incəsənət xadimi Baba Rzayev pyesə çox uğurlu quruluş vermişdir. Rolları Sücəddin Mirzəyev, Zemfira Əhmədova, Adil Zeynalov, Niftulla Əsgərov, Qızılgül Qliyeva, Elşad Zeynalov, Aynur Əhmədova uğurla, özünəməxsus, bənzərsiz ifa tərzi ilə yaradıblar.

Ümumiyyətlə, “Vicdanın hökmü” pyesi yazıçı-dramaturq Hüseynbala Mirələmovun ilk səhnə əsəri olsa da, hər iki teatırda onun rejisorları və aktyorları tərəfindən çox uğurla səhnələşdirildi.

## BÖYÜK İNSANIN QƏRAR TUTDUĞU YER QALİBİYYƏT ZİRVƏSİDİR

Bu günlərdə yazıçı-publisist Hüseynbala Mirəlməmovun “Zəfər yolu” və “Həqiqət” kitabları çapdan çıxmışdır. Mayın 10-da Qarabağ rayonunda ölkə prezidentinin anadan olmasının 80 illiyi münasibətiylə keçirilən yığıncaqda həm də bu kitabların təqdimatı oldu.

Tədbirdə Qaradağ rayonunun rəhbərləri, ictimaiyyətin nümayəndələri, ziyalələr iştirak ediblər. Millət vəkilləri Hadı Rəcəbli, Eldar İbrahimov, Asya Manafova, Xanhüseyn Kazımlı, Alqış Həsənov, kütləvi informasiya vasitələrinin nümayəndələri də yığıncaq iştirakçıları arasında idi.

Qaradağ rayon İH-nin başçısı Yaqub Əliyev yığıncağı açıq elan edərək giriş sözü söylədi və bildirdi ki, Qaradağ zəhmətkeşlərinin prezidentimizin yubleyinə ən böyük hədiyyələri məhz Hüseynbala Mirələmovun kitablarıdır. O, kitabların məzmunu barədə qısaca məlumat verildikdən sonra məruzə üçün sözü İH başçısının müavini Bəhmən Yusifova verdi.

Məruzəçi prezident Heydər Əliyevin həyatından söhbət açaraq onun fəaliyyətinin yüksək qiymətləndirdi və rayon zəhmətkeşləri adından prezidenti anadan olmasının 80 illiyi münasibəti ilə təbrik etdi. O, həmçinin “Zəfər yolu” və “Həqiqət” kitablarından danışaraq göstərdi ki, Azərbaycan ədəbiyyatında bir çox yazarların toxunduğu mövzuya Hüseynbala Mirələmov elə bir tərəfdən yanaşmışdır ki, burda əhramanın bütün fəaliyyəti oxucunun gözləri önündən kino lenti kimi gəlib keçir.

Sonra “Azərbaycan” janırlarının baş redaktor müavini, ədəbiyyatçı Vaqif Yusiflyə söz verildi. O, yazıçı H.Mirələmovun yaradıcılığına qısa ekskurs edərək onu “yazıçılar arasında gözəl yazar, mütəxəssislər arasında gözəl mütəxəssis” adlandırdı. Vaqif müəllim qeyd etdi ki, ..2Zəfər yolu” və “Həqiqət” kitabları elə ustalıqla qələmə alınmışdır ki, kitabı oxuyan hər kəs qəhrəmanın kim olduğunu dərhal hiss edir. Sadə dildə yazılmış bu kitablarda bədii sözün bütün çalarlarından yerli-yerində istifadə edən müəllif həddindən artıq şişirdilmiş bənzətmələrə o qədər də yer vermir ki, bu da qəhrəmanın real həyatdan götürüldüyünü hər an hiss etdirir. “Böyük insan” adlandırılan qəhrəman daim öz xalqının rifahını, işıqlı sabahını düşünür və bu yolda yorulmadan çalışır.

“Həqiqət” əsərində isə H.Mirələmov ədəbi janrı ən çətinlərdən olan publisistikaya müraciət etməklə birinci kitabından bədii obraz kimi qələmə aldığı qəhrəmanın real həyatda gördüyü işlərdən, onuhn ölkənin inkişafı naminə yorulmadan çalışmasındn yazır.

Millət vəkilləri Eldar İbrahimov, Asya Manafova, polis əməkdaşı Ramiz Məmmədov, gürcü şairi, müəllifin “Qayada çiçək” kitabını

gürcü dilinə tərcümə edən Kivi Xaçakaşivli, “Qarabağ” qəzetinin baş redaktoru Çingiz Tofiqoğlu, “Gənclik” nəşriyyatının baş redaktoru Əlican Əliyev və başqaları çıxış edərək yazıçı-publisist Hüseynbala Mirələmovun “Zəfər yolu” və “Həqiqət” kitablarının bu gün üçün kəsb etdiyi qiymətdən, onların mahiyyətindən söz açaraq göstərdilər ki, müəllif əlahəzrət Sözün gecendən istifadə edərək “Böyük insan”ın heykəlini yaratmış, xalqın gözündə zirvələr fəth edən qəhrəmanı daha da yüksəklərə qaldırmışdır.

Tədbirin sonunda H.Mirələmov çıxış edərək iştirakçıların hamısına minnətdarlığını bildirdi.

Sonra millət vəkili İlham Əliyevin təşəbbüsü ilə rayonda yaşayan beş min şəhid ailəsi, qaçqın və məcburi köçkünə göndərilən ərzaq yardımı paylandı.

## ZİRVƏYƏ APARAN YOL

Yazıçı Hüseynbala Mirələmovun əsərlərini oxuyarkən...

Yazı masamın üstündə yazıçı-dramaturq H.Mirələmovun bir neçə kitabı var. “Hansından başlayım?” “Necə başlayım?” sualları məni uzun-uzadı götür-qoy etməyə vadar edir. İstər-istəməz yazıçının 2003-cü ildə “Gənclik” nəşriyyatından çapdan çıxmış “Xəcalət” adlı kitabına üz tuturam. Kitabda toplanan eyni adlı povesti “Güllələnmiş heykəllərin fəryadı” adlı ədəbi esseni və “Vicdanın hökmü” dramının oxuyanda məndə elə bir fikir yaranmışdı ki, Hüseynbala Mirələmov Qarabağ müharibəsinin işrirakçısıdır. Xocalı faciəsinin ah-naləsinin ürəyində daşı

yan soydaşlarımızdan biridir, Şuşadan didərgin düşmüş qaçqın taleli bir insandır. Bəlkə də, bu, tək mənim qənaətim deyil, onun əsərlərini oxuyan hər bir oxucunun gəldiyi nəticədir. Bəlkə də, kitaba ön söz yazan filologiya elmlər namizədi Vaqif Yusifli və şair Əli Mahmud məhz bu səbəbə görə belə deyiblər: "Müəllifi yaxından tanımasaydıq, belə bir qənaətə gələrdik ki, avtobioqrafik əsərdir, baş qəhrəmanı isə Hüseynbala Mirələmovun özüdür".

"Xəcalət". Bu povesti oxuyanda istər-istəməz Qarabağ müharibəsinin 90-cı illərinin xaotik ictimai-siyasi mühitinin işrirakçısına çevrilirsən. O dövrki hadisələrin idarəolunmaz axarına qoşulmalı olursan, Xocalı faciəsinin, Şuşa itkisinin, Ağdam işğalının ağrısını-acısını dadırsan, kimlərin bu torpağı Vətən sandığını, Vətənin kimlərə oğul dediyini şahidi olursan. Elə əsərin qəhramanının adı da Vətəndir. Bəlkə də, yazıçı bu adı simvol seçməyib, bəlkə də, müəllif doğma torpağını bütün varlığl ilə sevən, Vətənin içində doğulub boya-başa çatdığı Qaraqışlaq kəndini Vətən sanan Vətən obrazı yaratmaqla bizlərə demək istəyir ki, hər birimiz Vətən olmalıyıq, hər birimiz Sultan bəyin qəhramanlığını öz içimizdə yaşatmalıyıq ki, bu qədim torpaq yağlarını tapdağından təmizlənsin.

Yazıçı Vətən obrazını yaradarkən ümumiləşdirilmələr zamanı sözün bədii təsviri vasitələrdən, psixoloji mühakimələrdən, real səciyyələndirmədən ustalıqla istifadə edərək öz qəhrəmanını oxucuya bütöv halda, monumental şəkildə təqdim edir. Biz Vətənin simasında mərd, qürurlu, ləyaqətini hər şeydən üstün tutan, bütün varlığı ilə məmləkətinə bağlı olan itkilərə - ana itkisinə, varidat itkisinə mətanətlə dözən, lakin torpaq itkisinə, el-oba itkisinə dözə bilməyən azərbaycanlı kişisinin obrazını görürük. Əsərdə Vətən hər şeyini itirmiş insan kimi təqdim olunmur. Vətənin ləyaqətli, özü kimi dözümlü həyat yoldaşı Qəmxar, etibarlı dostları Murad, Mahmudəli, Timurçin var və onlar Vətəni sevirlər, ona güvənirlər. Uzun müddət dostların bir-birindən xəbər tutması isə yazıçı tərəfindən qınağa çevrilmir. Elə bu vəziyyətin

özünün də Qarabağ savaşının faciəsi olduğu incə şəkildə vurğulanır. Povestin "Xəcalət" adlandırlması da təsadüfi deyil. Sanki yazıçı bununla xalqın qeyrətini, mənliyini silkələyib oyatmaq istəyir, vətən torpaqlarının hələ də düşmən tağdığı altında qaldığı üçün bizim hər birimizin xəcalət çəkməli olduğumuzu xatırladır.

İki hissədən ibarət olan və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğurunda şəhid olanların əziz xatirəsinə ithaf edilən "Vicdanın hökmü" dramı Hüseynbala Mirələmovun yaradıcılığının digər cəhətini üzə çıxarır. Müəllif bu əsərdə bir tikə çörək dalınca Rusiyanın bazarlarına üz tutan azərbaycanlıların taleyini özünəməxsus ustalıqla xarakterizə edir. Məqsədim əsəri bütün təfərrüyatla xarakterizə etmək deyil. Təkcə onu deyə bilərəm ki, müəllif "Vicdanın hökmü" ndə düni dramatik səhnılır yaratmaq meyilindən uzaqdır.

Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi üslub və manera baxımından, ədəbi-bədii dəyəri nöqteyi-nəzərindən yenidir, maraqlıdır. Esse oxucunun elə ilk cümlələrindən aludə edir. Onun marağını, qəlbini və təmkinini səfərbərliyə alır. "Abidələr gülüstanı" Şuşanın işğalından on il ötdüyünü deyən müəllif (ədəbi esse 2002-ci ildə qələmə alınıb) vətənimizin bu ecazkar guşəsinin ağrı-acısını kökünü, səbəbini XIX əsrdə qələmə alınmış sənədli materiallarda, Xurşudbanu Natəvanın qəzəllərində, Vaqifin "Görmədim" müxəmməsində, "mənə nə var?" – deyən xanların, "məndən ötdü, qardaşıma dəydi" çəkişməsində axtarır.

"Sözə pənah gətirmək haqqa sığınmaqdır". Bu sözləri 2002-ci ildə "Azərbaycan" nəşriyyatında çapdan çıxmış "Qayada çiçək" adlı kitabına ön sözdə Hüseynbala Mirəlmov özü yazıb,. Haqqa tapınmağı sözə pənah gətirməkdə görən yazıçı qələmə aldığı bütün əsərlərində bu leytmotivə sadiq qalır, öz ədəbi ideallarını ümumbəşəri idealların, ümumibəşəri dəyərlərin kontekstində görür və təqdim edir. Kitab "Qayada çiçək" hekayəsi ilə başlayır. Açığını deyim ki, əsəri oxumamışdan əvvəl qəlbimdə belə bir sual doğdu: "Niyə məhz qayada

çiçək?" Hekayəni oxuyandan sonra hər şey mənə aydın oldu. Yazıçı bu əsərində bir insan ömrünün hamar yollarını, cığırlarını, enişini, yoxuşunu, sərt döngələrini məharətlə verə bilib.

Ümumiyyətlə, Hüseynbala Mirələmovun yaradıcılığı çoxşaxəlidir və onun əsərləri məhdud mövzu çərçivəsində deyil. O, geniş diapozona malik bir yazıçıdır və insanın insanlığı narahat edən bütün mövzular Hüseynbala müəllim üçün doğmadır. Şübhə yoxdur ki, biz oxucular həyatının və yaradıcılığının ən məhsuldar, ən qaynaq mərhələsini yaşayan Hüseynbala müəllimin yaxın gələcəkdə hələ neçə-neçə gözəl əsərləri, neçə-neçə ədəbi qəhramanları ilə tanış olmaq imkanı əldə edəciyik.

**Əhməd QURBANOĞLU**

## "XƏCALƏT"İN DAHA BİR UĞURU

Ötən əsrin sonlarında xalqımızın sürükləndiyi qondarma "Qarabağ problemi" adı altında Azərbaycana qarşı aparılan işğalçılıq müharibəsi hələ də davam edir. O dövrün şəriştəsiz ndövlət başçılarının günahı üzündən bu illər ərzində ərazimizin 20 faizindən çoxu, ən məhsuldar torpaqların isə demək olar ki, 50-60 faizi erməni işğalçıları tərəfindən zəbt olunmuş, bir milyondan çox soydaşımız bu qanlı müharibədə öz ata-baba yurdlarından didərgin düşmüşdür. Elan olunmamış bu müharibədə Meşəli faciəsi, Xocalı soyqırımı nəticəsində xalqımıza qarşı insanlığa sığmayan vəhşiliklər törədilmişdir.

Ötən son 15 il ərzində düçar olduğumuz bu bəlalar yüzlərlə bədii əsərin mövzusu olduğu halda, nədənsə qələm sahibləri susmağı üstün tutmuş, bir-iki şer və poema istisna olmaqla, Qarabağ mövzusuna laqeyidlik göstərmişdir. Ötən ilin sonlarında ədəbiyyatımıza hökm sürən

bu laqeydlik buzunu tanınmış yazıçı-publisist Hüseynbala Mirələmovun “Xəcalət” kitabı əritməyə başladı. Elə bil bu kitab öz əsas məqsədindən savayı, həm də yazarlarımızda Qarabağ mövzusuna münasibətlərinə görə bir xəcalət hissi oyatdı.

Özündən üç bədii əsəri- “Xəcalət” povestini, “Güllələnmiş heykəllərin fəryadı” essesini və “ Vicdanın hökmü” pyesini birləşdirən bu kitab ürəyimizi didib-parçalayan, içimizi alovlandıran Qarabağ dərdinə ədəbi bir abidədir desək, yanılmarıq. Elə buna görədir ki, işıq üzü gördüyü ilk gündən minlərlə insanın stolüstü kitabına çevrilmiş “Xəcalət”in müzakirəsi və təhlili iki ilə yaxındır davam edir və hər dəfə bu bədii əsərdə yeni-yeni fəlsəfi məqamlar aşkar edilir, yazıçı təxəyyülünü həyatın reallığı ilə sintezdə yaratdığı tam və yetkin fikir və ifadəsi olan bu əsər daha çox oxucu auditoriyası cəlb edir.

Kitaba daxil edilimiş esse əsasında televiziya tamaşası çəkilmiş,”Vicdanın hökmü” pyesi teatırlarımızın repertuarında özünı layiqli yer tutaraq geniş tamaşaçı kütləsi tərəfindən alqışlarla qarşılanmışdır.

Azərbaycan, rus və ingilis dillərində çap olunmuş “Xəcalət” Qarabağ həqiqətlərinin, Ermənistanın işğalçı dövlət, ermənilərin qaniçən bir millət olduqlarını dünya ictimaiyyətində çatdırılmasında mühüm rol oynamaqdadır. Məhz bu və digər xüsusiyyətlərinə görə, kitab ötən il Azərbaycan Yazıçılar Birliyinin Bədii Ədəbiyyatı Təbliğ Bürosu tərəfindən “Yaddaş” mükadatına layiq görülmüşdür. Kitabdakı, “Güllələnmiş heykəllərin fəryadı” essesi əsasında çəkilmiş teletamaşa “Qızıl dərviş” mükafatı almışdır.

Bu günlərdə “Xəcalət”in oxucuları daha bir şad xəbər eşitdilər. 2000-ci ildə yaradılan və Azərbaycanın xilası naminə dünya azərbaycanlılarının birliyinə, həmrəyliyinə xidmət edən “Milli Birlik” təşkilatı vətənpərvərlik ruhunu yüksəltmək məqsədiylə təsis etdiyi “Qara qalxan” mükafatına təqdim olunan ədəbi əsərlər içərisində “Xəcalət”ə üstünlük vermiş və kitab bu mükafata layiq görülmüşdür.

Bir neçə gün əvvəl mükafatın təqdimetmə mərasimi keçirildi və təsadüfi deyil ki, mərasim məhz "Şuşa" restoranında təşkil edilmişdi. Qarabağ mövzusunda yazılmış əsərə başımızın tacı, qəlbimizin qübarı, argözəllər gözəli, sinəsi dağlı Şuşamızın adını daşıyan iqamətgahda mükafat təqdim etmək müəllifin məsuliyyətini artırmaqla yanaşı, onun qələminə verilən qiymətin böyüklüyündən irəli gəlir və qələm sahiblərinin  Qarabağ dərdinə biganə qalmamağa səsləyir.

Mərasimi açan "Milli Birlik" təşkilatının sədir Nadir Əliyev çıxşeərək təşkilatın məram və məqsədinə qısaca toxunduqdan sonra diqqəti "Qara qalxan" mükafatının təsis olunması vacibliyinə yönəltdi. O bildirdi ki, bu gün azərbaycanlıların ən ağrılı yeri olan Qarabağ bütün cəmiyyət və təşkilatların, dövlət struqturlarının, ictimai birliklərin fəaliyyətinin əsasını təşkil etməlidir. Qarabağ məsələsi həll olunmayınca, işğal damğası tariximizdən silinməyincə, torpaqlarımız azad edilməyincə başqa bir dərdimiz olmamalıdır.

Sonra o, mükafatı-rəmzi qalxan və qılınc, həmçinin pul mükafatını "Xəcalət" müəllifi, yazıçı-publisist Hüseynbala Mirələmova təqdim etdi. Laureat öz nöbəsində, onun əsərinin, münsiflərheyəti tərəfindən qiymətləndirilməsindən qürur hissi duyduğunu və mükafatın onun üzərinə böyük məsuliyyət qoyduğunu vurğuladı.

Çıxış edənlər- "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, professor Vaqif Cəfərli, millət vəkilləri Hadı Rəcəbli, Elman Məmmədov, Azərbaycan radiosu ədəbi verlişlər redaksiyasının baş redaktoru Mailə Muradxanlı, Ukraniyanın Xarkov şəhərində fəaliyyət göstərən "Yeni Azərbaycan" Xeyriyyə Cəmiyyətinin sədri Cəmşid Məmmədov, filologiya elmləri doktoru Aybəniz Kəngərli, yazıçı-jurnalist Nüşabə Məmmədli, iş adamı Məmməd Hüseynov və başqaları qeyd etdilər ki, hələ çox gənc yaşlarından bədii yaradıclığa başlamış Hüseynbala Mirələmov "Xəcalət" kitabında topladığı əsərlərlə ədəbiyyatımızda yeni səhifə açmış, 15 il ərzində böyük bir qurupun görə bilmədiyi işi görməklə həm yazıçı, həm siyasi xadim, həm iş adamı, və

nəhayət, əsl vətənpərvər qələm sahibi, vətəndaş kimi böyük uğur qazanmışdır.Onun bu kitabı Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında, erməni vəhşiliyinin tarixə qara həriflərlə yazılmasında, xalqımızın qan yaddaşının möhkəmlənməsində, vətənpərvərlik ruhunun yüksəlməsində, düşmənə nifrət, Vətənə məhəbbət hissinin oyadılmasında əvəzsiz vəsait kimi böyük əhəmiyyət kəsb edir və bu gün kitabın "Qara qalxan" mükafatına layiq görülməsi bir daha sübut edir ki, "Xəcalət" yaranışdan bizdə başımıza gələn müsibətlərə görə xəcalət hissi oyatmışdısa, bu gün xalqın bir ideya ətrafında sıx birləşərək düşməni məhv etməyə səsləyir.

Sonra bədii hissə başlandı.Müğənni Feyruz Səxavətin, əməkdar artist Aygün Bayarmovanın ifa etdikləri muğam və xalq mahınılarının qanadlarında Qarabağın əsrarəngiz gözəlliklərini seyrə çıxan mərasim, Üçmıxda, Topxanada, Kirsin uca zirvəsində, Turşsuda, Sarıbaba dağının yamyaşıl sinəsindəcə Sabir adına Pedaqoji Kollecin tələbələrinin ifasında "Güllələnmiş heykəllərin fəryadı" essesi əsasında hazırlanmış səhnəciyə tamaşa edə-edə İbrahimxəlil xanın, Nəvvabın, Vaqifin, Xan qızı Natəvanın, Kövhər ağanın, Ağabəyim ağanın, dahi Üzeyirin, Bülbülün qınağı ilə rastlaşdılar. Bu qınaq itirilmiş torpaqların, axıdılan qanın, üzləşdiyimiz məğlubiyyətin, tapdanmış və ləkələnmiş namusunu, düşmən ayaqları altında inildəyən Qarabağın qınağı, danlağı idi. Bu qınaq bizi daha da sıx birliyə, torpaqlarımızı azad etmək üçün mübarizəyə, müqəddəs savaşa, qələbəyə  səsləyən qınaq idi.

## SÖZƏ DOĞRU YOL GEDİRİK

Milyon illərdir insan oğlu ən vacib ünsiyyət vasitəsi olan Sözə doğru yol gedir. Bir vaxtlar daşların, gül-çiçəklərin, quşların, heyvanların rəsmi ilə öz fikirini ifadə etməyə çalışan Tanrının yaratdığı və yaratdıqlarından ən şərəflisi saydığı İnsan zaman-zaman səsləri boğazından - ən böyük mexaniki cihazda ifa edərək Söz deyilən böyük bir varlığı kəşf etdi. Və həmin andan Sözün böyüklüyünü, gücünü, qüvvətini duydu, hiss etdi. İnsanlığın inkişafında mühüm rol oynayan əlahəzrət SÖZ illərin vaxt kəsiyində bir-birinə sürtülərək, qovuşaraq cilalandı, şəffaflaşdı, zərifləşdi və özü də inkişaf etdi. Bu gün Sözün həyatımızda, cəmiyyətin və şüurun formalaşmasında yeri əvəzolunmazdır. Və sözü yaradanlar, inkişaf etdirənlər söz yox ki, qələm sahibləri, söz sərraflarıdır. Yazımızın mövzusu da məhz bu sərraflardan ikisi olacaq. Bu günlərdə "Azərbaycan" nəşriyyatında çapdan çıxmış şair-publisist Əlirza Xələfli və onun oxuculara təqdim etdiyi kitabın qəhrəmanı Hüseynbala Mirələmov.

Əvvəlcədən qeyd edək ki, "Sözə doğru" kitabında Əlirza Xələfli tanınmış yazıçı-publisist Hüseynbala Mirələmovun həyat və yaradıcılığı ilə bağlı müxtəlif dövülərdə qələmə aldığı publisist yazılarını toplamışdır. Bu yazıları H.Mirələmov yaradıcılığını təhlil edən elmi əsər də hesab etmək olar.

Böyük bir kitabda toplanmış bu elmi araşdırmalar uzun illərin ağır zəhmətinin, axtarışların, yazıçı təxəyüllünün, alim şüurunun bəhrəsi.

Kitabın redaktoru, tanınmış ədəbiyyatşünas İtiqam Qasımzadənin məqaləsində gətirəcəyimiz seçmələr bu kitabın nəşr olunmasının vacibliyini bir daha sübut edir:

"...Zaman-zaman xain qonuşularımız bizi arxadan vurmuşlar... Unutqanlığımız bizi yeni-yeni faciələrə yuvarlamışdır. Nəhayət, sonuncu zərbə- Laçını, Şuşanı, Qubadlını, Kəlbəcəri,Ağdamı, Füuzulini itirdik... Biz isə yaşayırıq...Xalq ayağa qalxamlıdır, torpaqlarını əsarətdən, düşmən tapdağından qurtarmalıdır. Xalqın buna gücü də, təpəri də çatır.

Bununçün onu səfərbər etmək lazımdır. Bu işdə isə təsirli vasitə sözdür; bədii söz, yazıçı sözü...”

Bəli, həmişə olduğu kimi bu gün də xalqın ağıllı məsləhətə, yerində və vaxtında deyilmiş sözə ehtiyacı böyükdür. Bu ehtiyac qismən də olsa, ödəyən isə məhz Hüseynbala Mirələmov oldu və onun yaradıcılığından nə qədər yazılsa, neçə kitab nəşr olunsa, yenə azdır.

Elə buna görə də Əlirza Xələfi çiyinlərini müqəddəs bir yükün altına vermiş və bu yükü uğurla qaldırmışdır. Sinəsini Vətən həsrəti, yurdsuzluq dərdi didib-parçalayan müəllif H.Mirələmov yaradıcılığına bağlayan, bəlkə də, yazıçının Qarabağ dərdinə məlhəm olmaq niyyətindən, bu dərdi dünyaya çatdırmaq istəyəndən doğan duyğulardır?Amma yox, H.Mirələmov yaradıcılığının bütün dövrü maraqlı, günümüzlə səsləşən olmasındadır ki, minlərlə oxucu kimi Əlirza Xələfov da bu əsərləri içində yaşaya-yaşaya oxumuş və biganə qala bilməmiş, öz düşüncələrini Sözə çevirərək müəllifə də ərmağan etmişdir. Və bu kitabda Ə.Xələfli özü də Sözə doğru bir addım ataraq yazıçı-publisist Hüseynbala Mirələmovun Sözə doğru gedən yoluna işıq salmışdır.

“Vicdanın damarı” bölməsində müəllif H.Mirələmovla ilk tanışlığından, yazıçının ömür yolundan söz açır, onun yaradıcılığına və həyatına qısa da olsa, nəzər salır.

Növbəti bölmə “Amalın işığında” adlanır. Bu bölmədə yazıçının Azərbaycanın sabiq prezidenti, dövlətçiliyimizin banisi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin həyat və fəaliyyətinə həsr etdiyi eyniadlı kitabı haqqında dolğun və hərtərəfli publisist sözü deyilir.

“Sözə doğru” kitabını oxunaqlı edən cəhət onun ayrı-ayrı bölmələrə bölünmüş, xırda başlıqlara verilməsidir. Oxucu bu məqalələri oxuduqca növbəti məqaləyə can atır, yazıçının yaradıcılığı haqqında tam təəssürata malik olmaq üçün kitabı başa çıxmağa çalışır.

“Qayada çiçək” bölməsində adından göründüyü kimi, eyniadlı kitabı haqqında məlumat verilir. Məqaləni “Hər qayada çiçək bitməz” adlandıran Ə.Xələfli göstərir ki, H.Mirələmov qələminin gücü, Sözün qüdrəti qayada da çiçək bitdiyini sübut edir və bu çiçək daşların göz yaşından rişələnir.

Maraqlıdır ki, şair-publisist kitabda ən çox yeri yazıçının Qarabağ dərdinə həsr olunmuş, ermənilətin vəhşiliyini dünyaya çatdıran “Xəcalət” kitaına vermişdir. Bu da təbiidir. Axı Ə.Xələfov özü də bu duyğular, bi hisslərlə yaşayıb-yaradır.”Xəcalət” bölməsində verilən “Qarabağ: Böyük faciə tarixi bədii ədəbiyyatda”, “Qarabağa məhəbbət abidəsi”, “Canavar yırtıcı, qurd mifik obrazdır”, “Adlar, rəmzlər, obrazlar”, “Vətən obrazının görməmək mənəvi korluqdur”, “İnsan sözdən yaranıb”, Cəmiyyət son anda sözdən keçə bilməz”, “Milli mənəvi yaddaşa qayıdış yolunda” yazılarında, “Güllələnmiş heykəllərin fəryadı” bölməsindəki “Tarixi yaddaşdan məhrəm olan millət əzaba məhkumdur”, “Kişnəsə namərd atları, yaxud yaddaşın qanı axırdı” yazısında H.Mirələmov Qarabağ mövzusunda yazdığı əsərlər geniş və ustalıqla təhlil edilir, xalqımızın başına gətirilən bəlaların kökünü axtarılıb-tapılmasından yazıçının gördüyü işlərdən söz açılır, onun xalqımmız qarşısında xidmətləri alqışlanır.

Həqiqətən də, H.Mirələmovun ədəbiyyatımızda Qarabağ müharibəsinə qarşı yaranmış biganəlik buzunun əriməsində böyük xidmətləri olmuşdur. O sübut etdi ki, bu gün də bədii söz sahibləri susmalı, ermənilərin vəhşiliklərin tarixə köçürməlidirlər.

Digər bölmələrdə yazıçının “Həqiqət”, “Simuzər”, “Tənha durna uçuşu”, “Zəfər yolu” və digər əsərləri haqqında hərtərəfli məlumat və yazıçının yaratdığı obrazların təhlili verilir.

Ümumiyyətlə, “Sözə doğru” kitabı bu günümüzlə səsləşən və H.Mirələmov yaradıcılığı ilə maraqlananlara çox şey verə biləcək bir kitabdır.

Kitab yüksək poliqrafik zövqlə çap olunub. Üz qabığındakı rəsmi-kompozisyanı isə yazıçı-publisist Hüseynbala Mirələmovin çətin və şərəfli yaradıcılıq yolunun rəssam təfəkküründə təzahürü kimi qiymətləndirmək olar.

## ƏDƏBİYYATDA KÜTLƏVİ QƏHRƏMAN OBRAZLARININ YARANMASININ ƏLEYHİNƏYƏM

“Mən yazıçı kimi öz əsərlərimdə Qarabağ problemini bəşəri duyğular nöqteyi-nəzərindən yazsam da, bir əsgər kimi Qarabağı işğal edənləri, muzdluları, torpağıma göz dikənlərin hamısını güllələyərdim.

**- Hüseynbala müəllim, ədəbiyyatımızın bu ağır zamanında, sözün ucuzlaşdığı bir vaxt da özünüzü necə hiss edərdiniz?**

- Mən özümü gərgin hiss eləyirəm. Bu hal sağlamlığımla bağlı deyil. Allaha şükür, səhhətim yaxşıdır. Hər işim öz qaydasındadır. Ancaq bizim ölkədə bir nilyondan artıq qaçqınımız varsa, torpaqlarımızın 20% işğal olunubsa, sosial problemlerimiz tam həllini tapmayıbsa, mən özümü necə yaxşı hiss edə bilərəm? Ona görə də bu gün hər bir azərbaycanlı özünü gərgin hiss etməlidir. O zaman özümüzü xoşbəxt hesab edə bilərik ki, işğal altında olan torpaqlarımız azad edilsin, qaçqınlarımız yurd-yuvalarına qayıtsın. Sosial problemlər həll olunsun. Mən əminliklə deyə bilərəm ki, iqtisiyyatımızın bu günkü sağlam mənəvi mühüt, ordu quruculuğundakı irəliləyişlər imkanverəcək ki, bütün problemlərimiz öz həllini tapsın. Mən buna inanıram. Bax, onda özümü yaxşı hiss edəcəyəm.

**- Qarşıdan Azərbaycan yazıçılarının XI qurultayı gəlir. Tanınmış bir yazıçı kimi siz bu qurultaydan nə gözləyirsiniz? Bu qurultay ədəbiyyatımızda bir dönüş nöqtəsi ola biləcəkmi?**

- Mən qurultaydan çox şeylər gözləyirəm. Çoxdan bəri bir yerə toplanmayan biz yazıçılar qurultayda ədəbi problemlərimizi deyəcəyik və bu məsələlərin həllinə çalışacığıq. Ancaq heç kəs şairin, yazıçının yerinə əsər yazmıyacaq. Mən ədəbiyyatın problemi deyəndə ədəbi prosesi nəzərdə tuturam. Bu məsələləri özümüz həll etməliyik. Ən birinci problemlərdən biri oxucu problemidir. Oxucu bədii əsərlərdə öz həyatını "Gəzir". Hamı tapırmı? Onu xalqımızın taleyi maraqlandırır. Bax, bütün bunlar, birinci növbədə yazarın işidir. Ola bilsin ki, hökümət yazıçıların sosial durumu haqqında müvafiq qərarlar qəbul etsin. Məsələn, fərz et ki, yazıçılar üçün bir neçə bina tikilsin, maşın verılsin və s. ancaq hökümət və müvafiq dövlət qurumları, o cümlədən, hazırkı qurultay ədəbi proseslə bağlı yazmaq və necə yazmaq problemlərini həll edən deyil. Yenə deyirəm, bunu ancaq şair, yazıçı özü həll edə bilər.

AYB- nin rəhbəri Anar müəllim açıq ürəkli, ziyalı bir insandır, tanınmış yazıçıdır. Onun ətrafında çoxlu vicdanlı adamlar işləyir. Bu gün həmin təşkilata, doğurdan kömək lazımdır və arzum budur ki, AYB-nin sədri yenə Anar müəllim seçilsin. Ona böyük hörmətim var. İndiki zamanda istər yuxarılarda, istərsə də aşığılarda elə məsələlər var ki, onu ancaq Anar müəllim həll edə bilər. Çətin və mürəkkəb məsələlərin həllinə Anarın gücü çata bilər. Onu bütün dünyada tanıyırlar. İnanıram ki, qurultaydan sonra ədəbiyyatımızda böyük bir dönüş nöqtəsi əmələ gələcək. Arzum budur ki, qurultay bütün yazıçılarımızı silkələsin, belə demək mümkünsə, tutub yaxasından desin ki, ay qardaş, hara baxırsınız, Azərbaycanda bu qədər problem var qaçqınlarımızın, torpaqlarımızın problemi var, mənəviyyatımız deformasiyaya uğrayır, hara baxırsınız? Bununla nə demək istəyirəm? O günü "Ölülər" tamaşasına baxırdım. İnanın ki, zalın 30-40 faizi boş idi. "Ölülər" kimi məşhur bir əsərin-insafən aktyorlar çox gözəl oynadılar- tamaşası zamanı zalda bir sükut,

bir soyuqluq hökm sürürdü. İnanın, qabaqlar bu tamaşaya baxmaq dəhşət idi. Bilet tapmaq mümkün deyildi. Bilet alverçiləri əmələ gəlmişdi. Deyirəm, kaş, indi də belə bilet alverçiləri olaydı. Mən xoşbəxt olardım ki, kitab alverçiləri meydana gəlsin. O vaxt kitab alverçiləri var idi. İndi kitab mağazalarının əksəriyyətini pivə xanaya çeviriblər. Bəzilərində üzr istəyirəm, qadın paltarları satırlar. Milli -mənəvi əxlaqi dəyərlərimizi eroziyaya uğrayıb. Bu gün səhnədə saçına, vidinə-fasonuna baxanda qadınlığı, kişiliyi bilinməyən və səhərdən axşama kimi atılıb-düşən bir qrup "sənətçi" özləri üçün tele-şou yaradıb. Belələrinin konsertinə minlərlə adam gəlir. Amma "Ölülər" tamaşasına və başqa ciddi ədəbi-bədii əsərlərin tamaşasına gəlmirlər. Xarici bir müğənnini görən kimi gənc qızlarımızın əksəriyyəti, az qala, özlərindən gedirlər. Bax, elə vaxtın, zamanını özü və bu yaxınlarda keçiriləcək yazıçılar qurultayının ortaya qoyduğu tələb yazarın yaxasından tutub deməlidir ki (və deyəcək), qardaş, bunlardan yaz. Açığını deyim ki, bu gün ədəbiyyatda bir durğunluq höküm sürür. Hər bir yazarın içində yenilik, vətənpərvərlik duyğuları olmasa, yüz qurultay keçirilsə də belə, bizim mənəviyyatımızda olan çatı, deformasiyanı, sağalda bilməz. Yeganə çıxış yolu mənəvi məsələlərə həsr olunmuş ciddi, bədii cəhətdən yüksək əsərlər yazmaqdır. Orasına da inanıram ki, bu qurultayın ictimai-siyasi, ədəbi-bədii, estetik mənası ətalət basmış bəzi yazıçıları ayağa qaldıra bilər, dirildə bilər.

- **Mən sizi ədəbiyyatımızın içində olan bir qələm sahibi kimi tanıyıram. İndi bu gün bizi günahlandırırlar ki, Azərbaycan ədəbiyyatı erməni ədəbiyyatına uduzdu. Bəlkə, biz ədəbiyyatımızda elə surətlər, obrazlar yaratmalıyıq ki, onlar "Qarabağı ala bilsin". Doğrudanmı ədəbiyyatımız günahkardır? Qismən, ya çox?**
- Qarabağın işğalında bizim ədəbiyyatımızın günahı yoxdur. Bəzi adamlar deyirlər ki, yeni insan tərbiyəsi üçün ədəbiyyatda qəhraman obrazları, surətləri yaradılsada, Qarabağı itirməzdik. Ədəbiyyatda kütləvi qəhrəman obrazlarının əleyhinəyəm.

Qarabağın müvəqqəti itirilməsi məsələsi uzun bir zaman prosesidir. “Yenidənqurma bazarı”nda çirkin bir siyasətin nəticəsində biz Qarabağı itirdik. Daha doğrusu, ermənilər Qarabağı o vaxt SSRİ prezidenti M.Qorbaçovdan pulla satın aldılar. M.Qorbaçov “yenidənqurma tərəzisi”nin bir gözünə Qarabağı qoydu, bir gözünədə pulu. Real iş budur. Satdılar Qarabağı. Erməni ədəbiyyatının çirkin məqsədlərinə, xüsusən, Z.Balayanın “Ocaq” əsərinə gəldikdə isə mən “Xəcalət” əsərimdə və “Güllələnmiş heykəllər”imdə də cavab vermişəm, tamamilə ifşa eləmişəm. İnanın, bu gün Anarın, Elçinin, Aqil Abbasın, təvazökarlıqdan uzaq olsa da, mənim və başqa qələm dostlarımın kifayət qədər Qarabağa həsr olunmuş dəyərli əsərləri var. Amma o əsərlərin təbliği zəifdir.

- **Demək, ədəbiyyat, hər şeydən əvvəl, soyuq silah deyil, avtomat deyil, ədəbiyyat mənəvi məsələdir.**
- Açığını deyim sənə, erməni döyüşdə, torpaq iddiasında düşməndir. Amma ədəbiyyatda bir qurup terrorçuya görə bütün erməni xalqını düşmən kimi vermək olmaz. Biz ədəbiyyatda bəşəri duyğuları önə çəkməliyik. Qarabağ mövzusunda yazılan əsərlər bədii cəhətdən yüksək, bəşəri duyğular baxımından zəngin olmalıdır. Cəfər Cabbarlının “1905-ci ildə”, yaxud M.Cəlilin “Kamança” əsərlərini yəqin ki, oxumusunuz. Görürsünüz, nə qədər bəşəridir. Yenə deyirəm, ədəbiyatda belə olmalıdır. Çünki ədəbiyyat tərbiyə vasitəsidir. Mən yazıçı kimi öz əsərərimdə Qarabağ problemini bəşəri duyğular nöqteyi-nəzərindən yazsam da, bir əsgər kimi Qarabağı işğal edənləri, muzduları, torpağıma göz dikənləri güllələyərdim. Çünki onlar əbədi düşmənimizdir.
- **Hüseynbala müəllim, istəyirəm ki, söhbətin istiqamətini bir az dəyişim. Bu gün yaranan gənc ədəbiyyatımıza münasibətiniz? Onlar xaricə daha çox üz tuturlar. Adını da qoyurlar “dünya” yəni, dünyaya çıxış. Bu barədə nə deyə bilərsiniz?**
- Mən onların hamısının əsərlərini oxuyuram. Müasir Azərbaycan ədəbiyyatını, Qərbi Avropa və Amerika ədəbiyyatını, xüsusən, gənc

yazarların əsərlərini oxuyuram. Mən onları ona görə oxumuram ki, təsirə düşüm. Oxuyuram ki, görüm dünyada hansı proseslər gedir. Mən "Səfillər"i orta məktəbdə də, ali məktəbdə də oxumuşam, indi də oxuyuram. Hansı bucaqda, hansı təsir altında yazılmasına baxmayaraq, bu gün "Səfillər" Fransa ədəbiyyatının şahıdır, bu gün də müasirdir. Gəlin, görək gənc fransız yazıçıları "Səfillər"ə həqarətlə baxırlarmı? Əlbəttə, yox, onu öyrənirlər. Bizim gənclərin əksəriyyəti keçmişi pisləyir. Ay qardaş, bu gün dünənin üzərində qurulub axı. Sən bunu niyə unudursan? Mən gənclərə tövsiyə edərdim: İstəyirlər ki, əsərləri "özlərindən çox yaşasın", klassik ədəbiyyatı öyrənsinlər və folklora söykənsinlər. Klassiklərimiz bizim üçün bu gün örnəkdir, əsl ədəbiyyat və həyat məktəbdir. Demirəm ki, xarici ədəbiyyatı oxumasınlar, oxusunlar, amma soykökümüzü, qan yaddaşımızı unutmasınlar. Bilirsən, cılız hisslərlə yaşamaq əbədi əsarətdə olmaq deməkdir.

- **Hüseynbala müəllim, dövlət və ədəbiyyat məsələlərinə necə baxırsınız?**
- Cənab Prezidentimizin latın qrafikalı ədəbiyyatımızın çapı ilə bağlı möhtəşəm qərarı hamımızı çox sevindirir. Bu uğurlu addım milli-mənəvi dəyərlərimizi, ədəbiyyatımızı ölümdən xilas etdi. Mənə elə gəlir ki, ədəbiyyata qayğını bütünlüklə dövlətdən ummaq lazım deyil. Ədəbiyyat həm də sərbəst olmalıdır. Azərbaycanda elə iş adamları var ki, onlar ədəbiyyata böyük qayğı göstərə bilərlər, fərdi şəkildə yox, sistemli bir halda. Bilirsiniz ki, bizim dövlətimiz hələ gəncdir. Hər şeyi dövlətin üstünə atmaq olmaz. Mən bunu həmişə düşünmüşəm, gərək iş adamları ortaya çıxsın, lap getsin Yazıçılar İttifaqına və desin ki, siz təklif verin, mən bu il on nəfər yazıçının kitabını çap etdirəcəyəm. Bax, onda deyəcəyəm ki, əsl qəhrəman odur. Mən özüm də kömək eləyirəm, həm müəlliflərin kitablarının nəşrinə, həm də dedi-qodudan, xırdaçılıqdan uzaq, əsl ədəbiyyata xidmət edən bəzi qəzet və jurnalların nəşrinə. Ad çəkmirəm, oxuyan yoldaşlar biləcəklər. Mən bütün iş adamlarını da

bu xeyirxah işə, ədəbiyyatımızın inkişafına kömək etməyə çağırıram. Bu gün ədəbiyyatda Səməd Vurğunlar, Rəsul Rzalar yetişir. Amma cığır yoxdur ki, onlar böyük rola çıxsınlar. Bu gün o cığırı açmaq lazımdır. Bu cığırı açmaqla biz dövlətimizin, ədəbiyatımızın inkişafına kömək etmiş oluruq. Gərək biz ədəbiyyata kömək ediriksə, bir gənc şairin kitabını nəşr eləyiriksə, elə bu, məncə, Qarabağımıza gedən yolun bir cığırını açmaq kimi bir şeydir. Gərək biz ruhumuz, mənəviyyatımızı, genişləndirək. O qədər genişləndirək ki, qədim Azərbaycanın sərhədlərinə qədər ruhumuz böyüsün, ruhumuz öz torpaqlarımız tutsun. Sonra ruhumuzun dalınca addımlarımız gələcək.

- **Hüseynbala müəlim, siz həmişə ədəbiyyatın içində olmusunuz. Orta məktəb illərindən ta bu günə qədər yazıb-yaratmısınız. Ancaq birdən-birə sizin imzanız son vaxtlar tam gücü ilə ortada görünəndə bir çox adamlarda qısqanclıq hissi yarandı. Bayaq dediyiniz kimi, tematik planlarda sizin kitablarınızın altından "cız" çəkilməyindən xəbəri olmayan adamlar, şubhəsiz ki, öz xəbis hislərini içlərində gizlədə bilmədilər.**
- Çox doğru deyirsən, mən orta məktəb illərindən yazıram və elə həmin vaxtdan da dövri mətbuatda çap olunuram. "Bir tikə çörək" adlı ilk hekayəm 7-ci sinifdə oxuyarkən "Azərbaycan pioneri" qəzetində çap olunub. Bu hekayəni 80-ci ildə çap olunmuş kitabıma salmışdım. Sonra həmin hekayə özümdən xəbərsiz gürcü dilinə tərcümə olunaraq Gürcüstanın dövlət qəzetlərində çap olundu. İnanın, mən gənclik illərimdə zülümlə çap olunmuşam. Hamı kimi mən də uzun müddət növbələr gözləmişəm. Ədəbiyyatın ağrı-acılarını dadmışam, dəfələrlə kitablarımı tematik planlardan çıxarıblar. Əlyazmalarımı oxuyub, bəyəniblər, müsbət rəy alsa belə, çap etməyiblər. İndi nə qədər çap olunmamış əsərlərim var, əksəriyyətini gənclik illərində yazmışam. O vaxt çap etmədilər. Qəzetlərin özündə çap olunmaq belə, müşkül idi. Mənim

ədəbiyyatın hansı əzablarını çəkdiyimi indiki cavanlar hardan bilsinlər? Amma yaşıdlarım bunu yaxşı bilirlər. Çətin idi, çox çətin. İndi bir gənc şairin, yazıçnın çap olunmuş kitabını görəndə sevinirəm ki, ay Allah, nə yaxşı vaxtında çap olunur.

- **Hüseynbala müəllim, sizin bir yazıçı kimi, qayğıkeş bir insan kimi ədəbiyyatımız qarşısında xidmətləriniz danılmazdır. Son olaraq ənənəvi olsa da, bir sual : əgər belə demək mümkünsə, yaradıcılıq planlarınız.**
- Mən bu yaxınlarda “Dağlarda atılan güllə” romanımı bitirmişəm. Bu əsər Qarabağ və başqa mənəvi pisixoloji, sosial dərdlərimiz haqqındadır, bu günlərdə çap etdirəcəyəm. Mövzularım çoxdur, vaxtımsa az, əsas işim mühəndislikdir, çalışıram ki, müəssisəmin işi yaxşı getsin. Boş vaxtım olanda bədii yaradıcılıqla məşğul oluram. İndi məni iki mövzu daha çox naraht edir. Birncisi, Qarabağ dərdidir, ikicisi isə, əxlaq, mənəviyyat və laqeydlik məsələsidir. Mənəviyyat məsələləri ilə bağlı təzə yazdığım “Gəlinlik paltarı” romanım dövri mətbuatda bu yaxınlarda çap olunub. Nə deyim, yaradıcılıq planlarım çoxdur. Allahın köməyi ilə yaradıclıq laboratiyamı daha da zənginləşdirəcəyəm və dövlətimizin, xalqımızın qarşısında duran qlobal problemlərin həll olunması üçün əməli işimlə cavab verəcəyəm. Cənab Prezidentimiz İlham Əliyevə, xalqımıza öz dərin məhəbbətimi heç vaxt əsirgəməyəcəyəm.

Müsahibəni apardı:

**Qəşəm NƏCƏFZADƏ,**

**yazıçı**

# “XƏCALƏT”İ MÜHARİBƏ YARATDI

Oxucu hər hansı bir əsəri əlinə götürüb oxuyursa, birinci növbədə ondan yüksək estetik zövq almalıdır. Amma gərək əsər də əsər ola. Əgər oxunan əsər oxucunun ruhuna oxşamırsa, onun hiss və duyğularına təsir göstərə bilmirsə, onu heç oxumağa dəyməz. Məlum həqiqətdir ki, ədəbiyyat həmişə həyatdan qabaq getməlidir, yəni, insanları arxasınca aparmalıdır. Ədəbiyyatın vəzifəsi təkcə həyatdakı qəhrəmanların surətini yaratmaqla məhdudlaşmamalıdır. Ədəbiyyat həm də qəhrəmanlar yetişdirməməlidir.

Yer üzündə saysız-hesabsız müharibələr olmuşdur. İbtidai insan hirslənib başqasına daş atmışdır. O daş zaman-zaman qılınca, nizəyə dönmüş, insan təfəkkürü inkişaf etdikcə bugünkü atom və digər kimyəvi qırıcı silahlara çevrilmişdir. Bəlkə də, o zaman birinci daş atan insandır, indiki müharibələrin baiskarı. Bunu bulmək olmaz. Ancaq bildiyimiz odur ki, elə insanın apardığı ilk müharibənin təsiri ilə ədəbiyyat da yaranıb. Danılmaz faktdır ki, dünyadakı bütün müharibələr böyük ədəbi əsərlər yaradıb. Lap ox-qılınc davasından tutmuş, İkinci Dünya müharibəsinə qədər istənilən sayda əsər adı çəkmək olar ki, müharibələr o əsərlərdə bədii şəkildə ifadə olunmuşdur. Demək, kimsə müharibələrin bədii ədəbiyyata təsirini dana bilməz. Eyni zamanda ədəbiyyatın da müharibəyə təsirindən danışmaq mümkündür. Əlbətdə, hər hansı əsər müharibəni ya başlaya, ya da dayandıra bilməz. Odur ki, bu fikir mübahisə doğura bilər. Elə ona görə də “Şeirlə, əsərlə Qarabağı almaq mümkün deyil”, - deyənlər də tapılır aramızda çox təəssüf. Demirəm ki, şeir deməklə düşmən qaçıb gizlənə bilər. Düşmən əsgərin əlindəki silahla qovulmalıdır. Amma əsgəri də düşmən üstünə havalandıran şeir olmalıdır. Ermənilər silahla torpaqlarımızı işğal etməmişdən qabaq nə qədər psixoloji hazırlıq gördülər. Z. Balayanın “Ocağ”ı nə qədər erməni gəncinin beynini zəhərlədi. Məgər B. Vahabzadənin, M. Arazın və daha kimlərin vətənpərvər ruhlu şerləri uzun müddət ruhumuzun bayrağı

olmayıbmı? “Fəryad” kinosuna baxan azərbaycanlı cavan necə əlinə silah götürüb vuruşmaya bilər? Yaddan çıxartmayaq ki, döyüşdə şair yazıçı əlinə silah götürüb, güllə atmaqdan çox əsəri ilə döyüşür. Bu, həqiqətdir. Elə bu həqiqəti başa düşdüyünə görə, yazıçı H.Mirələmov Qarabağ mövzusunda əsərlər yazdı. “Xəcalət” povesti, “Güllələnmiş heykəllərin fəryadı” ədəbi essesi, “Vicdanın hökmü” dramı (ilk variantda “ Vicdanın cəzası” hekayəsi) ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Onun bu əsərlərinin hər üçü yatmış vicdanları oyadacaq bir əsər olmaqla yaddaşımızı silkələyə biləcək təsir gücünə malikdir. Bu əsərlərin ən böyük dəyəri ondadır ki, Qarabağ mövzusundadır. Müəllif Qarabağ mövzusunu qabartmaqla bizi Qarabağa yaxınlaşdırır. Sanki demək istəyir ki, ermənilərin həyasızlıqlarını və xalqımızın başına açdıqları oyunu unutma, öz torpağına sahiblik elə, itirilmiş torpaqlarımıza, güllələnmiş heykəllərimizə görə biz də xəcalət hissi oyandırmağa çalışır. İstəyir ki, torpaqlarımız vicdanımızın hökmü ilə düşmən caynağından qurtulsun, didərgin soydaşlarımız yurd-yuvalarına dönsün. Eyni zamanda didərgin heykəllərimiz də Vətənlərinə qayıtsın. Hərdən fikirləşirsən ki, müəllif hər üç əsərində ürək dağlayan səhnələri necə qələmə ala bilib? Onun ürəyi gülllələnmiş heykəllərin fəryadında qışın qar çovğununda don vuran körpələrin fəryadına necə tab gətirə bilib? Təsadüfi deyil ki, xalq şairi B.Vahabzadə “Xəcalət”i oxuyandan sonra yazıb:

“...Yox qardaş, “ikinci dərəcəli” vətəndaşlara çevrilən bacı-qardaşlarımızın dəhşətli və dözülməz həyatını- mənə göndərdiyiniz bu mərsiyə kitabını sona qədər oxumağa mənim xəstə ürəyim tablamaz”.

On ildən artıqdır ki, Şuşasızıq, Cəbrayılsızıq, Kəlbəcərsizik, Laçınsızıq... Atəşkəs elan olunsa da, hələ müharibə qurtarmayıb. On ildən artıqdır ki, Qarabağ mövzusunda mətbuatda publisistik yazılar oxuyuruq. Eyni zamanda Qarabağ mövzusunda bir çox dəyərli bədii yazılar işıq üzü görür və yaxud filmlər çəkilir. Belə filmlərdən biri hələ 1993-cü ildə çəkilmişdi. Məqsədə müvaqif olduğu üçün həmin qeydləri

bu yazıda verməyi özümə borc bilirəm: "...Son illər üzüntülü günlər yaşayırıq, hər səhər-axşam bir-birindən acı xəbərlər qulağımızı dalayır. Bəli, müharibə gedir, adamlar həlak olurlar. Diletanlar iqtisadiyyatımızı bərbad günə salıblar. Bununla belə, bütün uğursuzluqlara qalib gəlmək mümkündür. Bundan ötrü sabahkı günümüzü, gələcəyimiz barədə düşünməyə özümüzdə güc, qüvvə tapmalı, borcumuzdan vicdanla çıxarmalıyıq.

Digər tərəfdən deyirlər ki, xeyirlə şər əkizdir. Çünki doğuluş da haqdır, ölüm də. Ölənlə ölmək olmur. Amma gedənlərin əməllərini, tarixi həqiqətləri gələcək nəsillərə çatdırmaq biz dirilərə məxsusdur. Necə ki, min illərin əməllərini, tarixini az-çox bizə çatdırıblar. Bu mənada oktyabrın 21-də Respublika Sarayında ilk baxışı keçirilən "Fəryad" filmindən danışmamaq olmur.

Filmin ssenari müəllifi Vaqif Mustafayev, quruluşçu rejissoru və baş rolin ifaçısı Ceyhun Mirzəyevdir. O Ceyhun ki, indi aramızda yoxdur. Özündən sonra isə çox şey qoyub getdi. Gözəl ailəsini, ad-sanını... bir də "Fəryad"ını. Və mənə elə gəlir ki, onun çəkdiyi "Fəryad" müəllifin həmişə yaşadacaq. Həm ona görə yaşadacaq ki, Qarabağ döyüşlərindən bəhs edən ilk bədii filmdir.

Film haqqında nə uzun-uzadı danışmaq, nə də onu geniş təhlil etmək fikrindəyəm. Yəqin ki, "Ögəy ana" xatirinizdədir. Balaca İsmayıl da yadınızda olar. Bax, "Fəryad" elə bil ki, həmin "Ögey ana"nın davamıdır. "Ögey ana" da atasının dalınca hönkürən İsmayıl Arifoğlunun artıq "Fəryad" da böyümüş görürük. İndi onun özünün ailəsi var. O, cəbhəyə yollanır. Qəhrəmanlıqlar göstərir. Döyüşlərin birində isə yaralanaraq ermənilərə əsir düşür. 62 gün quldurların sitəmlərinə məruz qalır. "Fəryad"ın süjeti də əsirlik üzərində qurulmuşdur. Film başdan-başa ermənilərin azərbaycanlı əsirin başına gətirdiyi müsibətləri, eyni zamanda onların alçaqlıq və şərəfsizliyini tamaşaçılara diqtə edir. Səhnələr bir-birini əvəz etdikcə hər dəfə erməni murdarlığının yeni "klassik" nümunələri ilə tanış olursan.

Mahnımızı, musiqimizi özlərininki hesab edən, hətta “Azərbaycan dili də bizimdir” deyən ermənilər nə qədər gülünc görünürsə, “Vağzalı” havasına “rəqs edən” ermənilər adama bir o qədər həyasız təsiri bağışlayır. O “Vağzalı” ki xəzəlləri xışıldadır, qanadlarında qızlarımız isti yuvaya köçürlər.

Kiçik bir epizod xatırlatmaq istəyirəm: düşmənlər Azərbaycan kəndini talan ediblər. Körpə, qoca deməyib, güllədən keçiriblər. İsmayılın dostu al-qana bürünmüş bir körpəni qucağında tutub, zülüm-zülüm ağlayır. Bu səhnə, bu dərd hamını ağladır, lap tamaşaçını da. Bu yerdə Viktor Hüqonun müdrik bir kəlamı yada düşür: “Əgər körpə uşağı ağlayan görürsənsə, onda sən heç nə görməmisən, qadını ağlayan görürsənsə, yenə də heç nə görməmisən, kişini ağlayan görmək lazımdır. Əgər kişi ağlayırsa, faciə budur”. Və bu faciə fəryada çevrilir. Yumşaq ürəkli İsmayılın qəlbi daşa dönür. Silahsız, yaraqsız düşmən səngərinə üz tutur. Hətta səngərdən ermənilərin başının üstündən tullanaraq keçir. Özünü bir anlıq erməni qulduruna yetirir. Yalın əli ilə bir daş götürüb, salır erməninin başına. O daş çevrilir erməninin baş daşına.

İsmayıl həm də çox həlimdir. Yaralı olsa da, ona zülümlər etsələr də, körpə erməni uşağını yanğından qoruyur. Yanan erməni evini söndürür və bütün bu murdarları heyrət içərisində qoyur. Bax, budur bizim xalqın təbiəti, xisləti!

Bir sözlə, filmə baxdıqca özünü müharibədəmi, zaldamı olduğunu unamırsan. Yüksək ustalıq, ürək yanğısı ilə çəkilmiş “Fəryad”ı yalnız alqışlamaq olar. Filmin yaradıcı kollektivinin işinin qiymətinə gəldikdə isə belə deyərdik: çəkdikləri zəhmət hədər getməyib.

**(“Həyat” qəzeti, 27 oktyabr 1993-cü il.)**

Qarabağ faciəsi ilə bağlı bir çox yazıçılarımız bədii nəsr nümunələri yaratmışlar. Bu əsərlərin əksəriyyətində döyüş səhnələri, erməni qəddarlığı və əsirlik həyatı əks olunmuşdur. Ancaq elə əsərlər də var ki,

o əsərlərdə müharibənin özü deyil, onun törətdiyi fəsadlar qəlbimizi ağrıdır. V.İsaqoğlunun "Yağış damcıları" adlı bir hekayəsi var. Bu hekayədə müharibə görünmür. Cavan ər və arvad çadırda yaşayırlar. Arvad nə qədər çalışırsa, ər ona tərəf heç gözünün ucu ilə də baxmır. Səbəb nədir? Çadırın dəlmə-deşiklərindən içəri süzülən yağış damcıları. Cavan ərin fikri-zikri yağış damcılarına yönəlib; o, ləyən və vedrəni növbə ilə yağış damcılarının altına tutmaqla məşğuldur. Bunu isə ona bəxş edən müharibədir. Və yaxud X.Göyyallını "Bıçaq" hekayəsini götürək. Kənd təsvir olunur. Müharibədən uzaq bir kənd. Ancaq müharibə bu kəndin kişilərini aparıb. Ona görə də can verən inəyi kəsən tapılmır. Bıçaq havada qalır. Çox gözəl tapıntıdır. Müharibənin adı belə çəkilmir. Ancaq müharibənin ağrı-acısını duyuruq. İstər-istəməz "yağış damcıları"na və "bıçağ"a görə müharibəyə nifrət yağdırırıq.

H.Mirələmovun "Xəcalət"ində isə həm müharibənin özü var, düşmənlə üzbəüz döyüş səhnələri, ölümlə əlbəyaxa savaş. Var, həm də müharibənin insanlarda doğurduğu xəcalət hissi, yataqxanalarda məskunlaşan qaçqınların dözülməz həyat şəraiti var. Povestin başlanğıcı bu baxımdan çox maraqlıdır:

"- Getməyəcəyəm!.. – Didar, deyəsən, sayıqlayırdı:

- Anama da demişəm. Ata, mən bir də o məktəbə getməyəcəm..."

Didar 9-cu sinifdə əla qiymətlərlə oxuyur. Müəllimləri ondan razılıq edir. Bəs görəsən, nə üçün məktəbə getmək istəmir? Ona görə ki, onun sinif yoldaşları yaxşı geyinirlər. O isə bundan məhrumdur; üst-başı nimdaşdır. Sinif yoldaşları onu yoluxmağa gələndə də sevinmir. Əksinə, xəcalət çəkir. Çünki onun yaşadığı yataqxana ürəkaçan deyil: "Vətənin ailəsi Qarabağdan gələndən sonra Bakıda – 6-cı mikrorayonda tikintisi yarımçıq qalmış xəstəxana binasında məskunlaşmışdır. Binanın 5-ci mərtəbəsi tikilmədiyindən damı yox idi. Suyu həyətdən götürürdülər. Pilləkənlərin böyrü bağlı deyildi, eyvan əvəzinə, açıq panel idi. Vətəngil 3-cü mərtəbəyə- gələcəkdə cərrah otağı olacaq otağa

yığışmışdılar. Vətən çətinliklə divarları suvarmış, döşəməyə linoleum döşəmişdi. Otağa köhnə dəmir çarpayı da tapıb gətirmişdi. Aranı da həyətdə tikinti zamanı tökülüb qalmış kərpiclə hörmüş, iki otaq, bir də ayaqqabı yeri düzəltmişdi. Elə bu ayaqqabı yeri həm də mətbəx idi. Qaz xətti olmadığına görə elektrik pilətəsindən istifadə edir, yeməyi burda hazırlayır, çayı həmin pilətənin üstündə qaynadırlar."

"Xəcalət" tarixi həqiqətləri bizə çatdıran tarixi kitabdır. "Xəcalət"i müharibə yaratdı. "Xəcalət" Qarabağ müharibəsinin və faciələrinin bəii ifadəsidir. Hər hansı bir millətin torpaqlarını işğalı o qədər də qorxulu deyil. Qorxulu odur ki, hər hansı millətin inamı, ruhu işğal olunsun. "Xəcalət"in bizdə inam və ruh doğuracağı şəksizdir.

**Elçin KAMAl**

**jurnalist**

**Torpaq  - otu böyütdü,**
**ot – atı böyütdü,**
**at- igidi böyütdü,**
**igid də getdi torpağını qorumağa.**

**FOLKLORDAN**

## KİTABIN İÇİNDƏKİLƏR

**R.Kərimov.** Ön söz............................................................................5
Umacağım özümüzdəndir..............................................................11
Milli keyfiyyətlərimizin tərənnümçüsü............................................22
**B.Vahabzadə.** “Xəcalət”- xəcalətli günümüzün
güzgüsü” kimiləri xoflandırır və yaxud xalq şairi
Bəxtiyar Vahabzadəyə açıq məktub.................................................47
Xəcalət”in müzakirəsindən qeydlər.................................................61
**İ.İsmayılov.** Ziyalı dostum,xeyirxah insan
Hüseynbala Mirələmov aşıq məktub................................................73
Qələbəyə çağırış..............................................................................81
**A.Həsənli.** Tarixi faciələrimizin elegiyası
və ya nəsrin poeziyası.......................................................................85
Xocalı faciəsi “Xəcalət”əsərində.......................................................90
**A.A.A. Aydın.** Heykəllərin fəryadı....................................................93
Qarabağı tarixləşdirən yazıçı..........................................................108
**İ.Tapdıq.** Əllərini ürəklə sıxıram.....................................................113
Ruhlar bizi qınayırdı.......................................................................118
**V.Yusifli.**Göz dağı.............................................................................123
“Xəcalət”- burda hər brimizin payı var............................................126
**M.Nərimanoğlu.** Tarixi milli əxlaqa çevrilən filim.........................132
Ruhumuzu oyadan əsər...................................................................137
**N.Mirzəyev.** Yazıçı dünyası............................................................138
**A.Kəngərli.**”Güllələnmiş heykəllərin fəryadı”

bizə nə deyir?...........................................................................150

**İ.Qasımzadə.** Vətənə, torpağa sevgisi tükənməyən

insan....................................................................................155

**A.Alışov.** Xəcalət - ən ağır dərdimiz...............................................158

**D.Əjdəroğlu.** Vətənin vətən harayı..................................................161

“Platin era” mükafatı Azərbaycanda...................................................166

“Vicdanın hökmü” həyatı əks etdirir...................................................167

Yaşadığımız günlərin aynası...........................................................170

Böyük insanın qərar tutduğu yer qalibiyyət zirvəsidir.........................177

**Ə.Qurbanoğlu.** Zirvəyə aparan yol....................................................179

“Xəcalət”in daha bir uğuru...............................................................182

Sözə doğru yol gedirik.....................................................................187

**Q.Nəcəfzadə.** Ədəbiyyatda kütləvi qəhrəman

obrazlarinin yaranmasının əleyhinəyəm..............................................191

**E.Kamal.**”Xəcalət”i müharibə yaratdı................................................198

Texniki redaktoru : **Rəna ŞAHVERDİYEVA**

Komputerçi dizaynerlər: **Səbinə MƏMMƏDOVA,**
**Arif HƏSƏNOV**

Komputer yığımı: **Təranə ABBASOVA**
Korrektoru : **Zəkurə QLİYEVA**

Çapa imzalanmış 20.04.2004. Kağız formatı 84x108 1/32.
Şərti çap vərəqi 20,16 Fiziki çap vərəqi 13.
Tiraji 1000. Sifariş 38.

"Təhsil" nəşriyyatının mətbəəsində hazır diopozitivlərdən
çap olunmuşdur.

"Şuşa" nəşriyyatı, 370146. Bakı, Mətbuat prospekti,
529-cu məhəllə, 3-cü mərtəbə